**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## XVIII KİTAB

## (“KOROĞLU” DASTANI QOLLARI)

**BAKI – 2025**

**AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə**
**(21 may 2025-ci il 3 saylı protokol) nəşr olunur**

**Layihə rəhbəri:** **Hikmət Quliyev**
*filologiya elmləri doktoru, dosent*

**Tərtibçi:** **Mətanət Abbasova**
*filologiya elmləri doktoru, dosent*

**Redaktor:** **Lalə Şabanova**

**Səsli faylların üzünü köçürən:** **Lalə Şabanova**
**Leyla Aşurova**
**Səadət İbrahimli**

**Güney Azərbaycan folkloru, XVIII kitab,** Bakı, Elm və təhsil, 2025, 400 səh

Kitabda Güney Azərbaycanın şifahi xalq yaradıcılığından müxtəlif aşıq mühitlərini əhatə edən “Koroğlu” dastanına aid ayrı-ayrı qollar toplanmışdır.

**www.folklor.az**
**ISBN 978-9952-601-04-6**

© Folklor İnstitutu, 2025

# ÖN SÖZ

Türk xalqlarının folklor, şifahi irsində başlıca yer tutan "Koroğlu" dastanı yayılma arealı baxımından böyük bir coğrafiyanı əhatə etməklə çoxsaylı variant və versiyaları ilə mövcuddur. Həm qəhrəmanlıq, həm də məhəbbət mövzusunu özündə birləşdirən bu dastan Güney Azərbaycan folklor mühitində də geniş yayılmış və dastanla bağlı ilk məlumatlar da məhz bu ərazilərdə qeydə alınmışdır. "Koroğlu" dastanının yaranması tarixi baxımdan XVI əsrə aid olsa da, dastana aid mətnlərin toplanılmasına XVII-XVIII əsrlərdən başlanılmışdır. İlk dəfə olaraq dastandan 13 qoşma XVIII əsrdə erməni əlifbası ilə yazıya alınmışdır. Belə ki, 1721-ci ildə İlyas Muşeq adlı tacir Təbrizdə olarkən burada aşıqlar və xalq arasında eşitdiyi "Koroğlu" dastanı ilə bağlı 13 şeir nümunəsini toplamış və həmin nümunələri "Nəğmələr kitabı" adlı cungünə əlavə etmişdir. XIX əsrin əvvəllərində isə Əndəlib Qaracadağinin "Şeirlər məcmuəsi" kitabında dastandan müxtəlif şeirlər verilmişdir.

"Koroğlu" dastanının Cənubi Azərbaycan variantında geniş həcmdə nümunələrin toplanmasında şərqşünas alim, diplomat Aleksandr Xodzkonun (1804-1891) xüsusi xidməti olmuşdur. Aleksandr Xodzko ilk dəfə Cənubi Azərbaycan aşıqlarından "Koroğlu" dastanını toplamış, bu materialları tərcümə edərək, 1842-ci ildə İngiltərədə çap etdirmişdir. 13 məclisdən ibarət olan, Parisin Milli Kitabxanasında saxlanılan bu əlyazma fars və Azərbaycan dillərindədir (Paris nüsxəsi Aşıq Sadıqdan dinlənilərək Mirzə Əbdülvahab tərəfindən qələmə alınmışdır).

“Koroğlu”nun ikinci əlyazması – Tiflis nüsxəsi isə 28 məclisdən ibarət olub, əlyazmanın yazıya alınma tarixi XIX əsrin I rübünə təsadüf edir. Əlyazmada Paris nüsxəsində qeydə alınan hadisələr tamamilə əhatə olunur, lakin bu mətnlərdə hadisələrin ardıcıllığı pozulmuşdur.

“Koroğlu” dastanı türk, özbək, türkmən, tatar və s. türk xalqları arasında geniş yayılmışdır. Dastanın yayılma arealı əsasən türkmən, Azərbaycan və Kiçik Asiya variantlarında ümumiləşdirilmişdir. [1] Variantların fərqləndirilməsi bir çox hallarda Cənub və Şimal mətnlərində müqayisə olunur. “Cənub mətnində İslamiyyətin təsiri hiss olunacaq dərəcədədir. Şimal mətnində isə qədim köklü ənənəvi türk ruh aləmi hadisələrə tamamilə hakimdir, iştirakçıların hər biri düşüncə, danışığından tutmuş həyat tərzinə qədər türkçülüklə aşıb-daşır, haradasa bunların mənəvi və fiziki həyatları “Dədə Qorqud”la çox yaxınlıq təşkil edir.”[2]

“Koroğlu” dastanının toplanılması, bu sahədə araşdırmaların aparılması Quzey Azərbaycanda XX əsrin 20-30-cu illərindən başlamış, Vəli Xuluflu (1927), A. Rəcəbli (1937), Hümmət Əlizadə (1941), M.H.Təhmasib (1949) tərəfindən eposun ayrı-ayrı qolları toplanılaraq nəşr edilmiş və araşdırmalara cəlb olunmuşdur.

Güney Azərbaycanda isə bu istiqamətdə istər toplama işləri, istərsə də tədqiqatların aparılmasına XX əsrin ikinci yarısından etibarən başlanılmışdır. Məlumdur ki, 1925-ci ildə

---

[1] İsrafil Abbaslı. “Koroğlu” dastanı. (Ön söz) Mətni hazırlayıb, tərtib edənlər: İsrafil Abbaslı, Bəhlul Abdulla. Bakı, “Lider”, 2005, s.16.
[2] Tahir Nəsibli. “Koroğlu” dastanı Osmanlı-Səfəvi münasibətləri çevrəsində. Bakı, Elm və təhsil, 2013, s.31

İranda Qacar xanədanlığı devrilmiş, Rza xan Pəhləvinin hakimiyyəti dövrü başlamış, Pəhləvi hakimiyyətinin bərqərar olması ilə farslaşdırma siyasəti aparılmış, fars dili, mədəniyyətinə diqqət artırılmaqla Cənubi Azərbaycanın sosial-mədəni həyatı geridə qalmışdır. Rza xanın oğlu Məhəmməd Rza Pəhləvinin hakimiyyəti dövründə (1979) dövlət müəssisələrində türkcə danışmaq, türkcə kitabların yayımlanması yasaqlanmış, Güney Azərbaycan bölgələrinə fars soylu valilər və məktəblərə "Sepah Daneş" (Elm ordusu) adı altında müəllimlər təyin edilməyə başlamışdır. Hətta farslaşdırma siyasətinin tərkib hissəsi olaraq müxtəlif yer adları da dəyişdirilərək fars sözləri ilə əvəzlənmişdir. Məhz belə bir dönəmdə sözsüz ki, türk xalq dastanının toplanılması, tədqiqi ilə bağlı işlərin görülməsi mümkün olmamışdır. Yalnız İran İslam Respublikasının yaranmasından sonra Azərbaycan türkləri milli dillə bağlı müəyyən azadlıq əldə etmiş, bu dövrdə türk dastanlarının, eləcə də "Koroğlu" dastanının öyrənilməsi, aşıq məclislərindən toplanılması və çapı üzərində işlər görülmüşdür. Bu dövrdən başlayaraq təkcə Təbrizdə deyil, eləcə də Ərdəbil, Urmiya qaşqay aşıqlarının, habelə türkmən – avşar baxşılarının və s. sənətkarlarının repertuarında dastanın müxtəlif qollarının toplanılması və öyrənilməsinə diqqət artmışdır.

Ə.Bərazəndənin (Türk) məlumatına əsasən, 1941-ci ildə Bakıda Hümmət Əlizadə tərəfindən çap olunan "Koroğlu" dastanı İranda geniş şəkildə yayımlanmış, kitab müxtəlif illərdə (1967, 1973, 1978,) Q.S.Əfşar tərəfindən farscaya tərcümə edilmişdir. 1966-ci ildə Sirus Qəməri tərəfindən kitab yenidən çap olunmuş və 1967-ci ildə isə Səməd Behrəngi dastandan "Koroğlu ilə Keçəl Həmzə" qolunu farsca çap etdirmişdir. XX əsrin 70-80-ci illərindən başlayaraq bu sahədə istər toplama,

istərsə də tərcümə və tədqiqat işlərində xüsusi canlanma yaranmış, dastanla bağlı çoxsaylı araşdırmalar aparılmışdır.

Qeyd edək ki, “Koroğlu” dastanının qolları tanınmış vəkil Əli Kəmali tərəfindən də uzun illər toplanılmış və alimin arxivində saxlanılmışdır. Əli Kəmali 1944-cü ildə Savənin Qaraqan (Qərəqan) mahalı, Bəndəmir kəndində anadan olmuşdur. O, ali təhsilini Tehran Universitetinin hüquq fakültəsində almış, ədliyyə vəkili kimi tanınmışdır. Əli Kəmalinin araşdırmaları daha çox türkologiya, folklor sahələrini əhatə etmişdir. Aydındır ki, İran ostanlarında türklərin yerləşmə coğrafiyası fərqli əraziləri əhatə etməklə müxtəlif ləhcə xüsusiyyətlərini ortaya qoyur. Əli Kəmali el aşıqlarını, dastanları araşdırarkən həm də onların ləhcələrini dil nöqteyi-nəzərindən də öyrənməyə çalışmışdır. “Kəlbi-Nurizad”, “Mahmud Nigar”, “Məsum-Əfruz”, “Fərhad-Gülşa”, “Səyyad-Sadat”, “Vanlı Göyçək”, “Həsrət”, “Əsəd Nizam”, “Səlim-Şəmsi”, “Koroğlu”, “Gərgərli Məhəmməd”, “Xosrov Sənəm”, “Fəğfur bəy”, “Tutuquşu”, “Vəli oğlu”, “Nəcəf-Mahcamal” və s. dastanları, eləcə də Türkmən Mahmud, Qırmızınlı Fəqir, Məzəlqanlı Asim, Süsənqanlı Müntəzir, Misirxanlı Əkbər Rəzzaqi, Mehtərmi, Misirqanlı Asi, Abbas Əli Yəqini, Qulamhüseyn Həryani, Hüseyni Məhəmməd, Türkmən Fəttah, Xoşnefis Ağdaşlı, Salar Nasir və s. el sənətkarları haqqında məlumatlar toplamışdır. Əli Kəmali arxivindəki “Koroğlu” əlyazmasının qeydlərində bu variantların yazıya alınmasına İslam Əfşar Xələcinin katiblik etdiyi bildirilir. Ümumilikdə isə mətnlərin harada, kimdən, hansı şəraitdə toplanılması barədə heç bir məlumat verilmir. Əli Kəmali arxivindəki dastan mətnlərinin sonrakı araşdırmalarında bəzi dastan qollarının vaxtilə Kərəcin

Səidabad kəndindən olan Aşıq Əliəkbər Qurbaninin söyləməsində yazıya alındığı müəyyənləşdirilmişdir. Aşıq Əliəkbər Qurbani isə öz növbəsində dastanları ustadı Savəli Aşıq Əbülqasımdan öyrəndiyini bildirmişdir.

Dastan variantları 1975-ci ildə yazıya alınmış, ikinci mənbədə dastandan üç qol tam ("Dastani-Koroğlu və Nigar xanım", "Eyvazın durna gətirməyə getməsi", "Koroğlunun Şilat səfəri" qolları), bir qol isə natamam şəkildə köçürülmüşdür ("Koroğlunun Sərdar paşa dastanı"). Digər bir variant yenə də "Koroğlunun Türkmən səfəri", "Aşıq Cününun Cəmlibeldən qaçması" qolları (25 səhifədə) və Aşıq Ələkbər Qurbanidən 1986-1988-ci illərdə yazıya alınmış dastan mətnlərindən ("Koroğlunun Çəmlibelə gəlməgi və Ərəb Reyhanı görməgidir", "Koroğlunun dəgirmanda Qıratı Həmzəyə verməgi və geri almağıdır", "Bu, Koroğlunun Nigar səfəriydi ki, getdi Nigarı gətirdi", "Bu da Koroğlunun Eyvaz dastanıydı ki, getdi Eyvazı gətirdi", "Bu, Koroğlunun Dəmirçioğlu səfəriydi ki, ərz elədim", "Bu da Eyvazın durna səfərinin dastanıydı ki, ərz elədim", "Bu da Eyvazın Təkə-Türkmən elinə getməgidi və ata-anasını toyuna dəvət etməgidi", "Bu dastan da Koroğlunun Bolu Sərdarı axtarmağıdı") ibarətdir. Bundan başqa Əli Kəmali arxivindən 18, 20, 24, 30, 12 və s. səhifədən ibarət konkret və yarımçıq başlıqda qarışıq əlyazma da qeydə alınmışdır. [1]

2009-cu ildə Əli Nasiri tərəfindən İranın 19 bölgəsindən, 24 qoldan ibarət Koroğlu mətnləri toplanmış və "Koroğlu Der İran Zemin" adı ilə kitab şəklində fars dilində çap olunmuş[2],

---

[1] "Koroğlu" dastanı (Əli Kəmali arxivindəki variantlar). Bakı, Nurlan, 2009.
[2] "Koroğlu Der İran Zemin". Hazırlyan: Ali Nasiri, Təbriz, Yaran, 1388 (2009).

Aşıq Hüseyn Sai tərəfindən isə dastanın 8 qolu və Koroğlunun 4 ayrı şeiri 2001-ci ildə Təbrizdə yayımlanmışdır.[1]

Bundan başqa "Koroğlu" dastanı ilə bağlı Əli Qafqasiyalının "İran türklərində Koroğlu dastanları"[2], M.Rəzzaqinin "Zəngan aşıq mühitində "Koroğlunun Dərbənd səfəri" [3], Ə.Bərazəndə Türkün "Keçmişdən günümüzə İranda Koroğlu"[4] və s. məqalələri "Koroğlu" dastanının yeni araşdırmaları istiqamətində yazılmışdır.

Qeyd edək ki, "Koroğlu" dastanının əlyazmaları ilə yanaşı, dastanın qolları, havaları xüsusilə Güney aşıqlarının repertuarında geniş yayılmış, toy-məclislərdə oxunmaqla aşıq sənəti davamçılarının saz-sözündə müəyyən inprovizasiyalarla günümüzə qədər gəlib çatmışdır. Müasir dövrdə "Koroğlu" dastanının qolları və dastan havaları müxtəlif aşıq mühitlərinə görə fərqlənməkdədir. Savə, Qum, Tehran, Kərəc, Həmədan, Ərak, Qaradağ, Urmiya, Qəzvin mahallarında aşıq musiqi məktəbi şahsevən aşıqlarından ibarət olmaqla zəngin repertuara malikdir. Mahalların Qarağan, Zərəndiyə, Xəlicistan, Şəhriyar, Sultanabad, Gərus, Kəröyüz, Komican və

---

[1] Aşıq Hüseyn Sai. Aşıq dastanları–Koroğlu.Təbriz. İntişarat-i Zər Qələm. 1380 (2001).

[2] Ə.Qafqasiyalı. İran türklərində Koroğlu dastanları. Halk Kültürü ve Köroğlu Bilgi Şöleni Bildirileri. Bolu: Bolu Halk Kültürünü Araştırma ve Uygulama Merkezi Yay., s. 139-144.

[3] M.Rəzzaqi. Zəngan aşıq mühitində Koroğlunun Dərbənd səfəri. IV. Uluslararası Bolu Halk Kültürü ve Köroğlu Sempozyumu Bildirileri. İstanbul: Akçağ Yay., s. 729-750.

[4] Ə. Bərazəndə Türk. Keçmişdən günümüzə İranda Koroğlu. Bolu'dan Türk Dünyasına Köroğlu Çalışmalarının Dünü, Bugünü ve Yarını Uluslararası Çalıştayı, 15-16 Eylül 2017-Bolu, Bildiri Kitabı. İstanbul: AİBÜ BAMER Yay., s. 403-408.

s. bölgələrindən olan aşıqları mühitin təmsil olunmasında xüsusilə seçilirlər. Şahsevən aşıqlarının repertuarnda “Koroğlu”dastanının 11 qolu geniş yayılmışdır. Bu qollar arasında “Telli xanım”, “Dəli Eyvaz”, “Cəfər paşa”, “Keçəl Həmzə”, “Durna xanım”, “Dəmirçioğlu”, “İstanbul dastanı” (“İstanbul səfəri”), “Koroğlunun qocalığı” və sair qollarda yer alır.

Urmiya aşıq mühitində “Koroğlu” dastanının “Aşıq Cünun səfəri”, “Eyvazın gətirilməsi səfəri”, “Koroğlunun Bağdad səfəri”, “Bolu bəy səfəri”, “Dəmirçioğlunun gətirilmə səfəri”, “Koroğlunun Dərbənd səfəri”, “Koroğlunun Ərzurum səfəri”, “Koroğlunun İstanbul səfəri”, “Koroğlunun qocalığı”, “Koroğlunun Tarcan səfəri”, “Koroğlunun Toğat səfəri”, “Koroğlunun Türkmən səfəri”, “Koroğlunun Dərbənd səfəri”, Təbriz-Qaradağ aşıq  repertuarında isə “Dəmirçioğlu”, “Bolu bəy”, “Dərbənd”, “Ərzurum”, “İstanbul”, “Bağdad”, “Rum”, “Tərcan” və s. səfərlər, “Aşıq Cünun”, “Koroğlunun qocalığı” qolları geniş yayılmışdır.

Qeyd edək ki, “Koroğlu” dastanının qolları ilə yanaşı, saz, aşıq havaları da ayrıca bir tədqiqat işinin mövzusudur. Məlumdur ki, dastan söyləmə ənənəsi aşıq havaları, musiqisinə bağlı olaraq sinkretik şəkildə inkişaf etmişdir. “Koroğlu” dastanının xalq məişəti, aşıqlar arasında sevilməsinin nəticəsi olaraq dastanla bağlı ayrı-ayrı folklor mühitlərində müxtəlif havaları da yaradılmışdır. “Təsbitlərə görə, Koroğlu havaları Təbriz və Qaradağ aşıqları tərəfindən yaradılmış, digər qonşu ölkələrə keçmişdir. “Koroğlu qaytarması”, “Misri Koroğlu”, “Cəngi Koroğlu”, “Türki Koroğlu” və ya “Atüstü Koroğlu”, “Təbli Koroğlu”, “Nəfəsalmaz Koroğlu” və ya “Osmanlı Koroğlu”,

ya “Koroğlu gözəlləməsi”, “Laçın Koroğlu”, “Döymə Koroğlu”… kimi Koroğlu havalarından ad vermək olar”.[1] “Koroğlu” havaları Güney aşıq mühitlərində işlənməsi baxımından da fərqli özəlliyə malikdir. Məsələn, Zəncan aşıq havaları içərisində “Koroğlu”, “Eyvaz Koroğlu”, “Kəllə Koroğlu” kimi havalar daha geniş şəkildə yayılmışdır. Təbrizli Aşıq Sədaqət Gəncəliyə görə, İran aşıqlıq gələnəyində 26 “Koroğlu” havası mövcuddur. Aşıq Çingiz Biriya, Aşıq Abbas Həzrəti isə Təbriz aşıq mühitində bu havaların sayının 17 olduğunu bildirmişdir.

Güney Azərbaycan aşıq mühitlərində “Koroğlu” dastanının aşıq improvizasiylarında mövzu və motiv yeniliyi, fərqli ifa xüsusiyyətlərini nəzərə alaraq “Güney Azərbaycan folkloru” seriyasından növbəti kitabımızı “Koroğlu” dastanının fərqli aşıq mühitləri və sənətkarlarının ifasında bir arada təqdimatında hazırlamışıq. Qeyd edək ki, “Güney Azərbaycan folkloru” seriyasından XVII cildimizdə də ayrı-ayrı dastanlarla yanaşı, “Koroğlu” dastanından “Koroğlunun Toqat səfəri”, “Koroğlunun İstanbul səfəri”, “Koroğlunun Ərzurum səfəri” qollarına yer vermişdik. Dastanın Güney aşıq mühitlərində müxtəlif variantlarını, yarandığı bölgənin canlı xalq dilini qoruyub saxlaması və sairdən irəli gələn elmi yanaşmada maraqları nəzərə alaraq, növbəti cildimizi ümumilikdə dastanın ayrı-ayrı qolları əsasında tərtib etmişik.

Kitabda qeydə alınan “Alı kişinin Təbriz səfəri”, “Koroğlu ilə Bolu bəy”, “Koroğlunun Türkmən səfəri”, “Giziroğlu Mustafa bəy” qolları və “Cəngi Koroğlu” başlığında verilən kiçik bir şeir mətni bizə Güney Azərbaycan aşıq yaradıcılığının

---

[1] Əli Bərazəndə Türk. Keçmişdən günümüzə İranda Koroğlu. “El bilimi” dərgisi, say 95, s. 17.

toplayıcısı və tədqiqatçısı Monirə Əkbərpuran tərəfindən təqdim edilmişdir. Hal-hazırda Kanadada yaşayan Monirə Əkbərpuran 2011-2017-ci illərdə Tehranın Şəhid Beheşti Universitetində fransız ədəbiyyatı üzrə "Dədə Qorqud kitabı" və "Roland nəğməsi" arasında epik təxəyyülün müqayisəsi" mövzusunda dissertasiya müdafiə etmişdir. O, 2018-2021-ci illərdə Fransanın Overn Universitetində postdoktoral araşdırmalar aparmışdır. 2018-ci ildən etibarən eyni zamanda Monreal Milli Elmi-Tədqiqat İnstitutunda (İNRS) tədqiqatlarını davam etdirməkdədir. M. Əkbərpuranın tədqiqat sahəsi bilavasitə İran türkləri arasında aşıq sənətinin müasir dövrdə peşəkarlaşması olmaqla, əsasən dastanların quruluşu, qəhrəmanlıq modeli, epik mətn tipi və müasir ifa formalarını əhatə edir. O, bu istiqamətdə "Dədə-Qorqud" ("Dədə Qorqud" kitabında epik əməyin öyrənilməsinə doğru"), "Əsli-Kərəm" ("Əsli-Kərəm" dastanında qəhrəman obrazının intertekstual və tarixi inkişafı"), Türkmən epik ənənəsi və s. mövzularda tədqiqatlar aparmışdır. "Koroğlu" dastanı üzərində İranda toplama və araşdırmalar aparan alim dastanın toplanmış müxtəlif variantlarını  fransızca tərcümə edib, orjinalı ilə birlikdə kitab şəklində nəşr etdirmişdir.

Kitabda təqdim etdiyimiz "Alı kişinin Təbriz səfəri" qolu 2018-ci ildə Təbrizdə (Maralan məhəlləsi) çəkilişlə qeydə alınmışdır. Dastan Təbriz-Qaradağ aşıq mühitindən Aşıq Əli Qaraağacı (Nüğədili) (Təbrizin 60 kilometirliyində yerləşən Ucanın (Bostanabadın) Meydançay mahalının Nüğədi kəndindəndir) tərəfindən səsli variantda yazıya alınmışdır. Aşıq ifa zamanı dastanı ustadı Aşıq Hüseyn Namvəridən öyrəndiyini bildirir. Qeyd edək ki, dastanla bağlı apardığımz araşdırmalar zamanı məlum oldu ki, "Alı kişinin Təbriz səfəri" Güneydə "Koroğlunun Mehtər Alı" adlı dastan qolu ilə eynidir və bu dastan 2009-

cu ildə təbrizli Aşıq Əli İbadi Qaraxanlı tərəfindən ifa olunmuş, 2022-ci ildə isə "Koroğlu" dastanı ilə bağlı kitabda yer almışdır. Aşıq Əli İbadi Qaraxanlı bu dastanın aşıq tərəfindən 2009-cu ildən geniş şəkildə yayımlandığını bildirmişdir.

**"Alı kişinin Təbriz səfəri"** qolunda Alı kişinin atası Güneyin Bostanava bölgəsindən Qazançayda ilxı saxlamaqla məşğul olan Səfəralı bəyin oğludur. Yeri gəlmişkən qeyd edək ki, hal-hazırda burada yaşayan yerli əhalinin iddiasına görə, Şərqi və Qərbi Azərbaycan əyalətlərini birləşdirən bu bölgə vaxtilə Alı kişinin ilxıçılıq etdiyi ərazi olduğundan İlxıçı adını almışdır. Qazançayda tayfalar arasında baş verən qan davasında Səfəralı bəyin qardaşı Mirzalı öldürüldükdən sonra o, məcbur qalıb Təkə-Türkman elinə gedir. Burada ilxıçılıqla məşğul olan Səfəralının bir övladı dünyaya gəlir ki, adını da Əli (Alı) qoyurlar. Lakin Səfəralı dünyasını dəyişdikdən sonra Alı Xacə Mahmudun (Mahmud Bəzirganın) himayəsində böyüyüb, ad-san qazanır. Dastanda qeyd olunur ki, Xacə Mahmudla Təbriz səfərinə çıxan Alı burada Polad Pəhləvanın bacısı Taclı Bəyimlə evlənir. Dastan poetikasına uyğun olaraq Alının uzun illərdən sonra övladı dünyaya gəlir ki, adını da Rövşən qoyurlar. Aşıq "Rövşən", "Ürşən" adına aydınlıq gətirərək söyləyir: "Bir rəvayətdə deyirlər, Ürşən qoydular, bir rəvayətə Rövşən qoydular. Rövşən nəmənədi? Ürşən nəmənədi? Rövşən "işıq" mənasında, Ürşən "cəngcü"[1] mənasınadır. Müntaha[2] mənim ustadım deyərdi bunun adın əvvəldə Rövşən qoydular. Sonra ki, 7-8 yaşına, 10 yaşına yetişəndən sonra çox cəngcü idi, davakar idi filan, ona görə buna Ürşən dedilər. Söz

[1] Cəngcü: Savaşçı

[2] Müntaha: ancaq

yerində olmayanda, bir qırana dəyməz. Rövşən qoydular, çün bizim gözlərimiz işıqlandı bunun olmağı ilə. Yaxşı, Ürşən də buna görə qoydular ki, çün dava axtarırdı. Qədim belə idi, imamların necə bir adı var, bir də ləqəbi var. Məsələn, biri qəmə[1] çəkir, ona Əli Qəmə deyirdilər. Rövşənin də ləqəbi Ürşən oldu". Dastanda bundan sonra baş verən hadisələr məlum süjet üzərindən davam etdirilir. Həsən xan tərəfindən gözləri çıxarılan Alı kişi oğlu Rövşənlə Qırat, Düratı götürərək Qoşabulağa üz tutur, bulağın möcüzəli suyu və ildırım parçasından hazırlanan Misri qılınc Rövşənin güc, qüdrətini daha da artırır, Həsən xandan intiqam alan qəhrəman Koroğlu adı ilə dəstələr qurub, Çənlibeldə məskunlaşır.

Dastan aşığın canlı ifasından yazıya alındığından burada onun dastan təhkiyəsinə uyğun olaraq əlavə əhvalatlar söyləməsi, yaxud öyüd-nəsihət verməsi, ustadını xatırlaması və s. olduğu kimi saxlanılmışdır. Məsələn, aşıq "Cəngi Koroğlu" havasını ifa edərkən ustadı Aşıq Namvərini xatırlayaraq deyir: "Amma dostlar, burada bir Koroğlu havası oxuyacağam – "Cəngi Koroğlu"dur. Bu sözlər necə ki, ustad Nəmvəridən mənə qalıb, bu havalar da ustad Nəmvəridən qalıb. Bu "Cəngi Koroğlu"nu da o oxuyardı. Necə ki, toyda ayağın vurardı yerə, mən də onun nəqşini[2] gedəcəyəm, toyda necə oxuyardı, mən də bax bu meydanda, bu Koroğlu meydanında, Həsən Xanın meydanında, mən də bax belə oxuyuram ba".

M.Əkbərpuranın təqimiatında ikinci dastan **"Koroğlu"nun "Mehtər", yaxud "Bolu bəy" qolu** adlandırılmışdır. Dastan urmiyalı Aşıq Əli Qaraağacı tərəfindən söylənilmişdir.

[1] Qəmə: xənçəl, kiçik qılınc
[2] Rolunu, obrazını

Yeri gəlmişkən qeyd edək ki, Xoy, Salmas, Maku (Daş Makı), Qoşaçay (Miyandab) aşıqlarının birliyində formalaşan Urmiya aşıq mühiti zəngin dastançılıq təcrübəsi, saz havaları və musiqi mədəniyyətinə malikdir. Aşıq mühitlərinin təsnifatında ayrıca götürülən bölgə aşıqlıq sənəti, bəzən Urmiya-Zəncan aşıq mühiti kontekstində də qəbul edilməkdədir. Tarixi yanaşmada Urmiya aşıq mühiti əsasən sufi düşüncədən irəli gələn təkkə-dərviş, ələvi görüşlərinin təsiri şəraitində formalaşmışdır. Aşıq Dollu Mustafa, Aşıq Cavad, Aşıq Hüseyn Sultani, Aşıq Fərhad Səlimoğlu, Aşıq Dərviş Vahabzadə və s. aşıqların başladığı ənənə sonrakı mərhələdə Aşıq İsməli Lütfi, Aşıq Məhəmməd Hüseyn Dehqan, Aşıq Bulud Səid, Aşıq Abbas Bəhlulzadə və s. aşıqlar tərəfindən davam etdirilmişdir. Urmiya aşıq mühitində "Əmrahi", "Cəmşidi", "Hicrani", "Urmiya qürbətisi", "Urmiya ruhanisi", "Urmu Qarabağisi", "Urmu şərqisi", "Paşam köçdü" və s. havalar geniş yayılmışdır. Dərviş Vahabzadə, Məhəmməd Hüseyni Dehqan kimi yaradıcı sənətkarlar tərəfindən müxtəlif dastanlarla yanaşı, saz havaları da yaradılmışdır. Urmiya aşıq mühitində aşıqların məclislərdə yalnız sazdan istifadə etmələri, qaval, balaban kimi alətlərin nisbətən arxa planda saxlanılması da bu və ya digər şəkildə sufi, təkkə ocaqlarının ənənəsinə bağlıdır. Qeyd etdimiz dastan qolu da Urmiyalı Aşıq Əli Qaraağacının ifasında yazıya alınmışdır. Aşıq Əli Qaraağacı 1960-cı ildə Urmiyanın Qarağac kəndində anadan olmuş, hələ kiçik yaşlarından aşıq ədəbiyyatı və sənətinə maraq göstərmişdir. Əsasən Aşıq Dərviş və Aşıq Dehqanın yaradıcılığını izləyən Əli Qarağaci sonradan Aşıq Dehqandan aşıqlıq sənətinin sirrlərini öyrənmişdir. 30 ildən artıqdır ki, Əli Qaraağacı peşəkar aşıq kimi fəaliyyət göstərməkdədir. Dastanın əvvəlin-

də özünün təqdim edən aşıq Urmiyada özünə məxsus qəhvəxanasının olduğunu, burada el birliyi ilə dastan, havaların dinlənildiyini bildirir.

"Mehtər", ya "Bolu qolu" adlandırılan qolu söyləməmişdən əvvəl aşıq "Koroğlu" dastanının Urmiyada 7-8 qolunun olduğu və 17 və 18 qolun sonradan toplanılaraq aşıqlar arasında yayıldığını bildirir. Aşıq bu qolun kitablardan götürülmədiyini, heç bir kitabda verilmədiyini və "ustadı bir söhbət" olduğunu qeyd edir: "Bu dastanı ki, ərz eyləyəcəyəm, ustadıdır. Sinəbəsinə gəlib, biz də bunu bir yerdən, yəni mütaliə eyləyib, oxuyub, əzbərləməmişik. Ustadın sinəsindən nə cür gəlib, onu eşitmişik, sizin üçün söyləyəcəyik. Koroğlunun doqquz qolunu bu Urumiyyədə bilərik. Bakıda, o üzdə, bu üzdə çox artırıblar, eyləyiblər 17-18 qol. Onlar cəmavəri[1] eyləyiblər, yığıblar o üzdən bu üzdən bir dastanlar düzəldiblər, amma əsli dastan odur ki, kitaba getməyib, biri də ki, budur. Ustadı bir söhbətdir ərz eyləyəcəyəm, buna deyərik "Koroğlunun Mehtər qolu", bəzən "Bolu qolu" da deyərlər". Dastanın aşıq tərəfindən "Koroğlunun Mehtər qolu" və ya "Bolu bəy" adlandırılması burada iki ayrı-ayrı süjet-səfərin bir arada yer almasına bağlıdır. Dastanın bir süjeti Koroğlu və Dəli Mehtər, digər süjet qolu isə Koroğlu və Bolu bəylə bağlı hadisələrdə yer alır.

Dastanda göstərilir ki, Koroğlu dəlilərinin qurduğu bir məclisdə saqi təyin olunan Eyvaz məclisə şərbət, gülab daşıyır, bu zaman kənarda əyləşən Dəli Mehtər hər dəfə əlini atıb məclisə gələn nemətlərdən saymazyana şəkildə götürür. Məclisdə Dəli Mehtərin bu hərəkətinə irad tutan Eyvaza mehtər bir şillə

---

[1] Toplamaq

vurur. Koroğlu Dəli Mehtərin bu hərəkətindən hirslənsə də, qəzəbini gizlədir. Səhərisi gün tövləyə atları yoxlamağa gedən Koroğlu əlindəki ağ dəsmalı qəsdən atların belinə çəkib, Dəli Mehtərin üzünə tutub, atları nəyə görə belə bir vəziyyətdə saxladığını soruşur. Dəli Mehtərin cavabını gözləmədən ona iki şillə çəkir. Dəli Mehtər Koroğlu ilə kin bağlayıb, ondan intiqam almağı fikirləşir. Nəhayət qərara gəlir ki, Koroğlunu koroğluluqdan salmaq üçün onun atını oğurlamaq yetər. Dəli Mehtər Qıratı oğurlayıb Koroğlu ilə düşmənçilik edən Tərcanlı Mustafa bəyin yanına gətirir. Mustafa bəy Koroğlu ilə düşmənçilik etsə də, Dəli Mehtərin bu namərdliyini qəbul edə bilmir, qərara alır ki, mehtəri aparıb Koroğluya – Çənlibeldə təhvil versin. Dastanın ikinci süjet xətti İstanbul paşasının məclisi ilə başlayır ki, burada Bolu bəy Dona xanımı almaq və vəzirlik mənsəbinə yiyələnmək qarşılığında Koroğlunu gətirməyə söz verir. Dastanın Koroğlu və Mustafa bəy süjeti qəhrəmanların yenidən dostluq, qardaşlıq etməsi, Dəli Mehtərin Koroğludan üzr istəməsi ilə bitir və süjet Koroğlu və Bolu bəy qolu ilə davam edir. Mustafa bəyi öz elinə yola salan Koroğlu dağları dolaşarkən böyük bir qoşunun Çənlibelə tərəf hərəkət etdiyini görür, geri qayıtmayıb aşıq adı ilə çadırlara yaxınlaşır. Bolu bəyin çadırına gətirilən Koroğlu burada aşıq kimi çalıb-oxuyur, Çənlibelə qayıdır. Çənlibel igidləri Bolu bəyin çadırını mühasirəyə alıb, onu tuturlar, bu zaman əsir düşən Bolu bəylə Koroğlu meydanda güləşirlər. Koroğlu məğlub olan Bolu bəyin başını kəsmək istərkən o, Dona xanımı alacağını dilə gətirib, arzusunun ürəyində qaldığını söyləyir. Koroğlu Bolu bəyi öldürməyi namərdlik bilir, qərar verir ki, Bolu bəy Koroğlunu özü ilə Paşanın sarayına aparsın, Dona Xatunla evlənsin, daha sonra Koroğlunu yenidən Çənlibelə göndərsin. Bolu bəy

Koroğlu ilə razılaşsa da, sonda namərdlik edib, sözündən dönür. İstanbul paşasının zindanında qalan Koroğlunu sonda Dona Xatun və İsa Vəlli, Nigarın xəbər saldığı Mustafa bəy xilas edərək Çənlibelə qayıdırlar.

Dastan konkret olaraq el məclisindən yazıya alındığından burada aşıq dastanın bir neçə yerində saz üstündə oxumağı başqa bir həmkarına – Aşıq Behnam Rizayiyə həvalə edir. Aşıq Behnam Rizayi "Koroğlu və Bolu bəy "qolunda dastanın iki ayrı-ayrı süjetində "Həmədan gəraylısı" və "Narıncı" havasıyla ustadın sözünü tamamlayır.

M.Əkbərpuran tərəfindən təqdim edilən **"Koroğlunun Türkmən səfəri"** qolu Təbriz-Qaradağ aşıq mühitindən Aşıq Məhbub Xəlili (Qaradağ mahalının Oyru kəndindəndir) tərəfindən ifa olunmuşdur. Aşıq dastanı söyləyərkən Koroğlu ilə Qəssab Əlinın qarşılaşmasını daha emosional və canlı ifa etmək üçün aşıq Aşıq Novruz Çəməniyə (Təbriz-Qaradağ aşıq mühiti aşığıdır, Tehranda yaşayır) müraciət edir və Aşıq Məhbub Koroğlunu, Aşıq Novruz Çəməni isə Qəssab Əlini canlandıraraq maraqlı səhnə qururlar.

Dastanın **"Giziroğlu Mustafa bəy"** qolu isə dədə-baba aşıqlarından sayılan Aşıq Əhməd Şəhbazinin (Bostanabad, Meydançay mahalı Quru gölü ərazisinin Gülaxır kəndi) ifasından yazıya alınmışdır. Yekunda dastançı aşıqların ifasında kiçik bir hissə – "Cəngi Koroğlu" havası təqdim olunmuşdur. "Çəngi Koroğlu" Təbriz-Qaradağ aşıqlarından Aşıq Məhbub Əbdi (Qaradağ, Qırxbulaq kəndi) və aşıq – qavalçı Abbas Məhəmmədinin (Qaradağ, Əhər –Vərgahan mahalının Düşdür (Rəşdo) kəndi) ifasında qeydə alınmışdır.

Kitabda təqdim olunan **“Koroğlunun Türkmən səfəri”** adlı digər bir qolu Qum-Savə aşıq mühiti aşıqlardan Məsihullah Rizayinin (1939-2016) ifasında yazıya alınmışdır. Qeyd edək ki, Aşıq Məsihullah Rizayi haqqında “Güney Azərbaycan folkloru” seriyasından olan XV cildimizdə məlumat verilmiş və aşığın dilindən yazıya alınan “Kəlbi” dastanı yayımlanmışdır. Aşıq Məsihullah Rizayi Qaraqan bölgəsində doğulmuş, Şahsevən aşıqları arasında şöhrət qazanmış, müxtəlif xalq dastanlarını öz repertuarında qoruyub saxlamışdır. Kitabda təqdim etdiyimiz “Koroğlunun Türkman səfəri” qolu da aşığın repertuarında yer alan maraqlı dastanlardan biridir. Dastan Aşıq Cünunun Koroğlu və Nigara say-seçmə igid axtarması üçün Təkə-Türkmən elinə getməsi və burada Əli qəssabın oğlu Xan Eyvazı bəyənməsi ilə başlayır. Dastanda bundan sonrakı hadisələr Koroğlunun Təkə-Türkmənə səfəri, Əli qəssab, Xan Eyvazla görüşü ilə davam edir və Xan Eyvazı Çənlibelə gətirməsi ilə yekunlaşır. Məlum süjet xətti üzərindən söylənilən dastan burada aşığın istedadı, sənətkarlığına bağlı olaraq müxtəlif şeirlər, əhvalatlarla zənginləşdirilmişdir.

**“Koroğlunun İstanbul səfəri”, “Koroğlunun Dağıstan səfəri”** qolları isə el arasında Aşıq Məhbub adı ilə tanınan Aşıq Məhəmməd Rəncbəri (Salmas şəhəri, Vərdan kəndindən), **“Koroğlunun qocalığı”** qolu Aşıq Həsən İskəndərinin (Xudafərin bölgəsi, Kəlalə kəndi) ifasından yazıya alımışdır. “Koroğlunun Dağıstan səfəri”ndə dastan boyu Aşıq Qulamrza (Xoy şəhəri, Biləvar kəndi) və Aşıq Mənaf Rəncbəri (Salmas şəhəri, Vərdan kəndi) də müəyyən bölümlərdə söz alıb, saz çalır, şeirlər söyləyiblər.

Təqdim edilən dastanların bədii-poetik xüsusiyyətləri də aşıq təhkiyəsində özünəməxsus xüsusiyyətləri, dil əlvanlığı ilə

seçilir. İstənilən halda bu və ya digər məclisdə dastan söyləyən aşıq qəhrəmanını dinləyici, tamaşaçısı üçün dastan poetikasına uyğun, ənənədən uzaqlaşmadan, eləcə də öz dəst-xətti, üslubu ilə təqdim edir. "Koroğlu ilə Bolu bəy" qolunda aşıq bu xüsusiyyətləri qəhrəmanın atı, hadisələri öncədən gördüyü yuxusu və nəhayət düşməni lərzəyə salan nərəsi üzərində ümumiləşdirir. Eyni zamanda aşıq Koroğlunun igidləri qiymətləndirməsi, hətta Mustafa bəyi özündən belə qəhrəman saymasını, Qıratın isə heç bir atla müqayisəyə gəlmədiyini belə izah edir: "Koroğlu özünü sındırır xanımının yanında, amma çün Qırat o cür deyildi, Qırata şəxsiyyət verirdi Koroğlu, ərziş verirdi, Qıratı sındırmadı. Bəzən oxuyanlarımız deyirlər: "macal verməz Qırat qaça!" Bu qələtdir[1].. Koroğlu özünü sındırırdı xanımının yanında, amma atını yox. Çün atı orada deyildi, at danışa, qəzavət eyləyə. At buna sabit[2] olmuşdu nəmənədir".

Koroğlunun bir qəhrəman olaraq dastan poetikasına uyğun təqdimi də qeydə alınan qollarda xüsusi bədii dillə təsvir edilir: "...Baxdılar atdan üstdən, gördülər aşığın qədd-qiyafəsinin bir əndazəsi var, bu yekəlikdə aşıq olmaz. Sibillər çəkilib gəlib qulağın dalına, gözlər bu cür... çanağından pırtlayıb eşiyə, qaşlar qap-qara, elə bil at quyruğudur! Dedi: "Qəza gətirin!" Dörd nəfərin də qəzasını çəkdilər Koroğluya, içməli verdi. ...Gətirdilər, ağzını dayadı tuluğa, tuluq boşaldı. Elə bil malın qarnının içini boşaltdın! "Pəh! Əhməd Əli Mirzə dedi: "Evin yıxılsın aşıq sahibi! Bu sistem də aşıq olar?"...Yedin içdin, on beş nəfərin də qəzasını yedin!". Qəhrəmanın aşıq

[1] Yanlışdır, səhvdir
[2] Sübut

dilində təqdimi dastan söyləmədə vacib məqamlardan biri olmaqla ənənəvi dastan deyim-ifadələrinin məzmununa bağlıdır. Məsələn, Mustafa bəyi Koroğlunun dili ilə öyən aşıq onu "dəmir donlu", "gözü qanlı", "ağır məclis, ağır xonnu", "şüşpərinin ucu haça" və s. poetik ifadələrlə təqdim edir.

"Koroğlu" dastanının ayrı-ayrı qolları müxtəlif aşıq mühitlərindən qeydə alındığından burada yerli ləhcə-şivə xüsusiyyətlərinin saxlanılmasına da xüsusi diqqət yetirilmişdir. Kitabda təqdim olunan "Koroğlunun Türkmən səfəri" qolu qeyd etdiyimiz kimi, Qum-Savə aşıq mühitindən yazıya alındığından burada Şahsevən aşıqlarına məxsus dialekt və şivə xüsusiyyətləri gözlənilmiş, dastanın nəsr-təhkiyə hissəsinin daha çox ərəb-fars sözləri ilə ağırlaşdırıldığı müşahidə edilmişdir. Aşıq mütəvəccih olmaq, mücəddəd (yenidən bərpa edilmiş), pəsənd etmək (tərifləmək, bəyənmək), pərsə vurmaq (dolanmaq), be qol (demişkən), keşavərz (əkinçi), şuru eləmək (başlamaq) və s. ifadələrdən təkrar-təkrar nitqində istifadə etmişdir. Digər bir tərəfdən, dialekt-şivə xüsusiyyətlərindən irəli gələn sözlərin tələffüzündə səs düşümü, səs əvəzlənmələri və dəyişmələri də aşığın dilində yetərincə qeydə alınmaqdadır (küçülü-kiçik, pismırıg, oolağ-oylaq, həmin-həmun, miqdar-muğdar, çətsə-çatsa və s.). Aşıq təhkiyəsindən fərqli olaraq, dastanın nəzm hissəsi-şeirləri daha aydın, sadə xalq dilində ifadə edilmişdir:

Çənlibeli güllər bəzər,
Güllər saralsa kim üzər?
Hər quş öz balasıyla gəzər,
Pəs niyə mənim balam yoxdu,
Mən tək dərdə dolan yoxdur!

Aşıq Məsihullah Rizayinin ifasında yazıya aldığımız "Koroğlunun Türkman səfəri" qolundan fərqli olaraq, Aşıq Həsən İskəndəridən köçürülən "Koroğlunun qocalığı" qolu daha aydın, sadə təhkiyə strukturuna malikdir. Dastanda aşıq Aşıq Ələsgər, Mikayıl Azaflı yaradıcılığına, Şəhriyarın "Heydərbabaya salam" poemasından şeirlərə müraciət etmişdir. Dastan xüsusilə, aşığın ifa etdiyi havalarla zəngindir. Belə ki, aşıq dastanı bilavasitə "Paşa köçdü", "Ağaxani", "Şur", "Göyçə gəraylısı", "Qaradağ təcnisi", "Koroğlu qaytarması", "Sulduzu", "Ceyran Kərəmi", "İran gəraylısı" və s. kimi havaları üzərində söyləyir.

Dastanların söylənilməsində aşıqlar sözsüz ki, nəql etdikləri hadisələri xalq danışıq dilinin sadəliyi, bədiiliyi üzərində qurmaqla zəngin bir dialekt-şivə atlasını gündəmə gətirirlər. Aşıq dilinin bədiilik, məişət leksikası, xüsusilə paremiyalar üzərində qurulması dastan söyləmədə canlılıq, firkin sərrast ifadəsində mühüm yer tutur. Bu baxımdan aşıqların dastan boyu işlətdikləri "ağzının duzuna baxım sonra", "başından bir tük əskik olmaz", "aşıq, amma dəvə gördün, izini görmədin haa", "özü yıxılan ağlamaz!", "namərd adamın kəli qaçar!", "qapımı bağladın, çərçuvasın qopartdın", "sən şadlığıva şivənlik eyləyibsən", "arvad ərindən yekəsin bilməz, uşaq dədəsindən", "gördü qurd dedi, qulaqları çıxdı", "at ata, cida[1] cidaya" və s. paremoloji vahidlər nitq aktuallığında xüsusilə seçilir.

Qeyd etdiyimiz kimi, təqdim edilən dastan nümunələri müxtəlif aşıq mühitlərini təmsil edən ayrı-ayrı ustad aşıqların repertuarından əldə edilmişdir. Bu nümunələr həm hazır dinlə-

[1] Süngü, nizə

mə materialı kimi götürülmüş, həm də bilavasitə əməkdaşlarımız tərəfindən səsli fayllardan köçürülmüşdür. Əldə olunan səsli faylların texniki nasazlığı, aşıqların bir çox hallarda savadsızlığı, eyni zamanda ustadından eşitdiyi ifadələri məna fərqinə baxmadan işlətməsi, aşıq mühitlərinin konkret dialektoloji atlasının olmaması və s. bu istiqamətdə gördüyümüz işlərdə ciddi çətinliklər yaratmışdır. Nəticə etibarilə dastanların təqdimatında bu baxımdan müəyyən qüsurların olması qaçılmazdır. Aşıqlarla bilavasitə görüşlərin təşkil edilməsi, dünyasını dəyişən ustad aşıqların səslərinin orijinal şəkildə səsli fayllardan əldə ediməsi və s. yolu ilə məlum çətinlik və qüsurları aradan qaldırmaq mümkündür. Güman edirik ki, bu dastanalar ümum Azərbaycan kontekstində “Koroğlu” qollarının bir araya gətirilməsi, müxtəlif aşıq mühitləri və repertuarında qazandığı, motiv, versiyaların araşdırılması, eləcə də dastanlarda qorunan qədim məişət leksikası, dilimizin öyrənilməsində tədqiqatçılar üçün zəngin, əhəmiyyətli bir qaynağa çevriləcəkdir.

***Mətanət Abbasova***
*filologiya elmləri doktoru, dosent*

## ALI KİŞİNİN TƏBRİZ SƏFƏRİ

Bir yaşından beş yaşına yetəndə,
Tazəcə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına çatanda,
Pətəyə yıığılan bala bənzərsən,
Pətəyə yığılan bala bənzərsən.

Başlayıram bir Allahın adıyla,
Nəfəs verən, könül açan yadıyla.
Əzzəl ellərimə verirəm salam,
Ellərimin duasından güc alam.

Ötən babalardan eylirəm söhbət, eşidən insanlar çəksinlər ləzzət. Bəli, sizə haradan xəbər verəcəyəm? Kimdən danışacağam? Kimdən deyəcəyəm? İstəyirəm bir qəhrəmanım harada anadan olub, nəsli kimdir, əsli kimdir, haradan gəlib haraya, harada baş qovzayıb onu sizə danışacağam və ümidvaram siz də bu navarı, bu dastanı eşitdikcə, xoş olasız. O dastan kimdəndir? Hansı qəhrəmandandır? O qəhrəmandandır ki, adı dünyada tanınır. Bu qəhrəman Qoç Koroğludur. Necə ki, eşidənlərimiz bilirlər, onun bir vücudnaməsi ilə də sözü başladım. Koroğlu deyir:

Bir yaşından beş yaşına yetəndə,
Tazəcə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına çatanda,
Pətəyə yığılmış bala bənzərsən.
On beşində sövda gələr başına,
Arada gəzərsən hey boş-boşuna.

Elə ki, yetişdin iyirmi yaşına,
Boz-bulanlıq axan selə bənzərsən.

Sözün üçümüncün[1] görək necə deyir:

Otuz yaşda kəklik kimi səkərsən,
Məğrurluq eyləyib, qanlar tökərsən.
Qırx yaşında əl haramdan çəkərsən,
Sonası ovlanan gölə bənzərsən.
Sonası ovlanan gölə bənzərsən.

Necə qanlar tökür? Bəzən, deyərlər bəs hücum elər qan tökər. Xeyr! Cavanın başında bir mənəmlik olar, bir məğrurluq olar ki, baxanlar deyər indi bunun qəzəbindən az qalır qanlar tökülsün, qanlar töksün baxışı ilə bu cavan. Odu deyir ki:

Məğrurluq, mənəmlik eyləyib qanlar tökərsən,
Qırx yaşında əl haramdan çəkərsən.
Sonası ovlanmış gölə bənzərsən.

Əlli yaşda canın suyu çəkilər,
Altmışında bütün dişlər tökülər.
Yetmişində əlif qəddin bükülər,
Karvanı çatılan yola bənzərsən.

Həştadında[2] ağrı yenər dizinə,
Doxsanında qubar qonar gözünə, ay balam!
Elə ki, Koroğlu, çatdın yüzünə,

Dağ başında solan kola bənzərsən,
Dağ başında solan kola bənzərsən.

Həştadında, deyir, ağrı yenər dizinə, doxsanında qubar

[1] Üçüncüsünü
[2] Səksən

qonar gözünə, elə ki, Koroğlu, çatdın yüzünə, dağ başında solan kola bənzərsən. Necə kol qalıb quruyar, elə olarsan.

Bəli, bu vücudnamə idi. İndi keçək dastan üstünə, görək bu Koroğlu kim idi, haradan baş qovzayıb, haradan gəlib və hankı şəhərlərdə yaşayıbdı? Səhndavanın[1], Bostanava[2] tərəfində bir kənd var, adı Qazançay. Burada iki qardaş yaşayarmış: böyüyün adı Səfəralı bəy idi, kiçiyin adı Mirza bəy. Bunların işləri bu idi. Qədimdən Qazançay at yeridir, ilxı yeridir, ilxı saxlayarlar. Hamısında at olar. İndi də atları var. Orada çoxlarına da Paşa deyərlər. Biri var Oruc Paşa, indi də Paşa deyərlər. Bəli, bunlar burada ilxı becərirmişlər. Amma Mirza bəy kiçik idi. Kənddə görürsən kimin vəzi xoş olsa, onun dövrəsinə çox adam dolanar, bəziləri ziddinə, bəziləri onun səlahına dolanar, bəzilər puluna dolanar. Ancaq burada bir tayfa davası olur. Mirza bəyi vururlar, ölür. Mirza bəy öləndən sonra hələ neçə başlar, qollar vururlar sınır. Neçə tayalar yanır, onlarla işimiz yox. Davaya son qoyurlar ağsaqqallar o kənddən, o birisi kənddən, bu birisi kənddən. Amma ondan neçə, bir neçə ay, ya neçə gün sonra Səfəralı bəy də yaxşı adam idi, gəlirlər Səfəralı bəyə yalvarıb yaxarırlar, ondan rizayətlik alırlar. Qoymurlar ki, qatildən qisas olunsun. Səfəralı bəy rizayətlik verəndən sonra eşiyə çıxır, evə girir qatili görür. Görür bəli, bu qatili təhəmmül eliyə bilmədi. Bunun qeyrəti qoymur bu qatili təhəmmül eləsin.

Buraydı ki, köçmək nəzəri olur bir tərəfə. Hara köçüm? Neyləyim? Ancaq bunun Təkə-Türkmən elində bir dostu var idi. Təkə-Türkmən elindən gələrdilər buradan at alardılar, gəlib al-ver eylərdirlər. Aparıb orada saxlayardılar. Dostu gəlir bunla

[1] Güney Azərbaycanda yer adı
[2] Güney Azərbaycanda yer adı

danışır. Deyir:

– Sən orada ilxı saxlasan, buradan da qəşəng gedər. Sən elə dur gəl mən ilə gedək ora, siz orada yaşayın.

Bəli, köçmək binasını qoyur Qazançayından bu köçsün. Amma Səfəralı bəyin köçməsi Qazançayın əhlini qəmə salır. Çıxırlar qabağına qoymurlar. Nə qədər yalvarırlar, deyir:

– Qoyun, hələ gedim bir-iki il o yan, bu yanda qalım, qismət olsa yenə qayıdıb bura gələrəm. Eliyə bilmirəm burada qalam. Daha burada qalacağım olmur.

Qatillərin adamları gəlir. Deyir:

– İcazə ver, biz köçək buradan, sən buranın hər asayişisən, sən buradan getmə!

Amma Səfəralı bəy deyir:

– Yox, mən gərək gedəm.

Ancaq qabağın ala bilmirlər, buradan gedir Tək-Türkmən elinə. Orda Səfəralı bəy bir-iki il idi getmişdi. Bunun bir oğlu olur, Əli adında. Həmən Koroğlunun dədəsi olacaq ki, buna Alı da deyərlər. Niyə Alı deyirlər, deyəcəyəm. Bəli, Səfəralı bəy burada ilxı saxlayırdı, kefi saz idi. Oğlan on beş yaşına yetişəndə Səfəralı bəyin ömrünün çırağı sönür, ömrünü uşaqlarına bağışlayır. Ancaq oğlu qalır tək. Səfəralının adı Əli idi. Səfəralı bəy də çox hörmət sahibi olmuşdu, izzət sahibi olmuşdu, ilxısı hər yerə cavab eləyirdi. Ona görə Səfəralı bəyin orada ehtiramı çox-çox idi. Ona görə hörməti yaxşı idi ellər arasında, dillər arasında, güllər arasında. Ancaq el yığışıb oğlunu qucağına alır. Deyir:

– Qorxmagilən, biz sənə Alı deyəcəyik. Çün Səfəralının iyini səndən alırıq. Sənə elə Alı da deyəcəyik.

Bundan idi ki, buna həm Əli deyərdilər, həm Alı. Bəli, söz belədir, dostlar! İndi sizə kimdən xəbər verim? Burada bir

Xacə Mahmud var, Mahmud Bəzirgan. Bunun var-dövləti həddən aşır. Bu da ilxı saxlayır burada, amma əfsus Allah Təala ona övlad verməyib.

Bunun bir ilxıçısı var idi, öldü. Ondan sonra neçə ilxıçı gətirdi, Mahmudun ilxısın yerbəyer eliyə bilmədi, yarada bilmədi. Hər mehtər ilxıçı yarada bilməz, dostlar! Atın özünün ayrı köndü var, ayrı işləri var. Hər ilxıçıdan mehtər olmaz. Bəli, burada idi Mahmud Bəzirgan bir fikirləşdi, dedi:

– Oğlan, bu Əlinin dədəsi öldü. Bu həm bisahibdir, nadandır, uşaqdır. Həm də tökülərlər, qoltuğunun ayağının altına girərlər, bunu dağıdarlar. Qoy gedim gətirim bunu öz ilxıma ilxıçı eyliyim, görüm bu necə mənə ilxı saxlaya bilər?

Gəlib tapdı. Gəlib tapdı, salamlaşandan sonra dedi:

– Oğul, atan ölüb, Allah rəhmət eyləsin! Amma mən istəyirəm sən gəlib mənim ilxımı saxlayasan, özüvün də nəmənə ilxında atın var, gəl ötür onların içində saxla, onlara heç zad istəmirəm. Özüvə[1] də nə istəsən verəcəyəm. Əgər mən deyən kimi saxlayasan mənim ilxımı, mən deyən kimi eliyəsən, hər nə desən verəcəyəm. Əli də razı oldu. Gəlib Xacə Mahmudun ilxıçısı oldu. Elə ki, Xacə Mahmuda ilxıçı oldu, bir beş il buna ilxı saxladı. Ondan sonra Xacə Mahmud gördü ki, bəli, at bəsləmək elə bu kişinin işidir. Ondan sonra Xacə Mahmudun atları xaricə at apardı, xaricə getdi. Xaricdən gəlib at aparardılar. Xaricə at aparardı satardı. Ancaq o qədər Əlidən razı oldu ki, sözün xülasəsini deyirəm, onu özünə oğulluğa götürdü. Nəmənə var-dövləti var idi, o zaman hakimin əli ilə bunun adına yazdırdı. Dedi:

– Mən bunu özümə oğulluğa götürürəm, bundan sonra bu dərayət hamısı bununku oldu.

---

[1] Özünə

Bəli, bunlar belə keçinməkdə idilər. Amma Xacə Mahmud da day[1] qocalmışdı. Bir gün dedi:

– Oğul, mənim ömrümün axır günləridir. Mən ki, xaricə at aparıram, dur ayağa mənlə gedək. Həm o yan, bu yanda səni tanısınlar, həm də məndən sonra bu işə idamə ver. Mənim müştərilərim səndən at alsınlar, al-verin yolunu öyrəşgilən. Bil necə alacaqsan, necə satacaqsan. Al-verin də bir köndüşü var. Gərək onları da biləsən. Teyxa da ilxıçılıq ilə olmaz. Çün təksən, ona görə gərək bu işi mənlə bahəmlikdə[2] görüb öyrəşəsən, məndən sonra məəttəl qalmayasan.

Durublar, xaric dövlətlərə yavaş-yavaş yol açırdılar. Günlərdə bir gün, dostlar, atları becəriblər. Dedilər:

– Bu səfərimiz Təbriz səfəridir. Təbriz məntəqəsinə[3] at aparacağıq.

Çünki firəng dövlətlərindən gələrdilər Təbrizdə Xacə Mahmuddan at alardılar. Bilərdilər ki, yazın məsələn filan ayında bu gəlir, onda burada olardılar. Dedi:

– Oğul, indi bizim yolumuzu gözləyən var. Orada xariclərdən gəliblər bizim atlarımızı gözləyirlər. Atlardan bir az seç, aparacağıq Təbrizə.

Dururlar atlardan seçirlər, gəlib axşam çağı Təbrizə yetişirlər. Təbrizdə gecə atları saldılar karvansaranın tövləsinə, özləri də orada qaldılar. Səhər açıldı, üzüzə xeyirli səhərlər açılsın. Əliyə dedi:

– Oğul, dur atları çək meydana, baxsınlar, bəyənsinlər, alsınlar.

---

[1] Daha
[2] Birlikdə
[3] Bölgə

Durdular Mahmud ilə birlikdə ki, atları çəkəsinlər meydana. İki-üç at gətirmişdirlər ki, birini gətirəndə üstdən yel əsdi, bir tənəkəni ucalıqdan saldı yerə. Salanda atların biri ürküb qaçdı. Alı Mehtər baxdı ata, gördü at getdi, bu da atın dalısıca. Bəli, Göy Məçid qabağında karvansaralar vardır, orada dostlar varıdı. O məhəllədə idilər. At Maralan məntəqəsinə sarı yola düşdü.

Bular gəlməkdə olsun, sizə kimdən xəbər verim? Maralan məntəqəsində bir Polad Pəhləvan var. Polad Pəhləvanın bir bacısı var. Adı Taclı Bəyimdir. Bu bir neçə qız ilə gəlib çeşmədən su doldurublar, gəlirlər evlərinə. Amma qızlar gördü bir at gəlir yer ilə göy arasında. Gəlib bunları ayaqlasa, hamısın şil-küt eyləyəcək. Amma qızlar, neyləyək, necə eyləyək? Qız dedi:

– Siz yoldan çəkilin kənara.

Taclı Bəyim qızları yoldan rədd eyləyib, özü dolu qoydu yolun qırağında, özü belə, belə, (dürbinə [1] dalısın çevirib görsədir) kəsdi yolun ortasın. At gələndə hoppulub qabağına əlini elə atdı atın yallarından, bir qüdrət var idi qızda, atı elə saxlaya bildi ki, at əlində qərq olub dəbərilə bilmədi. O yandan Alı gəlir dalısınca. Əli gələndə baxdı gördü bir qızdı bu atı elə saxladı ki, axı bu qüdrətdə qaçan atı qüdrət istəyir saxlayasan, bu necə qızdır? Baxanda gördü, Taclı Bəyim həm camaldan gözəl idi, həm qüdrətdən çoxudur. Çün Pəhləvan bacısı idi, özü də qüdrətli idi, özü də şəmşirzən [2] idi, özü də küştigir [3] idi. Deyərlər, ustad oğlu şagird olmaz.

Bəli, burada idi ki, Əli baxdı həm qızın qüdrətinə aşıq

---

[1] Kamera
[2] Qılınc çəkən
[3] Güləşən

oldu, həm qızın qamətinə, camalına aşiq oldu. Qızın gözlərindən bir od çalıb, dəydi Alının ürəyinin başından. Alının qıçları düşdü titirətməyə, gəlib gendən durdu da, cürət eyləyib gəlib atı ala bilmədi. Qız baxdı ki, cavan gəlib, bir cavandır, at elə bil onunkudur, amma gəlib alanmır. Dedi:

– Oğlan, novdan buzu kimi nəyə durubsan? Hələ o da odu ki, atın az qalırdı bizi ayaqlasın? Gəl atıvı apar görüm!

Burada idi ki, Əli dedi:

– Xanım, at mənimkidir, amma bir söz var.

– Nəmənədir?

– O söz də budur ki… Xanım, icazə versən sənə bir sözüm var. Bu sözü deyim, sonra gəlim atı aparım.

– Oğlan, nə sözü? Bura söz yeri deyil! Gəl atıvı apar, bilirsən mən kiməm?

Dedi:

– Hər kim olursan ol, mənim evimi yıxdın! Mən bilmirəm kimsən, vəli, hər kimsən mənim qapımı bağladın, çərçuvasın qopartdın. Qulaq as, sənə bir neçə kəlmə söz deyirəm.

Götürüb "Səmayi" (hava) üstə görək Əli qıza nələr deyir. Tərəfindən, sizə can sağlığı.

Yol üstündə duran gözəl,
Elə baxma, inciyərəm.
Qoy gözüm baxsın gözünə,
Kirpik çaxma, inciyərəm.

Dedi:

– Bax, eyy! Heç utanıb xəcalət də çəkmir! Bir belə qızın arasında, gör nələr danışır?! Oğlan, mənim qardaşım eşidər, gələr səni də öldürər, məni də! Oğlan, mən Polad Pəhləvanın bacısıyam, eşidər gələr, səni də öldürər, məni də. Bil mən kiməm, ağıllı-başlı danış!

Qız da baxdı Alının qamətinə-boyuna, gördü çox gözəldir, keçəmli cavan deyil! Amma qızların içində daha aşkara salanmadı ki, mən də səni sevirəm! Deyir:

– Xanım, necə baxmayım?

Kirpiyin tökür qanımı,
Çəkir ruhu-rəvanımı.
Axı baxışınla canımı
Oda yaxma, inciyirəm.

Belə deyəndə qız dedi:

– Oğlan, gəl atıvı apar, yaxçı deyil sən burada şer oxuyasan!

– Ay Xanım! Mən oxumuram ki, məni sən oxudursan, bir qulaq as:

Nur yayılır günəş üzdən,
Sən Allah, incimə bizdən.
Olan sözü durub təzdən,
Başa çaxma, balam, inciyərəm.

Bəli, burada idi ki, qız dedi:

– Atı aparmırsan, ötürdüm getdi haa!

Əli dedi:

– Xanım, qoy sözümdən bir xanə də qalır, qoy onu da deyim, sonra gəlim atı alım daa.

Könül sevdi belə qaşı-kamanı,
Bülbül olan gül başına dolanı.

– Allah, bu haradan gəlib düşdü mənim əlimə, bu necə ceyrandır gəlib düşdü mənim əlimə? Haradan gəlib? Behiştdən gəlib? Göydən gəlib? Haradan gəlib?

Dedi:

– Xanım, qoy bir söz deyim, bir qulaq as.

Bəli, elə ki Alının sözü sona çatır, deyir:

Alının səbrini kəsən,
Hurisən, mələksən nəsən?
Könlüm qırılar yox desən,
Dönük çıxma, inciyərəm!

İşarə eylədi ki, mən səni sevdim. Mən gedirəm, nə ayrısına ilqar ver, nə də sözündən çıx haa, inciyərəm. Daha mən səni sevdim, ehtimalı çoxdur sənə elçi yollayam. Amma gəlib atı qızın əlindən aldı. Atın boynuna bir kəmənd salıb qızlardan araladı. Qayıdıb yolun qırağı ilə gəlirdi. İki xanım oturmuşdu yolun qırağında, tərə almışdılar. Tərə sürtüldülər, tərə arıdırdılar. Özünə dedi, axı bu qızı mən sevdim, haradan bilim bu qız kimdir, harada olur? Gəlib bu xanımlardan soruşdu:

– Salam xanımlar.

Dedi:

– Əleykəs salam, oğul! Oğul, bu at səni yordu haa.

Dedi:

– Bəli, yordu. Xanımlar, bir zad soruşsam deyərsiz?

Dedi:

– Oğul, bilsək niyə demirik?!

– Xanımlar, o qız ki bu atı tutdu saxladı, o qız kimin qızı idi? Haralıdı? Burada olar? Ayrı yerdə olar? Onu tanıyırsız?

Xanımların biri çoxbilmiş, dünyagörmüş qarı idi. Dedi:

– Ay oğul, hən, vurğunsan, olmaya vuruldun?

Dedi:

– Yox xanım, vurulmadım, amma onun qüdrəti məni heyran qoydu. İstəyirəm görəm o kimdir atı saxladı.

Dedi:

– Yox, oğul, bildim vurulubsan. Gözlərin dərinə düşüb. Gözündən əşk[1] tökülür. Sənin gözlərin o xanıma vuruldu.

[1] Göz yaşı

Amma qoy deyim, oğul, o adlı-sanlı bir adamdı, inanmıram onu sənə verələr. O Polad Pəhləvan var burada, onun bacısıdır. Maralanlıdır, indi burada yaşayır, amma bilmirəm verərlər verməzlər. İnanmıram onu sənə verələr, oğul, bizdən demək.

Dedi:

– Olsun. Allah sizi var eləsin, Allah işizə varsın.

Bəli, bunlardan ayrılıb atı gətirdi. Mahmud Bəzirgan gördü Əlinin vəziyyəti dəyişilib, Əlinin gözləri alaca-bulaca çalır. Amma hesabladı hətmən at qaçıb bunu yorubdu. Dedi:

– Oğul, Əli, bə bu halda nəyə?

Dedi:

– Ata, at qaçdı, bir az nəfəsim təngidi, buradan Maralana kimin atın dalısıca qaçmışam.

Amma Əli orada eşqin üzə çıxarda bilmədi. Atasından utandı. Qədim xatir-hörmət var idi. İndikilər deyildi, birdən görürsən ki, dədənin yanında az qalır qızı öpsün qoysun gözünün üstünə! Demir bu mənim atamdı. Baba, burada bir ehtiram var. Bu mənimdir elə, amma bu ehtiram gərək qalarğı ola, qədim elə deyildi.

Mahmud Bəzirgan bunu çox silkələdi ki, oğul, sənə nə oldu, başıva nə gəldi? Bu, deyə bilmədi. Elə ki deyə bilməyib gəlib, firəngilər at aldılar, firəngdən gələnlər, o birisi yerlərdən gələnlər, satlıqlarını satdılar, aldıqlarını aldılar. Müamilələrin eylədilər. Oradan qayıtdılar Türkəmən elinə, Təkə-Türkəmənə. Amma Mahmud gördü ki, Əli günbəgün həm dalı gedir, həm daha ilxıya baxmağa da hövsələsi yoxdur. Daha haman Əli deyil ki, gecə atların şövqündən yata bilməzdi. İş ora yetişdi ki, Əli yavaş-yavaş daha istəyir yorğan-döşəyə düşsün. Gəldi Əlinin qabağına, dedi:

– Oğul!

Dedi:

– Bəli.

Dedi:

– Oğul, nəyə bu hala düşübsən? Sənin nəyindi? Nəyə mənə demirsən? Sənin başında nə oyun var? Sənin dərdin nəmənədir? Nəyə mənə dərdivi demirsən?

Dedi:

–Ata, heç dərdim yoxdur. Bir az naxoşam, o da yavaş-yavaş cürlənərəm. Bir neçə gün çəkər cürlənərəm.

Dedi:

– Yox, oğul, bir gün naxoş, iki gün naxoş, üç gün naxoş. Sən indi Təbrizdən gələndən beləsən, mənə də demirsən. Oğul, bəs mənə də sözüvü açmasan, kimə açacaqsan? Mənim səndən sonra bir kəsim yoxdur, sənin məndən sonra bir kəsin yoxdur.

Amma burada idi ki, Əli dedi:

– Ay ata, icazə versən, mən sözələrimi şeir ilə deyəm, daha sənə belə deyə bilmirəm. Səməndər tək dilim od tutub yanar. Sözümü gərək oxumaq ilə, şeir ilə, saz ilə deyəm.

– Oğul, axı burada saz yoxdur.

Amma burada idi Əli ağacı saz əvəzinə döndərib sinəsinə, götürüb görək məriz halda "Narıncı Kərəmi" ilə burada nə deyir, tərəfindən biz oxuyaq, sizə can sağlığı:

Canım ata, əgər bilsən dərdimi,
Nə müddətdir bir azara düşmüşəm.
Yoxdur bir kimsənə açam sirrimi,
Günü gündən ahü-zara düşmüşəm.

Dərdə[1] Kərəm[2]!
Ha belə gəlmişəm dərdə, kərəm[3]!

---

[1] Qapıda
[2] Dastan qəhrəmanı
[3] Kərəm elə, lütf elə

Qoşaram qəm kotanın
Özümə dərd əkərəm.

Dedi:

– Oğul, bə nəyə? Məndən sonra kimin var? Məndən yaxın kim olacaq? De görüm nə olub?

Söndürən yox atəşimi, közümü,
Bilmirəm ki, necə deyim sözümü?
Kəsilib könlümün səbri, dözümü,
Gözü yaşlı intizara düşmüşəm.

Dərd tüğyan eyləyəndə, ağlamaq gələr insana. Alı həm özü ağladı, həm Mahmudu ağlatdı. Mahmud da gördü bunun dədəsi yox, bir yetim oğlandır. Bir buna gümanı gəlir. Bu da bunun dərdindən xəbərdar olmayıb, özünə heyfləndi. Oğlan dedi, ata da eşitdi, "bu dərdə düşmüşəm."

– Axı oğul, dərdin nəmənədir? Kimi sevibsən? Evlənmək istəyirsən de, evləndirim. Ayrı müşkülün var, de həll eyləyim. Qürbətdə bir adamın var ki, görmək istəyirsən, denə[1] aparım onu gör. Pul ilədir, zor ilədir, hər nə müşkül olsa, həll eylərəm. De görüm sənə nə olubdu?

Tapılmır bir nəfər dərdimi qanan,
Mənəm eşq odunda alışıb yanan.
Təbriz şəhərində sevdiyim canan,
Onun atəşi ilə nara düşmüşəm.
Su dayandı,
Ha belə sel gəldi, su dayandı.
Eşqin oduna su tökdüm,
Od tutdu, su da yandı?

Dedi:

– Oğul, Təbrizdə haradadır? Kimdir? Kimin qızıdır? De

[1] Deмək, söyləmək

görüm, haradır yerin-yurdun? Hansı məhəllədədir? Onu alıb sənə gətirmək, mənim öhdəmdədir. Əgər dərayətimin hamısını sənin yolunda xərcləsəm, elə oğul, mənim də arzum var, mənim də ürəkdə arzum var ki, oğul evləndirəm, oğul toyu eyləyəm. Amma sən indiyəcən mənə heç demirsən ki. Havaxt deyirəm, deyirsən ata, hələ vaxta qalır. İndi də belə?! De görüm kimdir? Allah eləyəydi adlı-sandı adam olaydı, yaxşı qəbilə olaydı, bizə ləyaqəti olaydı, getdiyimə görə sözüm yerə düşməyəydi. Birdən görsən elə qəbilədən oldu, bizə ləyaqəti olmadı.

Amma belə olanda dedi:

– Atacan, qulaq as!

Götürüb görək sözün sonun necə deyir.

Əli bu sözləri eşidəndə, ürəyi aramlaşdı. Gördü bunun da dərdinə əlac eyləyən var. Sevinə-sevinə sözün sonunu belə deyir:

Əliyəm, sevdiyim adlı-sanlıdır,
Cəmalı ay, özü xoş nişanlıdır.
Adı Taclı Bəyim, Maralanlıdır,
Salıb kəməndinə tora düşmüşəm.

Ha belə göz də qara,
Qaş qara, göz də qara.
Yollarına baxmaqdan,
Qalmadı gözdə qara.

Dedi:

– Polad Pəhləvanın bacısı olsa, o adlı-sanlı adamdı, gedib alıb gətirərəm.

Elə də oldu. Mahmud Bəzirgan gəlib Təbrizə elçiliyin eylədi. Mahmud Bəzirgana “yox” deməyiblər. Adaxlandırdılar. Bunlar adaxlı qaldı. Bir neçə aydan-ildən sonra o zamanın rəsmi nəmənə idi, gətirib toyun eylədilər. Taclı Bəyimi,

bəli, gətirdilər Əli Mehtərə.

İndi buradan da, dostlar, Koroğlunun babası Qazançaylı oldu, nənəsi də Təbrizli oldu. O uşaq ki, dünyaya gələcək, Taclı Bəyimdən gələcək. Amma bir neçə il sovuşdu. Mahmud Bəzirgan da ömrünü Əliyə bağışladı. O öləndən sonra, var-dövləti qaldı Əliyə. Alı bir neçə müddət ilxıçılıq elədi. Amma Alının ömrünün axırları idi. Səksən-yetmiş yaşı var idi. Allah Əliyə övlad verməmişdi. Əli axşam başı baxırdı. Eldə gördü hərə yapışıb uşağının əlindən, gəlir evə. Alı qəmgin oldu. Dedi:

– Gör mənim ömrümdən neçə il sovuşur, Allah Təala mənə övlad vermədi. Görərsən bu ocağın yümnündəndir. Elə bax, bu ocaqda Mahmud Bəzirganın da övladı olmadı. Görəsən nəyə Allah mənə övlad vermir?

Bu fikirdə idi, gəldi bir az namazın qılıb ibadət eylədi. Amma çox fikir eyləyib, çox qəmgin olub. Əlini yuxu apardı. Əlini yuxu aparanda, gördü bəli, qapıda bu gedir eşiyə, bir dərvəşdir qəsidə[1] deyə-deyə gəlir. Salam verdi dərvişə, əleyk aldı.

Dedi:

– Oğul, nəyə belə qəmli-qəmli gedirsən? Sənə nə olub belə qəmlisən?

Yuxuda belə görür. Dedi:

– Atacan, nə deyim sənə?

Dedi:

– Olsun, dərdivi de daa.

Dedi:

– Mənim övladım yoxdur. İndi 70-80 sinnim (sənəm) var, mənim övladım olmayıb, bilmirəm Allah mənə nəyə övlad vermir?

Dedi:

---

[1] Şeir növü

– Əli, sənə bir söz deyim?

Dedi:

– De.

Dedi:

– Bəs sən bir elə var-dövlət ilə kimi yada salmısan, Allah səni yadına sala? O var-dövləti neyləyəcəksən? Hansı lüt əyinlər bitiribsən? Ac qarınlar doyurubsan? Hansı yoxsulun əlindən tutubsan o var dövlət ilə? Var-dövlət səndə, hər zad səndə. Sən eyləyə bilərsən övlad da alasan. Allahın qəlbin ələ gətirmək asandı, çox da çətin deyil.

Bu qaçdı ki, baba dərvişi öpsün, elə bil yuxudaydı, ayındı ki, hən! Mən nəyə indiyəcən bu işləri görməmişəm? Bu fikri eyləyib qaçdı baba dərvişi öpsün. Belə qucaqlayanda öpsün, yuxudan ayılıb gördü mütəkkəni qucaqlayıb. Bu oyanıb o gündən başladı ehsan verməyə, sınıq qəlbləri ələ gətirməyə. Bəli, burada idi ki, bir neçə gün ehsan verəndən sonra, Allah Təala da bunun ehsanın qəbul eyləyib bir ilə kimi Allah Təala buna bir övlad kəramət eylədi. Oğlan uşağı idi. Bəli, gün o gün oldu, oğlan dünyaya gəldi. Gətirib bunun adın Rövşən qoydular.

Bir rəvayətdə deyirlər, Ürşən qoydular, bir rəvayətə Rövşən qoydular.

Rövşən nəmənədi? Ürşən nəmənədi? Rövşən işıq mənasında, Ürşən cəngcü[1] mənasınadır. Müntaha[2] mənim ustadım deyərdi bunun adın əvvəldə Rövşən qoydular. Sonra ki 7-8 yaşına, 10 yaşına yetişəndən sonra çox cəngcü idi, davakar idi filan, ona görə buna Ürşən dedilər. Söz yerində olmayanda, bir qırana dəyməz. Rövşən qoydular, çün bizim gözlərimiz işıqlandı bunun olmağı ilə. Yaxşı, Ürşən də buna görə qoydular ki,

[1] Döyüşçü
[2]Aancaq

çün dava axtarırdı. Qədim belə idi, imamların necə bir adı var, bir də ləqəbi var. Məsələn, biri qəmə[1] çəkir, ona Əli Qəmə deyirdilər. Rövşənin də ləqəbi Ürşən oldu.

Bəli, Ürşən böyüməkdə olsun. Bəli, çün Əli var-dövləti xərcləmişdi, yoxsulluğa çatmışdı. Amma təqribən Ürşənin iki yaşı var idi ki, sənə kimdən xəbər verim? Bizim bu Xoy məntəqəsində, Çaldıran məntəqəsində, burada bir Həsən Xan var idi. Həsən Xan ilxı saxlayardı. Amma bu yandan, o yandan xəbər tutur ki, Təkə-Türkəməndə bir ilxıçı var, Alı. Mahmud ölüb, Alı qalıb, özü də Alının əli yoxsulluğa çıxıbdı. Həsən Xanın ilxısı bisahab idi. Həsən Xan bir nəfər göndərdi Əlinin üstünə.

Dedi:

– Alı, bu namə[2] Həsən xandandır, yazıb ki, köç bura, mənim ilxıma yiyəlik eylə, mənim qapımda ilxı otar. Özüvə də nə desən verərəm.

Amma Alı durub Təkə-Türkəməndən köç eyləyib hara? Ya Xoydu, ya Çaldıran. Ancaq Urmiyə tərəfində, Türkiyə tərəfinin Van şəhərinin dövrə-bəridi. Oradan Urmiyə yaxındır. Bəli, gəlib 18 il Həsən xana ilxıçılıq eyləyir.

Bu 18 ildə Alı buna bir ilxı yetirdi ki, indiyəcən Həsən xanın gözü belə bir ilxı görməmişdi. Həsən xanın atlarının sorağı hər yanı tutdu. Alı hər yeri otarmışdı. Daşdan, dərədən, dərya qırağından, 18 ildə örüş[3] qalmamışdı Alının ayağı dəyməsin. Alı qocaydı, özünü çox cavan hiss eyləyirdi. Adamın bir işə eşqi olsa, o işdə ölənəcan cavan olar. Obaşdan durardı, ilxını aparıb otarardı, gecədən də xeylək gedəndə gətirərdi. Alı

---

[1] Xəncər, kiçik qılınc

[2] Məktub

[3] Otlaq

bir gün bu ilxını otarmağı başlayır. Səhər başı idi. Deyərlər, Van gölünün dövrə-bərində ilxı otarırdı. Bizim tərəfdə, dərya qırağındaydı. Bəli, onda gördü hava qaraldı, qovuşdu istədi yağsın. Amma elə qaraldı ki, elə bil şəbi-zülmət oldu. Bəli, hava guruldadı. İldırımlar şaxdı. Gördü ki, bəli, o taydan bir böyük ildırım şaxdı, işıqlandırdı hər yanı, düşdü bu qayanın üstünə, qaya od tutdu yandı, qayadan bir belə də düşdü yerə *(aşıq əli ilə göstərir)*. İldırım qət oldu[1]. Ondan gözünü qaytarmışdı bu yana, gördü dəryadan bir cüt at çıxdı, gəlib bunun atlarının ikisi ilə yaxınlaşdı, qayıdıb girdi dəryaya. Bu iki səhnəni Alı gördü. Bu iki ata nişan qoydu əvvəldə. Dedi, qoy görək bu atlar sonra bala doğacaqlar, ya yox. Ancaq ondan sonra hucumavər oldu[2] yügürdü daşa tərəf. Dedi, gedim görüm orada nə xəbər var? Gəldi gördü bəli, bir belə qaya düşüb yerə. Bu nə daşa oxşayır, nə dəmirə oxşayır. Elə bil ki, simitan[3] kimi bir şeydir. Aldı əlinə vurdu o yan, bu yana, gördü ki, sınmaq bilmir heç hara da düşür, hansı daşın üstünə düşür, daşı aradan bölür tökür yerə. Heç kəsə, heç nəmə[4] demədən gəlib özün yetirdi, bu daşı qoydu xurcununa, dağarcığına. Qədim dağarcıq deyərdilər, xurcun deməzdilər. Dağarcıqda bu daşı gətirib qoydu evə. O gündən bu atları nəzərində saxladı. Zaman günləri saydı. O atların hərəsi bir day doğdular. Uzun qollu, arıq bir day doğdular hərəsi. Bu dayları Alı nişanlayıb böyütməkdə olsun. 18 ildir bu qapıdadır. İndi 18 ili sovub 19 ilə qədəm qoyur ki, Türkiyə şəhərindən, İzmir şəhərindən, Həsən Paşa, oranın paşası idi, gəlir Həsən Xan ilə dostluğu var idi, gəlir qonaq. Şam yeyilib içilmişdi. Söhbət arasında Həsən Paşa dedi:

---

[1] Kəsdi

[2] Yüyürdü

[3] Aşığın açıqladığına görə, bərk və sınmayan bir şeyə deyilir.

[4] Nəm, nam ad deməkdir, burada "kimsə" mənasındadır

– Ay Həsən Xan, eşitmişəm səndə yaxşı cins atlar var, mənə iki dana ayğırlıq cins at verərsən?

Həsən Paşa bu sözü deyən həmən, Həsən Xan “baş üstə” deyib, dedi:

– Əli Mehtər sabahlarıma[1] Həsən Paşaya at seçəcəyik, heç yerə aparmagilən. Bu sözü deyəndə, Alının dərya atları yadına düşdü. Dedi, hən, mən Həsən Xanın başını bu dərya atlarıyla ucalda bilərəm.

Bəli, qoca mehtər idi, istəmədi ilxı ac qalsın. O başdan qalxıb yerindən həman bu atları xalxıda[2] bağladı. İlxını götürüb apardı çölə. Səhər bunlar sübhanələrin yeyiblər, saat 9-10 zamanı idi.

– Hən, Həsən Xan, əgər istəsən mənə iki at seçək.

Dedi:

– Bəli, demişəm atları saxlayıb. Dur gedək seçək.

Gəlib gördülər tövlədə ilxıdan xəbər yoxdur. Amma iki dana arıq uzun, uzun sağırlı[3], uzun qıçlı, heyvərə qulan[4] bağlayıblar ora. Daylara baxıb güldü. Şaqqa çəkib güldü. Həsən Paşa dedi:

– Həsən Xan, mən eşitmişdim səndə yaxşı cins atlar vardı, bu ələlgəlləngədən[5] mənim özümdə çoxdu. Bunlar nəmənədi seçibsən mənə? Elə bunları mənə tikə tutubsan.

Həsən Xan dedi:

– Mənim mehtərim qoca mehtərdir, bilən mehtərdir, bunlar yaxşıdır ki, qoyub sən aparasan.

Dedi:

---

[1] Sabah

[2] Bir başı divara söykənən, bir başı yerə quylanan ağac. Hər atın özünə bir xalxıdası olub, beləliklə bir-birindən müəyyən fasilələrdə saxlanardılar.

[3] Bud ilə dizin arası

[4] Qulun, körpə at balası

[5] Tükü tökülmüş, arıq

– Məlumdur, bunları mən aparsam, mənə ar gələr, bunlara mən heç əlimi də vurmaram, bunlardan qoturluq tökülür. Bunlar nəmənədir mənə rəva bilirsən? Elə bil sən başa düşmədin, qulaq as sənə söz ilə deyim ki, mən səndən nəmənə istəmişəm.

Bəli, “Paşaköçdü” havasında, görək nə deyib, mən deyim sizə can sağlığı.

Sənə deyim ay Həsən Xan,
Mən səndən cins at istədim.
İşindən olarsan peşman,

(*İşindən olarsan peşman, mənə istəyirsən arıq atlarını bənd eyləyəsən? Səni də öldürərəm, mehtərivi də).*

Mən səndən cins at istədim!

Bu sözdə Həsən Xanın qanı qaraldı. Dedi:

– Xan sağ olsun, paşa sağ olsun. Bu da olmasa, mən ayrı at verərəm sənə, nəyə narahat olursan?

Deyir:

Bu işin qəlbimə oxdur,
Atın yoxsa, denə yoxdur.
Bu daylardan məndə çoxdur,
Mən səndən cins at istədim!

– Bunlar nədir mənə verirsən? Oğlan, özüvə huş-baş tap-gilən. Nə özündə huş var, nə mehtərində. Özüvə görə də mehtər tutubsan. Bu nə işdir bir qulaq as.

Həsən deyər, hamı bilsin,
Yığışıb bu işə gülsün.
Bu daylar özünün olsun,
Mən səndən cins at istədim.

Bəli, burada idi ki, Həsən Xan hökm eylədi, gedib Alı Mehtəri gətirin bura. Yetirdi, salam ərz eylədi. Dedi:

– Oğlan, bu nəmənədi veribsən mənim dostuma? Mən sənə deməmişdim ilxını aparma, mən at seçəcəyəm?

Dedi:

– Bu atlar qəşəng atdılar. Mən bunları ki seçməmişəm, bunlar çox yaxşı atdılar. Bunları axırda siz biləcəksiz ki, bunlar necə at olurlar.

Amma Alı bu sözləri deyəndə, Həsən Xan Əlinin qulağının dibindən bir silli vurdu. Həsən Paşa dedi:

– Hən, elə haa! Belə mehtəri heç adam qapıda da saxlamaz. İndiyəcən kim sənə qoca mehtər deyib, iştibah[1] eyləyib, səndən mehtər olmaz. Bunlar nə atıdır mənə vermişsən?

Deyir:

– Həsən Paşa, bu atlar yaxşı atdı. Sən bu atları apar, əgər bu atlar pis çıxsalar, onda mənə nə deyirsən de!

Amma belə olanda dedi:

– Oğlan, götür, mən bunlardan fəqir-füqəraya verərəm qapımda. Bunları mən pəyəmə qoyaram məgər? Bunlardan bir at çıxmaz.

Belə olanda Həsən Paşa dedi:

– Həsən Xan, sənin bir mehtərə gücün çatmır?

Həsən Xan dedi:

– Vurun bunun boynun.

"Vurun" deyəndə dedi:

– Yox, vurma.

Dedi:

– Nəyə?

Dedi:

– Bunu elə öldürmə, bunu gərək zəcr ilə öldürəsən, ləzzət çəkməyə zəhmət çəkə, onda bir seri[2] qurtula.

Amma Əli gördü bunlar başa düşmür. Dedi:

– Həsən Paşa.

---

[1] Yanlış

[2] Bir dəfəlik

Dedi:

– Bəli.

Dedi:

– Həsən Paşa, icazə ver səndən bir neçə kəlmə söz soruşacağam.

– Nəmənədir? Soruş görüm nə soruşacaqsan?

Dedi:

– Bir sözlər soruşacağam, görək atı sən yaxşı tanıyırsan, ya mən! Baba, bunlar yaxşı atdır. Bunlar dərya atıdırlar.

Dedi:

– Sən özün də elə dərya mehtərisən. Sənin özüvü də gərək atasan dəryaya, gedib bunların ilxıçısı olasan orada.

– Qulaq as, indi ki, qəbul eyləmirsən, qoy səndən bir neçə kəlmə söz soruşum. Götürüb "Qəhrəmanı" üstə görək "Qəhrəmanı" ilə nə soruşur? Nəmənə Türk xalqı var, hamısının sağlığına, bu dastanları sevən var, hamısının sağlığına:

Səndən xəbər alım, ay Həsən Paşa,
Bədövdə nişanə neçə gərəkdir?
Dərin dərələrdən, uca qayadan,
Pələng tək tullanıb keçə gərəkdir.

– Axı at gərək dərin dərələri, uca qayaları pələng tək tullanıb keçə! Mən sənə o atı vermişəm!

Dedi:

– Sənin də yavaş-yavaş dilin uzanır haa!

Dedi:

– Qulaq as.

On dördə, on beşə yetəndə, Paşa, yaşı[1],
Şahmartək gərəkdir bədövün başı.

[1] İfadan bir neçə həftə sonra aşıq zəng edib bu misraya düzəliş verməyimizi istədi. Düzəldilmiş nüsxə: "dördündən beşinə varanda yaşı".

Alma tək gözləri[1], almas tək dişi,
Döyüşdə misalı beçə gərəkdir.

– At gərək almas kimi kəsə, alma kimin gözləri ola, beçə kimi döyüşə. Mən o atı vermişəm sənə. Sən şadlığıva şivənlik eyləyibsən.

Dedi:

– Görürəm sənin dilin çox uzanıb, sənin o dilivi mən qısaltmasam, olmayacaq. Qoy şişlər qızsın, indi mən sənə deyərəm.

Amma burada idi ki, sazı Alı götürüb sözün sonun necə deyir, mən oxuyum, hamızın sağlığıza. Bəli, Alı Mehtər sözünün sonunda deyir ki:

Nəyə tökdü qoşa atlar zəhləni?
Namərd olan öz dostundan şəkləni.
Ləli sərraf seçər, yaxşı köhləni,
Alı kimi mehtər seçə gərəkdir.

Yalvarmaq insafdan deyil,
Düşmənə yaltaqlıq mərdə yaraşmaz.

– Əgər atı mən vermişəm, bunları səlah bilmişəm, yox, əgər özüz seçirsiz, yenə ilxı yerindədir. Hirslənməyin də mənası yoxdur. Hankın[2] seçirsiz, gedin seçin.

Dedilər:

– Elə deyil, sən iki nəfəri burada səriyəsən[3]. Səni gərək cəzalandıraq.

Bəli, bu yandan şişlər qızıb. Gətirirlər Alının gözlərin dağlasınlar. Amma Həsən Xan hökm eyləyər, dağlayın gözlərin! Dedi:

---

[1] Gözləri qəzəbdən qızara
[2] Hansını
[3] Sarımaq, dolamaq, ələ salmaq

– Xan sağ olsun, əl saxla!

Götürüb paşaya bir sözlər deyir. Necə iltimas eyləyər, neyləyər? Deyir:

– Qoy mən iltimasımı eyləyim, bilirəm bunlar baxmayacaq.

Zalimə öyünüb, desə də min yol nakişi
Mən qəhrəmanam[1], mərdə yaraşmaz.[2]

Heç biri yaraşmaz nakişiyə olar. Öyünüb desə də mən qəhrəmanam, heç vaxt yaraşmaz. Bilirdi bunlar qəbul eyləməyəcək, amma istəyirdi ki, ayəndədə[3] ki, bir işlər olacaq. Məsələn, Həsən Paşa yalvaracaq, ya Həsən Xan yalvaracaq, bu yalvarmaqlar nəticə verməsin, deməsinlər ki, sən yalvarsaydın biz qəbul eylərdik. Amma götürüb "Tacı" (hava) üstə görək nə deyir, necə söz deyir tərəfindən biz deyək, sizə can sağlığı:

Zalim paşa bir qulaq as,
Zalim paşa bir qulaq as,
Gəl məni mayıf[4] eyləmə.
Eylirəm sənə iltimas,
Gəl məni mayıf eyləmə.

Belə deyəndə, dedi:

– İndi yalvarırsan, bunu əvvəldə işivi düz görəydin, daha yalvarmayaydın. İndi daha şiş qızandan sonra bu sözlər fayda verməz.

Amma belə deyəndə deyir:

Zay deyil, cins atdır bunlar,
Sözümü ariflər anlar.
El yığılar, səni danlar,
Gəl məni mayıf eyləmə.

---

[1] Burada aşıq karıxır.
[2] Dədə Şəmşirin şeirindən bir nümunə
[3] Gələcək
[4] Şikəst, əlil, eyibli, nöqsan

Dedi:

– Elə nə mərbutdu[1]! O adamın ki, günahı var, cəzasını çəkməlidir. Sən günahkarsan! Gərək də mayıf olasan.

Amma görək son bəndini necə deyir:

Alı burada bir də qalmaz,
Haqqı deyən girdə qalmaz.
Zülüm heç vaxt yerdə qalmaz,
Gəl məni mayıf eyləmə.

– Olsun, məndən xoşun gəlmir, mən buradan çıxıb gedərəm. Daha burada qalmaram. Mənim gözlərimi çıxartmayın, ötürün gedim!

Bu haldaydı, Alının yalvarmağına baxmayaraq, şişlər qızışdı, gətirib Alının gözlərin dağladılar. Dad-fəryadı göyə getdi. Amma Alı gözlər dağlanandan sonra bir az çəkildi, oturdu yerdə, bir az huşu başına gəldi. Durdu ayağa, dedi:

– Həsən Xan!

Dedi:

– Bəli.

Dedi:

– Gözlərimi çıxartdın, amma icazə ver, bir qatar da söz deyim, sonra demə ki cərəyan[2] necə oldu.

Alı yanıqlı halda "Yanıq Kərəmi"nin yeri görsənir. "Yanıq Kərəmi" ilə görək bunlara nə deyir, mən oxuyum, sizə can sağlığı:

Ay Həsən Xan, gözlərimi çıxartdın,
İnsaf eylə, məni qovma qapından.
Zülm eylədin, dərd-qəmimi çoxaltdın,
İnsaf eylə, məni qovma qapından.

---

[1] Elə nə əlaqəsi var?

[2] Hekayə

Mən aşıqam dayandı,
Çəmən oldu, ey day andı[1].
Fələk bir iş işlədi,
Zülüm ərşə dayandı.

Dedi:

– Da səni mənim gözüm götürməz, get. İtil mənim gözümdən! Səni gördükcə mənim qanım qaralır.

Deyir:

– Həsən Xan!

On səkkiz il etdim sənə xidməti,
Daymən[2] qapında çəkdim zəhməti.
Budur mənim xidmətimin qiyməti?

– On səkkiz il xidmətimin qiyməti bu idi ki, gözlərimi tökdürəsən əvəzində? Cəzası bu idi? Əcrü padaşı[3] bu idi? O zaman ki, sənin ilxın hər yeri bürümüşdü, onda heç demirdin belə. Bir dənə at seçmişəm ki, hələ nə məlum olar yaxşı-pis, ya qolay çıxacaqlar? Mənim gözlərimi tökdürdün bu atların üstündə, heç insaf eyləmədin. İndi insaf eylə.

Dedi:

– İt gözümün önündən.

Dedi:

– İndi hirslənibsən. Qulaq as!

İndi hirslənibsən, qızıbdır gözün,
Bir zaman hirs yatar, qaralar üzün.
Bir gün görəcəksən, haaa, bu zülmü özün,
İnsaf eylə, məni qovma qapından.

Dedi:

---

[1] Aşığın açıqlamasına görə, çəmənə od vurarlar bozarar, solar, pozular. Burada and təsir göstərməz.
[2] Daima, həmişə, hər zaman
[3] Mükafat

– Bu zülmü bir gün görəcəksən.

Dedi:

– Hələ mənə burada qisas da alır! Səni bir elə günə saldım ki, ha bu dünya üzündə daha işıq üzü görə bilməzsən! İtil gözümün qabağından! Dedim, səni gördükcə qanım qaralır, hirsim tutar özüvü öldürərəm, qana bataram.

Hələ qana batmyıb haa… Gözlərin çıxardıb, hələ qana batmayıb. Deyir, qana bataram, itil gözümün önündən! Amma burada idi, Alı sözün sonun belə deyir:

Əliyəm, günümü eylədin qara,
Bilirəm dərdimə tapılmaz çara.
Amma qocalmışam, gedib qallam avara,
İnsaf eylə, məni qovma qapından.

Mən aşıq məzə qanlı,
Mey qanlı, məzə qanlı.
Qorxuram, vallah nakam öləm,
Yurdumda gəzə qanlı[1].

Bəli, burada idi. Dedi:

– Olmaz, bu qapıdan gərək çıxıb gedəsən.

– Amma indi ki, məni qovalayırsan, heç olmasa o atların üstündə ki, mənim gözlərimi tökdün, özüz də bəyənmirsiz, onları verin mənə, mənim gözlərimə qan verib. Onları verin mənə da, mən onları apararam sataram bir 5 tümən, 3 tümən alaram, keçinərəm, daha mənim keçinəcəyim olmayacaq bundan sonra işə gedə bilməyəcəm. Həddəqəli[2] olar, yenə bir ayımın, iki ayımın xərcin görər. Onları verin mənim əlimə da.

Atları verirlər Alının əlinə. Alı tapdana-tapdana gəlib çıxır öz qapısına. Oğlu Rövşən, ərz eylədim daa… İyirmi sinni

---

[1] Qatil

[2] Ən azı

zadı var idi, indi bu halda. İki illik idi ki, bura gəlmişdi. Bəli, burada idi ki, Rövşən gördü dədəsi al qanın içində gəlir, gözlərindən qan süzür. Amma Rövşənin az qaldı qanı qaralsın. Ürşən dedi:

– Ata.

Dedi:

– Bəli.

Dedi:

– Bu nə işdir?

Dostlar, Ürşən əlini atıb cürəsini[1] götürdü. Ürşən bundan qabaq ki cəngcü idi, aşıq idi, çalıb oxuyardı. Amma cürəsini götürüb basıb bağrına, görək "Koroğlu müxəmməsi"ndə atasından nələr soruşub, atasına nələr deyib, mən oxuyum, sizə can sağlığı:

Canım ata, gözüm ata,
Söylə nədir bu hal səndə?
Səni hardan tapıb xəta?
Söylə nədir bu hal səndə?

Deyir:

– Oğul, danışdırma ki, elə zalimlərin, xanların, paşaların işləri budur. Nə qədər adam xidmət eyləyə, axırda adamın beləsi əməyin əlinə verərlər. Oğul, narahat olma!

– Ata, necə narahat olmayım?

İyidəm, dözmərəm dərdə,
Fürsət vermərm namərdə.
Qoymaram qan qala yerdə,
Söylə nədir bu hal səndə!

Dedi, oğul, belə olubdu. Amma dedi:

– Bu işə mən dözə bilmərəm. Bir qulaq asgilən, ata!

---

[1] Balaca saz

Rövşənəm, meydan quraram,
Paşanı, xanı qıraram.
Zalimin boynun vuraram,
Paşanı, xanı qıraram,
Söylə nədir bu hal səndə?

Dedi:

– Oğul, mənim sözümə baxırsan, yoxsa yox?

Dedi:

– Nəyə baxmıram?

Dedi:

– Hən, indi ki baxırsan, mənə möhlət ver, səninlə danışacağam.

– Necə?

Dedi:

– Oğul, indi qisas vaxtı deyil. Bir neçə vəsiyyətim var ki, onlara əməl eyləyəcəksən.

– Nə vəsiyyəti?

Dedi:

– Gəl otur yerə!

Onu oturdub yerə. Bunun gözlərinə hələ dərmandan zaddan, o zamanın dərmanı nəmənə idi, yarasına qoydular. Amma dedi:

– Oğul, sənə bir neçə vəsiyyətim var, bir-bir deyəcəyəm, nə eyləyəsən. Qisas vaxtı da deyəm, qisasımızı alaq.

– Xob[1], vəsiyyətin nədir ata can?

Durub gedib əvvəldə ərz eyləmişəm ki, daş tapdı, ildırım daşı tapdı, gedib onu gətirdi, dedi:

– Bu daşı, oğul, görürsən?

Dedi:

[1] Yaxşı

– Bəli.

Dedi:

– Mənim bir dostum var, Usta Murad adında. Usta Murad da deyərlər buna, Usta Süleyman da. (*Bir rəvayət Usta Murad-dır, bir rəvayətə görə Usta Süleymandır*). Amma bu Təbrizdə-dir, gedərsən bu daşı apararsan, verərsən ona, deyərsən ustad bir dana bundan qılınc qayır. Deyərsən mən filan kəsəm haa… Çün bunun işi çətindir, bundan qılınc qayırmazlar.

Bəli, burada idi ki, durublar. Bir atı var idi, Koroğlunun – Rövşənin, atı minib üz qoydu Təbrizə. Gəlib Usta Muradı, ya Usta Süleymanı tapdı. Dedi:

– Salam əleyküm.

– Əleyki-salam. Oğul, keç gəl otur!

Dedi:

– Usta bir qılınc istəyirəm səndən.

Dedi:

– Mənim poladım Misirdən gələr, gəlməyibdi. Dözərsən, sənə bir qılınc düzəldib verərəm.

Dedi:

– Ustad, poladın ilə işim yoxdur.

– Bə hən?

Dedi:

– Ustad, sənə bir parça gətirmişəm, bundan mənə bir qılınc qayırasan.

Usta Murad alıb baxdı, gördü ki, oğlan, bunun işi çox çətindir, bunu qılınc qayırmaq olmaz.

Dedi:

– Oğul, bundan mən qılınc qayıra bilmərəm. Bu sənin özüvün olsun. Mənə polad gətir, sənə yaxşı qılınc qayırım verim.

Bu dedi, o dedi, əl məndən ətək səndən. Dedi:

– Qəbul eyləmərəm.

Amma burada, dostlar, “Koroğlu dübeytisi” üstdə Ürşən görək bu qılınc qayırana, ustaya, necə yalvarır. Mən sizə ərz eyləyim, oxuyum, sizə can sağlığı.

Usta, and verrəm Allaha,
Yaxşı qılınc qayırgilən.
Tələsik iş yaxşı olmaz,
Olanda dinc qayırgilən.

Dedi:

– Oğul, mən bundan qılınc qayıra bilmərəm.

– Nəyə?

Dedi:

– Eyləyənmərəm. Bu sənin özüvün olsun. Yerin var qal, yoxdur, get beş gündən sonra gəl sənə qılınc qayırım.

Dedi:

– Ustad?

Dedi:

– Bəli.

Dedi:

– Qulaq as, sözümün o birisi bəndinə. Qulaq as, neçə bənd sözüm var axı birin demişəm.

Dedi:

– De görüm!

Götürdü görək necə deyir:

Davalardan gəlsin səsi,
Səsi qorxutsun hər kəsi.
Poladdan olsun dəstəsi,
Nə ki bürünc qayırgilən.

Dedi:

– Oğul, mən dedim bu mənim işim deyil. Bundan qılınc olmaz.

Deyir:

– Ata, icazə ver.

Birdən atasının sözü yadına düşdü. Deyir, axı mənim dostumdur, məni degilən.

Deyir:

– Mənimlə etmə cədəli!

Ustad hirsləndi. Dedi:

– Oğlan qaç get, baş-beynimi aparmagilən. Get kim qayırır onu qayırsın.

Deyir:

Mənimlə etmə cədəli,
Sözlərimə söylə bəli.
Atamdır ilxıçı Əli,
Versə də rəş qayırgilən.

– Mən ilxıçı Əlinin oğluyam, məni məgər tanımırsan? Məni atam yollayıb.

Belə olanda durub oğlanın üzündən öpdü. Dedi:

– Bunu səhərdən degilən! Sənin atan bu çətin işləri mənə nəyə yollayır, axı? Baba bundan qılınc olmaz. Amma çün sənin atan yollayıbdı, ona görə mən bunu qılınc qayıraram. Axı oğul, bu nəmənədir ki, bir belə buna təkid eyləyirsən gərək bundan qılınc ola?

Görək sözün sonunu götürür necə deyir.

Rövşən deyir, bil, ay kişi!
Bu daşdır, ildırım daşı.
Bilirəm çətindir işi,
*(Bilirəm bunun işi çoxdur amma)*
Əlləş, çalış qayırgilən.

– Day[1] mən gəlmişəm sənin qapıva.

---

[1] Daha

Amma burada idi ki, daha qoymayıb ayrı yerə getsin. Gətirib öz evində qonaq eylədi. Düzdü, çox çəkdi bu qılıncın qayırması, çün daş almas idi, əzizlər. Ona görə qılıncı qayırandan sonra gördü bəli, bu qılınc döydükcə ağzı seyqəl götürür. Gözəl bir qılınc olacaq. Öz-özünə fəxr eyləyirdi, iftixar eyləyirdi Usta Süleyman ki, elə bu qılıncın bu oğlana da ləyaqəti vardı. Çox da yaraşır bu oğlana. Qəşəng qılıncdır, bu oğlana da yaraşır. Yaxşı oldu ki, bu qılınc bu oğlanın əlinə düşdü. Qılınc hazır oldu. Ustanın haqqını verib. Usta pul almırdı, amma Ürşən ustanın haqqını verdi. Dedi:

– Atam deyib ki, pul almasa qılıncı gətirməgilən.

Bəli, mənim kimin fürsətdən istifadə eyləmirdi ki, bir nəfər mən ilə dost oldu, hər zəhmətimi salım onun başına. Bəli, pulu verib, amma qılıncı verəndə dedi:

– Oğul, sən neçə gün qabaq mənə dedin mənə qılınc qayır. Amma bu qılıncı verirəm sənə, qulaq as, bu qılıncın üstündə bir neçə kəlmə də söz deyirəm sənə.

Götürüb dəmirçi görək Ürşənə nə deyib, tərəfindən mən deyim, sizə can sağlığı. Bunu da "Narıncı havası" ilə:

Sənə deyim igid oğlan,
Bu qılınc Misri qılıncdır!
Oğul, movazib ol!
Yağılara verməz aman,
Bu qılınc Misri qılıncdır!

Deyir:

Düşmənlərin bağrın sökər,
Zalim görsə haşa çəkər.
Poladı da kəsib tökər,
Bu qılınc Misri qılıncdır!

– Sən bunu polada da vursan, elə bil pendirə vurursan. Düzdü məni yordu, amma qılınc oldu! Bu qılınc, Misri qılıncdır.

Amma belə dedikcə, Ürşənin xoşuna gəlirdi. Gözü qılıncdaydı, Allah navaxt onu verəcək mən də əyəm gətirəm o yan, bu yanın bir-birinə yapışdıram görəm bu neyləyir? Amma deyə də bilmirdi usta ver baxım! Götürüb sonunu görək necə deyir:

Usta Murad sənə ata,
Düşmənlərin yasa bata.
Məndən sənə budur əta,
Bu qılınc Misri qılıncdır!

Qılıncı götürüb sevincək ustanın əlindən öpdü, üzündən öpdü, ustadı razı salıb, özünü yetirdi atasının yanına. Atası baxdı, bu qılıncın o yanından gətirdi qəmzəsi ilə ucunu dayadı bir-birinə, ötürdü qılıncı. Amma, qılınc fənar[1] kimi gedib göyə, gəldi düşdü yerə. Qılınca heç zad olmadı. Dedi:

– Hən, bu mən deyən qılıncdır. Oğul, bu qılınc sənin əlində olsa, dünya sənin cavabıvı verə bilməz, əvvəl Allah. Amma bu vəsiyyətlərimin biri idi, ikinci vəsiyyətimə əməl eyləgilən.

Dedi:

– İkinci vəsiyyətin nəmənədir?

Dedi:

– İkinci vəsiyyətim də budur, dur buradan köçək!

Bəli, durublar oradan, evin kara gələn vəsayillərindən[2] vurdular atlara, bu atları da götürüblər. Bəli, gecə ilə oradan çıxdılar. Sabah axşama qədər yol gəldilər. Özlərini yetirdilər bir çay qırağı güllü-çəmənli bir yerə. Orada oturaq eylədilər. Əli dedi:

– Oğul, bura necə yerdi?

Rövşən dedi:

---

[1] Yay, ox
[2]Ev əşyaları

– Ata can, bura gül-çiçəkli, sulu, çeşməli, çaylı-çəmənli, gözəl bir yerdir.

Dedi:

– Oğul, burada oturaq eyləyə bilmərik.

–Nəyə?

Dedi:

– Burada mal-qaranın, gəlib-gedənin ayağının altında qalarıq. Dur ayağa, gedək görək haranı tapırıq.

Durub bir gün də yol gəldilər. Bir düzəngahlığa yetisdilər. Axşam yetişiblər, dedi:

– Oğul, bura necə yerdir?

Dedi:

– Bura ucu-bucağı görünməyən, dağ təpəsi olmayan, hər yeri ovuc içi kimi hamar olan, düzəngahlıq bir yerdir.

Dedi:

– Oğul, burada da qalanmarıq. Burada karvanların, mal-qaranın, köçənlərin, gedənlərin ayaqlarının altında qalarıq. Burada ev salmaq olmaz.

Durub gəlib, yenə gecəni istirahət eylədilər. Səhər açıldı, üzüzə xeyir açılsın! Amma minib atlara yenə yol başlayıb gəlməyə məşğul oldular. Gəldilər özlərini yetirdilər hara? Həmin bu Çənlibel ki var, Çənlibel Türkiyənin... Çıxdılar dağın bir qədərinə. Yetişdilər dağa, axşam oldu. Alı soruşdu:

– Oğul, bura necə yerdir?

Dedi:

– Ata, bura bir sıldırım qayalı, daşlı-kəmərəli, uca dağlı, başı duman çiskinli bir dağ belidir.

Dedi:

– Hən, oğul, biz burada qalacayıq. Bizim yerimiz buradır. Bura Çardaqlı, Çardaqlı Çənlibel deyərlər. Oğul, biz burada

qalmalıyıq. Özümüz üçün bir dam, atlar üçün bir tövlə düzəldəcəyik.

Orada həmkarlıq eyləyiblər. Bəli, bunlar bu işi burada gördülər, amma atları saldılar tövləyə. Özü oturdu orada. Bir neçə gündən sonra Rövşənə deyir, atlara yetiş. Rövşən atlara yetişir. Atasının ilxıçı təcrübəsindən də istifadə eyləyir. Gündə bu atlara yetişir. Bir müddət keçəndən sonra dedi:

– Oğul, istəyirəm atları görüm.

Gəlib atları gördü. Dedi:

– Atlar necədir, oğul?

Dedi:

– Ata, o ki sağ tərəfdə bağladığım at, dəyirman kimi bir şeydir. Nə otun yetirə bilirəm, nə suyun yetirə bilirəm. Hər nə atıram qabağına dəyirman kimi dartır yeyir. Sol tərəfdəki də yaxşıdır, amma buna çatanmaz.

Gəlib baxdı. Əvvəl sol tərəfdəki atın baldırların, qıçların, yaltaqların, topuqların bir tumarladı. Sonra keçdi sağ tərəfdəki ata. Sağ tərəfdəki atı tumarlayanda, gördü baldırının aşağısında, gördü bir barmaq keçən bir yer vardı.

Dedi:

– Oğul, bu tövlənin işıq gələn yeri yoxdur ki?

Dedi:

– Nəyə ata, bu ağacların arasından bir barmaq keçən işıq gəlir düşür bunun üstünə.

Dedi:

– Oğul, barmaq keçən yerdən dünyacan soyuq gedər. Demişəm bunların üstünə gərək gün düşməyə, nəyə qoyubsan bunların üstünə gün düşüb? Tez oranı da basdır.

Oranı da basdırır. Bir müddətdən sonra yenə Alı tövləyə getmək istədi. Gəlib atlara bir baxdı. Sığalladı, tumarladı. Gördü da atlar daha minik vermək istəyirlər, minilmək istəyirlər.

Daha daylıqlarını sovdular. İndi at cüzvüsünə keçiblər[1]. Dedi:

– Oğul, atları çıxart bir sınağa çək, mingilən.

Əvvəldə sağ tərəfdəki atı açıb gətirdi. Dedi:

– Oğul, bunu sal şumluğa, əvvəl zığa sal, palçığa sal, şum batlaq yerə, sonra qaytar gətir mənim yanıma.

Koroğlu – Rövşən, bu işi gördü, amma gətirdi. Alı qulağın dayadı atın sinəsinə, burnunu tutdu, baxdı ki, görüm təntimir. Baxdı gördü heç nəfəsi də təntimir. Gəlib ayaqlarına baxdı, baldırlarına baxdı, dırnaqlarına baxdı, gördü heç zad olmayıb. İndi o birisinə o işi gördü. Alı həmin işi bu birsinə də gördü. Baxanda gördü dalı dırnaqlarının üstünə bir az zığ yapışıb. Gördü ki, bu at bunun kimin deyil. Amma zığı silib dedi:

– İndi atı sal qara tikanlığa.

Atı saldı qara tikanlığa. Əvvəl həman atı ki saldı, gətirdi yenə də Alı baxdı dırnaqlarına, baldırlarına. Gördü ki, hamısı öz yerində bərqərardı. Sonra o birisi ata həman işı gördü. Ona da baxdı. İstəmirəm dostlar söhbət uzansın. Ona da həmin işi gördü. Gördü, bəli, bu da yaxşıdır, amma dalı dırnaqların bir az tikan cızıbdır. Dedi:

– Yaxşı, indi oğul, atı sıldırım qaya-daşlığa salgilən.

Amma həman atı sıldırım qayalara salanda qızıl quş kimi sıldırım qayadan uçub, dolanıb qayıtdı gəldi Alının yanına. Alı baxdı gördü heç zad olmayıb bunun dırnaqlarına, barmaqlarına, ayaqlarına. Sonra o birisinə də həmin işi gördü. Dedi:

– Oğul, bunlar indi sınaqdan çıxdı. Amma bir söz var.

Dedi:

– Nəmənədir?

Dedi:

– Bunla sən hər iş görə bilərsən. Bu atın adın qoyuram

[1] At sayılırlar

Qırat, əvvəlinci ki, sağa bağlayırsan. O birisinin adın qoyuram Dürat. Bu Qırat oldu, bu Dürat oldu. Bu sənin yanında olacaq. Davalarda səni çox yerlərdə qurtaracaqdır. Oğul, bu atdan göz ol. Canın da getsə buna qoyma bir zad olsun. Bu at ayrı bir atdır. Amma, indi bir vəsiyyətim qaldı. Ona da əməl eyləməlisən.

–Ata o nəmənədi?

Dedi, oğul, burada bir sıldırım qayanın, görsətdi əli ilə orada ki, başında uca yer var. Dedi:

– Bəli.

Dedi:

– Oğul, orada iki dənə bulaq var, Qoşabulaqları deyərlər. Bu bulaqlar, hər yeddi ildən yeddi ilə bir ulduz gün batandan çıxar, bir ulduz gün çıxandan, gələr bu bulaqların üstündə o ulduzlar bir-birinə dəyər. Ulduzlar bir-birinə dəyəndə, o bulağa bir nur düşər o ulduzlardan. O nur düşəndə, o bulaqların suyu köpüklənib qalxar göyə. Hər kəs o suyun köpüyü ilə yuyunsa, onun qüdrəti çoxalar, onun qüdrətinə heç kimin qüdrəti çatmaz. Hər kəs o sudan bir zərrə içsə, həm qəlbinə şeir gələr, həm Allah buna bir səs verər ki, yeddi ağacdan yeddi ağaca nərəsi gedər. Nərə çəkəndə hamilə xanımlar uşaq salarlar.

Dedi:

– Oğul, bu işi gedib görə bilərsən. Amma gördün, üçüncü vəsiyyətim budur ki, o sudan bir az da mənə gətir.

Dedi:

– Eybi yoxdur.

Ürşən gəlib kəməndi götürüb gəldi. Baxdı gördü, bir az o yandan su axır, bir az bu yandan su axır, dağın başından. Qayanın üstü duz yerdir, amma çıxmaq olmur. Kəməndi atıb daşların yarıqlarına saldı. Çox çətin müsibət ilə dırmaşıb getdi üstə. Gördü, bəli, bulaqlar çıxır gəlir vəsətdə qarışır. Dübarə gəlir, qaya ki iki haça olur, orada ayrılır, bir azı o yandan

tökülür, bir azı bu yandan. Orta çəməndir, çəmənin üstü bir ağacdır. Ağacın altı iki dənə bulaqdır. Biri bulağın sağındadır, biri solundadır. Sevinir deyir, atam gör məni hara yollayıb! Amma dedi, oğul, bu həftənin içində bunun vaxtıdır, bilirəm gələcək, amma həftənin əvvəli gələ, axırı gələ... Müntəzir qalacaqsan gələcək, demişdi. Koroğlu – Rövşən, üç gün gözlədi. Bundan bu yana da, dostlar, bu Koroğlu oldu. Rövşəndir – Ürşəndir, bu adlar bundan götürüldü, oldu Koroğlu. Bundan bu yana biz gərək Koroğlu deyək buna.

Koroğlu neylədi? Gözləməkdə olsun. İki gün gözlədi. Üçüncü gün, cümə axşamı idi, axşam idi, gün batan çağı idi, bu zamanlar idi, bundan bir az qabaq idi. Gördü bəli, bir ulduz gün batandan gəldi, biri gün çıxandan, bunlar belə (*Aşıq əlləri ilə göstərir*) dəydi bir-birinə. Bir nur töküldü bulağa, bulaqdan su köpükləndi, qalxdı gəldi bu havya (*Aşıq əlləri ilə görstərir*). Tez qabı doldurub tökdü başına. Amma Koroğlu birini də doldurub içdi. İstədi üçüncü qabı doldursun. Əyildi ki, üçüncü qabı doldura, gördü köpük yatdı, su qayıtdı göz yaşı kimin, durna gözü kimin axmağa başladı, haman su oldu. Koroğlu çox peşman oldu, dedi, kaş əvvəldə atama su dolduraydım. Amma bir az məlul-müşkül[1] oldu. Qayadan enib gəlib aşağı. Atası gördü oğlan gəldi, amma vəzi bir az müşküldür, bir az qəmlidir.

– Oğul, nəyə qəmlisən?

Dedi:

– Atam sağ olsun, mən bir səhv eyləmişəm ona görə. Mən gərək əvvəl sənə su götürəydim ondan sonra bu işləri görəydim. O işi də gördüm, sənin dediyinə əməl eylədim. Əvvəl ki, suyu başıma tökdüm, ikinci qabı içdim, üçüncü qabı istədim ki, dolduram, gördüm köpük yatdı, day haman su olmadı. Qabı

---

[1] Dərdli, narahat

doldurdum, amma o su olmadı.

Dedi:

– Oğul, burada bildim ki, mənim ömrümün axırlarıdır. Bu gecəni yataq, sabahlarıma gedək Həsən Xandan qisasımızı alaq.

Bəli, gecəni səhər eyləyiblər. Səhər durdular. Dedi:

– Oğul, Qırat səninkidir, Düratı da mən minəcəyəm.

Koroğlu Qıratı minib ayaqdan geyinib başdan qıfıllandı, başdan geyinib ayaqda qıfıllandı. Amma neylədi dostlar? Atı miniblər. Gəlib çatdılar Həsən Xanın şəhərinə. Həmin Çaldıran məntəqəsi idi, ya Xoy şəhəri idi. Orada ki, Türkiyə mərzinə yaxındı. Bəli, gəlib çatdılar. Qədim xanların, paşaların imarətinin qabağı böyük meydan olardı: həm at sürməyə, həm orada aşıq oxuyardı. Xanlar, paşalar, şahlar aşıq oxudardı yanında. O meydanda görərdin ki, camaatı yığardılar orada aşıq oxuyardı, at sürərdilər, at dolandırardılar. Gəlib, həmin imarətin qabağında böyük meydan idi, Alı uca səs ilə Həsən Xanı səslədi:

– Ay Həsən Xan, çıx gəl eşiyə görüm.

Həsən Xan eşiyə çıxanda gördü, bəli, Alı Mehtərdir. Bir atın üstünə minib, atın mislü-manəndi yoxdur. Şahbaz kimi at ucalıb gedib göyə. Dalı tərəfdə də oğlu Ürşəndir. Baxdı ki, onun atı bununkundan da gözəldir. Onun atının qaş-qabağından Əzrayil suyu tökülür. Dedi:

– Həsən Xan, bunlar həmin atlardır ki, bu atların üstündə mənim gözlərimi tökdün. O zaman dərya atlarının balası idi, mən Həsən Paşaya rəva gördüm bunları. Dedim, bunlar yaxşı at olarlar, Həsən Paşaya rəva gördüm, sən qəbul eyləmədin. Amma indi gəlmişəm səndən qisas alam.

Dedi:

– Məndən?

Dedi:

– Bəli.

Dedi:

– Oğlan, sən mənə nə eyləyə bilərsən ki!

Bu yandan Ürşən dedi:

– Çıx gəl meydana, qisas vaxtıdır. Bunu bil ki, mən o zaman gəlirdim səni öldürəm, qoymayam salim[1] qalasan, atam saxlayıb bu günə.

Bəli, burada idi ki, dostlar, mən bir "Cəngi Koroğlu" deyəcəyəm. Ürşən dedi:

– Saxla!

Gördü Həsən Xan qılıncı çəkir endirsin Alıya. Dedi:

– Bir əl saxla! Bir neçə bənd sözüm var sənə deyim, ondan sonra görək sən nə deyirsən biz nə deyirik.

Deyir:

– Sən nə deyəcəksən ki? Mənim indi qoşunum gəlib səni tikə-tikə eylərlər. Dedi:

– Sənin qoşunun?

Dedi:

– Bəli.

Dedi:

– Qulaq as...

*Amma, dostlar, burada bir "Koroğlu" havası oxuyacağam. "Cəngi Koroğlu"dur. Bu sözlər necə ki, ustad Namvəndən mənə qalıb, bu havalar da ustad Namvəndən qalıb. Bu "Cəngi Koroğlu"nu da o oxuyardı. Necə ki, toyda ayağın vurardı yerə, mən də onun nəqşini[2] gedəcəyəm, toyda necə oxuyardı, mən də bax bu meydanda, bu Koroğlu meydanında, Həsən Xanın meydanında, mən də bax belə oxuyuram ba:*

---

[1] Sağ-salamat

[2] Rol

Qoşun gəlib məni alsa arayə,
Şirəm, bu meydanda eylərəm cəngi.
Bədənim bölünsə parça-parayə,
Mən qəbul etmərəm bu namü-nəngi.

– Həsən Paşa, mən səni çoxdan qətlə yetirəcəkdim, atam məni saxlayıb.

Dedi:

– Sən?

Dedi:

– Bəli.

Dedi:

– Sən eyləyə bilməzsən. Sən tək burada nə eyləyə biləcəksən?

Dedi:

– Həsən Xan, qulaq as sözümün o birisinə:

Gəlibdir əcəlin, çatıbdır vaxtın,
Daha gülməyəcək üzünə baxtın.
Kəsərəm başını, yıxaram taxtın,
Qalmaz sarayının səng üstə səngi.

Dedi:

– Çox yekə danışırsan! Özündən yekə sözlər deyirsən.

Dedi:

– Qulaq as, sözümün sonuna, gör səni neyləycəyəm.

Peymanəmi dərin yerdən doldurram,
Saraldaram, gül rəngini soldurram.
Koroğluyam, bu gün səni öldürrəm,
Mənəm Əli qullarının yekrəngi.

Deyir:

– Mən Həzrət Əlinin qulamıyam, səni də bu gün burada öldürəcəyəm.

Hücum eylədi Həsən Paşa Əlini vursun. Koroğlu qızıl quş kimi sıçrayıb Həsən Paşanın boynundan bir qılınc vurdu. Amma qılınc başı elə vurdu, elə bil şor xiyarı böldü saldı yerə. Həsən Paşanın başı düşdü meydanın bir tərəfinə, özü də düşdü bir tərəfinə. Burada idi, dostlar, qoşun hücumavər oldu [1] bunların üstünə. Bəli, elə ki, qoşun hücumavər oldu bunların üstünə, Koroğlu sağdan qırır soldan çıxır, soldan qırır, sağdan çıxır. Bir tərəfdən Qırat, bir tərəfdən Dürat. Amma Alı kişi gördü ki, qoşunun sayı çoxalır. Hərdən Koroğlu bir nərə çəkir. Nərə çəkəndə qoşun özünü itirir, amma yenə də çoxalır qoşunun sayı. Burada idi ki, Alı dedi:

– Oğul, bilirsən nə eyləyəcəksən?

Dedi:

– Nə eyləyəcəyəm?

Dedi:

– Bir tərəfdən bir yol aç qov, çıxaq eşiyə, kəmənd atarlar tutarlar, girə düşərik, öldürərlər. İyidlik əgər ondursa, doqquzu qaçmaqdadır, biri heç gözə görünməməkdədir.

Burada idi, Koroğlu atları bir cövlana gətirdi, gördü qoşun qoymur atlar bir qədd açа[2]. Amma götürüb burada bir "Türkü Koroğlu" üstə atlarına nə deyir, mən ərz eyləyim, sizə can sağlığı. Harda qalmışıq? "Türkü Koroğlu". Ahan! Bəli, dostlar, indi bu siz, bu da "Türkü Koroğlu":

Ceyrana bənzər qaçışız,
Ay mənim qoşa atlarım.
Tərlana bənzər uçuşuz,
Ay mənim qoşa atlarım.

Amma Alı gördü Koroğlunun səsi gəlir. Elə bil oğlu

---

[1] Hücum elədi

[2] Özünə gələ

oxuyur. Belə dönəndə gördü atlarına tərif deyir. Dedi:

– Hən, oğul? Xoşuva gəlir?

Dedi:

– Ata, baxıram atlara şövqə gəlirəm. Amma qulaq as o birisi tərifə:

Kəsdirrəm gümüşdən yəhər,
Tumarlaram axşam-səhər.
Çıxın kənara bir təhər,
Ay mənim qoşa atlarım.

Koroğlu söyləyər belə,
Tərifiz yayılar elə.
Qalxın gedək Çənlibelə,
Ay mənim qoşa atlarım.

Dostlar, bu sözləri deyəndə atlar şövqə gəldilər. Qırat qoşunu dərinə kimi yara-yara vurdu yol açdı. Koroğlu qıra-qıra, Qırat yara-yara, Dürat da onun dalısıca. Bəli, yol açdılar. Amma özlərini çıxartdılar qırağa, bunlar qaçmağa başladılar. Qoşun bir miqdar[1] bunların dalısıca getdi. Amma qoşun bunları yetirənmədi[2]. Bunlar getdilər. Bir az gedəndən sonra Koroğlu qayıdıb dalıya baxanda, gördü bir dəstə kəhər atlı budur haa, yetirdi ki, yetirdi! Dedi:

– Ata, bir dəstə kəhər atlı yetirir, nə eyləyək?

Dedi:

– Atları sal şum batlağa.

Bəli, atları saldılar batlağa. Kəhər atlar gəlib şum batlaqda, hamısının əl-ayağına palçıq batıb yapışıb. Ancaq yol aparanmadılar bunlar, çıxdılar. Ona görə baxırdı görüm

[1] Bir az, bir zərrə
[2] Çata bilmədi

Qıratın, Düratın dırnaqlarına, baldırlarına palçıq yapışır, yoxsa yox. Görürdü ki, xeyir, yapışmadı. Bəli, bir az keçəndən sonra Koroğlu və atası gedirdi. Əli dedi:

– Oğul, bax gör daha gələn yoxdur?

Baxdı, dedi:

– Nəyə ata, bir dəstə qara atlı budur az qalır yetirə.

Dedi:

– Oğul, atları sal qara tikanlığa.

Bəli, atları saldılar qara tikanlığa. Qalan atlıları da orada şil-küt elədilər. Daha bunları tuta bilmədi. Oradan da çıxdılar, az getdilər, uz[1] getdilər. Koroğlu bir də qayıdıb baxanda geri, gördü bəli, bir dəstə ağ atlı budur gəlir. Dedi:

– Ata, elə bil qurtulacağımız yoxdur, bir dəstə ağ atlı budur gəlir.

Dedi:

– Olsun oğul, gəlsin daa, atları sal sıldırım qayalığa.

Atları saldılar sıldırım qayalığa. Oradan da bunlar keçdilər, olar gələ bilmədilər.

Dostlar, onlar töküldülər, dağıldılar. Bunlar gəldilər, öz yerlərinə yetirdilər. Siz də sağlıqla mətləbizə yetişəsiz! Amma Əli dedi:

– Oğul, mənim daha ömrümdən beş gün qalmır, bir vəsiyyətim var. O da ibarətdir bundan ki, oğul, burada Bəy Dəli Həsən var. Dəmirçi oğlu Dəli Həsən deyərlər. Bu yerdə ondan özüvü gözlərsən. Ya onla dostluq qurarsan, dostluq da qurmasan düşmənlik eyləməgilən, ondan sənə zərər gələr. Ondan o yana heç kəs sənə bir söz deyə bilməz.

Bəli, çün Taclı Bəyimi, dostlar, orada əldən vermişdi, bura gətirməmişdi. Orada ki, ilxıçı idi, Taclı Bəyim ölmüşdü.

[1] Ustaca

Bunlar ikisi gəlmişdi bura. Sonra bir neçə gündən sonra atası da ömrünü sizə bağışladı. Aparıb o qoşa bulaqların ətəyində atasını dəfn eylədi.

Yavaş-yavaş Koroğlunun dəlilər başına cəm olurdu[1]. Neçə dəli yığmışdı başına. Bir gün bir kef məclisi qurmuşdu. Baxdı dəlilərinə, baxdı özünə. Burada axır oxumağı oxuyur Koroğlu. Bu qolun sonudur, oxumağımızın da axırıdır.

Baxdı dəlilərinə, baxdı özünə. Bəli, istəyir görək nə desin dəlilərinə və özünə? Mən ərz eyləyim, sizə can sağlığı. Belə deyir "Sulduzu" havasında:

Bu dünyada, bu dünyada
Ay erməni, xan erməni.
Qaş-qabağı şan erməni,
Getmə, burda qal erməni.[2]

Dəlilərdən güc alaram,
Bu dünyada, bu dünyada.
Paşalardan, zalimlərdən bac alaram,
Bu dünyada, bu dünyada.

Allahı çağırram dada,
Zəhmətlərim getməz bada.
Paşalara sallam qada,
Bu dünyada, bu dünyada.

Amma sözün o birisini belə deyir. Bəli, deyir:

Zalimləri ağladaram,
Paşaları ağladaram.

---

[1] Yığışmaq
[2] "Əsli-Kərəm" dastanından bir parçadır.

Zalim qolun bağladaram,
Sinələrin dağladaram,
Bu dünyada, bu dünyada.

Sözün sonu:

Düşmənin bağrın oyaram,
Dərisin çəkib soyaram.
Koroğluyam, ad qoyaram,
Bu dünyada, bu dünyada.

Bəli, dostlar! Koroğlunun dəlilər başına cəm olmaqdadır. Bu gündən başlayıblar burada qalıblar. Gedirdilər zalim paşalardan, zalimlərdən bacü-xərac[1] alırdılar, gətirirdilər verirdilər olmayanlara. Koroğlunun bu qolları burada sona çatır. Daha ayrı qola keçmirəm. Düşmənizin ömrü sona çatsın, sizin ömrüz sona çatmasın. Bu dastan, beləliklə, burada başa çatdı. Bəli, mən bildiyimi ərz eylədim oracan ki, əlimdən gələn qədər, yadımda var idi ərz eylədim xidmətizə. İnşallah, siz də həmişə şad, dilxoş qalasız. Allah sizi həmişə şad gündə saxlasın. Dəm versin, amma qəm verməsin. Sağ olasız, salamat qalasız.

[1] Vergi, qənimət

# KOROĞLUNUN İSTANBUL SƏFƏRİ
# (NİGAR XANIMIN ÇƏNLİBELƏ GƏTİRİLMƏSİ)

Əziz və mohtərəm təmaşagerlərimiz[1], salam ərz elirəm xidmətizə. Allahdan isdiyirəm dünya durduxca şaddıxda və dilxoşduxda yaşayasız. Dosdarımız təvəccüh eləsin, bura əlan ki, gəlmişix, bu navar ki oxuyacax, "Koroğlu"nun dastanıdı. Çənlibelin darvazasının ağzındayıx.... Uzaxda gedəmmirix yaxına, çün o tərəflərdə xətər[2] çoxdu, yaxın gedə bilmirix. Çən vardı. Əlan[3] o çəni ki görürsüz, çən içində Çənlibeldi ki, burda biz "Koroğlu" dastanını ifa eliyəcəyix tamam eşidənnərimizin, tamaşagerlərimizin sağlığına. Bəli, əziz və möhtərəm tamaşagerlərimiz, çün bizim bu bərnaməyə (proqrama, layihəyə) gəlişimiz musadifdi[4], peyğəmbərimizin məbəsiynən[5], rusumatı aşıxlıxdı[6], hər dastanın əvvəlində divan oxuyar. Burda, peyğəmbərimizə race (görə) bir divan oxuyacam. İmidvarəm[7], eşitdıxca şaddıxda yaşıyasız. Divanımız budu, bax:

---

[1] Tamaşaçılarımız (ə+t) Təmaşa "momaşat" kökünə bağlı ərəbcə dözən, səbirli, yolaverən, deməkdir. "Gər" isə burada fars dilində edici (bir işi edən) mənasını ifadə edən şəkilçidir. Demək, "Təmaşa" (ə) + "gər" şəkilçisi (f) + "lərimiz"(t).

[2] Təhlükə bu söz ərəbcə "ixtar" sözündən alınıb xəbərdarlıq mənasını verir. Lakin farslarda bu ifadə "qorxunc" və "təhlükə" anlamında işlədilir.

[3] İndi, hazırda

[4] Təsadüf edir

[5] Məbəs, yəni Tanrı tərəfindən peyğəmbərliyə qəbul edilən gün. Bu günə "Peyğəmbər bayramı" da deyilir.

[6] Aşıqlığın dəbi, adət-ənənəsi

[7] Umuram, ümidvarım

Ya Məhəmməd, aşukar oldu dildə bəyanın sənin,
Ərşi-əsmanda[1] deyilir şokət, şənin sənin.
Yetmiş min gəldi şəniyə, yüz on dörtdə isbatın,
Amma həqiqətən cilvələnib, namı, nişanın sənin.

Dübarə:

Behiştən çırax gətirdin, yol görsətdin ümmətə,
O dəyqə ki, cahana qədəm qoydun, son verdin cəhalətə.
Hər kəs ki, sənnən danışdı, mat qaldı ədalətə,
Küllü-aləmdə oxunar hədis, Quranın sənin.

Dübarə:

Ver səlavat peyqəmbərə hacətin olsun rəva[2],
Sidqi dildən çağırasan dərdiyən[3] eylər dəva.
Olsa dağlarca günahın özü eyliyər şəfa,
Məhmud oğlu sidqi dildən olub qulamın sənin.

Bəli, əziz və mohdərəm eşidənnərimiz, indi gedirix dastanın idaməsinə qulax verəx. Dastanımız "Koroğlu"nun dastanıdı. O dəyqələr ki, Çənlibeldə təzə gəlib məsgən salıb. Hər yannan, hər diyardan addı-sannı oğlannar Koroğlunun adını eşidənnər, o oğlannar ki, zulmu qəbul eləmir, sitəmi qəbul eləmillər, üz qoyublar, "Koroğlu" deyip yığışıplar Çənlibelə. Amma Koroğlu İstanbul bazarında dolananda günnərin bir günündə İstanbul paşasının qızı Niyar xanımı görmüşdü. Niyar xanıma əlaqə yetirmişdi[4]. Niyarın eşqi Koroğlunun vücudunda şolə[5] çəkildi. Lap belə cavannıx vəxləridi, Koroğlu o dəyqələr

---

[1] Asimanda, səmada
[2] Diləklərin yerinə yetsin, hasil olsun
[3] Sənin dərdinə
[4] Sevgi bəsləmişdi
[5] Alov

ki, dağda-daşda məskən salıp, gecə-gündüz bilmir. Amma dəlilər dovrəsin tutub yığışdılar Koroğlunun başına. Koroğlu-ynan söhbətdəşillər, gördülər Koroğlunun bir az vəzi[1] qarışıp. Elə bi köhdədi Koroğlu, dindirməğ olmur beləsin. Dəlilərdən soruşdular:

– Ay Koroğlu, indi ki sənin adın-sanın, avazən, şöhrətin dünyanı tutub, hər yerdə sənin adın diyilir, aaya, sən nədən narahatsan? Əgər qəmin var, dərdin var, əgər bir diyacəğın var, sözün var, o dəyqə hökm elə biz gidəx o sözü yerinə yetirəx.

Amma Koroğlu dinmədi. Dübarə dəlilər səsdəndilər:

– Ay Koroğlu, elə bil dərdin çox dərindi, niyə danışmır-san?

Amma Koroğlu genə qəbul eləmədi, dinmədi. Üçmüncü dəfə diyəndə Koroğlu dedi:

– Oğul, bu dərt elə bi dərtdi ki, heç kəs bu dərdin əlacın eliyə bilməz. Fəqət[2] gərəh özüm eliyəm.

– A Koroğlu, nəyin dərdidi?

Koroğlu yavaşcana dedi:

– Balalar, mən İstanbul şəhrində dolananda İstanbul Paşasının qızı Nigar xanımı görmüşəm. Çənlibelin indi təşgilatı düzəlip, hər nəmənəsi[3] yerindədi, amma Çənlibelin xanımı yoxdi. Niyar kimi analar gərəh gəlip Çənlibeldə qalalar.

Dosdar, ta cavannarımız, igiddərimiz, analarımız Nigar kimin analardan öyüd alalar. Burdaydı ki, dəlilər üz tutdular:

– Ağa Koroğlu, əgər icazə versən, İstanbulu bir dəfə çəkax ota, Niyar xanımı ordan götürax gəlax biləyin[4].

---

[1] Halı, durumu
[2] Yalnız
[3] Hər şeyi
[4] Sənin üçün

Amma Koroğlu qəbul eləmədi. Dedi:

– Oğul, bu bir bərnamədi ki, hər igid, hər kişi öz məşuqəsinin, öz istəhlisinin dalınca gərəh özü gedə.

Dedilər:

– Aa Koroğlu, qəbul eladix, özün də gəl. Amma icazə versən, biz də gəlax sənnən.

Vəli [1] Koroğlu qəbul eləmədi. Dedi:

– Oğul, bala, qulax verin görün nə deyirəm.

Həmin sözdəri Koroğlu Çəmlibeldə deyir ki, isdiyir dəlilərdən xudafisdəşə. Həmin burdan indi biz Çənlibeli ki görmüşüx, başı çəndi, dumandı görsənmir. Ordan istiyir hərəkət eliyə, gedə İstanbula tərəf. Amma hamı sözdəri təvəccüh eləsinnər burda. Burda Koroğlunun əvvəlinci qatar sözdərin özüm oxuram saz-sözünən. Bəli, əzəli və mohtərəm tamaşagərlərimiz. Əlan həmin sözdəri saz-sözünən oxuyaram, təmamieşidənnərimiz, tamaşagərlərimizin sağlığına:

İyid gərəh yar almağa,
Özü təh[2] gedə, təh gedə.
Elə diyiri, paşalar qəddin əyməğə,
Özü təh gedə, təh gedə.

İgid gərəh yar söyməğə[3],
Özü təh gedə, təh gedə.
Müxənnət qəddin əymağa,
Oğul, özü təh gedə, təh gedə.

Amma dəlilər üz tutdular:

---

[1] Ancaq
[2] Tək
[3] Sevməyə

– Ay Koroğlu, biz sənin qüdrətən, hünərən, gücünə vaqifik.[1] Bilirix səndə nə güc var. Amma icazə versən qoy biz sənnən gəlax. Tək ötürə bilmərix səni.

Amma Koroğlu dübarə ikimincisin daha belə deyir:

Niyarın şirin dilləri,
Bağrıma sancar milləri.
Oğul, Həsən bala,
Uzax-uzax mənzilləri,
Özü təh gedə, təh gedə.

– Gərək təh gedəm Niyarı gətirəm. İstanbulda Paşalar bilələr ki, kimnən tərəf olacaxlar və Niyar xanım gərəh özü də bilə ki, kim gedib Niyar xanımı gətirib. Əgər təh getməsəm, Niyar gəlip Çəmlibeldə darıxar. Niyar Çəmlibeldə qala bilməz, amma igiddigimi, şucayətimi görsə, onda gəlip Çəmlibeldə sakin olur, qalar.

Orda dəlilər üz tutdular:

– Ay Koroğlu, İstanbul dərya kimi moöc vurur[2], minlərcə qoşunnarı, düşmənnər var orda, Allah eləməmiş, gedərsən təhlix əl verər, giriftar olarsan.[3]

Amma Koroğlu dedi:

– İcazə verin. İcazə verin görün nə deyirəm?

Dola polad yarağına,
Düşə igid sorağına.
*(Haşa eşidənnərimiz)*[4].
Yüz tülkünün qabağına
Özü təh gedə, təh gedə.

---

[1] Arxayınıq, bilirik
[2] Dəniz kimi dalğalanır,qaynayır, coşur
[3] İlişib qalarsan, çətinliyə düşərsən mənasında
[4] Eşidənlərimizdən iraq olsun

Qılış (qılınc), əmu, şeşpər, ox, yay, tir, kəman, kəmənd, xədəng, aşırmalar, çatışmalar, sinəbəddər, həmayıllar, dizdixlər, çiyinnixlər, qubbalar, biy[1] pəhlivanın ki, rəsmidi yerdə gəlib oları götürə, özü səfərinə idamə verə[2] yoluna, həmin vəzinən düşə sorağına. Amma, "yüz tülkünün qabağına, özü təh gedə, təh gedə".

Koroğlu burda özün əslan hesab eliyirdi. Yəni, İstanbulun qoşununun, paşanın ləşgərin[3], haşa eşidənnərimiz, tülkü hesapliyirdi. Amma dəlilər yenə qəbul eləmillər:

– Ay Koroğlu, icazə versən hədd-əqəl[4] beş-altımız sənnən gəlax.

Vəli Koroğlu qəbul eləmədi. Sözün axırın daha belə diyib, oxuyuram ellərimizin sağlığına:

Koroğluyam, etməm haşa,
Atı sürürəm dağa, daşa.
Amma Qırat döşdətməgə[5] paşa,
Özü təh gedə, təh gedə.

Koroğlu sözdərin tamama yetirdi. Hər nə qədər dəlilər dedilər, amma Koroğlu qəbul eləmədi. Heç imkanı yoxdu, dedi, qəbul etməm. Özüm təh gedacağam. Əziz və mohdərəm tamaşagərlərimiz, əlan ki, mən oxuyuram, Koroğlunun qarılarının[6] bi dənəsinin ağzının qabağında durmuşam. Be murur zəman[7] ora dolup, tutulup, amma içəriyə girmax imkanı yoxdi.

---

[1] Bir
[2] Davam edə
[3] Ordusun
[4] Ən az sayda
[5] Döşünə qatmağa
[6] Mağaralarının, köhüllərinin. Söz yazılışda "Ğar" yazılır –غار, ancaq "qar" oxunur.
[7] Zaman sürəcində

Daşdar dağdan ənib gəlip tutuplar oranı. Gözə görsənmir ki, burda dəlilərdən, mehtərlərdən giriblər içəridə imkanı var, saxtuman[1] ola içərisi. Amma Koroğlu indi dəlilərdən xudafisdəşib, üz qoyub İstanbula tərəf getməxlığə. Qıratın zin[2] – nizamın bərkidib. Qiçin qoyub xaneyi[3]-üzəngidə qəral tutub. O vəzinən dəlilərdən, mehtərlərdən, qulamlardan xudafisləşip, hərəkət eliyip İstanbula tərəf. Dəlilər dedilər:

– Ağa Koroğlu, bu səfər nəkqədən çəkəcəx? Nə müddətə kimin gələ bilərsən?

Koroğlu dedi:

– Oğul, getməx mənnəndi, gəlməx Allahın əlindədi. Taa Niyar xanımı gətirməsəm, gəlmiyəcəm.

Burdaydı Koroğlu atun başun döndərib, Çənlibeldən üzü aşağı ənip, İstanbula tərəf yol gedir. Amma söhbətdə mənzil olmaz, Koroğlu nə müddətdi yol gedir. Dağları, qəyələri, yalları, caddaları[4], şikargahları aşa-aşa, tamam ölkələri geçib, o yerdə ki, istirahət eliyacax lazımdı, düşür istirahət eliyir. O yerdə ki, sildirim qəyələrə rast gəlir, eyni bu qəyənin tayı ki, mən burda, qabaxda durmuşam. Qıratı vurur, eyni quş kimin qəyələrdən çıxıb gedir yuxarıya. O vəzinən gəlip çatır, dosdar, İstanbulun dərvəzasına. Eyni dağın üstündə dayanıp, tamaşa eliyirdi ki, dərvəzadan nə qılıx[5] varid[6] olam içəri, Nigarı nə qılıx tapıb gətirə biləcəğəm.

---

[1] Bina, burada yaşayış yeri mənasında
[2] Yəhər
[3] "Xane" farsca ev deməkdir, burada isə üzənginin halqası mənasında işlənmişdir.
[4] Yolları
[5] Yol-yöndəmlə
[6] Daxil olmaq

Bi qədr[1] fikr elədi, gördü hər bir işin bir təhri[2] var. Hər işi gərəh öz təhriynən yoluna vırasan. Koroğlu gördü əgər bu qılıx girəm, musəqimən[3] xəbər alam, küçədən, xiyabannan, ağa, Niyarın bağı haradı, hara gələr, onda giriftar ollam Niyarı tapa bilmirəm. Bəs gərəh axtaram bir yoxsul adam tapam. Gərəh axtaram, bir elə adama rasd[4] gələm ki, pul ehtiyacı ola, onun təvəssütüynən[5] gedəm Nigarı tapa biləm. O vəzinən Koroğlu dərvəzadan İstanbula musyəqimən varid oldu, geşdi dərvəzadan içəriyə. Şəhrin, dosdar, pullu yeri də bəlli elər, pulsuz yeri də. O ki, varlılar, doölətdilər, sərvətdilərdi, görəsən şəhrin əsli xiyabannarında lab belə dərəcə yek yerlərdə sax-tımannarı[6] çəkiplər gediplər ərşi-əsmana[7]. Olar ki kar-ka-sıpdılar, geçinəmillər, şəhrin kənar bucağında, qıraxlarında, geçinillər. Koroğlu üzün döndərdi. Lab belə şəhrin kanarıynan gəlir. Bir dənə kasıb xiyabanı tutup, o cür xiyabannan gəlir ki, tozdu-dumandı, xakidi[8], asvalt-zad olmuyub, daş döşənmiyib, gəlib çatdı gördü bi dənə dəyirmançı dayanıp dəyirmanın qabağında. Bəllidi ki, bunun işi zadı da yoxdi. Lap belə yoxsul, kasıp babanın bir dənəsidi. Koroğlu gördü əgər mən getməli də olsam, gərək munun evinə gedəm. Atdan düşüb, salam verdi. Qoca salamın rədd elədi.[9] Halın soruşdi. Dedi:

– Yorulmayasan.

---

[1] Bir qədər
[2] Yol-yöndəm
[3] Birbaşa
[4] Rast gəlmək, tuş gəlmək
[5] Onun yardımı ilə, vasitəsilə
[6] Uca bina, çox qatlı, yaxud çox mərtəbəli evlər
[7] Göyün üzünə
[8] Torpaqlıqdı
[9] Cavabını verdi mənasında

Koroğlu cavap verdi:

– Sağ olasan, qoca əmi.

– Oğul, kimsən? Burda neynirsən?

Həmin vəzinən, dosdar, Koroğlu əlamət verdi. Dedi:

– Qurban, qəribəyəm, qonax gəlmişəm.

Dedi:

– Axı sənin kimi bi dənə ağa, bu məntəqədə qonax ola bilməz. Gərəh gedəsən şəhrin o birsi yerlərinə, böyüh başlar yanına gedəsən.

Koroğlu dedi:

– Mən qəsdən gəlmişəm bura ki, kasıb adamlara qonax olam.

Onnan ötür ki, dosdar, divarlar yıxılıp, qapının ağzında quşlar yuva salıp, təxtələr aralanıp bir-birinnən. Elə bi köhdədi bu adam. Bi dənə qanı alıp salammır həyətinə. Koroğlu gördü qəribə yerə gəlmişəm. Muna yaxçı köməhliğim geçər əgər bir qolay rahnimaylığ[1] eləsələr. Varid oldular içəri. Qıratı çəkip istəblidə bərkidib, otdan, ələfdən töhdülər qabağına.

Koroğlu gəldi içəri gördü, buların vəziyyəti xarapdı. Əl atıp cibinnən bir qədr[2] puldan, qızıldan, cavahiratdan verdi həmən qocanın xanımına ki, qəri bir arvatdı, qocalıp, əlamət verdi dərəcə yek qəzalar[3] düzəldəcəxsən. O ki, Koroğlunun qəzasıydı, dosdar, dəsdurun verdi. Qəri soruşdu:

– Genə gələcaxlar? [4]

Dedi:

[1] Yol göstərmək
[2] Miqdar
[3] Yeməklər, qidalar
[4] Yəni, başqa kimsələr də gələcək?

– Yox, elə bu qəza mənim öz məmuli[1] qəzamdı.

Qəri özün verip bazara ki, nəmənə alacax alıp gətirip. Qəzanı amadə[2] eliyənnən sohra çəhdilər qəzanı yedilər. Elə ki, qəzanı yedilər, qəri bi özün verdi kişinin yanına. Xəbər aldı, dedi:

– Kişi.

Dedi:

– Han.

– Sən ölmüyəsən, bu söz sahab adamdı. Bunun işi düşüb gəlib buriya. Əgər vaquzar[3] eləsən mənə, diyərsən xanım bilər, mən bilmərəm. Mən bunnan yaxçı pul kəsəcəm. Billəm bunun işi var, gəlib bizə. Bu cür bi adam heş vaxt kasıb adamın evinə gəlməz.

Bəli, dosdar, buraydı ki, Koroğludan soruşdu qoca:

– Qonax.

Ehtiram elədi:

– Bəli.

Dedi:

– Hələ adıyın soruşmamışıx. Amma istiyəm görax işin nəmənədi? Bura niyə gəlmisən? Aya, bizim əlimizdən bi köməhlix gələr? Eliya billih ki, sənə bi xidmət eliyəx?

Koroğlu gördü, hə, sözün yeridi. Gərəh burda sözümü diyəm, dedi:

– Qoca, elə məxsusən gəlmişəm sizin evizə ki, sən mənə köməxlig eliyəsən.

Dedi:

---

[1] Mənə aid, normal
[2] Hazır
[3] İşi mənə tapşırsan

– Əlbətdə, mən sənə köməhlix eliyə bilməm. Hər nəmənə diyəcəxsən, xanıma diyəcəxsən. Sənin əgər işin olsa, o bilir neyniyacəxdi. Mənim əlimnən gəlməz.

Koroğlu burda üzün tutdu qocaya sarı. Dedi:

– Qoca, qulax ver gör nə diyirəm.

Dosdar, indi əlan bu dəyqə, bu bərnamədə dastanımızın sözdəri, yanı Koroğlu diyən sözdəri ki, dəyirmançının evində qocaya deyir. Cənabı ağaye Aşıx Məhbub oxuyacax. İmidvaram, eşitdixcə şaddıxda yaşıyasız. Lütf eləyin, görün Aşıx Məhbub nəmənə oxuyacax?

Əlan qoç Koroğlu qoca babaya oxuyur, toozih verir ki, nədən ötrü gəlmişəm, niyə gəlmişəm buraya. Əlan həmin sözdəri "Koroğlu" möhtərəmsiynən oxuaram tamam eşidənnər sağlığına. Dedi:

Qoca baba, qoy sözdərimi şeyirnən, saz, sözünnən deyim ki, təfil alasan nədən ötrü gəlmişəm.

Qoca baba, ölkəyizə üz tutub,
Biy qız sorağına gəldim, ha gəldim.
*(O qız ki, onnan ötrü gəlmişəm, Osman gözəlidi.)*
Osman gözəlinin düşdüm eşqinə,
Açıx qabağına gəldim ha, gəldim.

Əvvəl sözü diyəndə, dusdar[1], qəri ordaydı, qocanın yannından bi dimsih saldı:

– Ahay, qoca.

Dedi:

– Sözün nəmənədi, xanım? Bə niyə bə belə elisən?

Dedi:

[1] Dostlar

– Biz buna bələdçi olsax, əgər bilsəx kimnən ötrü gəlip, onu tapıb, buna nişan versəx, yaxçı xələt, yaxçı ənam, yaxçı pullar alacayıx bunnan. Əgər biləm kimnən ötrü gəlib, özüm aparıb onu nişan verəcəm burasına.

Amma qoca üzün tutdu Koroğluya:

– Aşıx, sən kimsən? Hardan gəlmisən? Adın nəmənədi? Aya, diyə bilərsən ki, biz səni tanıyax?

Ərz eliyim, ərz eliyim.
Qıratı çapdırıp, yollarda yordum,
Döyüş meydanında mərdanə durdum.
Adım Röşən iyid, Çəmlibel yurdum,
*(Adım Röşəndi, yurdum, məkanım,*
*mənzilim, Çəmlibeldi – orda ollam.)*
Laçın öylağına gəldim ha, gəldim.

Qarı gülümsəndi, dedi:

– Qoca, gördün mən diyəndi. Bu, bi qizdən ötrü gəlip, amma o kimdi, istiyax onun adın bizə desin.

Üzlərin tutdular:

– Aşıx, kimnən ötrü gəlmisən? O adam ki söhbətin eliyisən kimdi, kimin qızıdı?

Ərz eliyim, ərz eliyim:

Koroğlunun əskiy olmaz qovqası,
Paşalarnan düşər cəngi, dəvası.
İstanbul şəhrində, xotkar balası,
*(Kiçiy adamın qızı dəyil,*
*İstanbulda, yani paşa balasıdı).*
Niyar surağına gəldim ha, gəldim.

Qəri gördü, pəəh, böyüh yerdən yapışıp. Gör kimin tərəfidi bu? Paşanın qızı Niyar xanımnan ötrü gəlip. Amma görüm, aşıx, sənin üçün neyniyə billəm?

Dastanımızın idaməsi nə cür olacax, əlan ustad Mənaf idamə verəcax, tamam elimiz sağlığına.

Eşidənnərimiz o qılıx ki aşıx Məhbub toozih verdi, ta qəri biləndə ki, Koroğlu gəlib İstanbula Niyardan ötrü, paşanın qızıdı, əlamət verdi qocaya dedi:

– Kişi, yaxçı oldu. Əgər icazə verisən, mən danışam, bilirəm neyniyəcəğəm.

Həmən vəzinən, dosdar, qəri üzün tutdu Koroğluya. Səsdəndi:

– Ağa Koroğlu, elə bi söz dedin ki, heç imkanı yoxdu, biz bu işi yerbəyer eliyə bilmərıx.

Koroğlu dedi:

– Qəri, iş sənin əlindədi. Əgər sən düz desən, hər işi yerbəyer elərsən. Dedi:

– Kişi belə mənim qanıma tamam olacax. Yanı öldürəllər biləmi ha, da bir də məni görəmməz bu qoca kişi.

Koroğlu gördü, hən, iş gəlip pul yerinə. Dedi:

– Bax, qəri, bax nə qədəm pul istəsən, verəcəğəm. O qədən qizıl, pul verəm ki, həqq-hesaba gəlmiyə.

Həmin vəznən, dosdar, qəri gördü hə, yeridi gərək istiyəm. Dedi:

– Ay Koroğlu, sənin üzünnən geçəmmirəm. Çünki əlaqəm çoxdu. Adın da eşitmişdim. Qəlbdən xatirin istərdim, işqalı yoxdi. Gedərəm, amma imkanı var, bilələr məni öldürələr. Hətda qocanı da öldürələr.

Burdaydı ki, Koroğlu əl atıb cibinnən bir-iki-üş çəngə qızıl verdi. Dedi:

– Qəri, görər, ya görməz ?

Dedi:

– Müxdəsərən, görər, day istəmirəm sənə artıx əziyət verəm. Amma, ay Koroğlu, bi bərnamə var.

–Nəmənədi?

Dedi:

– Sabah cümədi. Niyar xanım kənizdər, dayələrnən gələcəx Gülşən bağında dolanmağa. Çün mən həmişə onun bağında bərnaməyə gedirəm. Mən eliyə billəm, bu pulu ki, sən mənə vermisən, fəqət bağı sənə görsədəm uzaxdan, da ayrı bi yerə gələmməm.

Həmin vəzinən Koroğlu dedi:

– İşqalı yoxdi. Sən bağı mənə görsətsən, qəri, nəmənə istəsən, dübarə genə verəcəğmam.

Gecəni qocanın evində qalıplar. Az qalın şəvəx[1] sökülə, qərənquluxdi. Koroğlu durqazıb[2] hərəkət elədilər, gəldilər, dosdar, bağa tərəf. Bağı uzaxdan Koroğluya nişan verdi. Dedi:

– Ay Koroğlu, o bağ Nigarın bağıdi – Gülşən bağıdi. Kəniz, dayələrnən büyün burda bərnaməsi var. Da əgər apara biləsən, aparammıyasan, Niyar gələ gəlmiyə, buların heç biri mənə mərbut olan dəyil. Mən bərnaməni qutardım (O işi ki, sənə demişdim, onu yerinə gətirdim).

Amma Koroğlu ordan qəriynən bərabərrixda qəyitdilər. Gəlip subhanəsini[3] yiyip, nə qədən də pul ki, qəriyə vəracağdi dubarədən təzəşdən verip. Gün təzə çıxıp dağın üsdünə. Lap belə labeyi-tiğ diyəllər,[4] o vəzidədi. Koroğlu çıxıp atın zin – nizamın bərkidip. On yeddi parça polada qərq olup. Dosdar, üsdünnən kürk geyinip, sazı çiynində həmayil eliyip, səvar

[1] Şəfəq
[2] Oyatdıb, durquzub
[3] Səhər yeməyini
[4] Ülgücün kənarı, iti, kəsər hissəsi

oldu xiyabannarın biriynən gəlip bağın ətrafına yetirdi. Gördü, bax bu bağın duvarınnan girmağ olmaz. Əgər özüm də girsəm, Qıratı çəkəmməm eşigə. Nə yaxçıdı gedəm elə bağın qapısın döyəm, bağban gələ, yol alam, varid olam içəriyə.

Koroğlu, dosdar, gəlib axtarıb bağın qapısın tapdi. Ta bağın qapısın tapannan sora bağın qapısın tıqqıldadıp, o cur bağban gəldi qapıya. Gördü yekkəsəvar bir tək atdıdi. Çox qəvi heykəl, yekə bi adamdı. Səsdədi:

– Aa, kimsən? Sözün nəmənədi?

Dedi:

– Mən gəlmişəm bağa gedəm bi səyahət eliyəm.

Əlamət verdi:

– Bu bağa girmağ olmaz, çünki Nigar xanım gələcax büyün burda dolanmağa, heç imkanı yoxdu, erkəh əsli[1] qədəğəndi bura. Yanı bilsələr məni yizə-yiyzə[2] doğrallar.

Burdaydı ki, dosdar, Koroğlu, üzün tutdu bağbana sarı, dedi:

– Əgər sən istəsən də, istəməsən də mən bu bağa giracağam. Amma istiyirəm sənin dediğinnən ola.

Dedi:

– Əgər qoymasam, genə girəcaxsan bağa?

Koroğlu dedi:

– Sənnən dəyil, mən bağa giracağam. Amma qulax ver gör nə deyirəm. Əgər qəbul eləsən, bağa girsəm, sənə də burda bi şuğl[3] verəcəğəm.

Dedi:

– Xub, sən kimsən? Nəmənə şuğlu mənə verəcəxsən?

---

[1] Kişilərin, kişi xeylağının

[2] Balaca-balaca, xırda-xıda, tikə-tikə

[3] İş, məşğuliyyət

Koroğlu dedi:

– İsdirəm da burdan bu yana İstanbulun sərpərəsliğın özün alam ixtiyarıma, yanı burda hökmran olan.

Bağban tamaşa eliyirdi. Gördü bu nə qırığ (qırıx) adamdı. Ya məstdi huşu başında dəyil, ya əğli yoxdi, ya da zoru çoxdu, zoru əğlinə güj gəlir. Amma Koroğlu bağbana hansı sözləri deyir, oxuyuram dosdarımız, ellərimiz sağlığına. Var olsun ellərimiz! Belə deyir:

Yeni bi sovdadı gəlip başıma,
Paşanı, xotkarı təxtinnən sallam, inşallah.
Heç acımam yağıların gözünün yaşına,
İstanbulda qılış çallam, inşallah.

Bağban bi-üş-dört qədəm getdi dalıya. Gördü belə qəvi heykəldi. Səsi bir dəfə adamın qulaxların tutur. Elə bil top açır danışanda. Dedi: “Oğlan, ola-olmuya elə bu doğru diyir. Bax bunnan hər nə dessən çıxar. Şayət paşa ola, hələ biyas da[1] o yana gedə”. Bağban dal-dalı gedir, amma gözlər qalıb Koroğluda. Koroğlu gördü bağban bərk qorxub, səsdədi:

– Oğul, hara gedisən? Dayan, dayan sözüm var.

Bağban dayanıb:

– Ağa, sözün nədi?

Koroğlu dübarə:

Uca dağ başında tutaram cəngi,
Qırata çəhdirirəm qızıl üzəngi.
Qırram İstanbulu, Hindi, Firəngi.
Amma, sahibi-səltənət ollam, inşallah.

Bağban diqətinən baxırdı. Gördü hələ İstanbul heeeç, diyir Hindinən, Firəngi də qırıb dağıdacağam. Yanı bu belə

[1] Bir az da

başliyib isdiyir təmam dünyaya hakim ola. Bağban bir beş-on qədəm də getdi daliya. Dedi, birdən kirıxar məni də vurar. Bu ki, belə başdıyıpdı, adam ötürmüyəcəxdi. Qoy qaçam, gizlənəm. Amma bağban isdir gedə, Koroğlu Qıratı sürüb geşti bağbanın dal tərəfdən qabağın kəsdi. Səsdədi:

– Oğul, sözüm var?

–Xub, ağa, sözün nəmənədi?

Bağban dayanıb, Koroğlu dubarə deyir. Bağban gördü xeyir e, dəstbərdar dəyil.[1] Səsdəndi:

– Ağa, bu iş nə zaman olacax? Nə vaxt burda hakim olacaxsan? Nə zaman paşanı təxtinnən salacaxsan?

Ərz eliyim, ərz eliyim. Bəli.

Qıratımı bəsləmişəm təhrində,
Amma gözəl yoxdur, nazlı yarın təhrində.
Cümə günü İstanbulun şəhrində,
Sahibi-səltənət ollam, inşallah.

Dosdar, bağban Koroğlunun Qıratının adın eşitmişdi. Qırat adı gələndə bağban elə rəngi qaşdi, Koroğlu gördü əslən bunda qan qalmadı. Az qalır bağrı çatdıya, “Gözəl yoxdu, nazlı yarın təhrində, amma cümə günü İstanbulun şəhrində, sahibi-səltənət ollam, inşallah”. Ta bu sözü diyəndə bağban barmaxlarıynan hesap getdi. Həftələri saydı, belə gəldi qabağa gördü, sən ölmüyəsən, düz cümənin öz günüdi, lap vəxtı yetirib. Bağban qalxdı əyağa, Koroğlunun düşdü çökdü rikablarına. Qədəmlərinnən öpür, Koroğlu qoymadı. Dedi:

– Oğul, neynirsən?

Dedi:

[1] Əl çəkən deyil

– Ağa, qurbanın kəsəydim, vəxti yetirib sən, sən büyün paşa olacaxsan. Bax, mənə qəzəbin geşməsin. Əgər kəm ehtiramlıx eləmişəm, öz böyühluyunən bağışlayacaxsan. Bağın qapışın açam, varid ol içəri. Amma bi yerdə şəkdəyəm.

– Hə.

Dedi:

– Sən kimsən? Qıratı bəsi gətirdin?

Koroğlu burda sözün axırın belə deyir, ərz eliyim dostlarımız, ellərimiz, tamam tamaşagərlərimizin sağlığına:

Qarışmayın Koroğlunun işinə,
Toz qondurram düşmənlərin ləşinə.
Əslan kimin özüm vurram qoşuna,
Öz adıma sikkə çallam, inşallah.

Bağban qapını aşdı. Koroğlu səsdəndi:

– Oğul, nə qədər mən bağdayam, heç kəsa demiyəcaxsan kim gəlib bağa. Amma qool verirəm sənə, bir qeşəh xidmət eliyəcağam.

Varid oldu bağa. Gəlib örgəndi çəravizin[1] kənarın. Gördü əgər Qıratı burda saxlasam, gəlsələr görəllər. Çəkib aparıb bağın bir tərəfində, uzax bi yerdə Qıratı saxladı. Gördü bağın o tərəfi açıxlıxdı. Əgər Niyarı gətirə bissəm[2] burda Qıratın yanına, bağın o tayınnan çıxıb gedərəm. Həmin vəzinən dosdar, Koroğlu indi burda amadədir. Muntəzir olur, Niyarın gəlməxliğin gözlür. Burda vir ring (ahəng) çalıram. İmidvaram, şaddıxda yaşiyasız, bu du baaax...

Bəli, əziz və mohdərəm tamaşagərlərimiz, salam ərz eliyirəm xidmətizə. Allahdan istiyirəm dünya durduxca şaddıxda

---

[1] Otlağın
[2] Bilsəm

və dilxoşduxda yaşayasız. Gedirix dastanımızın idaməsinə qulax verəx. Geçən bərnamə, geçən şumarə navarda bilirix ki, dastanımız həmən yerdə qaldı ki, dosdar, Koroğlu gəlip bağbannan icazə alıp, varid olup bağın içinə ki, həmin yerdə muntəzirdi, Niyarın yolun gözdüyür. Tan[1] yar gələ, yarnan söhbət eliyə, danışa. Amma geçən navarımızda divan oxumuşam, divan oxumuşdux. Bu navarın əvvəlində bi qatar təcnis oxuram. İmidvaram bunu da eşitdixca şaddıxda yaşayasız. Təcnisimiz budu bax:

Yaşıl nimtənənin[2] bağı qırmızı,
Çəh bürünsün, görünməsin ha sinə.
Aşıx diyər, qırmızı,
Zilfün bağı qırmızı

*(burada tellərinin, saçını bağladığı saçbağının qırmızı boyada olduğuna işarədir)*.

Açıb dost bağında lalələr,
Bağı edip qırmızı.
Salmısan boynuma bağı qırmızı.
Dəxıl düşün yasdanmışam ha sinə.

Dübarə:

Geyinipsən yaşıl üsdən yar alı,
Adət budu ki, yar göylün yar alı.
Aşıx deyər, yaralı,
Sonam göldə yaralı.
Elə bir ox vurmusan,
Bağrım olup yaralı.
Bir ovçuydum, ovum gedip yaralı,

---

[1] Ta

[2] Köynək (Nimtənə farsca bədənin beldən yuxarısı deməkdir)

Amma bilməm düşüp bu dağların hansinə?

Dübarə, dosdar, sözdərimiz cığalı təcnisdi. İmidvarəm şaddıxda yaşıyasız.

Sən olmusan gözəllərin həsarı,[1]
Geyinmisən yaşıl üsdən hə, sarı.
Aşıx diyər ha, sarı,
Laçın almış ha, sarı.[2]
Yoxsa ölübdü Leyla,
Verən qalmış həsalı.
Dost yolunda qurban dedim, ha sarı,
Kəs başımı, tut qanımı, ha sinə.

Sözdərimiz bir dastanın özünə mərbut olan sözlərdi. Çün Koroğlu da burda öz istədiğinnən ötür başınnan, canınnan geçip gedip bir elə ləşgər[3]-qoşunun içinə. Həmun sözdər yadıma düşdü. Oxuyuram ellərimizin sağlığına:

Bu misginə nə eliyisən al indi,
Alacaxsan şirin canım al indi.
Aşıq diyər al indi,
Ya şirindi, al indi.
Bir qəribin gönlünü alacaxsan al indi...
Cəllad kimi şirin canım al indi.
Qoy məzara döşə sali, ha sinə.

Bəli, dosdar bu təcnisiydi oxudum. İndi gedirix dastanın idaməsinə. Tamam o dosdarımızın, ellərimizin sağlığına. Eşidənnər, gedirix dastanın idaməsinə qulax verax. Dastanımız həmən yerdə qalıp, Koroğlu gəlip Gülşən bağına.

---

[1] Hasarı-qoruyucusu
[2] Quş növü
[3] Qoşun

Koroğlu İstanbulda – Gülşən bağında, çarhəvizin kənarında Qıratı bərkidənnən sora gəlip, muntəzir olup yol gözdüyür ki, Niyar xanım gəlsin. Amma bir sahat, iki sahat, üç sahat, Koroğlu gördü, xeyr, Niyar gəlmədi. Dedi, olmiya bu qəri məni alladıb?

Koroğlu hərbə qədağan gedirdi. Deyidi, əgər burdan çıxam, qəri məni allada, Niyar gəlmiyə, elə bi qiliş[1] vuracam qərini xiyar kimi vəsətdən[2] iki böləm. Amma, dosdar, Koroğlu naümid olmuşdi. İsdiyirdi yavaş-yavaş qalxa, hərəkət eliyə gedə, gördü odu karvanın başı açıldı. Yanı qızların karvanının başı açıldı. Kənizdər, dayələr, qulamlar, xədəmələr[3] o vəsfinən götürdülər Niyarı. Gəlirlər bağda çahrəvizə tərəf. Gördü, bəhbəh, bəh-bəh, budu bax, qabaxda iki-üş nəfər durup, yolları süpürə-süpürə gəlillər. İki-üş nəfər daldan, qabaxdan ətəhlərin qavzıyıblar göyə, yerdən toz qavzanıb dəyməsin biləsinə. Kənizdər də sağında, solunda. On beş kəniz sağ tərəfdə, on beş dənə kəniz sol tərəfdə. Beş dayə qabaxda, beşi dalda. Yanı qırx kənizdi. O cür Niyar xanımı gətirillər. Koroğlu gördü bu təşkilatınan əgər mən bunu Çənlibelə aparıp çıxarda bilsəm, çox gözəl olacax. Muntəzir olup yol gözdədi, Niyar xanım gəldi çatdı çarəvəzin kənarına. Koroğlu güllərin dalından qalxıp salam verdi Niyara. Niyar bi yanaki[4] baxdı Koroğluya. Amma əslən etina eləmədi ki, görax bu kimdi gəlir. Qədəm qoyup qaz yeriş yavaş-yavaş gedir qabağa. Amma Koroğlu səsdədi:

– Xanım, dayan, sözüm var.

Niyar çiyni üstdən döndü, baxdı Koroğluya tərəf. Səsdədi:

---

[1] Qılınc
[2] Ortadan
[3] Qulluqçular
[4] Qıyğacı

– Kimsən? Nə adamsan? Burda neyniysən?

Dosdar, həmin vəzidə Koroğlu üzün tutup Niyara sarı salamın almamağına çox narahand oldi. Hansı sözdəri deyir, əlan həmun[1] sözdəri cənab ağaye Aşıq Qulamrza oxuyacax. Tamam ellərimiz, dosdarımızın, məclisimizin sağlığına. Var olsun ellərimiz, tamaşagərlərimiz, bu navardan saz, söz, avaz eşidənnərimiz. Bu siz, bu da cənab ağaye Aşıq Qulamrza.

Bəli, əziz və mohtərəm tamaşagərlərimiz, salam ərz eliyiəm xidmətizə. Bən də əlan həmun sözləri oxuram, Koroğlunun sözlərin ki, salamın almiyıb götürüp nazənin, indi ki belədi, bəs qulax ver, qoy diyim ki, mən nədən ötrü gəlmişəm. Hansı sözdəri oxur, oxuram ellərimiz sağlığına. Havamız, dusdar, “Narinci”di, “Narinci”:

Səlam verirəm, səlam almaz,
Görüm tutsun, nazənin, səlam səni.
Axçasız, pulsuz aşığam,
Axu pulum yoxdu alım səni.

Bu sözdə qəqqa çəkip güldi:

– Dayə.

– Bəli.

Dedi:

– Bax mənim əməlimə, bax mənim şansıma, gör kim gəlip mənim dalımca axı. Oğlan, oqqədə ölmədix bu yol carçı gəlip dalımızca. Buyur ala, pulu yox pulsuz, axcasız bir aşığam. Öz də gəlmişəm alam.

Biy tərəfdən də nifrin elir axı.

[1] Həmin

– Hə, sən nə adamsan? Bə pulun yoxdi, qızılın yoxdi, malı-dünyan yoxdu? Nədən ötrü gəlibsən bura?

Götürüp:

– Nazənin, tələsmə. İcazə versən, diyə-diyə gəlirəm nədən ötrü gəlmişəm.

Hə, bu cür qulaq asır:

Xəzinəm yox, ağzın açım,
*(Düz də deyirsən, heş bir zadın yoxdu).*
Sərvətim yox, töküm qaçım.
*(Nəmənəm var?)*
Əlac budur ki, səni alım qaçım,
Çənlibelə salım səni.

Baxdı gördü, pə, ay dadi-biydad, bu aşıx nəmənə qoyub, nəmənə axdarır.

– Aşıx, sənin sözdərin iki təhər bi təhərə bənzəyir. İstəyirsən nə diyəsən, ürəh sözüdərü de görüm.

Götürsün:

– Nazənin, icazə ver o birsin deyim.

Güllü bağlarda gəzərsən,
Amma cahillər bağrın üzərsən.
*(Bir bəndi, qoy deyim də)*
Yuxa kağıza bənzərsən,
O, yuxa kağaza bənzərsən
Yaza bilməz qələm səni.

Bu sözdən çox xoşu gəldi.

– Mən ölüm, aşiq, elə bil yavaş-yavaş o söz haa...

Götürüb:

– Nazənin, qulaq ver, qulaq ver.

Uca dağların qarısan,
Dolu baxçalar barısan.

Ay Niyar, Koroğlu yarısan,
Belə yüz də desən.
Koroğlu yarısan,
Qoy bilsin külli-aləm səni.

Ta duslar, Koroğlu sözləri təmama yetirip, indi dübarə gələn nə cür olacax, söhbətin idaməsi cənab ağaye usta Mənaf ağa oxuyacax. Genə ellərimiz sağlığına, sağ olsun ellərimiz.

Bəli, əziz və mohtərəm eşidənnərimiz cənab ağaye usta Qulamrza oxudu sözdəri xidmətizə. Sözdəri diyənnən sora dosdar, Niyar xanım qəyitdi Koroğlunun yanında dayandı. Səsdədi:

– Aşıx.

Dedi:

– Hə.

Dedi:

– Özün diyirsən pulum yoxdu, malım yoxdu, sərvətim, doolətim yoxdu. Özün də gəlmisən bura bi paşa qızına aşiq olmusan. Heç bilirsən ki, mənim hər bayramnan bayrama nə qədən xərcimdi? Hər qəza yiyəndə, nəqqədən xurdu-xuraymın[1] xərcdi? Hamam gedəndə kənizdəylərnən nə qədər hamamçının xərcidi?

Birbəbir hamısını sayır. Koroğlu dedi:

– Xanım, hamısın təfil aldım, eşitdim, bildim. Amma qulaq ver, qoy pula race, sərvətə race, igiddiğə race bir neçə kələmə söz deyim. Gör qəbul eləsən, gə burdan çıxax gedəx. Qəbul eləməsən, necə gəlmişəm o cur gedərəm.

– Hən, aşıq, sözün nədi?

---

[1] Xırım-xırda yemək

Dosdar, Koroğlu üzün tutup Niyar xanıma sarı. Hansı sözdəri diyir, əlan oxuram, tamam o dosdarımız, ellərimizin sağlığına belə diyir bax :

Eyyyy, uca-uca dağlar başı,
Çənli də olar, çənsiz də olar.
Cəhd eylə bir işdə bulun,
Sənni də olar, sənsiz də olar.

Dedi:

– Əgər mən olmasam nə qılığ olcaq? Əgər gəlməsəm nə qılığ olacax?

Dosdar, o qabaxda ki nərdələr[1] görsənir haaa, o zaman Koroğlu atdarın, dəlilərin, mehtərlərin, qatırların, atdarın qatırdılar həmən yerə. Olara çatı deyərlər. Əlan Çənbilbelin qabağında görsənir. Amma ikimcisin, ikimcisin daha belə:

Ərənnərin İsa tək gərək,
Amma gözəllər nisa tək[2] gərək.
Ağ üzdən busa tək gərək,
Telli də olar, telsiz də olar.

– Yanı diyəsən də olacax, deməsən də olacax.

Dedi:

– Aşıx, elə bil burda zor deyisən. Mənim babamın qüdrətin, gücün bilmiyibsən. Aşıx, bilisən hara gəlmisən? Bura İstanbuldu. Dərya kimin qoşun mooc[3] vurur, elə tüpürsələr səni sel aparar.

Koroğlu bir güldü, qaqqa çəhdi, güldü. Dedi:

– Xanım, qulaq ver, qulaq ver.

Dedi:

---

[1] Barmaqlıqlar

[2] Xanım kimi, “nisa” ərəbcə qadın, xanım deməkdir.

[3] Dalğa

– Hə.

Dedi:

– Aşıq, lap belə tutaq ki, bunları qəbul elədix, indi mən sənə gəlirəm. Məni nə qılığ aparacaxsan? Nə cüre apararsan? Varın, dooləti, pulun,sərvətin yoxdu. Nə qılıx saxlıyacaxsan məni?

Dedi:

– Ərz eliyim, ərz eliyim:

Koroğlunun atı ola,
Dəmir polad qatı ola.
Əgər bir igidin zatı ola,
Pullu da olar, pulsuz da olar.

Ta sözün təmam yetirdi. Dedi:

– Aşıq, qəbul elədıx, pullu, pulsuzduğun da qoydux kənara. Lap heş zadın yoxdu, onu da qəbul elədim. Gələm sənin evində yavan çörəh yiyəm, onu da qəbul eliyərəm, amma...

Dedi:

– Amması nəmənədi?

Dedi:

– Bax buranı ki görüsən, bura İstanbuldi. Odu bağın qapısınnan ki belə baxısan, qoşun dərya kimi mooc vurar. Əgər bir moqe sən istədin məni aparasan, nəynən aparacaxsan? Qırıx aparacaxsan? Apardın, hara aparacaxsan? Harda saxlayacaxsan?

Odu Koroğlu tamaşa eliyirdi. Dedi:

– Bəs xanım, sən buların fikrindəsən, hə?

Dedi:

– Mən səni aparram, amma nəyinən?

Dedi:

– Nəyinən?

Dedi:

– Qulax ver, qoy deyim day nəyinən.

Dosdar, burdaydı ki, Koroğlu dubarə sözün belə deyir, han[1] sözdəri, əlan oxuram, ellərimizin sağlığına.

Amma havamız "Dubeyti"di. Çün burda Koroğluya zovq əl verdi. Çün burda Koroğlu şooqa gəldi. Nigar xanım yanında durup, Koroğlu gözünün qabağında mucəssəm[2] elədi, gördi Niyarı almışam Qıratın tərkinə, düz aparram Çənlibelə tərəf. Həmin halda, dosdar, üzümü döndərmişəm Çənlibelə tərəf. Əlan Çənlibeli mən görürəm burdan (*Aşıq bu rəvayəti tarixi Çənlibel kimi qeydə alınmış məkanda ifa edib)*. Amma Koroğlu Niyara belə deyir baa:

Alagözlü Niyar,
Səni mən Çənlibelə aparram.
Çəkip Qıratın döşünə,
O Çardaxlı elə aparram.

Həə... Dedi:

– Aşıx.

Dedi:

– Ha.

Dedi:

– Əgər mən gəlməsəm neynərsən? Mənim göylüm olmasa, nə qılığ aparacaxsan? Gərəh mənim göylüm ola, sən məni aparasan.

Dedi:

– Əgər göylün olmasa, bu qılığ elərəm.

–Nə qəlıx?

Ərz eliyim, ərz eliyim.

---

[1] Həmin
[2] Xəyalında canlandırdı

Aşıq oldum göz-qaşiyan,
Oğruyam tər savaşıyam.
*(Əgər gəlməsən).*

Dedi:

– Hə.

Dedi:

Durram, dolannam başiyan,
Tutaram dilə aparram.

Bəli, dosdar, Koroğlunun neçə xisləti varidı. Xudavəndə həyqət buna neçə xislət vermişdi ki, qəblən[1] navarrarda demişix işimiz yox, bir də Koroğlunun diliydi. Əgər dilin işə salsaydı, Koroğlu yilan yuvadan çəkip, eşiyə çıxadardı. Dedi:

– Xanım, gücüm çatmasa, dilnən aparram. Əgər dilnən apara bilmədim, zorunan aparram. Zornan aparammadım, pulnan aparram.

Dedi:

– Aşıq, diyisən pulum yoxdi. Lap tutax mən gəldim, qəbul elədim, indi məni nəynən aparacaxsan?

Ərz eliyim, əziz və mohtərəm eşidənnərimiz, tamaşagərlərimiz. Görürsüz bu cür əlan Çənlibelin dar boğazındayıx. Ocu ki, görsənir ora dar boğazdi. Mutəəssifanə biz nəqqədən istədix bu navar qurtuluna kimin ki qələlər görsənə, görsədəx beləyizə, amma çən, duman, meh qoymur. Bizə də qədəğəndi. Yani bura bi özgə doovlətdi, Türkiyədəyix. Çənlibelin ağzındayıx, ora qədəğəndi. Qoymadılar gedax, yani buraya kimi ancax icazə alıb gəlmişıx.

Amma sözün o birincisi:

Bürünnəm əcəl kürkünə,

[1] Öncə

Baxmaram qorxu, ülküyə.
Çəkərəm Qıratın tərkinə,
Üz qoyup belə aparram.

Dedi:

– Əgər məni aparanda babamın xəbəri oldi, qoşun saldı dalınca, qoşun gəldi, yolda səni tutdular, nə qılıx olacax? Onda dilin hardan çıxacaq, onda nə cavap verəcaxsan?

Dedi:

– Ərz eliyim, ərz eliyim.

Saymaram sultanı, xanı,
Qoşuna verməm amanı.
Meydan içində al-qanı
Döndərib selə aparram.

Amma sözün axırın Koroğlu daha belə deyir:

Koroğlu gəlip damağa,
Zərbə dözmür, sultan ağa.
Qıratı çapdırram dağa,
Çardaxlı elə aparram.

Niyar gəldi lap qabağa dayandı, dosdar, Koroğlunun bərabərində durdi. Səsdəndi:

– Ay Koroğli, xub, sözün nəmənədi? Bax, deyirsən adım Koroğludu. Amma bilirəm ki, Koroğlu dəyisən. Yalan danışırsan. İstisən məni alladasan. Bir belə Qırat, Qırat diyisən. Atnan atın nə fərqi var? Aya, sənin atın bu birsi atdar kimin iki başı var? Səkkiz ayağı var? İki bədəni var?

Səsdədi:

– Xanım, o qılıx dəyil.

Dedi:

– Hən.

Dedi:

– Mənim atımın neçə xasiyyəti var, hən.

Dedi:

– Quş kimin qəyələrdə uçar, gəmi kimin dəryalardan geçər, yel kimin dərələrdən çıxar. Dağ, daş, qəyə, dərya, dərələr heş zad ona fərq eləməz. Qıratı hara döndərsəm, o vəznən gedəcax, dayanan bir şey dəyil.

Dedi belə:

– Sənin bu Qıratın nə qılığ atdı ki, bir belə bunu tərifliyisən?

Dedi:

– Xanım, icazə ver, qoy deyim nə qılığ atdı.

Dar gündə nə işdər görər,
Mənim harda köməhliğimə yetirər.
Meydan arasında nə işdər görər,
Nə bərnamələr çıxardar.

Həmin sözdəri, dosdar, indi əlan cənab ağaye Aşıq Qulamrza oxuyacax, təmam ellərimiz ağlığına. Koroğluya Niyar soruşur:

– Qırat nə qılıxdı?

Koroğlu isdiyir Qıratı burda Niyara tərifliyə, qaleh eliyə, razi eliyə bilsin, dosdar, apara Qıratın yanına. Deyirdi, əgər Qıratı yanına aparsam, orda dahı, Niyarı götürüb gedərəm. İndi əlan bu dəyqə cənab ağaye usta Qulamrza oxuyacax, ellərimiz, dosdarımız sağlığına.

Bəli, əziz ellərimiz, bu qatarı "Əmrahi"ynan, "Zil Əmrahı"siynan oxuram, ellərimiz sağlığına, sağ olsun ellərimiz:

Uca dağ başında yel kimi əsən,
Bəh-bəh, mənim bu günümdə dirəgim Qırat!
Bir aylıx mənzili bir gündə kəsər,
Quş kimin göylərdə gərəh Qıratım!

– Mənim Qıratım belə bir atdı, xanım. İcazə ver.

Yolların tozunu göyə qaldırar,
Əmma meydan arasında ləşlər (leşlər) saldırar.
Düşmənin üsdünə birdən aldırar,
Olar özgəsinə köməh Qıratım!

– İndi bildün mənim Qıratım nəmənədi? Yəni xanım, o atdardandı ki, dayanmaz dağlar, daşlar, qəyələr biy dəfə bunun nəzərinə gəlməz.

Odur ki, götürüp gənə Qıratın şərhində daha necə oxur, oxuruğ ellərin sağlığına:

Qoş Koroğlu qonar olsa yəhərə,

*(Çətini o dəyqəyə kimindi ki, əyəq üzəngiyə qoyub, əyləşə o yəhərin qaşında, qutardı daaa).*

Bütün yağı düşmənnəri salar qəhərə.
Axılda arpasın bu Qırat qoymaz səhərə,
Xanım, o həvadə alıcı quşdar təkin gərək Qıratım!

O cur olmalıdı. Sağ olsun ellərimiz, cəmi bu navara tamaşa eliyən əziz dosdarım. Gənə idamə nə cur olur, əlan ağayi usta Mənaf ağa oxur ellərimiz sağlığına.

Əziz tamaşagərrərimiz, o cür ki, cənab ağayi aşıx Qulamrza oxudu sözlərimizi, Koroğlu Qıratı tərifliyənnən sora Niyar üzün tutdu dayələrinə dedi:

– Dəyə.

Dedi:

– Hə.

Dedi:

– Gərəh mən bu atı görəm. Görax aya, bu at bizim atdarnan nə qədər fərqi var? Aya, bu yalan danışır, ya doğru diyir?

Dayə dedi:

– Qızım, axı bəlkə yalan danışır, at yoxdu.

Dedi:

– Bizim əlimizdən qutulub qaça bilməz.

O vəzinən üzün tutdu Koroğluya tərəf:

–Aşıx?

Dedi:

– Hə.

Dedi:

– İndi biz istirıx sənin bu atına tamaşa eliyax. Gəlax, lap belə yaxınnan görax biləsin.

O vəzinən, dosdar, Koroğlu üz qoyup Qıratı o yerdə ki, bağlayıp gedillər o tərəfə. Amma hərdən qalır dalı tərəfə, dal-dan tamaşa eliyir. Gah geçir sağ tərəfə, gah geçir sol tərəfə, hərdən də bi qabaxda gedir. Diyir:

– Xanım, indi görəcaxsən ki, mənim Qıratım dediğimə görə vardı, ya yoxdu.

O vəznən hərəkət elədilər. Gəldilər, çatdılar düz belə Qıratın yanına. Niyar xanım baxdı gördü çoox gözəl bir atdı. Elə bir gözəllixdədi ki, adam müqəyyəd olur munun üzünə baxa. Amma aya, görəsən güyə uçacax? Ya bu yalan danışırdı. Həmin vəzinən Koroğlu dedi:

– Xanım, icazə versən mən burda atnan bi nimayış verəm. Əgər göyə uşmasa, onda dəstur ver qoy məni burda rizə-rizə[1] doğrasınnar.

Koroğlu atın zin[2]-nizamın bərkidib, kəməndin açıb, cilovun vurub ağzına, qıçın qoydu üzəngiyə, xaneyi-zində[3] qəral tutub. Oodu səvar oldu atın belinə. İlan buruğu bi toz salıb, iki

[1] Tikə-tikə

[2] Yəhər

[3] Yəhərin oturacağında

dövr meydan arasında, dosdar, Qıratı dovlana-covlana saldı. Ta kənizdəylər bu vəzi görəndə qorxudan qaçıb gizləndilər. Gözlərin yumuplar, amma Niyar tamaşa eliyirdi. Dedi:

– Qoy görüm nə qılığ uçacax?

Əvvəl qabax ayaxlarını qavzır, ya daldan qalxır. O halda Koroğlu dovr vurub. Üçümcü dovru da dosdar, necə surətinən gəlib əlin atdı Niyarın kəmərinnən. Quş kimin qavziyıb qoydu, dosdar, Qıratın tərkinə. Oodu Koroğlu badı-sərsər[1] kimin, dosdar, üz qoydu hərəkət elədi.

Ta toz-duman çəkildi. Koroğlu bi qədir gedənnən sora lap belə İstanbulun dağlarının arasından çıxdı, hərəkət elədi. Bi yerdə atı saxladı. Yavaccana atdan züvüllənib (züyüb) atdan yendi aşağı. Niyar, dosdar, o dəyqə gözünü aşdı. Gördü, bəli, Qırat nə sürətinən gətirib məni dağların arasında saxlayıp. Gözdərimi yummuşam xəbərim olmuyup.

Səsdədi:

– Aşıx. Ağa Koroğlu, əvvələn budu məni gətirməyəcəğidin. İndi ki gətirmisən buraya, da məm[2] bir də İstanbula qəyidəmməm. Laəqəl[3] atı tut.

Həmin yerdə Koroğlu atdan düşür, Niyarı yendirənnən sora Niyar dedi biləsinə:

– Ağa Koroğlu, burda yenmiyəcəydin. İndi ki məni gətirmisən, sür atı gedax.

Səsdəndi:

---

[1] Sürətli yel
[2] Daha mən
[3] Ən azı

– Nigar xanım, neçə gündü yorulmuşam. Yatmamışam, xəstəyəm[1]. Bir də sənin yanında heş zaddan qorxum yoxumdu. İcazə ver, beş-on dəyqə hüşlənəm, onnan sora çıxax gedax.

Qəsdən, dosdar, həmən yerdə düşüb. O dəyqələrdi ki, Koroğlu yalannan özün vurub yuxuya, muntəzirdi qoşun gələ. Dedi əgər, qızı bu cur aparsam, mənim igiddiyimi tanımaz, bilməz kiməm. Ta o yerə kimin, kənizdər dayələrə gəlib xəbər verdilər. Paşa hökm elədi, qoşun çıxdı. Dərvazədən çıxanda Niyar xanım başdadı ağlamaxlığı. Gözünün yaşdarınnan bi damcı düşdü Koroğlunun üzünə. Koroğlu belə diksinib yuxudan ayıldı. Gördü Niyar ağlıyır. Səsdədi:

–Xanım, niyə ağliyısan?

Qooxa-qooxa baxdı dərvaziya tərəf. Koroğlu belə baxanda gördü hən, qoşun gəlir. Dedi:

– Xanım, munnan ötyü[2] ağliyısan?

Yani qoşun gəlir. Dedi:

– Gedax, gedax. Qoymam sən ağliyasan.

Koroğlu, dosdar, Niyarı çəkip Qıratın tərkinə. Oların gözünün qabağında hərəkət elədi. İsdiyir qoşunu çəkə, elə bir yerdə cibhə qura, dar boğaz ola ki, ayrı yerdən gəlib Koroğluya nüfuz eliyə bilmiyələr. Çəhdi Qars dağlarının arasına. Qars dağlarının arasında, dosdar, Koroğlu meydan açdı. Cibheyicəng qurdi. Amma qoşun qatbaqat o qədən gəlib həqq-hesabdan çıxıb. Koroğlu neçə gün burda cəng elədi.

İndi qəyıdax Çənlibelə. Çox yol gözlədilər, gördülər Koroğlu gəlmədi. Dəlilərdən bir qədr Çənlibeldə qalıb, bir qədr savar oldular atdara, gəlirlər Koroğlunun dalısıncan. O dəyqə

---

[1] Yorğunam. Azərbaycan ədəbi dilində xəstə sözü, farsca yorğun anlamında işlənir. Öz türkcəmizdə isə bu sözə "alız" və "sayru" deyilir.

[2] Ötrü

çatdılar Qars dağlarının arasına. Gördülər cəngdi. Koroğlunu arada muhasiriyə salıblar. Niyar xanım Qıratın tərkindədi, amma vəxtəvəxtdi tutalar. Amma Niyar ağlır, gözlərini dayıyıb Koroğlunun çiyinlərinə. Vəli dəlilər biy hay basıb, özdərin vurdular qoşuna. Koroğlunun biy zaman xəbəri oldu, gördü qoşun çəkildi belə, ara ayazlaşan kimi oldu. Doorəm xalılaşdı[1], diqqətinən baxanda gördü dəlilər gəlib, qızqın davanın içindədilər. Koroğlu biy nərə çəkib, o nərənin içində, dosdar, gördü Nigar ağlır. Amma üzün tutub Niyar xanıma. Hansı sözləri diyib? Əlan oxuram təmami dosdarımız, ellərimiz, eşidənnərimizin sağlığına. Belə diyidi bax:

Ağlama, telli Niyarım,
Gəldi, dəlilərim gəldi.
Paşa qızı, gözəl yarım,
Gəldi, dəlilərim gəldi.

Amma Niyar qorxur. Dedi, isdir mənə dildarrıx verə:

– A Koroğlu, – dedi, – kefin gəlib.

Dedi:

– Xanım, and ossun səməd[2] Allaha, səni-məni xəlq eliyənə, gəldi dəlilər. Qulax ver, qulax ver:

Qurbanam, mərdin adına,
Dostunu salar yadına.
Dar günümdə imdadıma,
Gəldi, dəlilərim gəldi.

Taa dosdar, belə diyəndə Niyar bi gözün çəkib ətrafa baxanda gördü qoşun dağılıp. Koroğlu qalıp meydanın

---

[1] Ətrafı xəlvət oldu

[2] Səmimi və qəni (ə). Quranın 112-ci "Tohid", yaxud "İxlas" surəsinin 2-ci ayəsinə işarədir ٱللَّهُ ٱلصَّمَدُ yəni Tanrı səmiymiyyətlə yardım edər, çünki onun kimsəyə ehtiyacı yoxdur.

vəsətində təhdi. Odu covlan verir Qırata. Dosdar, Niyarın bir müxtsərən qəlbi açıxlandı. Səsdədi:

– Ay Koroğlu, elə bil düz deyisən. Gəliplər, gəliplər.

Dedi:

–Xanım, bir mən ölüm, gəliplər. Bir qulax ver dubarə:

Əsgilməz mərdin qovqası,
Daiman olar davası.
Koroğlunun qoç arxası,
Gəldi, dəlilərim, gəldi.

Sözdər tamama yetib. Bir tərəfdən də Koroğlu həmlə eliyip, dosdar, qoşuna şikast verdilər. Oodu qavıb, dosdar, İstanbulun dərvazəsınnan xırıltıynan töhdülər İstanbulun küçələrinə. Qəyidib hərəkət veridilər Çənlibelə tərəf. Amma, dosdar, heey Niyar xanım xəbər alır:

– Ay Koroğlu, Çənlibelə çox qalırıx??

Koroğlu diyir:

– Xanım, az qalıb yetirax.

O yerə kimin gəldilər çatdılar, Niyar xəbər aldı:

– Bax, tay Koroğlu, Çənlibelə yaxınnaşmamışıx?

Həmin dəyqə nişan verdi, dedi:

– Xanım, bi qulax ver, gör nə diyirəm.

Burdaydı, dosdar, Koroğlu üzün tutub Niyara tərəf. Çatıblar Çənlibelə, Çənlibelin kənarındadılar. İndi əlan mən Çənlibeli görürəm, çün çisgin, dumandı, day görsənmir. İşimiz yoxdu Çənlibelnən. Amma o sözləri ki, Koroğlu Niyara diyir, Çənlibelin barəsində yaxınnaşıblar əlan Aşıq Məhbub oxuyacax, təmam eşidənlərimizin və tamaşagərlərimizin sağlığına. Var olsun, tamaşagərlərimiz, eşidənlərimiz. Bu siz, bu da Aşıq Məhbub.

Əziz eşidənnər, dastanımız gelib axırlara yetib. Axirin qatar sözləri ki, usta Mənaf ərz elədi xidmətizə. Əlan həmun sözləri oxuyacam ki, Koroğlu Çənlibelin ubohhətin,[1] əzəmətin, dağların, daşların, o yerrərdəki bəzirganları tutardı, ordular qabağı kəsərdi, həmun yerrərin Niyar xanıma birbəbir tərifliyir ki, Niyar xanım, Çənlibel belə bi yerdi. Hansı sözləri diyir, oxuyum tamam eşidənnər sağlığına:

Uca-uca dağlar başı,
Niyar, Çənlibel budur bu.

*(O yerdən ki, sənə təriflirdim, Çənlibel belədi, elədi. Getsax görəcəxsən. Görməsən bilmərsən, həmun dediğim Çənlibel budu).*

Oğlannarın tər savaşı,
Niyar, Çənlibel budur bu.

Gətirib həmun yeri Koroğlu nişan verdi Niyar xanıma ki, burda təngədi, “Səqqəl tutan” diyərdilər qədim. Orduların, bəzirganların ki, tacirlar, tuccarrar məmləkətdərdə oların qabağın kəsərdim. Həmun yerdi. Əlan şeirnən di oxuyum dosdar sağlığına:

Çəkip bəzirgan soyduğum,
Qafilələr boş qoyduğum.
Paşalar gözün oyduğum,
Niyar, Çənlibel budur bu.

Dubarə:

Uca dağlardan aşdığım,
Bəzirganlara sataşdığım.
Al qumaşa bulaşdığım,
Niyar, Çənlibel budur bu.

---

[1] Möhtəşəmliyin

Sözün axırın Koroğlu genə bu cür deyir, ərz eliyim tamam eşidənnər sağlığına. Amma axır bəndin "Bəhməni"nən oxuram:

Yaxın gələ bilməz yağı,
Məclisində dolanır sağı.
Koroğlunun tək ovlağı,
Niyar, Çənlibel budur bu.

Söz tamam oldi. Dastanımızın axır qisməti nə cür olur genə ustad Mənaf tozih[1] verəcəx xidmətizə.

O vəzinən gəlib çatdılar Çənlibelə, dəlilər, mehtərlər, qulamlar çıxdılar peşvaz elədilər. Koroğluynan Niyarı çıxatdılar, qırx gün cəşn[2] tutdular. Toy elədilər, şaddıx elədilər. Amma dasdanımızın axırı, bir dənə dəsdan oxuram, ellərimiz, dosdarımız sağlığına ki, ağa Qulamrza da bir dənə şikəstə oxuyacağ. Var ossun ellərimiz, dosdarımız, dəsdan budu baa:

Əvvəl sərmayə insana,
Nə sərvətdi, nə doolətdi.
Bir ağıl olsa, bir də mərfət
Bu ikisi kifayətdi.

Göylün isdir, verə geşgə,
Müştaq olur çahr həştə[3].
Heç iş yetirməz güzəştə,
Peyqəmbərdən rivayətdir,
O Movladən rivayətdir.

---

[1] İzah
[2] Şənlik
[3] Dört səkkizə

Dayaz getmə, düşün dərin,
Dadə çağır Məkkə, pirin.
Aşma bir kimsənin sirrin,
Bu insana pis adətdir.

Məhmud olğli mürvətinnən,
Qaş namədin ülfətinnən.
Var-dovlət, sərvətinnən,
Qismət olsa bir xələtdir.

Əziz və mohtərəm eşidənnərimiz, bu dasdanımız burda qutardi, təmam ellərimizin, dosdarımızın sağlığına. Burda ağa-ye Qulamrza bi şikəstə oxur, dasdanımızın axır qismətində şad yaşiyasız, şaddıxda qalasız.

Əzzim, eyyy ya nəsib,
Zülfün üzə yan əsib.
Bir gəldim, dəli bala, üzün gördüm,
Bir də görsəm, ya nəsib!
Ay allah, sonam ölməz,
Mən ölləm eeeeyyy!

Güli-tağında xar olan canım,
Aşnası özünə yad olan canım.
Canım, ay dadi-bidad eyyyy!

Şad qalın əziz dusdar, Allahın əmanində, Allah həmişə şad eləysin biləyizi.

## KOROĞLUNUN DAĞISTAN SƏFƏRİ (MÖMİNƏ XANIMIN ÇƏNLİBELƏ GƏTİRİLMƏSİ)

Bəli, əziz və mohtərəm, dəyərli ellərimizə salam ərz eliyıx. Aşıxlar dilinnən isti salamlarımızı sizə yetiririx. Geçən bərnamələrdə necə qool vermişdix Koroğlun dastanını oxuyacağıx. İndi əlan muvəffəq olduq. Həman dasdanın idaməsini oxuyax. Gəlmişix Çənlibelin dağlı tərəfindəyix ki, inşallah, gələn bərnamə Çənlibelin özündə olacağıx. Həmən navarı oxurux idaməsini ellərimizin sağlığına.

Əlan bura Koroğlunun zağlarınnan, otaqlarınnan bi dənəsi ki, be murur zaman[1] tökülüb. Aşıxlarımızdan içərdədilər, dənə-dənə içəridən gəlirlər ki, Koroğlunun dastanını oxuyacağıx. "Dəmir Qapı Dərbənd" dastanın – "Mominə xanımın Çənlibelə gəlməğin", Koroğlunun dərgir olmağı, danışmağı.... O vəzinən həmin dastanın idaməsini siz ellərimizə oxuyacağıq. Aşıx Mənaf, Aşıx Dehqan, Aşıx Qulamrizə, Aşıx Möhsün, Aşıx Məhbub və istiryo Əskər Xəlilu buların həqqi imtiyazdarı var bu navarda.

Risumati aşıxlıxdi[2], yazar ağzı bir qatar divani yazmışam. O divannarı oxuyacam elimizin sağlığına. Amma divan gedirix, bir ayrı səhnədən başliyax gələx:

Daha oyan bu qəflətdən, dəli gönül, yazdı, yaz,
Ətrin saçır tər bənooşə, aş qızılgül yazdı, yaz.
Dağ-dərə yaşıllandı, təbiyət geydi donun,
Sən cəh-cəh vur, mən oxuram, şeyda bülbül yazdı, yaz.

---

[1] Zamanla
[2] Aşıqlıqda adətdi

Bar ilahi, kəsmə lütfün, elimizə sal nəzər,
Tək bir sənin qüdrətindi aləmi hərrək[1] bəzər.
Əsli nəslin yerdən aldı[2], aləm oldu laləzər.
Sil göylüyün qəm qubarın, xoş danış-gül, yazdı, yaz.

Bəli, qulax ver sözün axırına:

Mahmud oğli, bax xalıqın lütfünə, kərəminə,
Baba, verən odu, alan odu, qalma dünya qəminə.
Qurulub bəzmi-aşıqan, gedax maşux bəzminə,
Göz ki, gördü göyül səvdi, oldu mayıl, yazdı, yaz.

Dosdlar, indi ələn bu dəyğə gedib dastanın idaməsinə qulaq verəx ki, Dəmirqapı Dərbənddən başlirix. Dəmirqapı Dərbəddə Ərəb Paşa varmış. O tarix, o zaman Dəmirqapı Dərbəndin igitdəri, gözəlləri addı-sanlı diyir adamlariydılar ki, həmin vəzidə, Ərəb Paşanın bir qızı var, Möminə xanım adında.

Möminə xanım gözəllixdə, mərifətdə, kamalda, əğlidə öz zamanında, öz tarixində geçirtmeyib heş zadda. Vəli, o tarix adət buydu ki, addı-sanlı igitdərdən, qəhrəmannardan, oğlannardan hər kəs adını eşitsəydi, hətmən istərdi onu bi görsün, görüş eləsin. Möminə xanım Koroğlunun adın, avazın, şöhrətin eşidib, vəli özünü görməmişdi. O haldaydı, o vəzidəydi ki, muna əlaqə yetirib, aşıq olub, eşqində girifdar olub. Bilmirdi neynəsin, Koroğluya nə vəsiləynən əl tapsın, hardan munu görsün. Amma atasının bi İsa adında qulamı varıdı. Qız göttü öz dəstixəttiynən bi namə yazdı. Əvvəl ərzi-hal yazdı, salam yazdı, Koroğlunun halın soruşub, Çənlibelin əhvalatınnan, Dərbəndin əhvalatınnan yazannan sora orada bi qatar şeirinən, bayatıynan

[1] Hər rəng
[2] Güllər varlığını torpaqdan aldı

Koroğluya dəvətnamə göndərir. Rəsmiyyətnən dəvət eliyir Dərbəndə ki, Dərbətdə gələ munu apara.

Amma, dosdar, həmin sözdəri ki, əlan Möminə xanım kağızda yazdı Koroğluya göndərə, bu bərnəmamızda, dastanımızın bu yerində cənab Ağayı Aşıx Dehqan oxuyacaq, imidvaram, şaddıxda yaşıyasınız. Bu siz, bu Aşıx Dehqan.

Əziz tamaşaçılar, salam ərz eliyirəm xidmətizə. Necə ki, eşitdiz Koroğlunun dastanın Dağıstan qoludu bu. Dağıstanda Ərəb Paşanın qızı Möminə xanım Koroğlunun adın, iyiddiyin eşidib ki, nama yazır, həmun namada yazan sözləri oxuram ki, Möminə xanım Koroğluya yazır. Əziz şinəvəndələrin[1], əziz tamaşaçıların, əziz ellərin sağlığına. Bu sözlərdi:

Dolannam başiyan, ey qoç Koroğlu,
Əgər iyid olsan, gəl apar məni.
Həsrətinnən yoxdu səbri-qəralım,
İncidir sərasər ahu-zar məni.

O birisi sözün:

Çənlibel başında əsgəmiş [2]nərsən,
Düşman qabağında dayanarmışsan.
Tamam dəlilərə sərkərdəymişsən,
İsdirəm özünə yar eylə məni.

Daha nəmnə deyir?

Dəmirqapı Dərbənd əcəb tamaşa,
Gözəlləri batıb alı qumaşa.
Adım Möminədi, atam Ərəb Paşa,
İstirsən, özüyən yar eylə məni.

---

[1] Eşidənlərin
[2] Əsnəmiş

Bəli, sağ olsun ellərimiz, usta Dehqanının ağzı ağrımasın. İndi gedirix dastanın idaməsin qulax verax, sağ olsun ellərimiz.

Bəli, dosdar, Möminə xanım naməni yazıb verdi İsa adlı qulamdı ki, babasının qulamıdı, yol xərcisin verdi, yeməx-işməx pulusunu verdi. Nəmənə ki, yolda xəşdiyəcağdı hamısın hesab eliyib verib dedi:

– Oğul İsa, bax, əgər naməni yetirdin Koroğluya, ondan cavab gətdin biləmə dünya malınnan qəni eliyacağam.

Qulam həmin vəzdə naməni götürüb Dəmirqapı Dərbəddən yola düşüb, üz qoyur, dosdar, indi Çənlibelə tərəf gedir ki, həman Çənlibelin qələsində durmuşux.

Müddətdərdi ki, İsa Dəmirqapı Dərbəddən çıxib. Vəxtində gəldi ki, divan oxuyanda o dərvazəni nişan verdix ki, zağalardan bir dənəsiydi. Qulamlardan həmin yerdə nigəhban[1] vardi. O halda ki, gördülər qasid gəlir. Gəlib qasidin qabağın kəsdilər:

– Haralısan? Kimsən? Nə adamsan? Kimnən işin var?

Qasid naməni nişan verdi, dedi:

– Ağa Koroğluynan işim var. Dəmirqapı Dərbəddən namə gətirmişəm.

Qasidi ehtiramnan gətdilər Çənlibelə. Vəxtində çatdılar Koroğluya xəbər verdilər. Koroğlu məzmununnan baxəbər olannan sonra dəstur verdi. Qasidi geçirtdilər içəriyə. Yer nişan verib, qasid əyləşdi. Əyləşəndən sora, dosdar, yeməx-işməx gətdilər. Sora soruşdu:

– Oğul, de görüm kimsən, hardan gəlibsən? Hansı məntəqədən gəlibsən? Sözün nəmənədir? Bizə nə gətiribsən?

---

[1] Gözətçi

Əlini atdı cibinnən o kağızı ki, Mömінə xanım öz dəstixəttiynən yazmışdi, çıxardıb ehtirami-ədəbnən Koroğluya təğdim elədi. Koroğlu naməni açıb oxuyanda, halı yanı ayrı cura oldi, rəngi dəyişdəndi ki, Niyar xanım Koroğlunun yanında əyləşmişdi. Əlamət verdi:

– Cənab ağayi-Koroğlu? Niyə narahand oldun? Niyə bə halın pərişan oldu?

Dedi:

– Xanım, Dəmirqapı Dərbəddən boynuma deyin[1] saldılar. Gərəh gedəm, getməsəm, onda gərəh Koroğluluğu bidəfə tərk idəm.

– Koroğlu, nolub ki?

Dedi:

– Dəmirqapı Dərbətdə Ərəb paşanın qızı Mömінə xanım namə yazıb, kağız göndərib ki, gedəm gətirəm biləsin.

Niyar səslədi:

– Ay Koroğlu, Dəmirqapı Dərbəndin gözəllərinin adısanın eşitmişəm, amma özdərin görməmişəm. Bəs intizar qoyma. Hərəkət elə, get Dəmirqapı Dərbətddən Mömінə xanımı gəti görax. Oranın gözəlləri nə qılıxdi, oranın gözəllərinin adısanı, şucaəti, mərifəti, kamalı nə cürdi?

Koroğlu dəstur verdi:

– Oğul Dəli Mehtər!

Həmən vəzhidə Dəli Mehtər amadə olub geşdi qabağa, ehtiram elədi:

– Bəli, ağa Koroğlu.

Dedi:

[1] İfadə "deyn" şəklindədir, mənası "yük, boynuna yük qoymaq" deməkdir

– Qurban, Qıratı çək, zin-nizamın bərkit. Amadə elə ki, səfərə gedirəm.

Dəli Mehtər istəbildən ki qəblən (öncə) nişan verdix ki, istəblilərin bi qapısı o taydadı, Dəli Mehtər istəblidən Qıratı çəkib, zin-nizamın belində bərkidib, amadə elədi. Amadə eliyəndən sora Koroğluya xəbər verdi. Koroğlu çixib o dəlilərnən ki görüşəcax, halallaşacax, həmun dəlilərnən görüşüb, halallaşıb üz qoyub yola. İndi, dosdar, gedir Dəmirqapı Dərbəndə tərəf. Qulamlardan, xədəmələrdən, oranın sərbazlarınnan[1] Koroğlunu bu vəziyyətdə görəndə, gördülər ki, baba, bunun nə üzi, nə də afi[2] (bizim yerin adamlarına bənzəmillər, bu qəribədi, yaddı). Amma qəribə munun atı var. İndinin bazarrarında, dosdar, gənə 100 milyon qiymətidi. Getdilər Ərəb Paşaya xəbər verdilər ki, qurban, bizim ölkəmizə, şəhrimizə biy adam gəlibdi. Bax, belə bi atı var, sür-süfəti bizim adamlara bənzəmir. Elə bir qılıxdadı ki, amma atına qiymət vermağ olmaz. Özü də, dərəcə yek[3] bir igit pəhləvandi.

Ərəb Paşa dəstur verdi həmin vəzinən gəlib, dosdar, Koroğluyu dəvət elədilər dərbara beləsin. Koroğlu varid oldu dərbara. Atın tutdular o yerdə ki, bağlıyacaxlar, çəkib bağladılar. Koroğluni ehtiramnan geçirtdilər apardılar dərbardan[4] Paşanın qabağında, situn səyasətin qabağında dayanıp. O ki, ehtiramat, ərzi-ədəb eliyəcaxlar, görüşüblər, yer verdi, Koroğlu geşdi əyləşdi.

---

[1] Əsgərlərindən

[2] Böyüklüyü, bağışlaması, əliaçıqlığı

[3] Bir nömrəli

[4] Sarayda

İndi rəsmdi, bi qonaq gələndə heç olmasa bir şərbətdən-zaddan tutallar. Koroğluya ya şərbətdən, ya sudan, ya çaydan, qəfədən, qəlyannan verib, yiyib-içənnən sora paşa səslədi:

– Oğul, kimsən? Nə adamsan? Haradən gəlibsən? Bizim ölkəmizə niyə gəlibsən? Bəlidi ki, qəribəsən, amma muşəxxəs[1] eliyir igid, pəhləvan bi adamsan. Atın əsil atdardandı? De görüm haranın igitdərinnənsən? Əgər pəhlivanlığa gəlibsən, istisən bizim dərbardə qalasan, nə qədər hiquq[2] istəsən sənin ixtiyarında qoyacağam.

Amma dostlar, Koroğlu burdaydı ki, əlamət verdi, səsdəndi:

– Qurban, icazə verirsən, nitqimə bir neçə kəlmə şeir, bayatı gəlib ərz eliyim xidmətizə.

Amma dosdar, Koroğlu həman sözdəri ki, nitqində şeirinən, bayatıynan diyir, əlan bu dəyqə özüm bu bərnamədə sazı-sözünən, "Qəreyni" havasıynan oxuyacağam:

Ərzim var, Ərəb paşa, sənə söyləyim,
Əgər yerimi xəbər alsan, Muradbəyliyəm.
*(O taydan gəlmişəm).*
Yağı düşmən mənnən dəva başlasa,
Beldə qılış, qəvi düşman qovliyam….

Ey Allah, nə yazdı,
Nə oxudu, nə yazdı?
Getdim dərmanə təbib,
Gör dərmanım nə yazdi?

[1] Göstərir, aydın olur mənasında
[2] Maaş

Yani cəng elərəm bi dəfə Dərbəndi ota-suya çəkərəm. Ərəb Paşa bi baxdı vəzirin üzünə. Əlamət verdi, oğlan, bu Muradbəylidi, olmiya Çənlibeldən gəlmiş, Koroğlunun atlılarınnan, dəlilərinnəndi. Həmin vəzdə, həmin halda Koroğludan soruşdu:

– Bura bax görüm, bizdən nəmənə idisən, niyə gəlmisən? Mətləbin nəmənədi? Onu bizə de görüm, aləm aşkara, sözün nəmənədi?

Həmin halda Koroğlu, dostlar, sözünün ikimincisin daha belə deyir yenə "Qəreyni" havasıynan:

Bağ bəsdiyib, Paşa, qızılgülün dərməsən,
Dərib, sora yaylıq üstə sərməsən.
Mətləbə gəlmişdim, əgər mətləb verməsən,
Onda məcbur ollam bi yol əldə Misri Qılış tooliyam.

Ey Allah, yazi ağlar,
Kağızda yazı ağlar.
Aşıx qəmli olanda,
Sinədə sazi ağlar.

Paşa gördü qəribə oğlandı bu, əlavə dedi vəzirə:

– Vəzir.

Dedi:

– Bəli.

Dedi:

– Bax munda əslən qoxmax əsərı[1] yoxdi. Ondan ötrü ki, dərbarın içində tək-tənha gəlib bizdən mətləb almağa.

Ya Rəbb, görəsən munun mətləbi nəmənədi? Bizdən nəmənə istiyacax? Gəlib istiyir tac-təxtimizi istiyə? Gəlib

---

[1] Əlaməti

istiyir bizdən bad-xərac ala? Gəlib istiyir bizdən, ölkəmizdən varlıq ala?

Amma, dostlar, Koroğlu bunların heş birinə gəlməmişdi. Koroğlunun pula-mala elə bi ehtiyacı yox idi. Fəqqət və fəqqət[1] Mömünə xanımnan ötürü gəlmişdi.

Amma, dosdar, demiyəsən, Mömünə xanım gəlib dərbarda, o yerdəki pərdə çəkilib, zənana[2] məclisidi, həmən yerdən durub tamaşa eliyir, qulax verirdi. Gördü qəribə oğlanımış, amma kaş nə olaydı ki, bu Koroğlu özü olaydı. Bəli, dosdar, Koroğlu sözünün axırın deyir. Ərəb paşa üzün tutub səsdədi:

– Bura bax görüm, pəhləvan.

Ehtiram elədi:

– Bəli, qurban.

Dedi:

– Pəhlivan, hər igidin, hər oğlanın, hər pəhlivanın bir adı olar. Ta adı olmasa, nə ona badı-xərş verəllər, nə maliyyat[3] verəllər, nə mülk verəllər, nə tac-təxt verəllər, nə istədigin verəllər. Odur ki, gərəh bi pəhlivanın adı-sanı ola.

Koroğlu əlamət verdi:

– İcazə ver, ərz eləyim, ərz eləyim.

Amma Koroğlu sözünün axırın daha belə deyir, genə oxuram elimizin sağlığına:

Çənlibeldən bu diyarə gəlmişəm,
O yazılan düz ilqarə gəlmişəm.
Koroğluyam, nazlı yarə gəlmişəm...

Əhdim budu ki, təmam ölkələrin, dünyaların gözəllərin sevib-seçib, birəbir hamısını ziyarət elim, görəm, boyliyam.

---

[1] Ancaq, məhz
[2] Qadınlar üçün, qadınlara məxsus
[3] Vergi

Ey Allah, kəsə (kasa) dolmaz,
Mərd əli kasad olmaz.
Yüz namərdin çörəyin
Doğrasan kəsə dolmaz.

O vəzinən, dosdar, söz tamamə yetirdi. Amma Ərəb Paşa mətləbi annadı, bildi ki, bu Koroğludi, Çənnibeldən gəlib, məxsusən Möminə xanımdan ötrü gəlib. Vəzirnən bir xəlvətdə elədilər, danışdılar. Dedi:

–Vəzir, diqqət elə, tamaşa elə, gör kim gəlib? Bax, bu Çənlibelin ağası qoş Koroğludi. 7777 dəlinin sərkərdəsidi. Gəlib bizim Möminədən ötürü. Vəzir, məsələhət nəmənə görüsən? Aya, biz neyniyax? İndi qızı muna verax, ya verməyax?

Vəzir əlamət verdi. Dedi:

– Qurban, qibleyi-aləm sağ olsun, əvvələn budu məsələhət özüzdədi. İkimincisi budu, bi dənə qızdan ötür biz Dərbəndi niyə viran qoyax?

Dedi:

– Vəzir, yanı nəmənə? Necə yanı viran qoyax?

Dedi:

– Qurban, əgər qızı verməsən, burdan qəyitdi dəlilərin tökəcax, həm qızı aparacax, həm bir dəfə buranı qətliama çəkəcax. Nə yaxçıdı ki, biz elə burada Möminəni verəx, bunu özümüzə qohum[1] eləyəx, qoşuna sərkərdə eləyax. Hər harda bir dənə müşkülümüz oldu, onda Koroğluya arxalannıx. Yanı dayannıx Koroğluya. Koroğlu bizə arxa durar.

Həmin vəziyyətdə Ərəb Paşa qəbul elədi. Dedi:

– Vəzir, elə mən də məsələhət bilirəm ki, qızı verəx muna.

[1] Quda

Həmin vəziyyətdə, dosdar, dəstur verdilər, abid ya alım (alim) o dəyqə gəlib Ərəb Paşa qızı Möminənin əvəzindən vəkil olub, Koroğlunan Möminənin əğdin[1] oxudular. Amma Koroğli orada bi toy tutdular, cəşn tutdular. Koroğluni apardılar damad otağına. Bir neçə müddət burda Möminə xanımnan qaldılar. Bir müddət qalandan sora Koroğli əlamət verdi, Ərəb Paşaya dedi:

– Qurban, icazə versən isdiyirəm gedəm Çənlibelə. Gəlmişəm Möminə xanımı aparam gedəm.

Ərəb Paşa əlamət verdi, ehtiram elədi. Dedi:

– Qurban bax, mənim dünyada təh bir ovladım var, o da Möminə xanımdır. Əgər indi munu sən burdan aparsan, mənim qəlbim açılmaz. İcazə versən, bir neçə middət qala burda. Ondan sonra qool[2] verirəm, gələsən aparasan.

Koroğlu nə middət ki, burda qalmışdı, dosdar, Qıratı ötürmüşlər ilxının içinə. Əlbəttə, Ərəb Paşa munu istədi. Biy dənə Kəhər madiyan vardı ki, həman Qıratdan bir dol (döl) tutub. İndi qabaxda deyəcayix ki, bu atı kim görəcax, kim gətirəcax. İşimiz orda yox, qəyidirix gəlax gənə dastanın içinə. Həmin vəziyyətdə, həmin haldaydı ki, Koroğlu qəyıdıb Möminə xanımın yanına. Möminə xanımın yanına yetirib əlamət verdi ki, xanım, day Çənlibelə getməliyəm. Nə middətdi mən burdan ayrılmışam, gəlmişəm, indi dəlilər, xanımlar, mehtərlər, qulamlar yolumu gözləyirlər.

Möminə xanım doluxsandi, az qaldı ağliya. Amma diyəmmədi, Koroğlu, a təzəcə sənə ünsü ülfət tutmuşam. Hara

[1] Nigah
[2] Söz

məni tərk eliyib gedisən? Babamın da sözünnən çıxa bilmirəm. Bu dəyqə duram sənnən gələm, gedəx Çənlibelə.

O haldadı ki, dosdar, Koroğlu gördü Mömimə xanım dolaxsanıb, az qalır ağlıya. Elə ürəyi əsməxliğə düşüb, nanənin yaprağı kimi əsir. Əlamət verdi:

– Xanım, mən də getməxliğə əyağım gəlmir. Amma bi müddət buradan getməsəm, ayrı bir qəzo[1]-qədərlər olacax. Bərnamə ayrı cur olar.

Dedi:

– Məsələn nə qiliğ olar?

Dedi:

– Əvvəlan, bu dünyada qool vermişəm ki, qəyidəm tez gedəm Çənlibelə.

Burda əziz dosdar, Koroğlu hansı sözdəri deyir? Bu dəyqə hansı sözdəri Mömimə xanıma ki, Niyara vədə vermişdi, əlan "Ağa xanı"yla oxuyacağıx. Təmamən elimizin sağlığına, şattıxda yaşasın:

Xan Niyarə vədə verdim,
Çənlibeldən dönə-dönə.
Qulaş qollar kəmər ola,
İncə beldən dönə-dönə.

*Allah neynim, tarə eylim,*
*İçim əşqin badəsindən,*
*Məst olum yarə mən neylim? (Xorla)*

Axır Mömimə xanım istəyirdi ağlıya Koroğlu əlamət verdi:

– Mömimə xanım, axı vədə vermişəm.

– Kimə?

---

[1] Qəza, hadisə

– Xan Niyara vədə verdim, Çənlibəldən dönə-dönə. Qulaş qollar kaş kəmər olardı, incə beldən dönə-dönə.

Dedi:

– Baba, vədə veribsən, amma təzə sənə üz tutmuşam. Niyar dayanar dözər.

Dedi:

– Xanım, o qılıx dəyil ki, o dayanar dözər, amma dayanmayanlar dözməyənnər də var.

Dedi:

– Koroğlu, kimdilər?

Alamat verdi:

– Ərz eliyim, ərz eliyim:

Çənlibeldə saldım hasar,
Getməsəm yar məni zilfinnən asar.
Dəlilər Dərbəndi basar,
Qılınc beldən dönə-dönə.

*Allah neynim, tarə eylim*
*İçim əşqin badəsindən,*
*O sərxoş yarə mən neynəm? (Xorla)*

Möminə xanım buranı fikr eləməmişdi. Dedi:

– Yanı nə qılıx dəlilər Dərbəndi basar?

Dedi:

– Xanım, əgər gözdüyərlər gördülər çox yubandım, getmədim, xiyal eləllər mənim başımda bi qəzo-qədər vardı. Onda bi yol ta mən əlamat verəm, baba, biz gəlib qohum olmuşux, Dərbəndi dağıdallar.

Möminə xanım düşdü qooriya[1]. Dedi:

---

[1] Sıxıntıya

– Ay Koroğlu, gələllər birdən, Allah eləməmiş, ta bizim xəbərimiz olan Dərbəndi dağıdallar.

Dedi:

– Xanım qorxma, qorxma, inşallah, heş zad olmaz. Amma qulaq ver, qulaq ver ki, Niyar xanım mən gələndə neyniyirdi.

Hansı sözdəri? Axırın oxururx elimizin sağlığına. Aşıx cənab ağayi Aşıx Qulamrzadı, Aşıx Məhbubdi, Aşıx Mənafdı. Şad yaşayasız.

Koroğlu həsrət çəkirdi,
Niyar boynuni bükürdi.
*(Mənnən ayrılanda gördüm üzə gətirmirdi).*
Gözünnən qan-yaş tökürdi,
Bülbül güldən dönə-dönə.

*Allah neynim, tarə eylim,*
*İçim əşqin badəsinnən,*
*Məcnunun halına neynəm? (Xorla)*

O qılıx ki, bülbül güldən ayrılar, o cura az qalırdı bağrı çatdiya.

Dosdar, sözdər tamama yetiri. Həmin vəziyyətdə Koroğlu Möminə xanımı hali elədi, başa saldı, dərdin dedi beləsinə. İndi bax, bu dəyqə Möminə xanımnan həlallaşıb, gəlib dərbarda Ərəb Paşaynan görüşüb vidalaşdı. Koroğlu getmişdi yolun bi qədrin, amma yadına düşdü, dedi, birdən, mən gedəndən sonra qəzo-qədər başıma gələr, gələmmərəm. Möminəyə bir xərşlix vermədim, ya bi yadiqar vermədim ki, mənnən sora birdən ovladım ossa[1] gəlib məni axtara tapa. Təzəşdən qəyitdi.

[1] Olsa

Mömina xanım görür Koroğlu qəyidib, çıxdı qabağına, ehtiram elədi, xoşxal oldi. Səsdədi:

– Ağa Koroğli, elə bil qəyitdin, getmiyəsən?

Səslədi:

– Yox, xanım, yox. Yadımnan çıxmışdı sənə bir yadiqar, bi əlamət, bi nişanə verəm.

Əlin atıb, dosdar, Koroğlunun öz qolunda bir bazubəd[1] varıdı, qızıldan, gümüşdən çox por[2] qiymət bi bazibənd idi ki, hər kəstə ola bilməzdi. İndinin bazarlarında ona qiymət qoymağ olmaz. Açıb verdi Mömina xanıma. Dedi:

– Xanım, mən gedirəm. Biy moqə[3] qızım olsa, gəlib çıxa bilməsəm satarsan, dərsə qoyarsan biləsin, kamala yetirərsən biləsin, nə qədən ömrüz var, səni də görər, onu da görər. Əgər biy moqa[4] övladım oğlum olsa, bağlarsan sağ qoluna, gəlib çıxammasam, gələr məni tapar.

İndi doslar, bazubəndi verib Koroğlu burdan Möminədən dərsin vurub[5], xudafisdəşib, Dəmirqapı Dərbəndin dərvazəsinnən çıxıb, üz qoyub Çənlibelə tərəf hərəkət elədi. Nə middət at sürənnən sora dərələri, yamaşlari, yallari, qəyələri, ölkələri, şikarqahlari ki, harda düşəcək, harda geçacax o vəzinən atdiya-atdiya gəlib, Çənlibelin dərvazələrinə az qalır ki, Niyar xanıma mujdə verdilər:

– Niyar, müjdəmi ver, Koroğlu gəlir.

Çixtilər istiqbal elədilər. Amma Niyar nə qədən göz dolandırdı ki, Mömina xanımı görə, görə bilmədi. Koroğlu gəlib

---

[1] Biləklik
[2] Bahalı
[3] Bir zaman
[4] Vaxt
[5] Dərsin verib, tapşırığın edib

atdan düşüb, dəlilərnən, mehtərlərnən, qulamlarnan, xanımlarnan əl vurub görüşdülər. Görüşənnən sora Niyar əlamət verdi:

– Koroğlu, yadınnan çıxıb nəyə getmişdin?

Əlamət verdi:

– Xeyr, xanım, yadımnan çıxmeyıb.

Dedi:

– Möminə xanım nə qılığ oldu, niyə gətirmədin?

Koroğlu bir həsrətinən Niyarın üzünə baxdı. Səslədi:

– Xanım, gəlmədi.

Dedi:

– Bəh, dedi bə gəlmiyəciydi niyə sənə namə yazmışdı?

Dedi:

– Xanım, namə yazmışdı, getdim. Amma babasından ayrılanmadı. Babası qool verib, bu dəfə gedəm gətirəm biləsin. Vəli tək övladdı. Babası dedi, əgər bu dəyqə, bu halda məndən ayrılsa qorxuram davam gətirə bilməyəm. Day isdəmədim dədəni baladan, balanı dədədən ayıram.

Niyar dedi:

– Koroğlu, bura bax görüm. Bil mən ölüm, Möminə xanım nə qılıq gözəldi?

Ordaydı Koroğlu. Əlin atıb Qıratın belinnən cürə sazın endirib, narın-narın danışdırır, dindirir ki, hansı sözdəri oxuyacaq. Bu bərnamədə Cənab ağayi Aşıx Möhsün oxuyacaq bu sözdəri. İmidvaram şaddıxda yaşıyasız. Bu siz, bu da Aşıx Möhsün.

Tamam ellərimizə, təmaşəgəllərimizə salam ərz eləməğnan, mən də haman sözləri ki, usta Mənaf buyurdular, o sözləri ki, Koroğlu deyir, mən də haman sözləri "Pənahi"ynən diyəcəm, təmam ellərimizin sağlığına:

Canım Niyar, gözüm Niyar,
Ağlar qaldı yar, nə deyim?
Sənə qurban özüm Niyar,
Canda ahı-zar, nə deyim?

– Bax, bu canımda ahu-zar qaldı.

– Daha necə?

O birisi bəndini belə deyir bax:

Ayrılanda candan oldum,
Axı mən dinnən, imandan oldum.
Huri təh qılmandan oldum,
Dünya mənə dar, nə deyim?

Belə deyir bax:

Koroğluyam, mayil oldum,
Aləmə dilbədil oldum.
*(Aləmin dilinə-dişinə düşdüm, dillərə düşdüm).*
Möminiyə dəli oldum,
Tərlan olmaz sar, nə deyim?

Şad olsun ellərimiz. Amma Niyar tamam macəranı Koroğludan xəbər aldı. Nəmənə olmuşdu, nə qılıx getmişdi? Ərəb Paşaynan nə cürə danışıb, Möminəynən nə qılıx aşina olub? Oları danışıb, qutulannan sonra Koroğlu də bu həftə gedərəm, gələn ay gedərəm, o birisi il gedərəm, biy dəfə yaddan çıxdı. Yaddan çıxdı, amma bular Çənlibeldə qalmaxda olsun, qəyidax Dəmirqapı Dərbəndə görəx orada nə xəbər var?

Koroğlu gələnnən sora Mömünə xanım Koroğludan hamilə olub, 9 ay tamam olannan sora bar-həmlin yerə qoyub, Xudavəndə-həqiqət Koroğluya bir oğlan ovladı əta eliyip. Dərbarda munu gətdilər. Dolandırdılar vəzir, vəkil, əyan, əşraf, xan-xəqan, tacır-tüccar, hər o kəsi ki, xələt verəcağdı, xələtin verib. Xələtin verənnən sora adın qoydular Həsən bəy. Həsən

bəy dayıyə, tayəyə 7 sinninə qədəm qoyannan sora məxsus mirzələr tutdular, muna dərs örgədir, ədəb-kəmal örgədir, qiliş vurmaq, qalxan tutmaq, kəmənd ətmax, səvarkarlıx, niyzə pərtabi, təməm əslah əsbabidən 17 parçadı dənə-dənə buna amuzeşimi verirlər.[1]

Amuzişidən qutulub, amma Həsən bəyin sür-süfəti Koroğluya bənzirdi. Gələni döyürdü, gedəni döyürdü. Adına bunun ləqəb verdilər, Kürdoğlu. Kürdoğlu, dosdar, o qədər qudrətdi igid idi ki, heş cavan öz bərabərində, özünnən böyühlər bunun qabağında dayanmırdılar. Bi gün bi qərinin oğlinan dərgir oldular ki, o dəyqələr Həsən bəyin təqribən 18-17 sinni var.

Dərgir olannan sora qərinin oğlunu aldı kəlləsinə, Mirzə Qələndəri, elə tapdadı yerə, ağız, göz, burun biy dəfə qarışdı biy-biyin ə ki, həmun halda qəri yetirib. Belə baxında gördü, biy dəfə oğlunu vurub qana bəliyipdi. Səslədi biləsinə:

– Ahay, dədəsinnən biy xəbər, bəs sən mənim oğlumu niyə bu günə salmısan?

Həsən bəy bu sözü eşidəndə istiydi elə qərinin oğlunu ala kəlləsini tapdiya qərinin təpəsinə, amma da bi söz demədi. Orda üz döndərib, hərəkət elədi öz imaratına – saxtıamanına sarı. Vəxtində çatdı, amma Mömünə xanım gördü, sən ölmüyəsən, Həsən bəy elə bir vəzdə, elə bir keyfiyyətdə, elə bir halda gəlir ki, dindirməğ olmur biləsin. Yetirdi qabağa istədi ki, qolunu sala boynuna, üzünnən, gözünnən öpə. Həsən bəy əliynən itələdi kənara, dedi:

– İsdisən neyniyəsən, anacan?

Geşdi öz otağına, ana dalımbadalın varid oldu. Səslədi:

---

[1] Təlim vermək

– Oğul, Həsən bəy, nə olub? Niyə qamin dəryasına qərğ olubsan?

Dedi:

– Ana, de görüm mənim atam kimdi?

Dedi:

– Oğul, Ərəb paşadır.

Dedi:

– Sənin atan kimdi?

Dedi:

– Ərəb paşadi.

Dedi:

– Mənim öz dədəm kimdi, bax?

Dedi:

– Oğul, sənin dədən yoxdu, elə Ərəb paşadı.

Mömünə xanımın ürəyi düşdü, diğildiğilə. Dedi, yarəb, görəsən muna kim nəmənə deyib? Kim munu halı eləyib bu sirridən? Dedi:

– Anacan!

Dedi:

– Hə.

Dedi:

– Allaha and ossun, səni-məni xəlq eliyənə, and ossun səməd əlvahidə[1] əgər düzün danışdın, işim yoxdi. Əgər düzün deməsən, həm səni öldürəcəm, həm özümü öldürəcağam.

Ana gördü əlaş kəsilib, dedi:

– Oğul, əyləş, əyləş. Əyləş, nənə-bala, bi iki-üş dəyqə söhbət eliyax.

Buradadır ki, Həsən bəy əyləşib dedi:

---

[1] Quranda keçən Allahın ad, sifətlərindən

– Ana, sözün nəmənədi hindi ?

Dedi:

– Oğul, de görüm sənə kim nəmənə deyib?

Dedi:

– Ana, bax bi qarının oğliynan dava elədix. Qarı gəldi, Allah elədi hələ ayrı bi söz demiyib, mənə dedi, "dədəsinnən bexəbər[1]". İndi mən bu sində yetirmişəm, özümə əfsus elirəm ki, indiyə kimi niyə soruşmamışam mənim dədəm kimdi?

Dedi:

– Allah o qarinin evin yıxaydı, günüynən qutarmıyaydı, biləsin. Axı bu sənə bu sözü niyə deyib? Oğul, mən istəmiydim sənin atayın adını çəkəm ki, Allah eləməmiş birdən ayıxyallar başına gərlər, amma qoy deyim. Sənin atan Çənlibelin ağası, yeddi min yeddi yüz dənə dəlinin sərkərdəsi, xannara, bəylərə, paşalara, xodkarlara qan udduran qoş Koroğludi.

Başını tooladı Həsən bəy. Dedi:

– Bəh-bəh, bəh-bəh, rəhmətdiyin qızı, bu cur kişini adamnan danarlar? İndiyəki mənim dədəmi mənnən niyə gizdədibsən?

Da Möminə xanım bir söz diyəmmədi. Dedi:

– Oğul, qorxurdum gedəsən.

Dedi:

– Ana, gedəcam.

Möminə xanım başladı ağlamaği. Dedi:

– Oğul, istəmirdim diyəm munnan ötür.

Dedi:

– Ana, and olsun səni-məni xəlq eliyənə day biy dəyqə qala bilməm, gərək gedəm atamı tapam.

[1] Xəbərsiz

Möminə xanım ağladı, sizdədi[1] əvvəl rizayət vermirdi. Amma Həsən bəy dedi:

– Özümü öldürürəm, aradına aparram.

Məcbur qalıb, doslar, burda Möminə xanım muna icazə verdi. Dedi:

– Bəli, oğul, get icazə verirəm, amma Ərəb paşadan icazə alamamış etmiyəsən.

Ərəb paşa babası idi bunun. Həsən bəy anasınnan xudafisdəşib, qəyiddi Ərəb paşanın saxtumanına. Dərbara varid oldi. Situn səyasətin qabağında dayanıb, ehtiratın[2] yerinə gətirənnən sora Ərəb paşa səsləndi:

– Oğul, sözün nəmənədi? Bura niyə gəlmisən? İstisən nəmənə diyəsən?

Ehtiram elədi, dedi:

– Qibleyi-aləm sağ olsun, buraya kim mənnən gizdədibsiz demeyibsiz, amma bu dəyqə istirəm gedəm babamnan ötür.

Dedi:

– Oğul, sənin baban kimdir?

Dedi:

– Çənlibelin ağası, yeddi min dəlinin sərkərdəsi qoş Koroğludi.

Dedi:

– Oğul, mən qocalmışam, tacı-təxtim sənə baxır. Burdan buyana sən xannığ eliyəcaxsan, paşalığ eliyəcaxsan.

Dedi:

---

[1] Sızıldadı

[2] Ehtiramın, hörmətin

– Bir adamın dədəsinnən xəbəri olmiya, onun nə xannığının ərzişi var, nə paşalığının. Ta mən Koroğlunu tapmasam, heş yerə getməli dəyiləm.

Ərəb paşa gördü olmayacax, dedi:

– Oğul, anan icazə verib?

Dedi:

– Bəli, qurban.

Dedi:

–Əgər anan icazə veribsə, mənim də sözüm yoxdur. Amma ged xəzinədən özüyən pul göti, istəblədən özüyən at götü. Əsləhəxanadan özüyə əsləhə, əsbabı-cəngi götü.

Həsən bəy burdan qəyidib, özünü yetirdi xəzanəyə. Nə qədər ki, pul lazım olacağdı, qızıl lazım olacağdı götürüb, ordan hərəkət eliyib əsləhə, əsbabı-cəngi götürüb. Ordan gəlib yeddi ilxinin içinə, hansı atın tutdu cilovun saldı ağzına, zini qoydu belinə, əlin basdı kəmərinə ki, minə, at davam gətirə bilmiyib, qarnı dayandı yerə. Gördü bu atdarın heş biri məni Çənlibelə çıxardammaz. Qəblən demişdix ki, Qırat burda qalanda biy madiyan bınnan bi döl tutmuşdi. Həmən o Kəhər at qalırdı orda. Heç kəsə rikab[1] verməmişdi. Həsən bəy göz dolandırdı, gördü sən ölümüyəsən, atdarın içində bi at var, əgər munu tutub, aram eliyə bilsəm, hətmən bu mənim zəftimi gətirə bilər. Həmin atı, doslar, gəlib kəmənd atıb tutub, nə gücünən yəhəri bassın bunun belinə, qıçın qoydu üzəngiyə, xaneyi-izində qəral tutdu, gördü, bəli, sən ölümüyəsən axtardığım at budi.

Ordan gəlib özünü çatdırdı anasının yanına. Anası belə baxanda gördü, sən ölümüyəsən, o dəyqələr Koroğlu gəlib Dərbəndə, elə bil Koroğlunu gözümün qabağında görürəm. Elə

[1] Minik

hay-haynan ağladı, Həsən bəy atdan düşdü yerə, qolun saldı boynuna. Səsdədi:

– Ana, qurbanın kəsəydim, biy mən ölüm ağlama, kişinin qızı, mən gedirəm atamın dalısıca. İndiyə kimin atamı məndən danıbsan.

Da ana bi söz diyəmmədi, ağliya-ağliya üzünü döndərip Həsən bəyə səsdədi:

– Oğul, Həsən bala, qulaq ver, gör nə diyirəm.

– Ana, sözün nəmənədi?

Ki, həman sözdəri əlan bu dəyqə, bu bərnamədə cənab ağayi Aşıx Qulamrza oxuyacaq ellərimizin sağlığına.

Bəli, anacan, heş demirsən mən bu sayıb içində (məni sayıb-seçənlərin içində), dost içində başımı qoozıyammaram. Niyə danıbsan mənnən atami? Ana, icazə ver, mən gedim öz atamın dalica, öz sərniviştimin dalica. Ana can, mən ölüm, and verirəm səni səməd Allahə, əgər narahand olacaxsan qulax ver.

Dosdar, götürüb Həsən bəy ha birəm[1] öz ürək sözünü anasına necə aşikar eliyir. Həmun sözləri oxuram "Narıncı ahəng"iynan ellərimizin sağlığına. Allahdan istiyirəm, dünya durduxça şad yaşıyasız. Bəli, dosdar, çün burada bir az niskil olur. Odur ki, "Narıncı" havasiynan intixab elədig oxuyaq ellərimizin sağlına:

Dolanım başıyan, ay ana,
Ruxsət ver, mən gedər oldum.
Düşməni yetirrəm canə,
Ruxsət ver, mən gedər oldum.

Yaraliyam yar əlinnən,
Dağlar ağlar qar əlinnən.

---

[1] Necə biləm

*(Heş narahand olmiyasan, ana. Gedəm öz atamın daliyca).*

At minib, qılış tutaram,
Qanı qannara qataram.
Yəqin bil, atama çataram,
Ruxsət ver, mən gedər oldum.

Ta dosdar, Həsən bəy götürüb axır söz görəx öz anasına nə cür danışır:

Şirin sözün zülal[1] eylə,
Qələm qaşın hilal eylə,
Həsən bəyi həlal eylə,
Ruxsət ver, mən gedər oldum.

Anacan, lütf elə, sözdərimə bi bax, Allah bilir atamı tapmiyam, öz məqsədimə çatmiyam qeyidən dəyirəm.

Şirin sözün zülal eylə,
Qələm qaşın hilal eylə.
Həsən bəyi həlal eylə,
Ruxsət ver, mən gedər oldum.

Bəli dosdar, Həsən bəyi həlal eylə, ruxsət ver mən gedər oldum. Sağ ossun cənab ağayi Aşıx Qulamrza ki, zəhmət çəkib bu sözləri ellərimizin havasıynan oxudi. Əmma Həsən bəy söz-dərin qurtarannan sora ki, anasınnan icazə isdiyir getsin Çən-libelə, anası doluxsandı. Səsdəndi:

– Oğul, Həsən bala, qulax ver gör nə deyirəm.

– Ana, sözün nəmənədi?

Mömünə xanım hansı sözdəri deyir, Həsən bəyi nə qılıx yola salır, indi əlan cənab ağayı Aşıx Məhbub oxuyacax, tə-mam ellərin sağlığına, sağ ossun ellərimiz.

Aşıq Məhbub:

---

[1] Duru

–Bəli, ustad Mənafının ağzı ağrımasın, necə ki, dastanda dedi, Möminə xanım isdiyir Həsən bəyi yola sala, amma saz-sözünən, şeyirnən, bayatıynan.

–Oğul Həsən bəy, get, mənim də xeyir-duam sənin dalıncadi. İmidvarəm ki, mətləbiyən çatasan.

Amma hası sözləri diyir "Taziynan" oxuram tamam eşidənlərimizin sağlığına.

Dolannam başıyan Həsən,
Get Allahın amanında!
Gedib səlamət gələsən,
Get Allahın amanında!

Həsən bəy üzün tutudu anasına:

– Ana can, getdim əgər atamı tapdım, nə qılıx atamı tanıyım?

Ordaydi ki, anası üzün tutur:

– Həsən, qulax ver, atan səni tanıyacax, sən atanı tanımıyacaxsan. Amma bir vəsilə var, o vəsileynən.

– Anacan, nə vəsiləsidir?

– Ərz eliyim, oğul, ərz eliyim:

Koroğlunun vardı zatı,
Çənlibeldə var busatı.
Bazubəddi əmanəti,
Get Allahin əmaninda!

Dusdar, həmun bağdaki ustad Mənaf navarın əvvəlində işarə elədi ki, Koroğli Möminə xanımnan ayrılıb gedəndə həmun bazubəndi verib. Dedi, əgər qızım olsa, satıb puluynan qızı dərsə qoyarsan, dərs oxutdurarsan. Əgər oğlum olsa, verərsən oğluma, bağlarsan qoluna, bunun vəsiyləsinən gəlib məni tapar.

O vəziyətdə anası gedib həmun bazubəndi gətdi ki, çox por qiymətli bazubənd idi. Verib oğlu Həsənə təhvil, dedi:

– Oğul Həsən, əgər gedib Koroğlunu tapsan, bu Koroğluya tuş gəlsən, bu bazubəndin təvəssutiynən[1] Koroğlu özü səni tanıyacaxdı. Ehtiyacı yoxdu sən Koroğlu tanıyasan. Amma oğul, qulax ver, qoy sözümün axırın deyim.

Nə cur deyir? Genə oxuyum elimiz, eşidənnərimiz sağlığına:

Mömünəyəm, sözüm zulal,
Düşmənnərdən qısasın al.
Sütüm olsun sənə həlal,
Get Allahın amanında!

Burdan ana-bala xudafisliğ elillər, Həsən bəy nə cür səfər amadə eliyə, nə qılıx gedəcax atasın dalısica, ustad Mənaf genə dastanımıza idamə verir. Sağ olsunnar eşidənnərimiz.

Bəli, dosdar, Həsən bəy həmun vəzidən anasınan deyişib, görüşüb, qəyidib babası Ərəb paşaya, dəysumub[2] görüşənnən sora üz qoyub Çənlibelə tərəf yol getmağa. Amma öz-özünə xiyala getdi, dedi, mən bu vəziyyətdə, bu əsləhə-əsbabı cənginən gedib Çənlibelə çata bilməm. Gərək elə bir qılınc alam, elə bi qılınc qayıtdıram ki, həddi əqəl özümə də layiq olmasa, atam Koroğluya ləyaqəti ola.

Fətəli adında bir ustad varıdı. Həsən bəy bazar içindən dönüb, gəlib çatdı həman ustadın qabağına. Salam verdi. Ustad belə başın qavziyib baxanda, gördü bi qəvi-heykəl bi pəhlivandı. Dolu sir-sifəti var, altında bi at var, qiymət qoymax olmaz. Əlamət verdi:

[1] Vasitəsi ilə
[2] Dərs alıb

– Oğul, nəmənə isdiyisən?

Oradaydı ki Həsən bəy üzünü döndərib ustaya sarı dedi:

– Usta, bu qilişlərin baxa billəm?

Hansı qılıncı usta Fətəli gətdi, Həsən bəy əlini alıb, elə belə qatdadı, vəsətdən sindirib, atdı qirağa. Usta səsdədi:

– Oğul.

Dedi:

– Hə.

Dedi:

–Görürəm dəli-dolu adamsan, qocalmışam sənnən bərabərrığ eliyə bilmərəm. Amma mənim əhl-əyalim var, kasıb bi adamam. İmuratım[1] buraynan geçir. Buları sən sindirib atdın qırağa, buların pulunu kimdən alacağam? Kim mənim əhli-əyalımın xurdu-xurayın,[2] çörəyin verəcax?

Həsən bəy gördü düz diyir, həqqi varmış. Əlini attı cibinnən tamam sındırdıxı qılışların pulların verdi. Usta belə baxanda gördü, sən ölmiyəsən, bu oğlanın zoruna, qudrətinə göra mərifət-kəmalı da varmış. Səsdədi:

– Oğul, bura bax.

Dedi:

– Hə.

– Dedi:

– Bəllidi ki, əsli-nəsəbin böyüh adamlara yetirir. Böyüh xanəvadədə[3] böyyübsən. Bəllidi ki, mərifətin də çoxumuş. Amma nə qılıq qılış isdiysən ki, sənə layıx bir qılış verəm.

---

[1] İşlərimlə

[2] Yeməyini "Xurd-xurak" farsca "qida-mida" mənasındadır. Farslar yeməyə (qidaya) "xurak" deyirlər; Xurakdan öncəki "xurd" sözü bizdə həmin qidadan sonra "mida" kimi işlədilən bir ifadədir.

[3] Ailədə

Ordaydı Həsən bəy, üzünü döndərip ustaya sarı hansı sözdəri diyir, nə qılıq diyəcax, gənə həmən sözdəri, bu bərnaməmizdə gənə Aşıx Məhbub mənim yanımdadi, oxuyacaq elimizin sağlına. Sağ olsun ellərimiz. Xob, həmin sözdəri ki, dübarə Həsən bəy usta Fətəliyə oxyuyur, "Əmrahi"ynan oxuram, "Urmiya Əmrahisi"ynan təmam eşidənlərimizin sağlığına.

–Ustacan, qulax ver, əllərin ağrımasın. Dəqiq deyirəm, gör nə deyirəm, o qılınc ki, mən istirəm, sənnən həmin qılıncı istirəm.

Canım ustad, məyə[1] biy qılış qayır,
Nə uzun, nə güdə, biy qəral ola
*(bir qərarda, ortalama).*
Dəstəsi şirmayi, özü qoşa no,

*(iki yanlı, iki tərəfi də kəsən, bəzən bu söz "qoşa nav" kimi də tələffüz edilir)*

Vuranda ürəhdən xəbərdar ola.

Usta əmi, qulax ver, əllərin ağrımasın. Dəqix (dəqiq) təhvil al, gör nə diyirəm. O qilinc ki mən isdirəm, sənnən həmun qılıncı isdiyəm.

Usta gülümsəndi, dedi:

– Oğul, bilmirəm bu qılıncın adın eşidibsən, ya elə vaqeən[2] qılıncı tanısan, ol qılınc ki, sən diyisən mənə düzətdiyəm sənə, oğul, o qılış bilirsən hansı poladdardan başa gələr?

Dedi:

– Usta, qulaq ver, qoy deyim, hansı poladdan seçəcaxsan? Hansı poladnan mənə qılış qəyıracaxsan?

Xorasan poladının yaxçısınnan seç,
Yaxçısi olmasa, istəmirəm, yamanınnan geç.

---

[1] Mənə
[2] Həqiqətən

Hər nə vuranda dayanmiya heç.
Ya pil[1], ya kərgədan, ya şəhmar ola.

– Ustacan, diqqət elə.

Xorasan poladının yaxçısınnan seç,
Əgər yaxçısı olmasa, istəmirəm, yamanınnan geç.
Hər nəyə vuranda əldən nə gəlir?
Ona vıranda dayanmiya heç,
Ya pil, ya gərəgədan, ya şəhmar ola.

Usta gördü bu bi cavan oğlandı, amma cavannığına görə təcrübəsi çox yuxarıdadı. Dedi:

– Oğul, qool verirəm, o cur ki, sənin hünərin, danışığın, məharətin var və qilişlərin moridində[2] tanışlığın var, elə biy qılış qəyıram öz istədığınnən də bir az yaxçı ola. Amma, oğul, aya o qılıcı ki, mən sənə qəyiracağam, onu işlədə biləcaxsan? O qılıcı ki, sən isdirsən mən sənə düzəldəm, o qılıncın dalında gərəh elə bir oğlan ola ki, onnan düzgün istifadə eliyə – onnan iş çəkə, işlədə bilə.

Dedi:

– Ustacan, uzaq səfərim var, mənzilim uzaqdi. Onnan ötüri sənə bu sifarişi verirəm ki, bəs bil ki, işlətmağı da əlimnən gəlir. Qulax ver gör işlədə bilirəm, ya yox:

İraqdır mənzilim, uzaqdır ara,
Suyu çox sərt ola, iyəngi[3] qara.
Yarı cılğa[4] polad, yarı nal para,
Gərək əğrəb kimin zəhrdar[5] ola.

Bəli....

---

[1] Fil
[2] Barəsində
[3] Rəngi
[4] Çılxa
[5] Zəhərli

İraqdı mənzilim, uzaqdır ara,
*(Uzax səfərə gedacağam).*
Suyu çox sərt ola, iyəngi qara.

*(Yarı cılğa (çılxa) polad, cılğa polad da poladdarın şahı, əlasıdır ki, hətta o qılıncı vursan, poladı da kəsib geçər).*

Yarı cılğa polad, yarı nal para,
Gərəh əğrəb kimin zəhrdar ola.

Usta dedi:

– Oğul, əlan qool verrəm, sözünü tamam elə. Əyləş burda, istədiğin qılıncı cürlüyüm götür getginən.

Amma sözün axırın Həsən bəy dubarə belə deyir:

Həsən bi kamaldadır ötürməz ovi,
Dünyalarda yoxdi atamın tayı.
Ağzı qayıtmıya, çox iti qirağı,
Dağa dəyəndə, diyəsən tarı-mar[1] ola.

– Usta can, sən ki, dedin, oğul, qılıncı işlədə biləcaxsan, yoxsa yox? Kiçih göznən baxma, mən elə adamın oğlu dəyiləm, özüm də məmuli bi adam dəyiləm.

Həsən bəy kamaldadı ki, ötürməz ovu,
Dünaydə yoxdu ki, atamın tayı.
Ağzı qəyitmiyə, ağzı sov iti, qırağı iti,
Hətta dağa dəyəndə taru-mar ola.

Sözdər tamam olup, Həsən bəy əyləşip ustanın yanında, muntəzirdi usta qılıncın amadə[2] eləsin. Amma dastanımızın idaməsin ustad Mənaf ginə xidmətizə diyir.

Odur ki, Həsən bəy ustad Fətəlinən danışır qılıcın alannan sora dedi:

---

[1] Darmadağın
[2] Hazır eləsin

– Usta, əllərin ağrımasın. Yaxçı qılış qayırmısan. Amma isdrəm bi imtahan eliyəm.

Çünki cılğa polad elə bi polad ki, təmam poladdarı kəsər, xiyar kimin tökər yerə. Həsən bəy əlində qilinci bi tovladı, tovliyannan sora dosdar, ustanın bi zindanı[1] var idi, elə qilinci yendirdi zindana xiyar kimin vəsətdən[2] böldi. Həsən bəy gördü, bəh-bəh, doğrudan əlləri ağrımasın ustanın, elə vaqiən qılış qayırıb. Əl atıb cibinnən bir kisə qızıl çıxardıb, atdı ustanın qabağına. Dedi:

– Usta, əllərin ağrımasın. O qılıncı ki, mən istəmişdim qayırmısan, sənin həqqin bunnan çoxdi. Amma da buları verdim biləyə, icazə versən hərəkət eliyəm, gedəm.

Ustadan xudafisdəşib, üz qoyub hərəkət elədi, dosdar, gedir Çənlibelə tərəf. Müddətdər gələnnən sora gəlib çatıb Əhməd paşanın şəhrinə. Əhməd paşanın şəhrinin kənarınnan ki, isdiyir rədd ola[3] demiyəsən paşanan qulamlarınnan, xədəmələrinnən beş-altı nəfər çıxıblar yaylaqda şikarqaha[4], əyləşiplər. Həsən bəyin özün görəndə, atın görəndə Paşa əlamət verdi qulamlara. Dəstur verdi, dedi:

– Munu doorələyin, gətirin mənim yanıma görax kimdi bu?

Gəldilər Həsən bəyi apardılar Əhməd paşanın yanına. Əhməd paşa bunun vəziyyətinə baxanda, atının vəziyyətinə baxanda səsdədi:

– Oğul, kimsən? Nə adamsan? Hara gedirsən, nə karəsən? Burda neyniysən? Bu at sənin altında neyniyir?

---

[1] Oraq, dəryaz, qılınc və s. ağzının qatlamalarını döyüb düzəlmək üçün istifadə olunan ağır dəmir parçası.

[2] Ortadan

[3] Uzaqlaşsa

[4] Oylaq

Yani Paşa deyirdi, gərəh bu atı mən minəm. Ordaydı Həsən bəy üzün tutub Əhməd paşaya hansı sözdəri diyir, əlan bu dəyqə "Hələbi"ynən oxuram ellərimizin sağlığına. "Hələbi" budu bax...

Əhməd paşa, mənim yolum
Dağıstannan gələr oldi.

*(Amma xiyal eləmiyəsən, beş-on nəfər qulam yığmısan doorəyən elə biləsən sənnən disginəm, qorxam, yox).*

Vardı qılış vuran qolum,
Dərd bağrımı dələr oldi.

Əhməd paşa bunun danışıxların eşidəndə əlamət verdi qulamlarına, sərbazlarına:

– Oğul, özüzü yığışdırın, qoymayın qaşsın. Tutacayıx muni. Atin əlinnən alax.

Amma Həsən bəy bərnaməni bildi, gördü paşa əlamət verdi ki, bunu doorələsinnər, muhasiriyə salıb tutsunnar biləsin. Əlamət verdi:

– Paşa, dayan! Dayan, sözüm var.

Genə hansı sözdəri diyir, oxuram elimiz sağlığına:

Əlan qalxanı çəkərəm başa,
Əlimnən çəkərsən haşa.
Dağıstanda Ərəb paşa,
Namərd, mərdə gülər oldi.

Ərəb paşanın adını çəkəndə burdaydı ki, Əhməd paşa gördü, sən ölmiyəsən ola olmuya bu Koroğlunun oğludi. Ərəb paşadan xəbər verdi. Axı Ərəb paşanın qızı Mömünə xanımı Koroğlu almışdı. Səsdəndi:

– Hara gedisən?

Həsən bəy sözün axırını:

Həsən bəyəm, günüm belə,
Deməğnan gəlməz dilə.
Güzarımdı Çənlibelə,
Ərəb atım bilər oldu.

Ta dosdar, söz tamama yetdi. Həsən bəy sözdərin qurtaranda, Əhməd paşa əlamət verdi doorələdilər biləsin. Həsən bəy əl atıb qəbzeyi-şəmşirə, qılıncı belinnən çıxartdı ki, həman qoşa nav[1] qılışdı, paşanın qulamlarının hanısının kəlləsinnən qoydu bərq ildırım kimi yarırdi, vəsətdən xiyar kimi salır yerə. Paşa özü ancax aman tapıp qaşdı qutuldi.

Həsən bəy üz tutub Çənlibelə tərəf yol gəlir. Amma neçə günnər gələnnən sora günnərin bir günü gəlib çatıb yolun bir yerində, dağların arasından ki, rədd olurdi, iki dənə tacıra rast gəldi. Tacirlar mal-matahların satıb, hər nəmənələrin var eliyiplər qızıl-gümüş. Həsən bəy kəsdi buların qabaxların. Bulardan bac istədi, vermirdilər. Əl qəbzeyi-şəmşirə, tacırlar nəmənə qızıl-gümüş vardı töküb, canların qurtardıb qaşdılar. Özdərin yetirdib Cəfər paşaya xəbər verdilər:

– Biy dənə tək atdı, yekkə səvar[2] bizim yolumuzu kəsib, həmləvər oldu bizə, gücümüz çatmadı. Nəmənə malımız, matahımız var əlimizdən alıp, hərəkət elədi getdi.

Cəfər paşaya çox acıx gəldi. Çün tacırlar Cəfər paşanın tacırları idi. Dəstur verdi, beş-on nəfər sərbazdardan, hətta özü də savar oldu ata, kəsə yollarnan gəlib belə kəsdi Həsən bəyin qabağını. Həsən bəyin qabağın kəsdilər. Əlamət verdi, Həsən bəy dayandı. Dayananan sora səslədi:

[1] İki ağızlı
[2] Atlı mənasında

– Oğul, kimsən? Nə adamsan? Nə cürətin var, kimdən icaza alıpsan, mənim tacırlarımın qabağın kəsibsən? Hər nəmənə tacırlardan almısan, oları təhvil verəcaxsan. Özün də dəstur verirəm qollarıvı bağlıyaraq, aparıb dara çəhdiracağam biləyin.

Burdaydı Həsən bəy ki, ləqəbi Kürdoğludi, Ərəb paşanın nəvəsidi, Mömineynən Koroğlunun oğludi üzün döndərdi Cəfər paşaya, hansı sözdəri diyir, genə bu bərnamədə cənab ağayı Aşıx Məhbub oxuyacax, ellərimizin sağlığına.

Bəli, əziz eşidənnər, Həsən bəy Cəfər Paşaya hansı sözləri oxuyur? Buları da "Hicran"nan oxuram, "Dolu Hicranı"ynan, umidvaram eşitdixcə şad yaşıyasız:

Biy ərzim var sənə, ey Cəfər paşa,
Çönüb Çəmlibelə gedirəm.
Düşmənnər əlimnən çekəllər haşa,
Qədəm atıb, Çəmlibelə gedirəm.

Çün Cəfər paşa Həsən bəydən soruşdu ki, oğul, sənin dayanaxlığın kimədir? Kimə güvənirsən bu cur ağız isdi danışırsan? İsdiyir bildirə ki, kimdi, kimin oğludi, hara gedir, kimə güvənir. Odu ki, diyir:

-Biy ərzim var sənə, ey Cəfər paşa,
Üz tutmuşam, Çəmlibelə gedirəm.

Çənlibel müşəxxəsdi də. Bir nəfər Çənlibelə getsə, müşəxxəsdi ki, bunun güvəndiği yer Çənlibeldi və Çənlibeldə də Koroğlu var, Koroğlunun yurdudi. Odu ki, Cəfər Paşanın əlinə hesab verir, üz tutmuşam Çənlibelə gedirəm.

Düşmənnər əlimnən çəkirlər haşa,

Əgər qəsin ola, düşmənçiliğ eliyəsən, yəqin bil əlimnən haşa çəkəcəxsən.

Qədəm qoyub, Çənlibelə gedirəm.

Ta belə diyəndə Cəfər paşa amadə oldu ki, qoşuna dəstur verə bunu döyrəliyələr. Amma Həsən bəy sözün ikimincisin deyir:

At oynadıb Çənlibelə çataram,
Əslən kimi bərələrdə yataram.
Kəmənd atıb, indi səni tutaram,
Göz yaşın döndərib selə gedirəm.

At oynadıb Çənlibelə çataram,
Əslən kimi bərələrdə yataram,

*(Əgər həddən artıx izafə danışsan, kəmənd atıb indi səni tutaram.)*

Göz yaşın döndərrəm selə gedərəm,
Üz tutumuşam Çənlibelə gedirəm.

Genə Cəfər paşa dəstur verib, qoşun dərd tərəfdən Həsən bəyi mühasirəyə salıplar. Amadədilər ki, Həsən bəyə həmdəvər olalar. Amma Həsən bəy sözün axırın dübarə belə diyir:

Anamın yolunda qoli bağlıyam,
Atamnan ayriyam, sinə dağliyam.
Həsən bəyəm, Koroğlunin oğliyam,
Varə-varə Çənlibelə gedirəm.

Anamın yanında qolu bağlıyam,
Amma əfsus olaydi ki,
atamnan ayrıyam, sinə dağlıyam.
Həsən bəyəm, qoş Koroğlu oğluyam,
Varə-varə Çənlibelə gedirəm.

–Təhsən?

–Bəli.

Söz tamam olan Cəfər paşa dəstur verip Həsən bəyin üsdünə həmdəvər oldular. Əlamət verdi, Həsən bəyi doorələdilər, mahasiriyə saldılar. Ordaydı ki, Həsən bəy əl qəbzeyi-şəmşirə hansı qulamı ki, vurur, bərq ildırım kimi atdan salır yerə. Cəfər paşa gördü, xeyr baba, dəstur verəm şəhrin qoşunun təmam atdana genə munnan başara bilmiəyəcayıx. Cəfər paşa atın başın döndərdi. Qulamların arasınnan ara yolu açıb, üz qoyub şəhrə tərəf. Badi-sərsər[1] kimi hərəkət eliyip getdi. Həsən bəy day isdəmirdi çox yubana, ürəyi Koroğludan ötürü nanənin yaprağı kimin əsirdi. Diyirdi, qoy gedəm çatam Çənlibelə, ağam Koroğlunu görəm, görəm bi Koroğlu neyliyir, nə qılıxdı? Anası əlamətdərin, nişannarın demişdi. Atasının sifətinnən, xur-xasiyyətinnən demişdi biləsinə. Həsən bəy ordan, davadan əl çəkib üz döndərdi Çənlibelə tərəf gəlir. Amma, dosdar, neçə günnər, neçə aylar, neçə middətdər yol gələnnən sora az qalır ki, Çənlibelə çata. Həsən bey belə gördü bi qoca kişidi, qoca kişi budu bax, aşağıdan gəlir mərkəb qabağındadı. Çatdı bu qoca kişiyə salam verdi:

– Salam, qoca baba.

Salamın rədd elədi.

Amma qoca bi muna baxanda altdan-üsdən, atına, özünə baxanda gördü, bəh-bəh, ruziqarın anasın misli manəndin[2] yetirmir. Buna bərabər igid, oğlan dünyaya gəlmiyib. Elə gözü qalmışdı Həsən bəydə. Həsən bəy qocadan soruşur:

– Qoca baba!

Əlamət verdi:

– Bəli.

---

[1] Güclü külək

[2] Tay, ona tay

Dedi:

– Çənlibelə çox qalır çatam?

Qoca əlamət verdi:

– Oğul, elə bu dağları aşsan qabağa, Çənlibelə çatıbsan, yaxınniyıbsan. Niyə gedisən Çənlibelə? Çənlibeldə işin nədi?

Qoca deyirdi, Allah eləməmiş, birdən gedər Koroğlunun çənginə düşər, bu cür igid həyifdi. Koroğlu munu öldürər, aradan aparar.

İndi, dosdar, burdaydı ki, diyəndə Çənlibelə niyə gedisən, Həsən bəy üzün döndərdi qocaya sarı. Koroğlunu nə qılıx qocadan xəbər alır, Çənlibeldən isdir bi yadiqar biy yaddaş, biy nivişdə[1], bir xatirə, bir şeylər örgəşə, həmun sözdəri əlan cənab ağayi Aşıx Qulamrza oxuyacax tamamən ellərimizin sağlığına. Bu bərnaməmizdə Aşıx Qulamrza həmin sözdəri sizin üçün oxuyacax, şad olasız, var olasız. Qulax ver:

Qoca baba, qoy dolanım başına,
Söylə Koroğludan mənə biy xəbər.
And verrəm səni, məni yaradana, biy xəbər,
Az qalır bağrım çatdasın.
Görüm aya, Çənlibeldə qururmu dövran?
Söylə, Koroğludan mənə biy xəbər.

Əmi-qoca qulağ asır ta, dosdar, görək Həsən bəy ikiminci sözün nə cür oxur:

Əmi can, qəvvas kimin dəryalərə dalaram,
Müxənnət yurduna təlan salaram.
Yağı düşmənnərdən qisas alaram,
Söylə Koroğludan mənə biy xəbər.

– Oğul, daha sözün nəmənədi?

---

[1] Yazı

Həsən bəy, dosdarım, axır sözün belə deyir:

Həsən bəy cavandı, iyid yaşında,
Öldürrəm namərdi mərd savaşında.
Çənlibeldə o dəliləri başında,
Söylə Koroğludan mənə biy xəbər.

Həsən bəyəm cavan iyid yaşında,
Öldürrəm namərdi mərt savaşında.
Amma, əmican, Çənlibeldə o dəliləri başında,
O, söylə Koroğludan mənə bi xəbər.

Bəli, dosdar, həmin vəziyyətdəydi ki, Həsən bəy sözdərin qutarannan sora, qoca bi bunun üzünə baxdı, royətinə[1] baxdı. Gördü həyif olaydı bu cəvana ki, gedəcax Koroğlunun çənginə düşə. Amma mən də munu qəytərə bilməm məxsusən gəlip Çənlibelə gedə. O vəziyyətdə qoca dedi:

– Oğul, əgə Çənlibelə gedisən özünnən muvazib ol. Amma yaxınnaşıbsan elə bax budu, bax bu qabax dağları aşısan, yetişisən Çənlibelə.

Həmin vəziyyətdəydi ki, qocadan ayrılıp Koroğlunun intizarı, Koroğlunun görməməxliği az qalır Həsəni divanə eliyə. Üz qoyup hərəkət eliyir Çənlibelə tərəf. Vəxtində gəlip az qalır ki, axşamüsdü ola. Çatdı bi yaylağa gördü qəribə, səfalı yerdi bura. Həmin yaylaxda atın çəkip vurdu kəməndə, atdan düşüp bulax başındadı. Bulax başında, dosdar, o vəziyyətdəki görüp, gözəlliğini, suların fəvvarəsini, açılan güllərin ətrin, bülbüllərin oxumağın.

Dedi:

– Bura yaxçı yerdi. Hətmən burda gərəh bi-ki gün istirahət eliyəm, danışam, onnan sora Çənlibelə getməliyəm.

[1] Görkəminə

Burdaydı Həsən bəy. İndi şikar eliyip, gətirib tanqal qurub, bulax başında kabapları çəkip yiyənnən sora, o bulağın təbiyi sularınnan içib istirahətə məşquldi. Başın qoyup dirsəhlənib, isdir yata bi yol. Demiyəsən Eyvəzdi, Həsəndi, Həsən Dəmirçioğlu yanı, İsaballı çixiblər məşqə dolanmağa. O vəzyətdə baxdılar ki, bir nəfər oğlandı elə bil ki nabələtdi. Tanımır buraları. Amma kimdi, nə adamdı. Qorğu pozup, atı ötrüp qorğa. Eyvəz əlamət verdi, Dəmirçioğluynan İsaballıya. Dedi:

– Siz burda dayanın. Mən gedim qabağa görüm bu kimdi, nabələtdi tanımır buraları gəlip düşüp burda.

Eyvaz gəlip çatdı Həsənin başı üsdə. Səsdədi:

– Eheyyyy! Dəliqannı, kimnən icaza alıpsan atı ötürübsən bizim qoruğmuza?

Həsən bəy yanı bir Kürdoğludu. Başın yerdən qovzadı, gördü bir igit oğlandı amma çox gözəl bir oğlandı. Səsdədi:

– Məgə buraları sənə tovşuruplar? İndi görsən istirahətdəyəm, əgər sözün də olsa get bi sahat, sahat yarımnan sora gə. Qoy bi istirahat eliyəx, danışax görəx sən nəmənə diyisən.

Eyvəz gördü, xeyir, baba, qəbul eliyən dəyil. O haldaydı ki, həmdəvər oldu munun üsdünə. Həsən bəy gördü ki, bu dəliqannı hər kəsdi mənə həmdəvər oldu, yerinnən qalxıp əlin atıp atın üsdünnən Eyvəzı çəhdi saldı yerə, qolun-qıçın bağladı. Dinməz-eləməz ağzına da bi möhkəm bi dəsmal bağladı ki, səsi çıxmiya çəhdi atdı orda daşın dibinə biləsin. Həsən Dəmirçioğlu gördü muni. Görəndə gördü Eyvəz gəlmədi, yubandı. O vəzinən gəlip çatdı. Gördü Eyvəzın ağzın, qolun-qıçın bağlıyıb, yıxıb daşın dibinə.

Səslədi:

– Ötür ki, sən munu niyə tutubsan?

Orda gördü, xeyir, gənə biri gəldi. Yerinnən qalxıb, dosdar, Dəmirçioğlunu da çəkip atdan saldı yerə. Eyni Eyvəz kimin qolun-qıçın bağlıyıp, ağzın bağladı.

Dedi:

– Genə gələn olacax mən yatmiyam? Bi dəfə hammısın yıxam bağlıyam onnan sora istirahət eliyəm.

Onu da yıxdı daşın dibinə. Demiyəsən İsaballı bunu görür. Görəndə ki, buların ikisini də bağlıyıp qol-qola atdı daşın dibinə. Ağızdarın bağlıyıb, İsaballı həmdəbər oldi. Gəlib çatdı dimməz eləməz. Əl qəbzeyi-şəmşirə, həmdəvər oldu Kürdoğlunun Həsən bəyin üsdünə. Həsən bəy yerinnən qalxıp munun da ağzın gözün bağladı yıxdı daşın dibinə. Demiyəsən dəlilərdən uzaxdan görürdülər. Gördü elə hər kəs gedip tutur, kəpçəliyir[1] yıxır bi dəfə əlin qolun qıçın bağlır. Odu ki, Koroğluya xəbər apardılar:

– Koroğlu sağ olsun, bi nəfər dəliqanlı igiddi gəlip, yaylaxda qorğa atın buraxıb, dəlilərin hansı gedir, qolun-qıçın bağlıyır, yıxır bir-birin yanına. Gəldix sənə xəbər verəx.

Koroğlu fikrə getdi. Dedi:

– Nə qılıx pəhlivandı? Mustafa bəydi?

Dedilər:

– Xeyr, Mustafa bəy dəyil.

– Süleyman xandı?

– Xeyr, Süleyman xan dəyil.

– Reyhan Ərəpdi?

– Xeyr, Reyhan Ərəp dəyil. Bax, buların heş birisi dəyil.

Dedi:

---

[1] Qandallamaq

– Bə bu kimdiki bu igitdixdə, bu qəhrəmannıxda adı mənim qulağma dəymiyb? Dəliləri yıxıp yan-yana, qol-qola bağlıyıp. Gedax, görax kimdi?

Dəlilər əlamət verdilər Koroğluya:

– Ay Koroğli, Allah eləməmiş biydən gedərsən özün tanıtdırarsan, əz qəralı malım bu gəlib səni axdarır. Bax bi dəfə Çənlibeli qətlam elətdirərsən.

Koroğlu dedi:

– Oğul, mən uşax dəyiləm. Cənglər[1] görmüşəm, ordular basmışam, tiplər[2] dağıtmışam, alaylar pozmuşam. Gedəx ora bi danışdırax görəx kimdi nə adamdı, kimdən ötrü gəlip, nigə gəlip, sözü nəmənədi?

Koroğlu əslah[3], əsbab cəngisin bağladı. Ordan qalxdı dəlilərnən hərəkət eliyib gəldilər çatdılar həmən yerdəki Həsən bəy bilir Kürdoğludu – Koroğlunun öz oğludi. İndi dədə bala burda biy-birlərini tanımıllar. Koroğlu gəlir öz oğlunun yanna, Həsən bəy gedir dədəsin axtara. Amma yaylaxda, bulax başında, gəlip qəyələrin arasında dəliləri bağlıyıb, yıxıp yan-yana. Orda çatdılar bir-birlərinə.

– Oğul kimsən? Nə adamsan? Bura niyə gəlipsən? Dəliləri niyə tutup qol-qola bağlıyıpsan?

Dedi:

– Əgər çox danışsan qoca, səni də tutup bağlıyacam dəlilər kimin.

Dedi:

– İsdiyisən yaxçı ola sözü uzatmıyax, dəlilərin qolun-qıçın aş ötür, qoy gəlsin.

---

[1] Savaş, müharibə

[2] Ordu

[3] Silahlar ("Əsləhə" sözünün cəm şəkli)

Dedi:

– Get aş da. Əgər sən gəlmisən buları aparasan, işim yoxdu, aça bilsən get aşginan.

Koroğlu gördü, Allahu Əkbər, kişi, bu kimdi özünə bu qədər güvənir. Necə yanı aça bilisən get aç apar?

Dedi:

– Yanı mən bu dəliləri birdən qutara bilmiyəcağam.

Dedi:

– Sənnən yekəsi də gəlsə qutarammaz.

Koroğlu acığa düşdi, qafası dumannandı. Çəhdi qilincı belinnən, həmdəvər oldu Həsən bəyin üsdünə. Amma, dosdar, Həsən bəy Koroğluynan bi atma atdılar, qılış-qalxan vurdular. Koroğlu gördü sən ölmiyəsən şuxlux götürən igid dəyil. O halda dedi:

– Oğul, kimsən? Nə adamsan? Hardan gəlmisən? Adın nəmənədi? Pəhlivanın gərəh bir adı ola.

Burdaydı kı, Həsən bəy üzün tutudu Koroğluya sarı.

Dedi:

– Qulax ver, qoy diyim gör hardan gəlmişəm. Tanıginan, kiməm, nə adamam?

İndi əlan, dosdar, bu bərnamədə cənab ağayi Aşıx Möhsün oxuyacax. Tamam ellərimizin sağlığına. Sağ olasız, şad yaşıyasız.

Bəli, dosdar, sən kimsən? Özüyü, hoviyətüvü [1] nişan verginən.

Həman sözdəri zil "Əmrahı"ynan oxuyam, təmam eşidənnərin, tamaşagərlərin sağlığına.

Dağısdannan çıxdım bahar fəslində,
Gəzə-gəzə bu diyarə yetişdim.

[1] Kimliyini

Bac vermədim, düşmannardan bac aldım,
Ama çoxun saldım ahu-zarə yetişdim.

– Oğul, sən kimsən, hardan gəlisən? Hara gedisən?

Dedi:

– Ərz eliyim.

İkimci bəndin belə deyir baa:

Anamnan eylə dey, ayrıldım, mən gəldim belə,
Düşmanın eylə deyi qanını döndərdim selə.
Gəzə eylə dey, gəzə yarəb, gəldim bu Çənnibelə,
Çəksələr eylə məni ey darə yetişdim.
Anamnan ayrıldım, mən gəldim belə.

– Oğul bə anannan niyə? Bə sənin atan yox idi?

Anamnan ayrıldım, mən gəldim belə,
Axı düşmanın qanını döndərdim selə.
Gəzə-gəzə gəldim bu Çənnibelə,
Çəksələr dilimnən bu darə yetişdim.

Bəli, təmamın deyir:

– Adın nədir? Oğul, hovyətin nişan ver. Adın nə cür deyir, diyəciyəm ellərin sağlığına.

Həsən bəyəm, hər yarıya dözərəm,
Qılınc əldə, qalxan beldə gəzərəm.
Dəliləri mən yan-yana düzərəm,
Sən olasan günü qarə yetişdim.
Bəli, dəliləri mən yan-yana düzərəm.
Sən olasan günü qarə yetişdim.

Koroğlu gördü, elə bil vəziyyət xarab olacax. Əlamət verdi dəlilərə:

– Nə ba[1] ola mənim adımı çəkəsiz, “ay Koroğlu” deyəsiz. Qoy bi görüm bu kimdi.

Əlamət verdi:

– Oğul, bura bax görüm.

– Hə.

– İndi bəlli oldu adın Həsən bəydi. Elədi?

Dedi:

– Hə.

Dedi:

– Mənnən istədiğin nəmənədi?

Dedi:

– Mən ağa, Koroğlunu axdarıram.

Dedi:

– Əgər Koroğlu axdarısan, əgər mənnən küşdü tutax. Məni yıxa bissən, elə bil Koroğlu day yıxmısan.

Həsən bəy dedi:

– Qəşəh sözdü. Xoşum gəldi bu sözünnən.

O haldaydı ki, bax təmam əslah-asbab cəngilərnən ki bir-biyləriylə cənglər eləmişdilər. Hamsın soyunup qoydular kənara. Əl atdılar bir-birinin kəmərlərinə, iki dənə pəhlivan küşdü tutublar. Çox Həsən bəy buna fişar[2] verdi. İsdiy yıxa, yıxmiyıdı biləsin. Çün gördü qocalıb, o qocalığına görə ərziş qail oldu biləsinə. Ehtiram qail olurdi. Amma dedi:

– Qoca.

Dedi:

– Hə.

Dedi:

---

[1] Nəbadə

[2] Basqı, təzyiq

– Özüyün incitmə. Əgər Koroğlusan, tanıtdır özün mənə. Görürəm bəzi biy nişənnər, əlamətdər vardı ki, olar səni Koroğluya bənzədir. Əgər Koroğlusan de görüm, əgər ötürax cəng eləmiyəx.

O haldaydı ki, Koroğlu bir dəfə altınnan çıxdı (sözün altından çıxdı, dandı, inkar etdi).

Dedi:

– Oğul, burdan Çənlibelə neçə mənzil yol qalır, iştibah gəlmisən.

Həsən bəy dedi:

– Sən ölmiyəsən, ola olmıya o qoca kişi mənə iştibah adres veripdi.

Yalannan danışıbdi. İndi, dosdar, burda küşdü tutuplar. Bir dəfə, iki dəfə. Həsən bəy Koroğlunu biy dəfə dizdərini qətdədi, belin vurdu yerə.

Dedi:

– De görüm kimsən?

Koroğlu səslədi:

– Riyzə-riyzə doğruyasan, öldürəsən, əvvəl sən kim olduğunu deməsən, mən demiyəcəğam kiməm.

Amma burdaydı. Qalxdı əyağa, ötürdü.

Dedi:

– Qoca, de görüm kimsən?

Koroğlu demədi. İndi, doslar, bu bərnamədə Koroğlu üzün döndərib sazı-söznən. Hansı sözdəri diyir cənab ağayı usta Dehqan oxuyacax. Həsən bəy diyən sözdəri özüm oxuyacam təmam ellərimizin sağlığına:

– Hardan gəlisən, haralısan? Kimsən? Bəlləndi adın Həsəndi. Ama kimin oğlusan? Sənin nisbətin hara yetişir bilmirəm qulax ver sözümə, gör nə diyirəm. Mənnən söz xəbər alısan?

Bəli, büyür pəhlivan, büyür sözün görüm nəmənədi:

Neyniysən mənnən söz xəbər alıp,
Ləşi ləş üsdünə qalıyan mənəm.
Təmam xotkarları təxtinnən salan,
Dağı dağ üsdünə qalıyan mənəm.

– Xob, pəhlivan səninki hələ nisyədi, amma mənimki nəğdi. Gözün görür ki, dəliləri bağlamışam qol-qola. Amma qulax ver, gör mən kiməm. Mən neynəmişəm? qulax ver, gör neynəmişəm:

Pəhlivan, qeyzə gəlip hərdən nərə vuranda,
Görüsənki dəliləri qol-qola bağlıyan mənəm.
Qılış çəkip, düşmən üsdə varanda,
Sinələri çalı-çarpaz dağlıyan mənəm.

– Sən neynəmisən nə iş görmüsən?

– Qulax ver qulax ver:

İyid olan heç ayrılmaz elinnən,
Tərlan olan sona verməz gölünnən.
Ellər zarə gəlip çumərd[1] əlinnən,
Başı baş üsdünə qalıyan mənəm.

– Bəli, pəhlivan o cürdi. İsdisən burda bi söz diyəsən, ta igit elinnən ayrılıp çöllərə düşməsə, pəhlivannar axdarmasa o, igidin adı, sanı dünyadə deyilməz. Qorxum yoxdu ayrılıp ellərimnən gəlmişəm bu məntəqəyə. Koroğlunu axdarıram gərəh Koroğlunu tapam. Koroğluynan bir hesaplarım var, işim var. Amma qulax ver gör mən neynəmişəm. Axı bilənmirəm Koroğlunun dosdusan, ya düşmanısan? Bu bir. Və zimnən[2] Koroğlu o adamlardan dəyil bi nəfərə adın diyə. Ta gərəh tərəfi

[1] Mərd, dəli-dolu
[2] Habelə, həmçinin

müqabil diyə annan. Bəli, qulax ver, Koroğlu görəndə diyə bilərsən işin nəmənədi. İkimincisi də budi, beş on dənə çardax-mardax dağıtmısan, beş-on kar-kasıbı vurup, yıxıp gəlmisən burda özün təriflisən? Amma mən tacırların mal-matahın yolda əllərinnən almışam, dəlləri qol-qola bağlamışam. Qulax ver, gör daha neynəmişəm:

Qovup tacırları, doldurdum daşa,
Saymıram meydanda sultannan paşa.
Qoca pəhlivan, axırsında əlimnən çəkərsən haşa,
Bax tacırlar, paşalar ovliyan mənəm.

– Sən neynəmisən? Kimsən adın de görüm kimsən? Pəhlivan təcribən azdi, bir tacirə rast gəlibsən əl-əyağı tökülmüş tacir. Onu bi qovub daşa soxupsan o bir pəhləvannıx dəyil. İnşəllah, pəhləvannar görəcəxsən. Qulax ver gör sən Koroğlu axdarırsan mən təqribən[1] Koroğluya yoxunam[2] bir bax. Bu dağlar aşsan dağlar Çənlibeldi. Çənlibelə yaxunniyıbsan (yaxınlaşmısan), amma qulax ver:

Koroğlu dəyiləm, amma ona misaləm,
Həm Rüstəm Zalam, həm də Səlsaləm.
Neçə xotkarları təxtinnən salam,
Başı baş üsdünə qalıyan mənəm.

– Bəs qoca deyisən Koroğlu dəyiləm? Amma o nişannarki məndə var bir muxtəsər sən Koroğluya bənzisən. İnşallah, Koroğlu gəlsə görəsən analar necə oğlannar doğup, necə pəhlivannar. Qulax ver gör mən kiməm:

Həsən bəyəm, mərt meydanda qalaram,
Muxənnət başına qılış salaram.

[1] Demək olar, təxminən
[2] Yaxınam (burada bənzər olduğunu deyir)

Hər bi yerdə bilginən ki, düşmənnərdən qisas alaram,
Bunu yəqin biləsən ki, seçib al gohəri saxlıyan mənəm.

– Hamısın bir-bir sənə nişan verəm görəsən yollarda neynəmişəm.

– Pəhləvan, gözləriyən (gözlərinə) baxanda məhəbbət mənim ürəyimə gəlir. Heyfi sənsən belə igit az olar bilmiyəm əsli-nəsəbin kimlərə yetişir?

Bəli, dosdar, əl çəhmiyəcəxsən geçəh meydana. Həmin vəziyyətdəki sözdəri təmama yetirip indi gələn bərnamə ki, inşallah, o oxuyacax. Koroğlun nəqşin[1] usta Dehqan oxuyacax, amma indi əlan bu dəyqə Həsən bəynən Koroğlu gedillər ikiminci meyhdana. Genə Həsən bəynən küştü tutdular. Bi qədr küştü tutannan sora, Həsən bəy Koroğlunun genə dizdərin qatdıyıp, belin vurdu yerə.

Səsdəndi ki:

– Qoca, indi nə diyisən? Əvvəl dəfə dedin bizim rəsmimizdi ki ötürəllər. İkiminci dəfə nəmənə deyisən?

Dedi:

– Pəhlivan, üçüncü dəfə yıxsan öldürsən də həqqin var. Bu bizim ölkəmizin şər-şəraitidir.

Həsən bəy isdəmir buna əziyət verə. Çün Koroğlunun məhəbbəti düşmüşdü qəlbinə. O vəziyyətdə ötürdü Koroğlu qalxdı əyağa. Amma dəlilər gördülər da vəziyyət xarabdı. And içip əgər bu dəfə yıxsa ötürmiyəcax. Qaçıp Niyara xəbər verdilər ki, Niyar xanım, hal-hekayət belədi. Bax, bi dəliqannı gəlip, dəliləri yıxıp qol-qola bağlıyıp. Koroğluynan küştü tutuplar, iki dəfə Koroğlunu yixib, amma üçümüncü dəfə yıxsa da aman vermiyəcax. Daa Koroğlu getdi, Çənlıbel dağıldı.

[1] Obrazını, rolunu

Ordaydı ki, Niyar on yeddi qələm özünə zinyət verib, arayiş[1] verip. Dedi, qoy bi gedəm görəm bu pəhlivan kimdi, nə adamdı? Həddi-əqəl[2] mənim gözəlliğim bayis ola Koroğlu qurtular. İndi Niyar xanım düşüp yola, kəniz, dayələriynən, qulamlarnan hərəkət eliyib gəliblər, dosdar, çatdılar o səhnəyə o yerə ki, Çənlibelin dağlarıdı, qoruxlarıdı, qəyələrinin arasıdı. Bax bi dənə dərvəzələrin altındada dəyanıb, eyni mənnən usta Dehqan ki durmuşuq burda, odu gördü Koroğluynan Həsən, qəyənin ağzında dayanıplar. Amma Niyar çatdı Koroğluya salam verdi, əlamət verdi.

Dedi:

– Kişi neynisən?

Dedi:

– Xanım, iki dəfə yıxıp, üçümüncü dəfə də yıxsa, da aman vermiyəcax.

Dedi:

– Koroğlu, diyəllər ilana balası qənim olar. Maba[3] birdən yıxıp eləsən bunu iş-miş görəsən biləsinə. Amandı bi soruş gör kimlərdəndi sora?

Burdaydı ki, Həsən bəy göz sataşanda, dosdar, Niyar xanıma. Niyar xanımın gözəlliği Həsən bəyi tutdi.

Dedi:

– Sən ölmiyəsən, anam diyirdi Niyar çox gözəldi. Olmıya bu kişi elə Koroğludi.

Koroğlu Niyarın yanında dayanıp. Bax öz-özünə xiyalat götdü. Niyarın o cür gəlməği Koroğlunu cəvannatdırdı. Gücü bi bərabər ossaydı, on bərabər oldi. Xiyalında tutdi elə burdan

[1] Bəzək-düzək
[2] Ən azından
[3] Nəbadə

hərəkət eliyəm, necə kəlləynən vuram Həsən bəyə, yıxam yerə bi əlmi atam dizinnən, bi boynu kökünnən, Mirzə Qələndəri qavzıyam, tapdıyam yerə, çəkəm qılıncı dayyam boğazına, bir dəfə boynun bədəninnən ayram. Elə o qılıx da oldu dosdar. Həsən bəyin fikri qalıp Niyarın yanında. Koroğlunun yanında huşu dağılıp. Allah bu Niyardı, bu da Koroğludı. İki dəfə yıxmışam indi babama nə cavab verəcağam? Ordan Koroğlu necə sürətnən gəlip top kimin özün vurdu Həsən bəyə. Həsən bəyi, doslar, yıxdı yerə. Amma Niyarın gözəlliği Həsən bəyin huşunun başınnan dağılmağı, Həsən bəyi yıxdı yerə ha. Koroğlu şayəd yıxa bilmiyəydi. Əlin atdı bi dizinin bükügünnən, bi boynun kökünnən, iki zərbidə[1] qavzadı başının üsdünə. Bi dolandırdı, elə tapdadı yerə dizini basdı sinəsinin üsdünə əl qəbzeyişəmşir isdiirdi başını bədənnən ayıra. Niyar yetirdi başı üsdə.

Səsdədi:

– Kişi neynisən?

Dedi:

– Xanım, öldürrəm.

Dedi:

– Məgər o səni yıxanda öldürmüşdi?

Dedi:

– O cəvan idi, təcrübəsi azıdi. İki dəfə biləsin aldatdım ötürdü məni. Mən niyə ötürüm biləsin?

Dedi:

– Bırax, bırax. Burax qoy görüm bu kimdi?

Dosdar, Koroğlu Niyarın sözün yerə salammadi. Dizin qavzadı Həsən bəyin sinəsi üsdünnən qalxdı əyağa. Niyar üzün tutdu:

---

[1] Mərhələdə

– Oğul, de görüm kimsən, nə adamsan? Bura niyə gəlmisən, kimi axdarırsan?

Həsən bəy baxdı Niyara, öz qəlbində dedi, xanım, sənin gözəlliğin, məhəbbətin məni yıxdı. Koroğlu məni yıxanmazdı. Amma, qulax ver, gör mən kiməm? Döndü Koroğluya sarı səsdədi:

– Pəhlivan, bilmirəm niyə özün mənnən danısan? Amma mən gizdətmirəm. Aləm aşkara diyirəm kiməm. Hardan gəlmişəm, niyə gəlmişəm, Koroğlunu niyə axdarıram. Koroğlunun nəyiyəm, Koroğlu mənim nəyimdi? Qulax ver, gör nə diyirəm.

İndi, dosdar, həmin sözdəri burda "Gözəlləmə"ynən oxuram, tamam ellərimizin sağlığına. Sağ olsun ellərimiz, sağ olsun tamaşagərlərimiz, eşidənnərimiz:

Anamdan olanda, elə cumərd olmuşam,
Şirin ey, ləhcəliyəm, xoş nişanlıyam.
Təmam tacirləri gətirdim cana,
Quvvətdi biləhli, dəliqannıyam.
*Yeri-yeri, yeri, yar alım dərdin, (xor)*
*Bəri gəl, görüm, qoy qadan alım. (xor)*

Bəli, pəhlivan, anamdan olanda cumərd olmuşam,
Şirin ləhcəliyəm, xoş nişanlıyam.
Təmam tacırları, paşaları, xannarı gətirdim cana,
Quvvətdi biləhli, dəliqannıyam.

Amma:

– Qulax ver, daha gör kiməm:

Cəvankən özümi çöllərə saldım,
Amma, qəm məni çulqadı, dəryaya daldım.
*(Bunu biləsən bax)*
Hər yerdə düşmənnən qisasımı aldım,
*(Qoymamışam qısasım qala)*
İgiddər, sərkərdələr arasında, xoş nişannıam.

– Bəli, igiddər arasında addı-sannıyam. Amma qulax ver, indi kiməm? Qulax ver, bil, mən gör kiməm? Pəhlivan, isdiy-din mənim kim olduğumu biləsən? Qorxum yoxdu sənnən, bir zərrə diskimməm yoxdu. Elimnən ayrılıp gəlmişəm, o xanımın gözəlliği məni tutdu, huşim başımnan çıxdı. Bi dəfə yıxıbsan biləli. Amma qulax ver kiməm, nə adamam? Ay cəvan pəhlə-van, büyünə qədər mənim pəncəm dalı qəyitmiyib. Gərəh tanı-yam sən kimlərdənsən? Olmuya nisbətin, inşallah, öz tərəfmizə yetişəcax. Qulax ver, qulax ver, gör mən kiməm:

Vətənnən ayrıyam, sinə dağlıyam,
Anamın yolunda qolu bağlıyam.
Həsən bəyəm, Koroğlunun oğluyam,
*(Pəhlivan, amma şəhrimiz Dərbəddi.)*
Dağısdannıyam, əslə qorxum yoxdi.

– Onunçün gəlmişəm, Koroğlunu axdarıram.

– Dedin kimin oğluyam?

–Bəli, Həsən bəyəm, Koroğlunun oğluyam. Dağısdannan gəlmişəm.

– Ay oğul, qurban olaydım sənə.

Bəh-bəh, bəh-bəh.

– Oğlum, anan Möminədi? Pəhlivan mən səni tanıyam-madım. Sən kimsən ki, isdisən mənə məhəbbət. Baban Ərəb paşadı?

– Bəli, babam Ərəb paşadı, anamın adı Möminədi. Amma sən kimsən?

– Qulax ver, oğul.

– Nə adamsan isdisən burda mənnən məhəbbət vurasan.

– Qulax ver, oğul, diyim. Qulax ver, qulax ver.

Dedi:

– Mənə bu məhəbbəti elədin. Mən kim olduğumu dedim sənə. Buraya kimin kimliğini danmısan, indi de görüm kimsən? Nə adamsan, niyə burda mənim yolumu sədd[1] eləmisən? Koroğlunu mənə nişan vermisən?

Dedi:

– Həsən bala, qurban kəsəydim. Qulax ver gör kiməm? İndi səndə məni yaxçı tanıyacaxsan. Elə bilki axtardığını tapacaxsan. Bir qulax ver:

Bir ərzim var, Həsən, sənə soylayım,
Koroğlu deyilən igid mənəm, mən.
Dəli paşaları təxtinnən salan,
Koroğlu deyilən igid mənəm, mən.

– Qoca pəhləvan, olmıya Koroğlunun düşmənnərinnənsən? İsdisən Koroğlu adıynan burda məni aldadasan? And olsun, səni, məni yaradana Koroğlunun düşməni olsan elə bir qiliş vurram, yer-göy kəsər görühməzsən. İsdisən məni alladasan?

– Oğlum, sən məni öldürmiyibsən, mən səni. İkimiz birbiri öldürməmişix. Qanım coş yiyir sənə[2]. Düzdü köppüşmüşəm sənnən.

– Küştü tutmuşam, amma bi nişanələr, əlamətdər, yadigarlar var. Əgər olmasa gənə də özi ölmüş bil. Qulax ver:

Qəvi düşmən qabağımda olar mat,
Ərəb Paşalar yurdun eylədim bərbad.
Söylə Möminədən mənə xəbər-yad,
Koroğlu deyilən igid mənəm, mən.

– Pəhlivan, sən kimsənki mənim anamın adın burda çəkisən? Möminəni hardan sən tanısan? Bura bax görüm. Bais

---

[1] Bağlamaq, bənd
[2] Qanım sənə qaynayır

olmaginan ki, burda mən əlimi atam sənə dübarə bu qoca vəxdində sənnən dərgir alsam. Pəhləvan, o dəyqə ki, diyipsən mən Dağısdannıyam. “Yerim xəbər alsan Dağısdannıyam”. İndi biləcəxsən sən kimsən, mən kiməm? Xub, de görüm kimsən nə adamsan?

– Qulax ver axır sözümə indi sənnən nişanə, yadigar isdiyəciyəm:

Səd afərin ey qəynaqına yaşına,
Oğlum, yağı düşman gələ bilməz qarşına.
Koroğluyam oğul, dönüm başina,
Eyy, Koroğlu deyilən iyid mənəm, mən.

Koroğluyam, qoy dolanım başiyan.
Koroğlu deyilən igid, mənəm, mən.

– Bəli, bəli. İndi bildim, pəhlivan, özün Koroğluya bənzədibsən. Əgər Koroğlu olsan, o zamani ki, Dağısdana gəlmisən, əlamətin, yadiqarın bi şeyin varmış ki, verəsən Möminəyə. İndi mən biləm sən Koroğlusan.

– Pəhləvan, qəşək söz diyisən.

– Ama o cür ki anan, mənim nişanələrimi diyip bura qədər baxanda düzdi təğribən nişannarın düzdü.

– Amma o vax ayrılanda, Koroğlu adına bir bazubənt vermişəm xanımıma, anaya ki, sənin sağ qoluya bazubəndiyə bağlıya. Oğlan olsan necə ki, gəlipsən gələsən məni tapasan. Əgər demişdim qız da olsan, ölənə kimi xəşləsəz, hətta cehizin hər nəmənəsin görəndi. Aya, indi sənin sağ qolunda həmun bazubənd Koroğlu adına var?

– Bəs indi bildim mən iki dəfə öz bavamı yıxmışam yerə. Bəs qılınc öz qının kəsməz. Əgər sənin başıyan bir iş gələydi Niyar bayis oldu nacağ[1] öz qıçına vurmışdım.

– Oğlum, ömür boyu səni şad yaşıyasan. Necə ki, məni şad elədin ürəymi. Amma bu qılıx olmaz, gərəh gedəx anayın gətirəx. O zaman mən orda toy tutanmamışam, inşallah, burda toy tutax şadığnan burda yaşıyax. İnşallah, Koroğlunun yerin sən alan pəhləvansan.

Bəli, dosdar, dastanımızın bu qismətində Həsən bəy Koroğluynan bərabərrıxdə Çənlibelə qəyidip, bir neçə gün orda qaldılar. Amma Koroğlu Həsən bəyə qulamlardan, dəlilərdən, mehtərlərdən, biz burda bi müxtəsər Koroğlunun mumayişin verdix ki, ellərimiz şad olalar. Xob, indi əlan bu dəyqa Koroğli Həsən bəyi məmur eliyir getsin. Dəmirqapı Dərbənddən, Dağısdannan öz anası Möminəni gətirələr Çənlibeldə ki, o zaman toy tuta bilmiyiplər, cəşn tutalar, toy eliyələr. Həmin bərnamənin sözdərni cənab ağayı Aşıx Məhbub oxuyacax ellərimizin sağlığına. Sağ olasan. Əmma o cürki gedəcəxlər Möminə xanımın dalıca.

Bəli, əziz eşidənnər, ağzı var olsun ustad Mənafın və ustad Dehqanın və cəmi aşıxlar ki, bu navarda şirkət[2] eliyiplər. Dastanımızın axırın qatar sözdəridi. O sözləridi ki, Həsən bəynən Koroğli bir-birini tanıyannan sora Koroğlu isdiyirdi gedə Dərbəddən Möminə xanımı gətirə. Amma Həsən bəy dedi:

– Yox, əgər icazə versən, özüm gedim anamı gətirim və anama bi müjdə yetirim.

---

[1] Əlağacı, çomaq

[2] İştirak

Ordaydı ki, Koroğlu Həsən bəyə qoşunu cəlal-cəbərut[1] verib, Həsən bəy gəlip anasın apara. Yetirip, anasıynan öpüşüp, görüşənnən sora anası üzün tutdu oğlu Həsən bəyə:

– Oğul Həsən bəy, yediğin, işdiğin özünü, amma gördüxlərinnən mənə də deginən. Aya, Koroğludan bi xəbər gətirə bilisən, ya yox?

Ordaydı Həsən bəy sazın zilin zil bərkidip, bəmin bəm, üzün tutup anasına:

– Anacan, qulax ver, qoy sazı-söznən deyim. Görəsən Koroğlu görə bilmişəm, ya görənməmişəm.

Hansı sözdəri diyir dastanımızın axırı qatar sözləri, cənab ağayı Aşıx Möhsünən bahəm oxuyacağıx. "Bəhməni" havasıynan, tamam elimiz sağlığına:

Anacan, Çənlibeldən xəbər gətdim,
Ana, dur gedax, dur gedax.
Gedip belə Koroğluya çatdım,
Ana, dur gedax, dur gedax.

Mey işməmiş meyxoş oldum, ana,
Gördüm onu sərxoş oldum.
Amma əslənnan duşbaduş[2] oldum, ana,
Dur gedəh, dur gedəyh.

Bəli, sağ olsun ağayı Aşıq Möhsün, havamız "Bəhmənidi". Axırıncı qatar sözlərimizdi ki, ağayı Aşıx Möhsünnən oxurux, axır bəndin genə özüm oxuram, elimiz sağlığına:

Həsən bəyəm, sinəm dağlı,
Məhəbbətə qolu bağlı.

---

[1] Böyüklük mənasında
[2] Çiyin-çiyinə mənasında

Yolun gözlür Qoş Koroğlu,
Ana dur gedax, dur gedax.

Çün Mömina xanım soruşdu:

– Həsən, ayə, Koroğlu mənnən sual elədi, soruşdu? Yolumu gözdürdü, ya yolumu gözdəmirdi?

Odu ki, Həsən bəy axır sözün belə diyir:

Həsən bəyəm sinəm, dağlı,
Anamın yolunda qolu bağlı.
Yolunu gözdür qoş Koroğlu,
Muvafiq olsan, ana, dur gedax, dur gedax.

Bəli:

Yolunu gözdür qoş Koroğlu,
Ana dur gedax dur gedax, dur gedax.

O vəziyyətdə Həsən bəy öz anası Mömine xanımı qoşunnan, cəlal-cəbərutnan Ərəb paşa cəhaziyə qoşup məhmil-kecavə içində, söhbətə tul vermiyəx[1], söhbətmizin axırıdı, gəlip çatdılar Çənlibelin dərvazəsinə. Koroğluya xəbər verdilər, çıxdılar, istiqbal[2] elədilər. Çənlibeldə bir dəysin vurup[3] görüşüp Koroğlu dəsdur verdi, bir həftə toy başdadılar. Amma oların toyuna burda bir dəstan oxuyacağıx. Aşıxlarmıznan "Qüruhu" oxuyacağıx, ellərimizin sağlığına. Çənlibelin qabax-qabağında durmuşux, indi ələn bu dəyqə ellərimizin sağlığna Koroğluynan Möminə xanımın toyudi. Çənlibeldə bir dastan oxuyacaıx aşıxlarımıznan. O adamlar ki, bu navarda zəhmət çəkiblər ellə-

---

[1] Sözü uzatmayaq
[2] Qarşılamaq
[3] Baş çəksin, görüşsün, dəysin

rimizin sağlığına. Amma dəstan budi. Əlbətdə, dastanımız, ey-ni dosdar, dastana mərbux sözdülər[1]. İntizar, gözdər, gözdər oxur ellərimizin sağlığına:

İlk baxanda nələr dedi,
O gözdərin, bu gözdərin.
Əcəb vardı yaraşığı,
*O gözdərin, bu gözlərə.(2)*

Zilfin salar camal işıq,
Yerindədi hər yaraşıx.
Nə olaydı, ola aşıx,
*O gözdərin, bu gözdərə.(2)*

*Ləblərindi abi-həyat,*
*Dilıdən süzür noğli-nəbat.*
*Kaş yazaydı Xudam barat[2]*
*O gözdərin, bu gözdərə.(2)*

Mahmud oğlu, çəyhmə minnət,
Xudam versin nazı, nemət.
İnsaf dəyil qala həsrət,
*O gözdərin, bu gözlərə.(2)*

Bəli, dosdar, dastanımız, toyumuz, şattığımız burda başa çatmıyıb. Genə inşallah, siz ellərimiznən olacaıx. Sizin isdi xa-nəvadəyizin[3] cəmində ayrı bi dastannarnan cədid[4] bi hekayət-dərnən genə ustaddarımıznan, aşıxlarımıznan hamımız bahəm

---

[1] Dastanla əlaqədar sözlərdir
[2] Dəyərli, qiymətli kağız, sənəd
[3] Ailənizin
[4] Yeni

olacağıx. Şad yaşıyasız. Bu dastanımız burda başa çatdı. Allah sizin ömrünüzü başa çatdırmasın. Sağlığnan, səhət-bədənnığnən, şaddığnan, səlamətdiğinən bu filimlərə baxıb, bu sidilərə baxıb, kef eliyəsiz. Xob, elimizə bi xudahafisdıx eliyacaıx. Xudahafis, şad qalın. Təşəkkürlər. Məmnunəm. Xudahafis təşəkkür.

"Koroğlunun" dastanını qutarmışıx ki, oğlu Həsən bəy gəlib dədə-bala bir-birini tapıplar. Bu Dağısdan səfəridi. Əziz dosdara mərdnən, namərtdən bi qatar oxurux, ta ellərimiz şad ola. Amma "Şərur gözəlləməsi"ynən:

Qadir Allah, sənnən budu dilayım,
Heş mərdi namərdə möhdac eyləmə.
Özün kərəminnən yetir ruzusun,
Atanı oğula möhdac eyləmə.

Qadir Allah, sənin kərəmin çoxdi,
Namərdin sözdəri niyzədi, oxdi.
Nanəcip qardaşın vəfası yoxdi,
Qardaşı qardaşa möhdac eyləmə.

Aşıx Mənaf:

Kərvan olsam, mənzilində düşmənəm,
Əgər ölsəm namərt camını işmərəm.
Muxənnətin körpüsünnən geşmərəm,
Sağ gözü sol gözə möhdac eyləmə.

Murat diyər, bu sözdərin varısın,
Talıb olan xoş tanıyar talisin.
Kaş olaydı gözlərimin birisi,
Sağ gözü sol gözə möhdac eyləmə.

## KOROĞLUNUN TÜRKMƏN SƏFƏRİ (1)

*Aşıq Məhbub:*

*–Sağ olun əziz, hörmətli, sayğıdəyər, bir-birindən sevimli-seçimli qonaqlar, tamaşaçılar. Bizim Azərbaycanın məhəbbət dastanları, folklor dastanları və himasi[1] dastanları özünüz bildiyiniz kimi çox-çoxdur. Biri-birindən gözəl, sevimli, istəkli. Və bizim himasi dastanlarımızdan çoxusu ibarətdir Koroğlu dastanından.*

Koroğluda yeddi qol gedir. Koroğlu dastanında çox söhbətlər belə gedir ki, Koroğlu harada, yaxşı, gözəl igidlər görəndə… Koroğlunun aşığı vardır, Cünun aşıq deyərdilər. Cünun aşıq harada gözəl, vurub-yıxan, karlı[2] igidlər görsəydi, gəlib Koroğluya deyərdi. Koroğlu gedib gətirib, özü təlim verib, yanında dəli eyləyərdi.

Bir gün Koroğlunun məclisində Koroğlu baxdı ki, Nigar xanım bikefdir[3]. Üzünü çevirdi Nigar xanıma:

– Ay Nigar xanım, niyə bikefsən? Kef bizdə, damaq bizdə, igidlik bizdə.

Nigar xanım Koroğlunu belə başa saldı ki, Koroğlu namını[4] götürən, yurdunda son qalan yoxdur. Bu dastan da belə gedir ki, bu qol belə bir variant ki, Koroğlu ilə Nigar xanımın övladı yox idi. Yanı, bu dastanın gözəlliyi oradadır ki, insanlar bir-biri ilə qardaş ola bilər və dədə-bala ola bilər, ana-bala ola bilər.

---

[1] Epik

[2] Yararlı, işə yarayan

[3] Kefsiz, xəstə

[4] Ad-san

Koroğlu da bikefləndi Nigar xanımın sözündən. Ancaq Cünun aşıq məclisdə əyləşib, baxır Koroğlunun ağzına ki Koroğlu haradan desə, Aşıq Cünun oradan söyləsin.

Belə baxdı gördü Koroğlunun bığları bir az sallanıb. Dedi:

– Ağa Qoç Koroğlu, nəyə bikefsən?

Başına döndüyüm, ay qoç Koroğlu,
Söylə, qoç Koroğlu, nədən məlulsan[1]?
Adın çəkiləndə yağı titrəyir,
Söylə, qoç Koroğlu, nədən məlulsan?

*Mən bunları özüm qıssa-qıssa deyirəm ki, o dastanın axırından bir tikə deyişmə halında sizin xidmətinizdə olacağam.*

Koroğlu deyir:

Koroğluyam, sözüm çoxdur,
Sözlərim peykanlı oxdur.
Hansı igidin sonu yoxdur,
Ocaq sönər, daş inildəyər.

Aşıq Cünun işi başa düşüb, dedi:

– Əyə, dünya mənim ayağımın altında bir sini[2] kimidir. Gedərəm gəzərəm, bir yaxşı gözəl bir oğlan, bir igid taparam Nigar xanıma layiq, Koroğluya layiq, gələrəm deyərəm, ağa qoç Koroğlu, dəliləri ora tökərsən, gətirərsən, özünə oğul edərsən.

Nigar xanım çox sevindi, Aşıq Cünunun bu sözündən razı qalıb, dedi:

– Aşıq Cünun, sən bu işi havaxt görəsən?

Dedi:

– Günü bu gün.

Aşıq Cünun durub, aşıqlıq paltarını geyib, sazını çiyninə

---

[1] Qəmgin, məyus, usanmış

[2] Misdən, bürüncdən və sairədən hazırlanmış böyük, dəyirmi, dayaz qab

salıb, yollandı Türkmən səfərinə. Türkmən səfərinə varid olanda, Türkmən cavanları gördülər bir aşıq çiynində saz gedir. Dedilər:

– Əyə, aşıqsan?

– Bəli.

– Gəl, bu şəhərdə toy var. Gedəcəyik bizim şəhərə. Toya gedərsən?

Dedi:

– Gedərik.

Gedib o toyda bir neçə kəlmə oxuyub, aşığa nəmərdən – puldan[1] yığdılar. Aşıq nəmər-pulu geri qaytarıb:

– Mən nəmər-pul aşığı deyiləm. Mən Koroğlu aşığıyam.

– Əyə, necə Koroğlu? Deyirlər Çardaqlı Çənlibeldə bir Koroğlu peyda olub, bəlkə odur?

Dedi:

– Bəli.

– Əyə, onu çox vurub-yıxan deyirlər, ondan bir deyərsən?

Aşıq Cünun götürür Koroğludan bir az tərif-tövsif eyləyir. Bir nəfər özündən deyən məclisdən qalxır ayağa:

– Aşıq, yetər, indi də bizim Türkmən cavanlardan deyəcəksən.

Dedi:

– Aşıq gördüyünü çağırar. Sizin vurub-yıxan igidləriniz varsa, qalxsın ayağa, mən onun boyuna-buxununa baxım, tərif-tövsif eyləyim.

Hər yandan alqış gəldi:

– Qəssab oğlu Eyvaz ayağa qalxsın!

Eyvaz ayağa qalxdı. Cünun gördü Allahın kərəmi coşa gələndə bu cavanı yaradıb. Dedi:

---

[1] Xalq adətincə toyda, nişanda paylanan şirni, pul və sairə

– Hən, axtardığımı tapdım. Çox da belə, zəhmətsiz tapdım.

Odur ki, Eyvazı burada bir az tərif-tövsif edir, Eyvaz ilə bir az da deyişirlər. Qayıdır Çardaqlı Çənlibeldə Koroğluya xəbər verir. Koroğlu əmir verir Dəli Mehtərə, Qırat yəhərlənir. Qıratın on yeddi zirtəngini möhkəm eyləyir.

Qılınc, qalxan, əmud, neyzə, şeşpər, yayın-oxun, o vaxtın silahı bunlarıdır, bunları bağlayır, götürür üstündən bir çovdar paltarı geyir. Yanı ki, mən çovdaram. Çün Eyvazın atası Qəssab Əlidir. Gəlir soruşa-soruşa çıxır Qəssab Əlinin olduğu yerə:

– Salamun əleykum.

– Eleyküməs salam.

– Qəssab Əli sənsənmi?

Deyir:

– Bəli. Nə qulluq məndən?

Koroğlu deyir:

– Mən çovdaram, heyvan alacağam.

Deyir:

– Olsun, məndə də var.

Bunlar al-ver eyləyirlər. Qoyunun birini beş tümən deyəndə, Koroğlu on beş tüməndən verir. Eyvaz nə isə bir az şübhələnir. Aşıq Cünun gədiyindən[81] də bir az işi belə bir cür başa düşür.

Deyir:

Ata, qədəm qoyub hərdən-hərdən yerişlər,
Bu qılıqda çovdar olmaz, hay olmaz.
Beş-beş deyib, on beş-on beş bağışlayar,
Bu qılıqda çovdar olmaz, hay olmaz.

Atası dedi:

[1] Keçid

– Əyə, uşaq, get öz işinin dalıcısa, qoy alverimizi eyləyək. Kişi bizə gül kimi pul verir.

Bunlar müamiləni eyləyirlər. Müamilə bitəndən sonra Koroğlu deyir:

– Qəssab Əli, indi mənə bir uşaq qatasan, bu heyvanları kəndin bu bələndən[1] aşırım, qayıdar gələr.

– Ay Eyvaz bala, çovdara kömək eylə.

Eyvaz düşür qoyunun qabağına, Koroğlu arxasınca. Bələni aşırırlar, Koroğlu qalxır Qıratın belinə. Amma Allah kəssin eylə qalxmağı. Atı süzdürür Eyvazın üstünə, əl atır Eyvazın kəmərinə, qolunda nə ki, güc vardır vurur, Eyvazı yerdən qalxıza bilmir. Deyir, elə doğrudan bu Koroğluya layiq igid olacaq, inşallah. Boşlayır. Atı bir də bir cövlan verir gəlir Eyvazın üstünə. Bir dəli nərə çəkir, Eyvaz huşun itirəndə çəkir yəhərin qaşına. Bir xeyli Türkməndən aralanır. Getdiyi yerdə birdən fikirləşir ki, əyə, gedərəm Çardaqlı Çənlibeldə deyərlər Koroğlu bir çocuq oğurlayıb gətirib. Qoy görüm bunun arxacısa gələn varmı, yoxmu? Düşür, atı hörüyə vurur. Eyvaz huşunu itirir. Özü də gözəl bir çəmənzarlıqda[2] dirsəklənir.

Gəl eşit Qəssab Əlidən. Qəssab Əli də bir az Eyvazın gec gəlməsindən şübhələndi. Bir əyri qılıncı var idi, bağladı belinə, bir atı var idi Yelqanad deyərdilər, atı mindi. At atın hənirtisinə, yolun damarını qırdı. O yerdə yetirdi ki, gördü Koroğlu dirsəklənib. Düşüb əyri qılıncı çəkdi:

– Əyə, sən kimsən? Mənim uşağımı hara aparırsan?

Dedi:

– Əyə, dayan, dayan! Qılıncını saxla, davanın şərti-şurutu var, bunları bilirsənmi?

Dedi:

---

[1] Dağ döşündə tala

[2] Çəmən olan sahə, yaşıl ot bitmiş yer

– Bəli, nəyə bilmirəm?

Dedi:

– Bilirsən nədir? Qabağı deyişdi, sonrası döyüşdür.

Dedi:

– Hə, bunu əvvəldə başla.

*İndi de görüm (Aşıq Məhbub üz tutur yanındakı aşığa) Aşıq Novruz, Koroğlumu olursan, Qəssab Əlinimi, dərdin alım.*

*Aşıq Novruz:*

*– Usta, yaxşı dedin. Koroğluluq sizə yaraşır, elə bığına da görürəm yaraşır. İndi siz olun Koroğlu, mən də olum Qəssab Əli. İndi qulaq as gör, mən nə deyirəm, sənin üçün.*

*Aşıq Məhbub:*

*– Sağ ol!*

Aşıq Novruz (Qəssab Əli):

Əcəm oğlu, ey dəli çovdar,
Vermərəm Eyvazı sənə!
Eyvazsız bağrım qan olar,
Vermərəm Eyvazı sənə!

Aşıq Məhbub (Koroğlu):

Canım qəssab, gözüm qəssab,
Qoy aparım mən Eyvazı.
Budur sənə sözüm qəssab,
Qoy aparım mən Eyvazı.

Aşıq Novruz (Qəssab Əli):

Eyvaz igidlərin gözü,
Əllisi, altmışı, yüzü.
Burax gəlsin, eşit sözü,
Vermərəm Eyvazı sənə!

Aşıq Məhbub (Koroğlu):

Eyvazın qaradır qaşı,
Dəlilərin olar başı.

Mən ilə tutma tər savaşı,
Qoy aparım mən Eyvazı.

Aşıq Novruz (Qəssab Əli):

– Qulaq as, gör nə deyirəm.

Qəssab Əli qılınc salar,
Düşməndən qisasın alar.
Başın gedər, leşin qalar,
Verməərəm Eyvazı sənə.

Koroğlu baxdı ki, Qəssab Əli qılıncdan danışır. Əyə, Koroğlunun yanında qılıncıdan danışmaq olarmı? Neyləsin? Eyvaza görə Koroğlu başladı, görək sözün axırını dəli nərə ilə qurtardı, başa düşsün bəlkə bu Koroğludur:

Koroğluyam, hay salaram,
Gərək qiyamət qoparam.
Əl açıb zorla apararam,
Qoy aparım mən Eyvazı.

Koroğlu adını gətirdi ki, bəlkə Qəssab Əli işi başa düşsün, Eyvazın arxasıca ata-balalıqdır daa, bir xeyir-duası da olsun. Qəssab Əli dedi:

– Ağa Qoç Koroğlu, mən səni başa düşdüm, Koroğlusanmı?

Koroğlu dedi:

– Bəli.

Dedi:

– Apar, amma hərdən bir arada burax gəlsin biz Eyvazı görək daa.

## KOROĞLUNUN TÜRKMƏN SƏFƏRİ (2)

Bəs ərz eliyim, Çardaqlı Çənlibeldə cəlallı qoş Koroğludan. Biz cəlallı qoş Koroğlu dasdanını ərz eliyək, qoçax cəvannarımız ki, gecə-gündüz cibhədə zəhmət çikillər, olar be ommidi xuda piruz olalar. Onların piruz olmağına xatir. Çon cəlallı qoş Koroğlu həmişə yaxçı bir cəvan idı. Dini-islam üçün həmməşə difa[1] elərdi. Cəlallı qoş Koroğlu Çartaxlı Çənlibeldə yeddi min yeddi yüz yetmiş yeddi dənə dəli başında. Hər cümən hala yeddimin yeddi yüz yetmiş yeddi dənə dəlini ya sərkərdəsin, ya bir neçə dənə dəlilərdən be qol[2] ustad Aşıq İsmayıl Şahmuradı, bular yığışardılar, bir qəral vermişdi. Ruzhayi comə[3] burda xoşluğ elərmişlə. Hər gün cəng elərmişlər məmləkətlərinnən difa elərmişlər necə ki, bizim cəvannarımız difa eliri, inşallah, be həqqi pənştən[4] piruz olsular təmami rəzməndəqan[5]. Ruzhayi-comə yığılarmışlar dor həm məşğul sohbət olarmışlar, ya çal-çağırları olarmış, əz qərar buların rəsmimiş, Aşıq Cünun varlarımış ruzhay cumə buların xoşluq eliyən moğəsində durarmış, əyağ üsdünə cam şərbət dolandırarmış su əvəzi. Əyağa durub Aşıq Cünun cam şərbəti dolandıra Nigar xanım, cəlallı

---

[1] Müdafiə
[2] Onun dediyinə görə
[3] Cümə günləri
[4] Beş Ali-Əba naminə (Məhəmməd peyğəmbər, Həzrət Əli, Həzrəti Fatimə, Həsən və Hüseyn həzrətləri)
[5] Cəbhədə döyüşən həbiçilər (Bu dastan oxunan dövürdə İran-İraqın 8 illik savaşı bitməmişdi və aşıq o müharibədə döyüşən hərbiçiləri nəzərdə tutub dua edir).

qoş Koroğlu bir yerdə əyləşmişdilər, Nigar xanum Aşıq Cünuna səsdəndi:

– Aşıq Cünun, bala, sən bu camı, şərbəti dolanddıran havassın ossun biz çün cəlallı qoş Koroğluynan bir yerdə oturruq. Əgə baxdın gördün camı-şərbəti əvvəl mən işdim, dolandıran axır sərdə gəllən, axır nobar gəllən çataran cəlallı qoş Koroğluna. Biz bir-birinə taruf elərig, əgər gördüy cəlallı qoş Koroğlu meyil elədi dolanduran axır sər gəllən mənə çatarayn. Bir zaman olmuya sərkərdələr ürəklərinnən ala, Xudaya, nəkərdən diyələr bular ağaynan xanımdı bir yerdə oturulla, fərq qoyullar bizə. Əyzu billah, fərq bizim ortamızda estesna yoxumuzdur.

Aşıq Cünun ərz elədi:

– Mənim gözümə minnət.

Aşıq Cünun camı-şərbəti gətirdi buları ikilərinin bərabərində saxladu. Nigar xanum cəlallı qoş Koroğluya tarıf elədi, cəlallı qoş Koroğlu Nigar xanıma. Camı-şərbəti əvvəl Nigar xanum meyl elədi. Nigar xanum meyl elədi, ta gedə axırsər gələ cəlallı qoş Koroğluya çata. Nigar xanum baxdı cəlallı qoş Koroğlunun ismi-rəsminə. Baxdı vəğarına (vüqarına), baxdı cəvanmərtliyinə bir ahı sərd (soyuq) çəkdi. Ey dadi-bidad, cəvan bu bərazəndəlikdə ola, səhər donyadən gedəndə bir dənə oğlu olmuya yurdunda çırax yandıra. Cəlallı qoş Koroğlunun gözü sataşdı Nigar xanıma:

– Ay Nigar xanım, sən niyə bəs ahı sərdi çəkdin?

Dedi:

– Mənim dərdimi dindirməginən, ay qoç Koroğlu. İşi olmasın mənnən.

Ərz elədi:

– Qeyri-mümkindi. Gərək mənin üçün sobət eliyən. Gərək aya, sənin narahatçılığın nəmənədi?

– Bəs isdirən mən narahatçılığımı ərz eləyəm Aşıq Cünuna buyurginan mənim üçün saz gətisin.

Aşıq Cünun saz gətiriri Nigar xanıma. Nigar xanum narahatçılığını, inşallah, bizim navarmıza qulağ asannar xoş olsunnar, narahatçılığunu cəlallı qoş Koroğluya tərif eliyə:

Qəm-qüssə başımnan aşup, ay Koroğlu,
Mən tək daha dərdə dolan yoxdu.
Qürbət eldə necə mənim bağrım pişip,
Görürəy məni heç yada salan yoxdu.

Cəlallı qoş Koroğlu üz oldu:

– Nigar xanım, məgə xudayı-nəkərdə sənin əlin üsdünə əl gətirən olupdu? Məgər bir belə dəbdəbə, bir belə kəpkəpə, bir belə təşkilat, bir belə zindigannıx hamısın sənə təəllux yoxudur? Ayə, sənin narahatçılığın nəmənədir? Narahatçılığın vazehtər[1] danışginan, mən də mütəvəccih olum.[2]

Bəs mən də ərz eləyirəm, tamam eşidənnərimizin salamatdiğinə və təmam rəzməndeganın səlamətdiğinə:

Tutun otaqda yasimi,
Geymişəm qəm libasımı.
Bu fələkdən qəsasımı,
Niyə mənim alan yoxdur?

– Nigar xanım, ərz eliyirəm məgər sənə xudayı-nəkərdə birisi cəsarət eliyip, axı sən niyə bir belə narahatçılıq eliyən?

Çənlibeli güllər bəzər,
Güllər saralsa kim üzər?
Hər quş öz balasıyla gəzər,

---

[1] Aydın
[2] Başa düşüm

Pəs niyə mənim balam yoxdu?
Mən tək dərdə dolan yoxdur.

Cəlallı qoş Koroğlu mütəvəccih oldu, əy dadi-bidad, Nigar xanuum ovladdan sarı narahand imiş. Amma cəlallı qoş Koroğlu ah-nahadınnan geçib. Cəlallı qoş Koroğlu çox narahat olub, qulaq asır Nigar xanımın sözünə:

Necə baxım mən öv-eşigə,
Axı mən daha çıxa bilmeyirəm eşigə.

Toz bürüyüb, boş beşigə
Şirin laylay çalan yoxdur.

Ərz elədim, cəlallı qoş Koroğlu mütəvəccih oldu, əy dadi-bidad, Nigar xanum ovlad isdir. Nigar xanum məgə xudavəndin kərəm dəryasından ovlad az, şayəd xudavəndi səlahı beləymiş, nəzəri beləymiş.

Nigarı dərdə gətirən,
Cəsətim *(cəsədim)* qəbrə yetirən.
Ay Koroğlunun adını gətirən,
Bir yurdunda qalan yoxdur.

Söz təmam olub, amma sözü təmam ola, ərz eliyim cəlallı qoş Koroğludan. Cəlallı qoş Koroğlu işarə elədi Aşıq Cünuna:

– Aşıq Cünun, sazı gətir.

Aşıq Cünun ta camı-şərbəti gətirə. Qoç Koroğlunun nobətini çatdıra. Aşıq Cünun baxdu cəlallı qoş Koroğlunun gözünə. Baxdı gördü gözdəri dolup qanınan. Camı-şərbət əlinnən titrədi, yerə düşdü. Camı-şərbət əlinnən titriyi yerə düşə, cəlallı qoş Koroğlu baxdı gördü dahı da bitir:

– Aşıq Cünun, sən niyə belə?

Aşıq Cünun ərz elədi:

– Ağa, bir məclisi böyüyü siz olayısız. Siz bir belə narahatçılığ eləyəsiz, isdiriyiz dorədə əyləşənnər nə cür ola daha? Ağa, qulaq as, görüm axı sənin narahatçılığın nəmənədir?

Aşıq Cünun sazı götürüpdür görək cəlallı qoş Koroğlu nə cür narahatçılığını xəbər alır o, biz əlimizdən gələni ərz eliyək Ağayı Nəcəfi həmkarlığıynan tamam eşidənlərimizin sağlığına.

Bürüyüb aləmi şəni, şokəti,
Söylə qoç Koroğlum, nədən məlulsan?
Adın geçəndə yağı, düşman titriyir,
Söylə mənim ağam, niyə məlulsan.
Pəs niyə pəkərsən?[1]

– Ağa, pəkər olma.

Uca dağdan geçə bilməz karıvan,
Absarı[2] əlində ağlar sarıvan.
Ağa, sənə təzim[3] edər sultanu xaqan,
Söylə, mənim ağam, niyə məlulsan?

Ərz elədim, cəlallı qoş Koroğlu başını tuturu, Aşıq Cünuna baxır:

– Aşıq Cünun, sən ki bilmirən nə xəbərdi?

Bəli, ərz eliyim Aşıq Cünunnan. Aşıq Cünun mucəddədən cəlallı qoş Koroğlu üçün danışırıx, xob, görəy, ağa, narahatçılığın nəmənədir? Aya, bizim üçün, sobət eliyir.

Nəhreynən[4] meşədə asar aslannar,
Heybətinnən titrər sultannar, xannar.

[1] Kefsizsən, məlulsan
[2] Ovsarı
[3] Baş əymək
[4] Buradakı ifadə əsində "dəhreynən" olmalıdır. Aşıq ola bilsin ki, sözü eşitdiyi kimi ifadə etmişdir.

Ağa, sənə təzim edər təmam sultannar,
Söylə, qoç Koroğlu, niyə məlulsan?

– Axı narahatçılığun, ayə, mən də mutəvəccih olam.

Yaniyna əyləşib qaragöz Nigar,
Xanımlar, dəlilər, mehtərlər də var.
Aşıq Cünun şoqə gəlib oxuyar,
Söylə, mənim ağam, pəs niyə məlulsan?

Ərz elədim, Aşıq Cünunun sözündən cəlallı qoş Koroğlu narahat olur, səsdəndi:

– Aşıq Cünun, istiriy mənim narahatçılığımı biləy, bəs icazə verginən, mənim sazımı gətirginən, mən sohbət eliyim. Sən necə motəvəccih olmadın bizim bərnameye sobətimizdən.[1] Sən motəvəccih olmadın Nigar xanum mənimçün nəmə danışdı? Bəs sazı gətir, özüm beləsin danışım.

Aşıq Cünun sazı iki əllisini gətirir cəlallı qoş Koroğluya təqdim edib. Amma Cəlallı qoş Koroğlu sobət eləsin. Dəlilər, mehtərlər, xanımlar təmam əyləşiblər görəh nə cür danışırıx. Bəs Aşıq Cünun sazı gətirip cəlallı qoş Koroğluya verip.

Sənə deyim, Aşıq Cünun,
Gözlərimdən yaş ingillar[2].
Hər igid oğlu üstünə
Şeş atanda beş ingillar.

Bu rəsmi ruziqardı qədimi-nədimnən. Hər cəvanın oğlu olmasın, narahat olar. Şeşdong olmaz[3], yanı belə ki, cəlallı qoş Koroğlu sözünən bəyan eliri. Aşıq Cünun narahat oldu, əz qaral cəlallı qoş Koroğlunun Aşıq Cünun yanında hörməti çoxumuş inşallah, ağalarmızın hörməti çox olsun.

[1] Planımızdan, proqramımızdan mənasında
[2] Ələnər (Qaraqan türklərinin ləhcəsi, Xələc kökənli)
[3] Tamam-kamal

Nigar xanum məlul durar,
Əl qoynunna boynun burar.
Oxların sinəmə vurar,
Sinəmdəki atəş ingillar.

Sərkərdələrdən, dəlilərdən qovzandılar. Ağa, biz məgə ölmüşük sən narahat olan? Ayə, görək, ağa, sənin narahatçılığın kimdi? Sənə kim xudayi-nəkərdən cəsarət eliyip, hansı salatın sənin baraberiyinə ayrı cur sobət eliyipdi, biz cəvap verək beləsinə.

Ərz elədi:

– Balalar, mənim sobətim sobəti qorxu dəyi. Sobəti insi[1] degil, mənim sobətim ayrı sobətdi, bala, elə şey ta belə ki, ərz eleyim.

Deyir:

– Aşıq Cünun, pəs necə hali eləmirən sən dəlilərə? Mənim narahatçılığım nəmənədi?

Aşıq Cünun, sən ki, özün bilirəy. Mənim kəsi kimsədən qorxu yox. Deyir, məgər bir söz diyələr mənim ürəgim sinə.

Namərtdər göylümü yıxsə,
Pulat-qolçax qolum sıxsə,
Misri qılınc qınnan çıxsə,
Baş sarılar, ləş[2] ingillar.

– Aşıq Cünun, sən fikr eləməginən mən bir zaman qorxuram.

Qoş Koroğlu da coşanda,
Coşuban, həddən aşanda.
Bir məşəyə od düşəndə,

[1] İnsan sözünün Qurandakı qısa deyiliş forması, "Əl-ins vəlcenn" (İns və cin).
[2] Leş

Quru yanar, yaş ingillar.
Quru yanar, yaş ingillar.

Bu elə bir məsəldi qədimdən varmız, be qool [1]ustad Aşıq İsmayıl Şahmuradı.

Söz təmam oldu. Ərz eliyim cəlallı qoş Koroğludan vəxdi ki[2], sözdəri təmam oldu. Aşıq Cünun baxdı gördü buların narahatçılıxları təmam ovlad üsdündədi. Ərz elədi:

– Ağa, məgə xudavəndin dərgasında[3] ovlad azdır? Xudavənd istəsə öz nəzəri lutfi ilə sizə ovlad versin, verər. Narahat olmayın, siz hələ qocalmamışız, siziy əvvəli cavannıyızdı. Axı dəlili nəmədi də var sizin narahatçılığınız? Xob, hala əgər icazə versəyiz mənim bir arayiz[4] küçulu[5] varım xidmətizə, ərz eliyəm.

Cəlallı qoş Koroğlu əmr elədi:

– Aşıq Cünun, sən həmişə azaday sobətin.

Ərz elədi:

– Ağa, Nigar xanum xudavənd beləsinə ovlad verə doqquz ay, doqquz gün, doqquz saət qarnında dolandıra, ta dünyaya gələ, hala onda görək yaxçı oğlan ola, ya pis oğlan ola.

Cəlallı qoş Koroğlu ərz elədi:

– Aşıq Cünun, mənzurun?

Ərz elədi:

– Ağa, bir saxdumanın[6] gedən yerin alan memar gətirən, nəxşə tökən. Kargar[7] gətirən pey qaza, şiftə tökə acur[8] gətirə,

---

[1] Demişkən
[2] O zaman ki
[3] Dərgahında (qapısında)
[4] Sözlər, ərzlər
[5] Kiçik, balaca
[6] Binanın
[7] Fəhlə
[8] Kərpic

ahak[1] gətirə, gəc gətirə, tirahan[2] gətirə. Hayo-huyo, tappatup gətirəy səlamətdiynən bir saxduman salax. Görək, ağa, o saxduman yaxcudu, ya heç əliyi suya da vurmuyan, bir saxduman çox munəzzəm, çox mucahəz, alan geçəy içində əyləşən. Hansı yaxçudu?

Cəlallı qoş Koroğlu ərz elədi:

– Xob, Aşıq Cünun, xob, onu hamı bilir o yaxçudu ki, heç əlini vurmiyan aça, gəçə ahəgə be qolu usda (usta demişkən), xob, bir saxduman olay, geçəy içində əyləşi o behtərdi[3].

Dedi:

– Nigar xanım, xob, bu doqquz ay, doqquz gün, doqquz saət, doqquz dəyqə, doqquz saniyədən sora xudavəndi bir övlad götür biləsinə. Oldu oğlan uşağı. Əvvələn, kim bilir qız ola, oğlan ola? Oğlan uşağı. Bunu neçə il zəhmət çəkə beləsinnən mutəvəccih (diqqətli) ola, ta gələ yekke ola. Moğeyi modir mədrəsə, ya molla məktəbisi ola. Gedə dərs oxuya gələ. Hala məhlim degi nə ola. Amma əgər Nigar xanum qovul verə, mən deyəm narahat olmeya heş zaman. Mənə bir beş-altı ay mənə murəxəsdik[4] verəyiz, mən gedəm Nigar xanum uçun oğlan tapam, Yusif camalınnan, Rüstəm hünərinnən.

Nigar xanum səsdəndi:

– Aşıq Cünun, dəlilər ürəklərini almasınnar. Amma insani öz zəhmətiynən, özünnən bir oğlan ola. Görəyin o behtər əz ki[5], odu sən buyuruyan.

---

[1] Əhəng
[2] Dəmir sütun
[3] Yaxşıdı
[4] Məzuniyyət, müvəqqəti işdən ayrılıb dincəlmək
[5] Yaxşıdı ki

Dedi xob, məyə sizdən nəmə olacaq? Sən də, məgə ərin nəmədi? Sizdən nəmə ovlad ola? Mən ərz elədim oğlan gətirrəm – Yusif cəmalında, Rüstəm hünərində.

Cəlallı qoş Koroğlu üz oldu:

– Aşıq Cünun, Nigar xanımın sözünə qulaq asma! Əgər bir belə iş bizim üçün görən, biz sənnən bir donya məmnunux.

Aşıq Cünun gətirip dəlilər yola salıplar biləsini. Dəlilər, mehtərlər, xanımlar hamılarnan xudafisçilik eliyib. Aşıq Cününu burdan yola salıplar. Aşıq Cünun muddəti-mədid[1] bu şəhirləri gəzərdi. Gedərdi bir şəhrə, bir yaxçu oğlan tapardı. Görərdi bu oğlanı bu əndazə cəvannuğu var hessaba gəlmiyə. Deyərdi, xudavənda, görəyin bu oğlanuyn hunəri də var? Gələrdi onnan, bunnan soruşardu, görərdi xeyir. Diyərdi xob, mən gəldi getdim bu oğlanı götürdüm getdim, səhərki gün atın mindi getdi çölə, mindi getdi atın dağa, xob. Koroğludu, cəlallı qoç Koroğluyun bir belə düşman varudu. Əgər gəldi getdi atını bir nəfər əlinnən aldu deyər ki, bəla nisbəti eşidənnərimiz,[2] hardan getdin bu qorxağı tapdın gətirdin. Gedərdi bir şəhrə, bir yaxçı cəvan tapardu görərdi bu cəvan çox bir pəhlivan cəvandu. Amma otur ki[3], isdirdi Yusif cəmalında ola, görərdi bir az kəsrdi[4]. Deyərdi, xob, bunu aparram səhər xob, bu mənim öz tayımıdı. Nigar xanum deyər, bəla nisbəti eşidəinnərimiz, bu pismırıgı hardan gətirdin? Bəs Aşıq Cünun, beğolu[5] ustad Aşıq İsmayıl Şahmuradu, altı ay ruzigar gəzərdi. Ta günnərin birsində yetişməli olup Təkə-Türkman elinə. Yetişip Təkə-Türkman elinə. Təkə-

---

[1] Uzun zaman

[2] Eşidənlərimizdən iraq

[3] O cürə ki

[4] Çatışmazlığı var

[5] Demişkən

Türkman elini gəzərdi. Bir zaman baxdı gördü Təkə-Türkman elini şəhrinə, ya kəndinə çatmamış çopannar biləsinə qarşalladılar. Baxdılar gördülər bir nəfər gəlir o tərəfdən, bir zat çiynində var. Bir tərəfi çox nazikdi, bir tərəfi çox yoğun. Yetişdilər, salam ərz elədilər.

– Əmi, o nəmədi ki?

Ərz elədi:

– Ba bu saz, mən aşığam.

– Aha, sən aşığən? Əgər sən gedəyn bizim şəhrimizdə bir toy var, əgə səni aşıqluğu pəsəndə[1] eyliyələr bəndeyi-xuda[2]. Çox yaxçıdı.

– Necə bəyə?

Dedi:

– Bizim bir toy şəhrimizdə var, çox böyük toydu.

Aşıq Cünun ərz elədi:

– Xob, Allaha təvəkkül, mən gedərəm görək nə cür ola.

Aşıq Cünun gəlip varid olup bu şəhrin içinə baxdı, gördü şəhrin bir tərəfində bir dənə çadır vurulublar, be qolu eliyazlar, Allah bilsin neçə dirək bu çadırın böyüklügüdür. Bu da saz çiynində məclisin bir tərəfində oturdu. Xob, ağayan[3] əyləşmişdilər. Gördülər bir aşıq gəldi içəriyə.

– Aşıq əmi, bizimçin sobət et.

Deyir:

– Mənim gözüm üstə.

Aşıq Cünun əyağa durub, sohbət eləsin bular üçün. Xob, bu ki bizim Aşıq Cünun axtarırdu, gərək toyda tapaydı. Xob,

---

[1] Bəyənələr
[2] Tanrı bəndəsi
[3] Ağalar

səlamətttiginən hər toya yaxçu cəvan gedər, gedəllər təmaşa-çün, təfrih uçun, çal-çağurçün. Ərz eliyim, Aşıq Cünun məclisin içində dolanurdu, məşğuludu. Sohbət eliyə, məclisin bu başınnan düşdü, saz əlində getdi o başınnan qeyitdi gəldi bu başa. Baxdı gördü yox, burda da onu ki, istirdi burda dəgi. İstədi əyləşə bir zaman, gördü səsi zada düşdü. Bu çadırı şayəd iki yüz nəfər cəvannardan töküldü eşigə. Aşıq Cünun ərz elədi:

– Ağayan, nə xəbər?

Dedilər:

– Aşığ əmi, məgər bilmirən Eyvəz oğlu Xan Eyvəz gəlirə bizim məclisimizə. Xan Eyvəz burda bir nəfərdi heç kimin məclisinə getməz, budu kin, özü Əli qəssab oğludu, biləsinə Azərbaycan dilində diyəllər Eyvəz oğlan-Xan Eyvəz.

Heç məclisə getməz, Eyvəz oğlan Xan Eyvəz gəlir bu məclisə, buda ki cəvannar pişvaz eyler beləsini. Aşıq Cünun ürəgində dedi: "Pərvərdigara, mən bir belə gəzmişəm, xudavənda mənə köməg olay. Bəlkə, inşallah, mən diyən cavan ola". Aşıq Cünun əyağa durdu, bu cəmaatin içində baxdı gördü bir cavan gəlir, maşalla. Əsdəri[1] el bu cəmaatın içində məhlumdu. Xan Eyvəz gəldi əyləşdi. Ba icazeyi[2]xan Eyvəz tamami cavannar əyləşdilər.

– Aşığ əmi, bizimçün sobət elə!

Dedi:

– Mənim gözüm üstə

Aşıq Cünun əyağa durup, iki gözdərin zilliyipdi Xan Eyvəzin gözünə. Pərvərdigara, görəy bu cəvannıxda pəhlivannığı da bir belə var? Alıp görək. Xan Eyvəz buyurdu:

---

[1] Əsilliyi, alicənablığı

[2] İcazə ilə

– Aşıq əmi, bizimçün sobət elə.

Deyir:

– Gözümə minnət.

Görəy nə cür sobət eliyir, mən də ərz eliyim salamatdiginizə:

Hamı igiddərdən başdı maşallah,
İgidlərdən bəlli Eyvəz!
Tuba boylu, qaz yerişli,
Sərir durna telli Eyvəz !

Cəvannarın birisi gəldi Aşıq Cünunun qulağına:

– Aşıq əmi, əgər eliyə bilsən Xan Eyvəzin pəhlivannığınnan da danışğınan. Olmıya bir zaman bu sözlərdən danışa, narahat ola.

Qızlar, balacan, sənə peşvaz gələr,
Doğan ana qədrin bilər.
Alnı açıx, üzün gülər,
Nə şirindi, balacan, dilin Eyvəz,
Harda tapub yerin Eyvəz!

Ərz elədim cəvannardan, hozzarın [1] aşığ əmi. Əgər mümkün olsa, Xan Eyvəzn pəhlivannığınnan da denən.

Ərz elədi:

– Balacan, mən ki, bilmirəm kimdi əsl-nəsəbi? Kiminən danışıram?

Sultanan ya, xanan məgər ?
Mələk, ya insanay mi?
Huriya, qilmanay məgər?[2]
Kimə bənzər soyun Eyvəz?

---

[1] Hazır olanlardan
[2] Olmaya huri yaxud qılmansan?

Nə şirindi dilin Eyvəz,
Harda tapub yerin Eyvəz!

Yani kimən? Kimlərdənən? Amma ərz elədim, cəvannardan mucəddədən gəliplər. Aşıq Cününun qulağına ərz eliyirlər:

– Aşıq əmi, ərz elədik əgər olsa Xan Eyvəzin pəhlivannığınnan danış.

– Xob, balacan, mən ki bilmirəm ki, pəhlivannığınnan nə deyim?

Dedilər:

– Əli qəssabın oğludur. Gidi Reyhanın bacısı oğlu, Eyvəz pəhlivan dillə beləsinə.

Əuzi billah, Aşıq Cünun zoğunnan[1] ərkisi belə desin.

Cünun oldu sənə heyran, balacan,
Eylədin göylümü viran.
Çənlibeldə tutam dovran,
Bir tutaydım toyu Eyvəz !
Eyvəz sənə qurban olum,
Gəl sənin qurbanın olum!

Söz təmama yetişdi, amma ərz eliyim Xan Eyvəz dən. Xan Eyvəz bir az narahat oldu.

Xan Eyvəz səsdəndi:

– Mislin ki,[2] bəlanisbət eşidənnərimiz, aşığ əmi, mən məgə səğirəm? Məni aparan, Çənlibeldə mənə toy tutan.

Ərz elədi:

– Balacan, ərz eləmədim ki, səni aparam Çənlibelə. Ərz eliyərm sənin təki cəvanın toyunda cəlallı qoç Koroğlu, ərəb atları olaydı, at oynadaydılar.

---

[1] Zövqündən, sevincindən
[2] Sanki

Bəs qisməti əvvəlimiz Aşıq Cünun sözünü təmam elədi Xan Eyvəzçin. Aşıq Cünun səsdəndi:

– Ay cavan, bilginən mən Koroğlu aşığıyam. İlin on iki ay mən Koroğludan huğuğumu[1] allam, altı aynı özümçün təf-rih[2] elərəm, altı ay Koroğluçun xidmət elərəm. Altı ay Koroğluya oxuyaram.

Bəqiyeyi[3] dasdanımız ərz elədim, qisməti-əvvəli Təkə-Türkman orda qalmışdı, Aşıq Cünun sözdərini təmam elədi Xan Eyvəz üçün.

Cünun oldu sənə heyran,
Eylədin göylümü[4] viran.
Çəmlibeldə tutam dovran,
Bir tutaydım toyi[5], Eyvəz.

Dedi:

– Bəlanisbət siz, rəhmәttiyin oğlu, məgə mən səğirəm, sən məni aparay Çəmlibeldə mənə toy tutayın?

Ərz elədi:

– Xeyir. Ərz eleyirim sənin təki cəvanın toyunnan əgər cəlallı qoş Koroğlu ərəb atdarı olaydı, at oynadaydılar. Sənin toyun şurişə[6] gələrdi. Bunu ərz elədim, mən ərz eləmədim ki, hətmən səni mən aparam orda toy tutam.

Bəs xoşu gəldi aha, bəs belə danışırayn sən, ərz elədi:

– Aşıq əmi, sən deyillə cəlallı qoş Koroğluyun aşığıyən. Bizimçün söbət eliyən.

---

[1] Maaşımı, haqqımı
[2] Əyləncə, yeyib içib gəzib dolanmaq
[3] Qalanı
[4] Könlümü
[5] Toyunu
[6] Həngamə

Deyir:

– Mənim gözümə minnət. Mən balacan, ildə altı ay cəlallı qoş Koroğlu üçün söbət elərəm, altı ay beləsinə xidmət elərəm. Altı ay özümçün təfrih[1] elərəm.

– Olar ki, bizimçün cəlallı qoç Koroğlu üçün osafınnan[2] bir az deyən.

Deyir:

– Mənim gözümə minnət.

– Aşıq əmi, bizim üçün beş dənə Koroğlu osafınnan danışay, görək Koroğlu nə cürdu?

Deyir:

– Mənim gözümə minnət.

Bəs Aşıq Cünun məmləkəti Təkə-Türkmanda, Təkə-Türkman əhli için danışurdu biz əlimizdən gələni ərz eliyək:

İgitlər olağı[3] o Çənlibeldə,
Daşdan qala quran qoç Koroğludu!
Tamam paşalara meydan oxuyan,
Çox köhlənlər yoran qoç Koroğludu!

Amma Xan Eyvəz Aşıq Cünunun bu sohbətinnən ləzzət aldı.

– Aşıq əmi, daha sobət elə.

Deyir:

– Mənim gözüm üstə, balacan. Aşıq əmi il – 12 ay cəlallı qoş Koroğlunun osafınnan tərif eliyə, gənə qutarmaz. Qulaq as, bala.

Quş kimi düşman üsdünu aldıran,
Aslannar dişinnən ovlar saldıran.
Qalxannar üsdünə şeşbər çaldıran,
Qulaç qollar buranı qoç Koroğludu!

---

[1] Fərəhlənmək
[2] Vəsflərindən
[3] Oylağı

– Maşallah, dahı söbət eləginən.

Cəlallı qoç Koroğlu insafınnan ərz elir mənim gözmə minnət. Mən ərz elerəm siz qulağ asın:

Uca dağ başını duman bürüsə,
Qılışlər pas atıp, qində çürüsə.
Misirrən[1] İstanbul təmam yerisə,
Tək qanşarda duran qoç Koroğludu!

Ərz elədim, Aşıq Cünun sohbət eləməkdən Xan Eyvəz kef eliri, Aşıq Cünun söbətinnən.

– Aşığım, daha sonra.

Deyir:

– Gözümə minnət, balam can.

Hər yerdə tor qurub tərlannar tutan,
Min dənə düşmanı qol-qola çatan.
Ərəb at döşünə sərdarlar qatan,
Çox bağırlar yaran qoş Koroğludur!

Ərz elədim Aşıq Cünun söhbətinnən xan Eyvəz kef eliri.

– Aşıq əmi, daha sonra.

Cünun oxuyannan nərlər durar başınna[2],
Çox halaylar gedilər tərsə başınna.
Yeddi min, yeddi yüz yetmış yeddi dəli başınna,
Şahlar üsdə varan qoç Koroğludu!
Sözdəri təmam oldu.

– Aşıq əmi, dahı qoç Koroğlunu bizim üçün təriflıəməginən. Xob, bizdə elə burda varuk, qoç Koroğludan kəmtər[3] dəyilik.

– Necə, balam can?

[1] Misir ilə
[2] Başında
[3] Geri qalan deyilik

– Əgər icazə versəy, aşıq əmi, biz də elə Təkə-Türkman əhliyik. Qulaq asayın, bir neçə beləyçin ərz elərəm biləyn biz də elə özümüz bir Koroğluyuk. Koroğludan şayəd çox izafə[1].

Xan Eyvəzi əz qaral Koroğlunu çox tərif eləməgində təğribən[2] xoşu gəlmədi. Əvvəllər hey xoşu gəlirdi. Hey deyirdi, söbət elə. Ta dedi, çox şahlar üsdə varan qoç Koroğludu, mislin ki[3] xoşu gəlmədi. Alır. Deyir:

– Aşıq əmi, xob, biz də elə neççə cəvan bura yığılmişik. Hər kəs öz yerində bir Şəhriyardı. Qulaq as, beləy sənə deyim.

Mötərəm eşidənnərimiz, həlbət bu yerlər çün cəlallı qoş Koroğlu dasıtanıdı, biz gərək "Koroğlu" ahənginnən ərz eliyək. Ahəng varmız ahəngi "Yekəbağ" bir dənə rufəqalarımızdan Yekkəbağlı Hacı Məmməd təşrif huzur varı, tağaza eliyip ərz eliyək "Yekəbağ" ahəngini təmam eşidənnərimizin, mənnən belə özünün salamətdiginə.

Cavanlarda vardır bizim adımız,
Aşıq əmi, bizə Təkə-Türkman diyərlər.
Yiğilmişik bu məclisə hamımız.
Aşıq, bizə Təkə-Türkman diyərlər.

Amma Aşıq Cünuna Xan Eyvəzin sözi bərk edir balaca. Sən Təkə-Türkman ol. Qoyun Türkman olayın, ögəz Türkman olayın, azman Türkman olayın, bilgi ver, aparın biləg.

– Qulaq as, balaca, beləyə ərz eliyirik. Ta beləyinə ərz eliyim:

Uca dağ başından yel kimin əsər,
Qorxuram apara Koroğlu səni.
Hər həmlədə, balacan, yetmiş iki baş kəsər,

[1] Artıq, əlavə
[2] Demək olar ki
[3] Sanki

Qorxuram apara Koroğlu səni.

– Məni apara, aşıq əmi?

Dedi:

– Bəli, balacan. Sən hər kəs olsan, səni aparar.

Deyir:

– Qulaq as. Qulağ as, "Yekkəbin" ahənginə ərz eləyim beləyə. Görgünən cəlallı qoş Koroğlu əslən bu yerə gələ bilməz.

Cavanlarda vardır bizim adımız,
Aşıq əmi, bizə Təkə-Türkman diyərlər.
Yiğilmişik bu məclisə hamımız.
Aşıq əmi, bizə Təkə-Türkman diyərlər.

Aşıq Cünun biləsinə cəvap dedi:

Uca dağ başınnan yel kimin əsər,
Mən desəm apara Koroğlu səni.
Əgər gedəm səni tərif eləm,

*(Diyəm, bir belə bərazəndə cəvandı, bir belə baməri fətdi[1] apara beləyə oğlum).*

Hər həmlədə yetmiş iki baş kəsər,
Mən desəm Koroğlu aparar səni, balacan.

Be qoli ustad Aşıq İsmayıl Şahmuradı. Qorxuram apara Koroğlu səni. Buydu ki, Xan Eyvəz narahat oldu.

Deyir: qulaq asginan, aşıq əmi. Belə də dəyil ki, Koroğlu da gələ məni apara.

Mən kohlanım, minəm düşəm yoluma,
Yağu düşman gələ bilməz qoluma.
Koroğlu sağıma, Həsən soluma,
Aşıq, bizə Təkə-Türkman diyəllər.

---

[1] Mərifətlidi

Səsdəndi:

– Balacan, ərz elədim ki, əgər ögəş Türkman olayın, azman Türkman olayın, yerdə olay, göydə olay əgər diyəm, aparar ora. Qulaq as, biləyə ərz eliyim, balacan.

Dava günü, balam, qolu dala qeyitməz,
Paşalar qorxudan mənzildə yatmaz.
Oğlum, yerdə olan, göydə olan unutmaz,
Bilginən aparar Koroğlu səni.

Ərz elədi:

– Aşıq əmi, əgər mən Koroğlunu qoydum ömrü o yerə yetişdi bura gəldi aparsın məni.

– Necə, balacan?

Deyir:

– Qulaq as biləyinə.

Təkə-Türkman cəvannarını yığaram,
Bulud kimin Çənlibelə yağaram.
Koroğlun hər yerdə tussam boğaram,
*(Qoymam bu yerə ömrü çata).*
Aşıq, bizə Təkə-Türkman diyəllər.

Dedi:

– Balacan, sən ki, özi Həsəni tanıran. Sən Koroğlun gedip boğa billəy? Qulaq as, o birini ərz eliyim.

Dəli Həsən, oğlum, şəhərrəri bükər,
Paşalar əlinnən əl-həzər çəkər.
Çatıpdi Qıratın tərkini çəkər,
Qorxuram apara Koroğlu səni,
Mən desəm aparar Koroğlu səni.

Dedi:

– Məni apara bilməz. Aşıq əmi, qulağ as belə aparammaz.

Qurban olum, qaşı-gözü qaraya,

Təbib olan məlhəm eylər yaraya.
Eyvəz deyər, bilginən Koroğlu gələ bilməz buraya,
Aşıq əmi, bizə Təkə-Türkman diyəllər.

Amma Aşıq Cünun deyir, balacan, qulaq as beləyə ərz eliyim. Gələr də, aparar da beləyi.

Mən Cünunnam, yaxçı tapdım elini,
Çənlibelə dolandırram yolunu.
Nigar xanum gözdür sənin yolunu,
Mən desəm aparar Koroğlu səni.

Aşıq bizə, oğlumcan, əgər mən çatam Koroğlu diyəm, belə aparar səni. Sözdəri təmam olur. Aşıq Cünun sazın atıp çiyninə burdan yola düşdü. Camaat da durdular:

– Aşığ əmi, axı bizim toyumuz yarım[1] qalıp, hara gedirən?

Ərz elədi:

– Ağayan, mən gedirəm xərdarımın yanına. Əgər bu cəvan, maşallah, mənə bi çəşidə[2] vuraydu, day xub mənim halım məhlim[3] idi necə olardı mən qocadan? Bəs mənim burda sözümün xərdarım yoxdur.

Aşıq Cünun ordan yola düşüp, altı aydan sora xəbər verdilər Aşıq Cünun gəliri. Dəlilər, xanımlar, mehtərlər ürəkləri çatdey Aşıq Cünunnan sarı. Çün Aşıq Cünun həmməşə bilələri üçün xoşlux olub. Aşıq Cünunu peşvaz eliyiplər ehyazı pəyannaznan nə xoşluxnan, nə şattuxnan Aşıq Cünunu gətiriplər. Aşıq Cününa qəhvə-qəlyan gətiriblər.

---

[1] Natamam
[2] Əslində ifadə “kəşidə” şəklində olub, “sanballı şillə” mənasında işlənib.
[3] Bəlli, məlum

– Aşıq Cünun, yedigin-işdigin sənin, başıynan geşdigin bizim üçin tərif elə. Bizim ürəgimiz çatdadı sənnən sarı. Sən necə bir belə tulanı[1] oldu bəs musafirçiligin.

Amma Aşıq Cünun pəsas qəhvə-qəlyan sərf eliyənnən sora Nigar xanum gəlip əyləşip. Alıp Nigar xanum üçün söbət eliyir. Mən hara getdim, hardan gəldim, kimi gördüm və dərdiyə dəgə-dəgmiyə. Aşıq Cünun məmləkəti-Çartaxlı Çənlibeldə dəlilər, mehtərlər dorəsində, cəlallı qoş Koroğlu yanında. Xanımlar söhbət elirdi, biz əlimizdən gələn Ağayı Nəcəfinin həmkarlığıynan təmam eşidənnərimizin səlamətdiginə, tamam rəzməndiganın səlamətdiginə səs-söbətnən deyək.

Getdim bir kəndə, obaya,
Zimisdan geşdi, yaz gördüm.
*(Ərz elədim, altı ayı).*
Vardımsa çölə, səhraya,
Bulaq üsdə yarpız gördüm.

Nigar xanum ah-nahand eliyib, ürəgində deyir sənin dudumanın dağılmaya, gedib mənimçün yarpız gətirir. Deyir, mənimçün gedip nağarıp?[2]

Dən-dən oldu çöllərdə qar,
Gətirdi bağları heyva, nar.
Geşdi payız, oldu bahar,
Çöllərdə ördək, qaz gördüm.

Nigar xanum ürəgində deyir, e Aşıq Cünun, sənin övün yer gün yanaydı, atişnişan[3] geçirmiyədi. Gör gedip mənimçün ördək, qaz görüp gəlip mənə tərif eliyir. Aşıq Cünun, daha da de.

[1] Uzun
[2] Nə edib
[3] Yanğınsöndürən

Gəzərə ərəb at belinnə[1],
Tərifi mərtdər dilinnə.
O Təkə-Türkman elinnə,
Bir qəssab oğlu Eyvəz gördüm.

Ərz elədi, Nigar xanum betər narahat olur: "Xob, mənimçun nəmə etmişən?"

Aşıq Cünun, diyər baru,
Gəzdim mən dünyanı hanu.
Koroğlunun Nigar yarı,
Dünyada bir tək Eyvəz gördüm.

Söz təmama yetişdi, amma Aşıq Cünun necə ki, saznan demişdi, söznən də dedi tərif. Dəlilər, mehtərlər, əyyarlar yiğiliplər xob, təğyir tədəbbür eliyillər[2], nəxşə[3] çəkip, nə eliyək. Nigar xanum dedi:

– Ağyan[4], narahat olmasınnar, xob, əgər demiri-qəssab oğlu Eyvəz gördün?

Ərz elədi:

– Bəli.

Deyir:

– Xob, əgə bu kişinin nemayişgası[5] olsaydı, on-on beş dənə savarı var.

Deyərdi, bəli, gəlmişəm muamiləgərligə[6]. Əgər keşavərz[7] olsaydı əlli dənə, otuz dənə siğir bizim dilimiz ya öküz,

---

[1] Belində
[2] Tədbir qılırlar
[3] Yerkib "Nəqqaş" və "surət" sözündən yaranmış "xəritə" mənasında
[4] Ağalar (Türk+ farsca "an" cəm şəkilçisi ilə)
[5] Sərgisi
[6] Alış-verişə
[7] Əkinçi

bəz ağayanin dili,[1] aparardı deyərdi, bəli, buları gətirmişəm. Əgər aşıq olsaydı, beş-on dənə çögür aparardu. Deyərdi o qara çögür[2] mənimki. Xob, biz gəlmişik mamilə elirik. Bəs qəssabçün gərək davar aparmaq. Da bunun nəxşəsi yoxdu, bala. Cəlallı qoş Koroğlu səsdəndi:

– Mənim atımı gətirin.

Cəlallı qoş Koroğlunun atını gətiriblə. Cəlallı qoş Koroğlu burdan dəlilərdən, xanımlardan, mehtərlərdən xudafislik eliyir. Cəlallı qoş Koroğluyun rəsmi idi, əgər bir musafirətə gedəydi deyəydi on günnən gəlləm. On günəçey[3] heş kimin həqqi yoxuydu gedə dalıyca. Əgər on gün tükənəydi, on biri gün olaydı hətmən gərək gedəydi rəsimiləridi[4].

– Xob, mən gedirəm, bala, mənim gedip gəlməgim on gün sizə mən vədə verirəm. Xob, ta burdan Təkə-Türkmana məgə Qıratın əyğinin altında nə var.

Cəlallı qoş Koroğlu xanımlardan, dəlilərdən, mehtərlərdən xudafislik eliye. Burdan yola düşə. Ağa, yola düşüp pəs əz müddət yol gedərdi. Ta günnərin birisində nəzdiki[5] Təkə-Türkman oldu, baxdı gördü bir çoban da var yayur. Gəldi qanşara.

– Çoban əmi, Allah xeyir versin, ömrü çox olsun. Maşallah, bu davar təmam pərvərdir,[6] kimindi bu davar?

Çoban dedi:

---

[1] Bəzi ağalar demişkən
[2] Çalğı aləti
[3] Günədək
[4] Adət-ənənələri idi
[5] Yaxın
[6] Becərilmişdi, ətlik mənasında

– Biləxərə bir nəfərin var paşam. Məgər sən xudayi nəkər-dən bazrəssən?[1] Xob, nəm olar bu davar pərvər olanda? Biləxərə bir nəfər sərşinas[2] adamın davarı pərvərdi. Liyaqəti vərdı.

Bəs cəlallı qoş Koroğlu xəbər aldı çobannan. Çoban dedi:

– Bəli. Bu davar biləxərə[3] bir nəfərinkidir, ay çoban əmi. Yonca gələ, arpa gələ, buğda gələ, ot qorux gələ qanşarına ha-lına fərq eləməz. Hər kim gələ təəccüb eliri bu davar ki, niyə bir belə çağdır[4]. Sənin nə həqqin var təəccüb eliyən?

Dedi:

– Çoban əmi, hala işimiz yoxdur, ya pərvərdi, ya pərvər dəgil. Əgər olsa bu davardan bir dənə səninən kabab çəkək, mənim də acdıx varumdur.

Dedi:

– Kabab çəkək? Rəhməttiyin oğlu, məgər bilmirən bu da-var kiminkidi? Bu davar gidir Reyhaninun. Ya be qolu ustad, Ərəb Reyhanudur. Hər kəs bu davardan kabab çekər, didi Rey-han onu özünü çekər sirə yər, sən iştibah elirən[5].

Dedi:

– Xob, sən neçə ildi ki, Reyhana xidmət elirən?

Dedi:

– Xob, çoxdan.

Dedi:

– Bir dənə davarçün Reyhan səni öldürməzkin? Əgə sənin ərbabin olsaydi, xob, bir dən davar çöldə öldü, ya qurd yedi biləsini, kəllə-paçasını apararsan biləsiçün. Mən də bir

---

[1] Allah eləməsin müfəttişsən?
[2] Tanınmış
[3] Nəhayət
[4] Kök mənasında
[5] Çəkər şişə yiyər səni, səhv edirsən

puli sənə verrəm davarın qiymətinə. Əgər biləyin qovdu əğəllən[1] dört beş il səniyn hoğuğun[2] olmuş ola.

Çoban dedi:

– Rəhməttiyin oğlu, əgər səniyn pulun ossaydı niyə bəs ac özün çatdırırdın bura?

Ərz elədi:

– Çoban can, sənə qurban olum, xob, pul ki, yeyilməz ki? Pul varumdu, vəli xub acam.

Narahat olub, vallah, ərz elədi mən ildə on tümən əvvəli saldan ta axəri sala[3] allam. Biləsiçün davar yayaram.

Dedi:

– Xob, mən əlli tümən sənə verrəm, əgər bi zaman səni xudayi-nəkərdən Ərəb Reyhan çöləylədi[4] beş il huğuğuyn al.

Dedi:

– Yalan deyiriyən a.

Ərz elədi:

– Yalan nəmənədi? Qanşara gəl həlvət[5].

O zaman be qol ustadlar pul, eskinaslar yoxmuş, pənchezarıymış[6] böyük pul.

Rəvayət əz ustad,[7] əlli tümən cəlallı qoş Koroğlu saydu, çopaniy[8] ətəyinə töhdü. Çoban baxdı gördü doğrudi. Əcəb yaxçu çodardı, yaxçı adamdı. Xob, gətirip pulları töküp sofrasına bərkidib.

---

[1] Ən azı
[2] Maaşın qədər
[3] İlin əvvəlindən sonuna qədər
[4] Çölə elədi (işindən kənarlaşdırdı)
[5] Əlbət
[6] Beş minlik
[7] Ustaddan rəvayət olaraq
[8] Çobanın

– Bəs icaza ver gedim davarlardan gətirim.

Cəlallı qoş Koroğlu baxdı gördü gedip o balaca quzulardan tutarı.

– Çoban əmi, xob, bizimki adımız bədəzə[1] olacək sən gedəcəyən Ərəb Reyhanın bir dənə davarın qurt yeyib. Hal niyə balaca, ya böyük, bir dənə davar qalıb. Bəs icazə ver, bu azmannardan, bu qara dişlərdən bir dənəsini öldürək. Mən beş sirə (beş şiş) ətindən yeyəcəgəm, qalanı beləxərə aparray, labud külfət-uşağın var.

Ərz elədi:

– Heş kəsim yoxdu, fəğət bir qəri nənəm var.

– Qılo, aparayın qəri nənəynən bir muddət əqəllən[2] bahəm yiyəriz.

Çoban baxdı gördü çox yaxçı söbətdi bu söbət. Koroğlu əyəğa durub bir dənə bu azmanlardan, bu qara dişlərdən bir dənə tapıb gətirib. Vurdu yerə, başını kəsdi, yumruxladı dəridən çıxartdu. Qarnını-marnını pak[3] elədi, mucəddədən qoydu dərinin içinə. Çoban əmi də qutkadan, ağaşdan, odunnan çöldən yığışdırıp gətirip, qoyublar otun dəminə iççləri, bu dəfə şuru[4] eliyiblər butta yığməgə çöldə. Butadan, ağaşdan yığıblə halaa, ləşi[5] komplet bişirə.

Çoban səsdəndi:

– Çodar əmi, deyirsən hamısını isdirəyin bişirəyn?

Ərz elədi:

– Bəli. Necə bəgəm, balacan?

---

[1] Pis

[2] Heç olmasa

[3] Arıtdı

[4] Başlamaq

[5] Leşi, cəmdəyi

–Xob, bəs sən deyirdin beş sirə yiyəcəm.

Dedi:

– Xob, yay günüdü sən bu çiy əti aparayn, övə aparana, ya övdə mümkindi qoxu götürə, beyinnən gedə[1] irax xitmətdən. Vəli xob, pişmiş aparsan, qovurmalıq edəriz. Əğələn beçara qəri nənyənən biş[2] yiyəriz.

Baxdı gördü bu da elə pis zöz dəyi, eybi yox. Bəs çopan gedip buta yığa, ağaç yığa gəldi gördü çodar əmi ləşin parasın yeyip. Dedi:

–Çodar əmi, mənim övüm yixildi. Bəs sən derdin mən beş sirə yiyəcəm.

Ərz elədi:

– Balacan, səniynən biz bu ətə şərikik. Mən haqqımı yemişəm, qalır sənin haqqin hər cür ürəgin isdir, o cür bişir.

Dedi:

– Mənim həqqimi gözdə, əslən əl vurma! Qoy mənim həqqim dürüst pişsin.

Ərz elədi:

– Mənim gözümə minnət.

Çopani-biçara gedip mucəddədən butə yığə, gəldi gördü çodər əmi o ləşin parasını da yeyip, belinin tirinin sümügü qalıpdı. Əl-əyağı dağıldu. Dedi: "Əy dadi-bidad, bu ya Koroğludu, ya Dəli Həsən". Şuru elədi qaça şəhrə tərəf xəbər verə, övüz yıxılsin, gəlin bu ya yeyitmədi, ya varluxdan təzə gəlip. Görək

[1] Aradan gedə (Beyin burada farsca ara mənasındadı, "beyinnən gedə", yəni aradan gedə, məhv ola).

[2] Çox

cəlallı qoş Koroğlu nə iş gördü, be qolu, çopan çodar əmi. Həmun[1] beli, davarın belini tirrə sümügünü götürüp daldan boynunu şələginnən[2] vuranda kəlləsi üsdə aşdu. Tay yetişə-yetişə deyir xob, mənim ki buların libasınnan yoxumdu – Osmanlı libası. Hala haram olmamış qoy libasımı çıxadım. Libasını çığardıb özüçün zəxirə eliyib ta bir zaman varid şəhr oldu giyə. Çoban beyinnən getdi. Davarı hissoliyib şəhrə tərəf. Ta salati zohr[3] yetişdi şəhrə. Ay baba, bu Əli qəssabin koştarqahı harda[4]. Bir nəfər gətirdi nişan verdi, Əli qəssab qəssabxananı bağlamışdı.

Bəs bizim ikiminci qismətimiz orada qalmışdı kin, cəlallı qoş Koroğlu çatdu, ərz elədim, qəssabxananı xəbər aldı. Bir nəfər gətirdi, qəssabxananə nişan verdi. Ta cəlallı qoş Koroğlu gələ, Əli qəssabı görə..... *(Aşıq burada "Əsli-Kərəm" dastanından bir neçə bənd oxuyur).*

Yar hey, ağalar, bu dərt məni öldürər,
Yar bivəfa, cigərimə, vay, dağ çikər.
Adafalu[5] yar tək yarluqun (yarlığın) eylər,
Nə biyvəfa olar, nə də yağ çikər.

Tapmax olmaz bu tərlanın luvasın[6],
Onu sovən[7] heç sürmeyib safasın.
Gah açar görsədər qız ağ məməsin,
Gah sarı köynəgin solun sağ çəkər.

---

[1] Həmin
[2] Arxasından
[3] Günorta namazı
[4] Sallaqxanası
[5] Əda-ərköyün
[6] Yuvasın
[7] Sevən

Mən səni sevəni oldum məstana,
Əməm ləblərini, olam məstana.
Özi qərib, təarüf elər gedək bostana
Şamama görsədər, istər dağ çekər.

Əlində əsası, çignində pustu,[1]
Kərəmi görməsin bu gündə dostu.
Fələgin buyumuş mənimlə qəsdi
Şəki-Şirvan istər, Qaradağ çekər.

Bəs, ərz eləyim dastanımızın sevvum qismətin[2]. Ərz elədim, cəlallı qoş Koroğlu davara hiss oldu, nəzdi ki şəhr elədi,[3] səlatı zohr özünü yetirdi. Ay baba, bu Əli qəssabı, qəsabxanası hardadı, nişan verin. Yetişdi, Əli qəssab qəssabxananı bağlamışdı, istiyirdi, gedə. Bir zaman gördü bir çodar bu tərəfdən çatdı. Bir heykəlli çodar.

– Ay qəssab əmi, salamun aleyküm.

– Əleykükəssəlam, bala can. Əmri var.

Ərz elədi bir miqdar mənim davar varım. Gətirə bilmədim şəhrin içinə. Bu, nəzikdədi[4]. Buları gedək mənnən alay, mən rahat olam. Əli qəssab dedi:

– Rəhməttik oğlu, xalq malını gətirir doldurur qəssabxananın içinə, mən almıram. Onnan mən burdan gəlim, çöldə sənnən davar alım? Qaç get bala can, mən heç vəxt bu işi görməm. Xub, davarın gətirərdin şəhr içinə.

Ərz elədi:

---

[1] Dərisi
[2] Üçüncü
[3] Şəhərə yaxınlaşdırdı
[4] Yaxındadı

– Ağa, bir kəs yoxumudu. İkki dənə çobanım var idi. Biri getmişdi murəxəsligə[1], birisi də gəldi bu məmləkətin suyu düşmədi beləsinə. Gəldi, həmun[2] sizin toprağiyızda rəhmətə getdi.

Əli qəssab dedi:

– Bala can, xub deyirik, mənim günahım nəmədi?

Ərz elədi:

– Xub, sən böyügəyn, sənin günahın buyudu ki, təşrif gətirib o davarı mənnən alay, mən rahat.

– Xub, məgə istəmirən sən istifadə eləyəyn? Məgə muamilə eləmirəyn, muamilə gər oleyn.

– Xub, gəl gedək əgər pəsəndin olmadı, bir dənə ögəc[3] biləyə əyəx kirə verrəm.[4]

Dedi:

– Xeyr balacan, mən gələ bilməm. Xub gəldim, mamiləmiz olmadı, mənim bir ögəç nəmə dərdimə dəgər?

Ərz elədi:

– Xub, iki ögəc.

Dedi:

– Xeyr, gələməm.

– Xob, üç ögəç.

Ağa üçü geç, dördü gəəə, çatdı beş ögəcə, baxdı gördü Əli qəssab, xob əgər də bu muamiləssi də olmaya, beş dənə ögəc babanın davarının içindən tutacag gətirə.

Dedi:

– Eybi yox, balam, gedək. Daha sənin üzünən geçə bilmirəm.

---

[1] Məzuniyyətə (Tərxis sözündən düzəlmişdir)

[2] Həmin

[3] 3-4 yaşında erkək toğlu

[4] Bir toğlu sənə ayaq haqqı verərəm

İndi ögəçdən geçə bilmiri aa. Dedi, bala, daha sənin üzüynən geçə bilmirəm gedək.

Bular, isdədi hərəkət eliyələr, cəlallı qoş Koroğlu bir zaman gördü, bir cəvan bu tərəfdən yetişdi. Gözləri sətaşdı cəlallı qoş Koroğlunun gözünə. Cəlallı qoş Koroğlu ah qaldırdı, pərvərdigara, görəh Xan Eyvəz budur? Xudavvanda, nə cur olar sənin köməkliginən mən bu Xan Eyvəzi aparam özümə oğlan eliyəm, qardaşım. Bu ənnazə[1] oğlanın mühəbbəti düşdü cəlallı qoş Koroğlunun qəlbinə, hissaba gəlməz. Ta yetişə, salamın ərz elədi.

–Ağa, naharın amadədi təşrif gətiginən.

Baxdı gördü Əli qəssaba deyiri. Ürəgində dedi, hətmən Xan Eyvəz bunun oğludu . Dedi:

– Siz də elə bala can, gedin, naharızı yiyin. Mən gedirəm, bu çodar əmi məni buraxmuru. Əz qərar, bir muğdar[2] davar varıdu. Gedək, bu davarı mən görüm. Muamilə eliyək, inşallah, beləsinnən alım. Mən gəlləm nəhardan bir-iki sahat gedənə.

Cəlallı qoş Koroğlu indi Əli qəssabınan danışır, vəli xub göz Xan Eyvəzdədi. Ərz elədi:

– Qəssab əmi, xub, elə bu ağazadə də gəssin[3].

Dedi:

– Xeyr, bala can, o gələ nəmə üçün?

Dedi:

– Xub, o da gəssin, onun da əyax kirasına iki ögəç verim.

Dedi:

– Gələnməz.

Dedi:

---

[1] Ölçüdə
[2] Miqdar
[3] Gəlsin

– Üç ögəç verim.

Dədi:

– Xeyr, gəlməz.

Dedi:

– Dörd ögeç, beş ögəç.

Taa yetişdirdi 15 ögecə ikisininkini, 10 ögəc Xan Eyvəza əyax kirasına veriri, 5 ögəcə Əli qəssabınkını. Amma ta bu 15 ögecə çatdıranda Xan Eyvəz səsdəndi:

– Ata.

Ərz elədi:

– Can, bala can.

– Ata, olmuya bu Koroğludu?

Amma cəlallı qoş Koroğlu o yerdən ki, hərrafudu[1], zirəngidi istədi iz itirə bular bilmiyələr. Dedi:

– Ey cəvan, sən nə hunərnən, nə qudrətnən mənə dedin oğru? Nə üçün dedin Koroğlu? Mən oğruyam, bala can? Qulaq as mən ərz eliyim. Mən sizi sorağ eliyib gəlmişəm. Mən o qədər bu atınan, o davarınan, get gör mənim neçə yüz davarım var, mən oğruyam?

Bəs görək cəlallı qoş Koroğlu saz-söhbətinən nə cur söhbət eliyiri məmləkəti Təkə-Türkmanına?

Əndim gəldim bu dağlardan,
Uşaq, niyə yava söz söylürən?
Xəbəriy almışam çodarlardan,
*(Mən adres alıb bura gəlmişəm).*
Sən məni oğru elirən?

Ay uşaq, niyə yava söz dirən. Ya Azərbaycan dilində, ay cocux, nə yava söz söylirən?

---

[1] Çox danışan, burada "sözünü bilən" mənasında

İgidlərdə mən dorğuyam,
Ay uşaq, sən nə cürətinən dedin mən oğruyam.
Bilginən, mən Çodar Əhmədin oğluyam,
Uşaq nə yava söz söylirən?

Çodar Əhməd çox məruf çodardu. Əli qəssab baxdı gördü, əmmaaa əhaaa, bu yaxcı gətddi nişanı verdi, yaxçı adamın oğludu. Dedi:

– İştibah eliyib, bala can, xub güzəşt[1] eləginən ….. oğlan mutəvəccih olmadı sənə.

Rövşənəm, sözüm diyərəm,
Düşmanın qəlbin döyərəm.
Mən özüm mamiləgərəm[2],
Bala can, niyə yava söz söylürən?

Ərz elədi:

– Çodar əmisi, bağışlaginən cavandi bilmədi, əğli çəkmədi, sən çox şəxsi-mohtərəm adaman. Bəli, gedəg, inşallah görək muamiləmiz necə olur?

Bular hərəkət elədi, gəlelər bir miqdar gəlmişdilə, neçə yüz qədəmi. Bir zaman, Xan Eyvəzin gözü sataşdu, baxdı gördü çodar əminin libasının dibindən şəmşir həmayildir, oturdu yerə. Dedi:

– Baba, özüynən teyy[3] elə, məni aparma o yana.

– Necə məyə, bala can?

– Xub, əyər əyləşən yerə. Çodar əmi də əyləşə yerə. Mənim bir neçə söz xatırıma gəlib, oları sənin üçün danışam. Sən bilən kim məni aparmısan?

– Necə məyə, bala can?

---

[1] Bağışla
[2] Alverçiyəm
[3] Yol get

– Xub, əgər əyləşən, beləyə ərz elərəm, bəs qəbul eləmirix. Əli qəssab, səni səğir qalan,[1] sən görürən burada 15 ögəc bizim girimizə gəlir. Necə bəs sən qoymuran? Biz gedək bu muamiləni eliyək.

Amma eltica[2] eləyir:

– Dədə can, əgər qulaq assan, biləsin ərz eləyərəm.

Bəs görək Xan Eyvəz, atası üçün nə cür danışır o, biz əlimizdən gələni ərz eliyək, təməm eşidənlərimizin salamatliginə.

Ata can, mənim şenaxtımı[3] itirmə!
Bu qılıxdə çodar olmaz, heç olmaz!
Bir oğlun var, gəl gözüynən itirmə,
Bu qılıxda, ata, çodar olmaz!

– Bu çodar da yalandı.

– Bəs kimdi, balacan?

– Necə sən belə sözdərdən danışıran, səni səğir qalın? Görürən bizim burada 15 dənə ögəc günümizə gəliri. Hətmən onu paxıllıq elirəni, qoymuran alaq.

Dedi:

– Dədə bəs qulaq as!

Koroğlu dəliləri tamam baş kəsən,
Başı kəsib tərkbəndidən[4] asan.
Yar heyyy, bu ya Koroğludu, ya da Dəli Həsən
Bu qılıqda çodar olmaz, heç olmaz!

Dedi:

– Xub, balaca, bu da Koroğlu da olandan sora bir nəfərdi, bizə gücü çatmaz.

---

[1] Qalasan
[2] Sığınmaq mənasında
[3] Adam tanımağımı
[4] Yəhərin arxasından

– Yəni çi[1], xob.

– Biz iki nəfərik.

Dedi:

– Ata olmaya Dəli Həsən ola.

Dedi, bu ya Koroğludu, ya Dəli Həsəndi. Bu qılıqda ki, çodar olmaz, heç olmaz. Dedi:

– Bala can, əslan bu sözlər mənim qulağımdan getməz (beynimə batmaz, qəbul edəsi deyiləm). Çodar əmi, söz mənimkidi gedək davarın görməyinə.

Amma mucəddən Xan Eyvəz etiraz elədi:

– Ata, qulaq as mənim sözümə.

Bu kişini qafiləsı yolarda işlər,
Bu bazirgandu, pulun çox-çox xəşlər.
Beş-beş diyər, on beş-on beş bağışlar,
Bu kərəmdə[2] sultan olmaz, xan olmaz.

– Gözümün işığı, bu qılıqda çodar olmaz, heç olmaz.

Dedi:

– Bala can, ərz elədim ki, fəqət sənin mənzurun budu 15 ögəc bizim girimizdən çıxa.

Amma Xan Eyvəz baxdı gördü atanın gözünü dünya malı tutub biləsin. Heç bilmir dünyada nə xəbərdi. Aşiq Cünun gəlmişdi Təkə-Türkmən vilayətinə, Çəmlibeldən gəlmişdi, Deyir, bunu deyim, bəlkə inşallah atamın yadına düşər.

Eyvəz bulbul olub uçmaz gülündən,
Ata, qeyrətə gəl, Eyvazı ayrı salma elinnən.
Atacan, Aşıq Cünun gəldi Koroğlu elinnən,
Bu qılıxda çodar olmaz ay, heç olmaz,

---

[1] Necə yəni

[2] Kəramətdə, əliaçıqlıqda, bağışlayan

Gözlərim, bu kərəmlə heç sultan olmaz, xan olmaz.

Əli qəssab bir zaman əlini qoydu alnına, dedi: "Əy dadı-biydad, oğlan səhih[1] diyir. Dedi:

– Çodar əmi, xeyri də özüyün, be qol ustad Aşıq İsmail Şahmuradov, xeyri də özüyün, bala, şərri də özüyün. Qeyit getginən davarın yanına, biz sənnən muamilə eləmirik.

Cəlallı qoş Koroğlu baxdı gördü, xeyr, Əli Qəssabın oğlu munsərif[2] elədi.

– Ay çodar əmi, sən bir uşağın sözünə bir belə muamiləni bağlırayn? Gəl ağazadanın[3] sözünə qulaq asma! Gəl gedək muamiləni bağlamaginan! Xob, bu bir zatlar danışıru. Du gedək, qeyidək.

Ərz elədim, xeyri də özünkü, şərri də. Xob, çödar əmi, halakı gəlmirən gedək, muamil eliyək. Bəs gəl gedək, muaməl eləmə. Davarı gör qeyit gəlginən.

– Necə yəni davarı gör qeyid?

Dedi:

– Bəs, qulaq asginan, bir neçə xatırıma gəlir, ağayı necə həmkarlıq eləsin, ta beləyə ərz eliyim, görginən, xub, davarı gör, qeyit gəginən, alma.

Görək Koroğlu nə cür danışır? Biz ərz eləyək, təmam eşidənlərimizin səlamatliginə, xoşluğuna, ba piruzi-nəhayi rəzməndəqan (İslam veteranlarının qələbəsi naminə).

Bəs ərz elədim, nəvarı o üzündə. Əli qəssab:

– Çodar əmi, xeyir də özün, şər də.

Amma Cəllalı qoç Koroğlu alıb deyir:

---

[1] Düz

[2] Vaz keçmək

[3] Ağazadənin

– Çodar əmi, sən bir uşağın sözünə bir belə mamələni bağlamaginan. Qulaq as, beləyə ərz eliyim.

Görək, çəllalı qoç Koroğlu nə cür Əli qəssab üçün məmləkəti-Təkə-Türkmandan soobət eliyirdi. Biz ərz eliyək eşidənlərimizin səlamətdiyinə:

Sənə deyim, Əli qəssab,
Gəl gedək qoyun seyrinə.
Gəl bir cür eylərik hessab,
Gəl gedək qoyun seyrinə.

Dedi:

– Yox, çodar əmi. Mənim dərdimə dəyməz daha. Həssab eləyən, eləməyən daha mənim dərdimə deyməz.

Bəs alıb mucəddədən cəllalı qoç Koroğlu deyiri:

– Qəssab əmi, sən məni uşşağın sözüynən bir belə muamələni bağlırayn? Qulaq as beləyə ərz eliyim.

Gedək qoyunu görginən,
Kökün, aruğun bilginən.
Bir ildə pulun verginən
Gəl gedək qoyun seyrinə.
Niyə qaday mən almadum?

Bəlanisbətiyiz eşidənlərimiz, gənə:

– Əli qəssabı, bir ildə pulun verginən təmə sal də.

– Bala can, səni səğir qalın, qoyaran biləxərə biz gedək bu muamiləni eliyək? Gör kişi nəmə danışır?

Deyir:

– Gəl qoyunu yığ gəti, moftu-musəlləm[1] verdün. Bir ildən sonra mənə pul ver.

Dedi:

---

[1] Müftəsinə

– Dədə, gə sözünə qulaq asma, gəl qeyid gedək.

Dedi:

–Peee, balam. Aha, Koroğlun mən tanıram, oğlum, sən ki tanımıran. Sən ki tanımamışan, eşitməmişəyn Koroğlu nə ğəd[1] cavandır. Koroğluya əgər balayı qeyrətən diyən, Koroğlu balayı qeyrətən şahrə giyi ver, yox-yoxdur.[2] Mən xəbər allam biləsinnən.

– Gülüm, adu? Əgər Koroğlu ossa qeyidək gedək eymizə. Koroğlu olmadı hətmən gərək gedək mamuləni eliyək.

Səsdəndi:

– Çodar əmi.

Ərz elədi:

–Bəli.

– Sən balay qeyrətiyə, adıyı deyin bizimçün. Adı nəmə-dir, gözümün nuru?

– Məgər bəlanisbəti eşidənnərimiz, deyir indi mənim adım sənin xalxın adından pisdir? Mən necə öz adımı qoyam, özgə adını diyəm sənə? Mən adım ərz elirəm, sən qulaq asginan. Məgər mənzurun mənim adımdadı Qəssab əmi?

Roşən xandu mənim adım,
Dövrəmdə var qırx cəlladım.
Tox kişiyəm, vardu tabım,
Gəl gedək qoyun seyrinə.

Sözdəri tamam oldu, Əli qəssab səsdəndi:

– Oğlum, gəlirən gəl, gəlmirəyn mən getdim davar yanına.

---

[1] Necə

[2] Yəni, mərdi-mərdanə Koroğludan boyunun şah damarını vurmaq istəsən, yox deməz

– Bəli, dədəcan, əgər gələn behtərdi. Bəlkə bu on beş dənə ögəci mumuləmizdə oldu vurak kinara[1].

Dedi:

– Baş üsdə.

Xan Eyvəz məcburan əyağa durub ataynan be ittifaqe cəlallı qoş Koroğlu gəldilər qoyun yanına. Gəldilər çatdılar davarın yanına. Xan Eyvəz baxdı gördü, övüynən bu davar əslan sayı sahbırın ki, hesab yoxdur, kəmal pərt[2].

Dedi:

– Dədə, axı bizdə bir elə pul yoxdur bu davar alak.

– Necə?

Dedi:

– Dədə, bu davarı əgə cəlallı qoş Koroğlu ola, ya çodar ola, ya Dəli Həsən ola, hər kəs ola, bu davaru bizə on minə verə, biz gərək börkümüzü güvə atak[3].

Dedi:

– Balaca, nəmə danışıran, məgər sən dəliyən? İndi mən bir qiymət diyərəm çodar əmiyə ki, sən biləyn dədəyin nəğad[4] varıdı. On min tümən verək davara?

– Xop, dədə, gör neçə yüz davardu?

– Hop, hop, balam, sən fəqət buraçan gəlmişəyn, mənə çox yaxçılıx eləmişən, məni gözlə xayıışt[5] eliyəm, davarın qiymətinə dəxalət[6]eləmə!

– Xob dədə, sən deynən nə cür olay?

[1] Kənara
[2] Fikri qarışdı
[3] Papağımızı göyə ataq
[4] Nə qədər
[5] Xahiş
[6] Müdaxilə

Dedi:

– Bala can, bu davarı bir az mən aşağılıxdan tutam tükə məsəl, bir az sən yuxarılıxdan, bu davar istərək dörd yüzə.

– Dədə, nəmə danışıran? Sənin dudmanın dağıldı. Məgə verəllər bir belə davarı?

– Dədəni indi görəcən.

Bəli, gəlibdi, gəzibdi davarı. Əslən baxıru, Xan Eyvəz baxır görürü bu davarın içində davar var ki, əgər ki, o zaman davarı ucuzduğuydu dörd dənəsi dördyazə dəyər.

– Xob, çodar əmi, davarı neynədin?

Əli qəssab ərz elədi:

– Vallah, ay qəsaab Əli, dürüstdür mal mənimkidir, vəli mən qeyməti-davarı bilmirəm. Ərz elədim ki, biləyə, mənim bir çopanım varıdı, sizin məmləkətə suyu düşmədi biləsinə, rəhmət elədi. Pulu mən vermişəm, davarı o alıbdır, vəli mən bilmirəm qiyməti davar neçəyədir.

– Qəssab əmi, sən bir qiymət xudbe-xudayı buyuran ki, məhzi rizayı xuda?

– Mənim gözümə minnət. Ağacan, bu davarı sən verən, mən alam, da içində çəki-çünəsi (çəkiş-bərkiş) olmiya, danışmağımız bir kəlam ola, davarıya verən, ya vermiyən biz çıxaq gidək. Bir kəlam da variy allam dört yüzə. Onun iki yüz tümənin bu il verəm, iki yüz tümənin yengidə[1] .

Dedi:

– Allah bərəkət versin. Yaxçı maldı, Allah bərəkət versin. Vağiəm[2] yaxçı muamilədi.

[1] Gələn il

[2] Gerçəkdən

– Xob, davarın yanında olin! Oğlum, mən gedim iki yüz tümənin gətirim.

Bəs Xan Eyvəzinan cəlallı qoş Koroğlu davarın yanında qalmaqda olsun, ərz eliyim, Əli qəssabdan. Əli qəssab gedə pul gətirə. Ta Əli qəssab gedə şəhərə gələ, ərz eliyim Xan Eyvəzdan. Xan Eyvəz, öz-özünə deydi: "Xob, səni Xan Eyvəz, dədəyin dunya malı gözün tutmuşdu. Özüy zirəngligə nəmə olub? Götürgünün imtihan elə biləsini. Görək ayan, bu Koroğludu, dəlilərinnəndi, ya pedər cəddədən[1] çodardu?". Ərz elədi:

– Çodar əmi, bu biyaban nəmə üçün yaxçıdı?

Koroğlunun şəsti xəbərdar oldu. Dedi:

– Bu biyaban?

–Bu biyaban, bu davarı görən? Bir belə də quzusu var. Təmam ağ quzu. Bu biyabanda yayaaan yaxçı çeşmə, bu kinarlarda sən bələdey[2] günortanın çağında aparan çeşmənin üstündə yatırday davar quzunu. Çeşmənin suyundan içəyn, əli-üzüy yuvayn (yuvasan), bir yuxliyan duran görən davar bulub. Bura bunun üçündür?

Gördü, yox, xəbər yoxdu bunnan pəhləvanlıxdan zaddan. Dedi:

– Məni görrən mən pəhlivanam. Mənim dayım Cəhan Pəhlivan, qizi Reyhan, ya be qolu ustad, Ərəb Reyhan, dayım zamani[3] cəngə gedər, çəngək vurar gözünün ətini yuxarı çəkər Cəhan Pəhlivan. Dədəm də pəhləvandı, dədəm də pis dəyil. Biz əslən cinsliklə tamam pəhlivanıx.

Dedi:

– Bəli. Sizin də məmləkətizdə çodar əmi, pəhləvan var?

---

[1] Dədə-babadan

[2] Bələdsən

[3] Bir zaman

Dedi:

– Ay rəfix, sən belə xiyal eləyin ki, o ağ quzu o qara ügəcin nəməsidi?

Dedi:

– O ağ quzu, o qara ügəc ağ quzunun dayısıdı. Nə bilim, o fılan azman[1] filan ala quzunu əmsidir. O filan quzu filan quzunun bibi oğlusudu. O filan dişi şişək, görürəy bu qırmızı quzu bunun xalasıdır. Balam, bu davarlarun tamam mən tanıyam. Hər zaman bu davarlar doğub, mən bilirəm, hansı hansınındır, hansı hansının degi. Məsələ, sən xiyal eliyən o ala kəmər quzu, o qara qoyunun nəməsidi?

Dedi:

– Bacı oğlusu.

Bax gördü əsla çodar əmi pəhləvannıxdan heç zad bələ dəyi. Dedi:

– Rəfix, insanın gərək əlinin xeyri ola, bu davarmı verrəm sənin ataya. İnşallah, aparayız, xeyir eliyəyiz. Mən getdim filan hacdan, Allah bərəkət versin, on dənə quzu aldım gətirdim. Mənə köllü-çörəg elədi[2], amma getdim filan hacıdan on dənə oğlaq aldım gətirdim, səkkizi boğuldu, döyüldü.

Baxdı gördü çodar əmi əssan[3] pəhəvannıxdan hessad[4] bilmir. Bu sözdeydi, Əli qəssab yetişdi. Əli qəssab yetişdi, Xan Eyvəzin ürəgi xətircəm olub. Əli qəssab yetişdi:

– Xub, balacan.

– Çodar əmi, 200 tüməni getirmişəm rəfiq. Ətəyin sal, sayginan.

---

[1] 4-7 yaşında erkək heyvana azman deyilir

[2] Xeyli çörək

[3] Əsla

[4] Heç nə

Dəsmal da gətirmişdi. Ərz elədim ki, əvvəl navarda ərz elədim, be qoli bizim ustadımız, o zaman pul böyüyü pənc hezariymış –5 qrannıx. Dedi:

– Xob, dəsmalda pulun gətirmişəm.

Pulu saydı verdi Koroğluya. Hər pulu verdi, Koroğlu barmağı ilə basdı pulun siggəsi[1] getdi. Vəxdi (o vaxt ki) saydı, iki yüz tümən. Səsləndi, Xan Eyvəza səsləndi:

– Ay rəfiq, gəl bir bura. Mən dörd yüz tümənə bir belə davarı vermişəm. İkki yüz tümənin bu il verə, ikki yüz tümənin yengi. Bu ikki yüz tümən də ki, bu il mənə verri, dəmirpara[2]. Hala yengil içün Allah kərimdi. Yengil hala görək nə cür olacaq?

– Necə yanı, çodar əmi, dəmir para verir?

Dedi:

– Valla, gəl baxginan.

Xan Eyvəz gəldi irəli. Koroğlu neçə dənə verdi pullardan, baxdı gördü, bəli, pulun əsas sikkəsi yoxdur. Xob, pulun sikkəsi olmadı, dəmir paradı, dərdə dəyməz. Səsləndi:

– Dədə, sənin xuda insafın kəssin, dədə. Dörd yüz tümənə ki, bir beləni davar almışan, ikki yüz tümənin ki bu il verəceyin, ikki yüz tümənin də yengil, Allah bilsin verəyin. Bu ikki yüz tümən də ki, bu il birçariəy verrən dəmir paradı.

– Necə yanı?

Dedi:

Bu buların pulu var, pulu baxtı gördü buların bir dənəsinin sikkəsi yoxdu.

---

[1] Sikkəsi

[2] Dəyərsiz dəmir parçası

– Xob, mən gedərəm fılan tacirdən bu pulu almışam, bəla nisbətiz, dədəsin yandırram. Əgər ilan dərginə[1] girə, çıxadaram dədəsin qovururam[2] ki, mənə dəmir para verə, mən gətirəm qonağıma verəm.

Əli qəssab getməkdən ossun, ərz eliyim Xan Eyvəzdən. Xan Eyvəz bir miqdar daha Koroğlu ilə danışdı. Dedi:

– Atam gec gələr, gedək mənim dəftərimə[3] .Mənim dəftərimə oturak, atam gələr görər, biz bırdə yoxug, gələr mənim dəftərimə.

Durubla nəm-nəmə[4] gəlirlər Xan Eyvəzin dəftərinə. Dəftərinə girəndə cəlallı qoş Koroğlu baxdı gördü, dəftərin taxçasınnan, təxçələrdə şişə var.

– Qardaşdıx, olar nəmənədi?

Dedi:

– Bular şişədilər. Bə sən bilmirən bular nəmənədi? Məgə çodar əmi sən ordan vurmaz[5].

Ərz elədi:

– Niyə?

– Mən də təhi gilas[6] vurram.

– Necə yani təhi gilas?

Dedi:

– Ərz elədim beləy üçün.

---

[1] Deşiyinə
[2] Atasını yandıraram
[3] İş yerimə, oturduğum yerə
[4] Yavaş-yavaş
[5] Çodar araq içməz?
[6] Stakanın dibində (Gilas əslində ingilis dilində "Glass" sözündən fars dilinə keçib və "şüşə bardaq" deməkdir)

Xan Eyvəz əndinib[1] bu şişələrdən gətirib, məşğul ossunnar. Baxdı gördü Xan Eyvəz bir yarım istikan özüçün tökdü, yarım istikan Koroğluçün.

Dedi:

– Balacan, bu mənimdir?

– Necə yani?

– Bə sən deyirdün mən təhi gilas vurram?

Ərz elədi:

– Balam, biz gilas-milas bilmək ki... Biz bu tuluğun yarısındaki qalar, yarı olanda tuluğ ona diyərik təhi gilas.

Dedi:

– Haa.

Xan Eyvəz özünü sindirmədi, öz ürəyini dedi, xob, bu çodardı. Mən bir nəfər qəssab oğluyam. Mən bu cavannığumnan özümü sindirəm bunun yanında? Tez-tez durub gətirib bi şişə Koroğlu xali[2] eliri, bi şişə Xan Eyvəz. Ta bir zaman Koroğlu baxdı gördü, Xan Eyvəz fulu-ful oldu[3], təmam məna nəşə oldu[4].

Alıb deyir xob, görək Xan Eyvəz daha biliri dünyada nə xəbər var? Alıb saz-söbətinən görək nə cür danışıru, əzr eliyim eşidənlərimizin, qulaq asanlarımızın tamam salamatdiginə:

Gənə doldur piyalanu,
Ver içim, qassabın oğlu.
Dərdin mən alım, mən alım,
Gəl yola qurbanın olum.

---

[1] Endirib
[2] Boş, boşaltmaq
[3] Sərxoş oldu
[4] Tamamilə kefləndi

İçim ta sərinnən geçim,
Geçərəm, qəssabiy oğlu.
Gəl yola çöllər ceyranu,
Ollam gözlərin qurbanu.

Gördü Xan Eyvəz heş bilmir. Xan Eyvəz fəqət baxıro cəlallı qoş Koroğluya. Qəh çəkib gülürü:

– Ay çodar əmi, mislin ki oxuray, maşaalla.

Aslanam, degiləm tülkü,
Mən bilmməzəm qorxu, hürkü.
Gəl yola qurbanun olum,
Ay oğlan, heyranun olum,
Ay cavan, mehmanın olum.

Ərəbi, əcəmi, türki,
Gəl qirək *(qıraq)*, qəssabi oğlu.
Gəl yola qurbanun olum,
Ay sənin mehmanın olum.
Gəl yola çöllər ceyranı,
Oldum gözlərin heyranı.

Aslanam, dəgiləm tülkü,
Mən bilməm qorxu o hürkü.
Ərəbi, əcəmi, türkü
Gəl qirək qəssabın oğlu.

Amma ərz elədim, Xan Eyvəz cəlallı qoş Koroğluya üzünə baxıb, qəç çəkülür.

– Ay qəssab əmi, diyəsən maşalla, oxuryan.

Sözdərini şərqə sana,
Şoqu düşüb, ey gülüstana.

Gəl yola çöllər ceyranı,
Olum gözlərin heyranı.

Olubdur məst deməz sana,
Olum qurban Eyvaz xana.
Məst olub qəssabın oğlu,
Gəl yola qurbanun olum.

Cəlallı qoş Koroğlu baxdı görü Xan Eyvəz ayağa durub. Qədəm vururo, hərdən özünə təkan verir. Bir tərəfdən ayna, aynanın bərabərində iki dənə güldan. Bu güldannarın içinnən ikki dənə-üş dənə xoşgül, gül görür. Amma Xan Eyvəzə Xudavənd özü nəzəri-lütfuynan bu ənnəzə[1] cavannıx verib, Xan Eyvəzi cavannuğu, Xan Eyvəzin camalu, əksi[2] düşüb ayniya bu gülləri pərsə vurur[3].

Deyir:

– Balacan!

Sözü düşəcək dəstana,
Şoqu düşüb gülüstana.
Olmuşay məst o məsdana,
Məsd olub qəssabın oğlu.

Ərz elədim, cəlallı qoş Koroğlu baxır görürü Xan Eyvəz əsslan mutəvəccih dəgil[4] .

Əcəli qoydum börkümə,
Girmişəm çodar kürkünə.
Gəl yola qurbanın olum,
Ay cavan, heyranın olum.

---

[1] Əndazə
[2] Şəkli
[3] Geridə qoyur
[4] Özündə deyil

Ərəbi, əcəmi gənə,
Biz qirək biz qəssabın oğlu.
Gəl yola qəssabin oğlu,
Olum gözlərin heyranı.

Əcəli qoydum börkümə,
Bala can, sənnən sarı girmişəm çodar kürkünə.
Ərəbi, əcəmi genə
Qirək biz qəssabın oğlu.

Amma cəlallı qoş Koroğlu deyir, day mən o Aşıq Cünün deyən sözdərdən bir dənə de deyim görüm Xan Eyvəz bir zad biliri, ya bilmir?

Ey ağalar, bu dərd məni öldürür,
Soraki ağlımı əzzəl bilmədim.
Pərvanə tək dovr eylərdim havada,
Gözü bağlı tora düşdüm, bilmədim.

Yardan ötrü soydurdular[1] rəxdimi,[2]
Sinəy üstə qurduraydum təxtimi.
Hər kitabda mən aşdırdum baxdimi,
Özüm kimin bəxdi qara bilmədim,
Soraki ağlımı əzzəl bilmədim.

Yar gözünə gözüm düşdü məst oldu,
Şirin canım bu yollarda qəsd oldu.
Səməndim axsadı, bəxdim süst oldu,
Qoodum[3] bir ceyranı görə bilmədim,
Soraki ağlımı əzzəl bilmədim.

---

[1] Soyundurdular
[2] Paltarını
[3] Qovdum

Bir gözəlin sinəsini baz[1] gördüm,
Muhəbbət çölündə bir cüt qaz gördüm.
Hər kimsəni çox istərdim, az gördüm,
Oniynan bir məclisi qura bilmədim,
Soraki ağlımı əzzəl bilmədim.

Tilimxan atluydu, oldu piyada,
Tilimxanı kim bu xabdan[2] oyada?
Dərdim ki çoxudu, oldu ziyada,[3]
Bağışla təxsirim[4] qala bilmədim,
Soraki ağlımı əzzəl bilmədim.

Cəlallı qoç Koroğlu Xan Eyvəzinən söhbət elirdi. Söbəti də orda qaldu, Xan Eyvəzin dəftərinnəydi.

Əcəli qoydum bürkümə,
Girmişəm, balacan, çodar kürkünə.
Gəl sən Qıratın tərkinə,
Gedək biz qəssabın oğlu.

Amma ərz eliyim xidmətiyə, cəlallı qoş Koroğlu baxdı gördü Xan Eyvəz əssən heş bilmir dünyada nə xəbərdir. Bəs bu birisi kəlməsin desin görək. Şayəd Eyvəz mutəvəcci ola.

Balacan, çox oldum dəvada, toyda,
İgid görmədim sən tək boyda.
Ver əliy vurak biz sooda[5],
Vurak biz, qəssabın oğlu.

---

[1] Açıq
[2] Yuxudan
[3] Daha çox
[4] Təqsirim, qüsurum
[5] Alver

Əmma cəlallı qoş Koroğlu, danışdığı söz kimin Xan Eyvəz baxır o Xan Eyvəzin cəvannığınnan lezzətə aparır, pərvərdigara. Ya mənim bu oğlum olaydı, ya qardaşım olaydı.

Mən sözümü etməm haşa,
Aşıq Cünun diyən sözlər gələr başa.
Əgər şəmşir vuram qaradaşa,
Bilginən geçər qəssab oğlu.

Ərz elədim, baxdı gördü Xan Eyvəzin heç dünyadan xəbəri yoxdur.

Koroğlunun çoxdur yaşu,
Bilmir, balacan, nə qovğalar çekib başı.
Gəl gedək düşmana qarşı,
Gəl gedək biz, qəssabın oğlu.

Sözləri tamam oldu. Amma atdan gəlib aşağa, Xan Eyvəzi yavaş götürüb qoyub atın üsdünə. Be qoolu ustad,[1] əlini, əyəğini mohkəm gətirdi, atın yoxarısınnan bağladı, yani küldü. Atıldı at üsdü istədi hərəkət eliyə, gördü Xan Eyvəzin nokəri yetişdi.

–Ay ağa, mənim ağamı hara aparran?

Əyağını rikabdan[2] xali elədi. Xan Eyvəzin nokərinin çənəsinə asınnan[3] təpiginən vuranda kəllə qopdu. Hərəkət verdi ata getməgə, ərz eliyim Əli qəssabdan. Əli qəssab beş-on dəğə[4] bu gedəndən sonra Əli qəssab gəldi. Bu kinardan[5] səsdəndi:

– Bəlacan, bəlnisbəti eşidənlərimiz, tacirun dədəsini yandırmışam, pul getirmişəm.

---

[1] Ustad demişkən
[2] Üzəngidən
[3] Altından
[4] Dəqiqə
[5] Kənardan

Bir zaman narahat olmiyan. Baxdı gördü, heç xəbər yox. Nə Xan Eyvəz var, nə çodar əmi. Qaçaqaç özünü yetirdi dəftərə. Əy dadı-bidad, görən nəcur oldu bu çodar əmiyə? Gəldi Xan Eyvəzin dəftərinə və baxdı gördü dəftər çox şuluxdu.[1] Bir az başını gözünü vurdu, pərvərdigara.

– Bəs nə cür olub?

Gəldi çölə çıxə, baxdı gördü Xan Eyvəzin nokəri beyni gedibdir. Xan Eyvəzin nokərini öldürüblə. Bildi, əy dadi-bidad, bu adam Koroğlu imiş gəlmiş. Başına vura-vura, ağlıya-ağlıya, narahatçılıxnan özünü yetiribdi Ərəb Reyhanın xidmətinə. Ərəb Reyhanı, ya be qool bizim ustadımız, didi Reyhan:

– Əlin ətəgiyə, Xan Eyvəzi Koroğlu aparıb.

– Nəmənə danışıray sən?

Ərz elədi, dedi:

– Vallah gəlmişdi, çodar cildində gəlmişdi. Gəlib mən bilməmişəm. Hələ getmişəm, görmüşəm, nə Xan Eyvəz var, nə çodar var. Xan Eyvəzin nokərin öldürüb.

Ərəb Reyhan atı mindi, səsdəndi:

– Quşun təhiyyə[2] eliyin mənim dalımca gəlsin, mən getdim.

Ərəb Reyhan at sürüb gəlməkdən ərz eliyim, quşundan. Quşun dalısıycan gəlir Ərəb Reyhanı, Əli qəssab. Xan Eyvəznən Koroğlu gedərdilər, bir tərəfdən havayı azad dəydi Xan Eyvəzin məşamına[3]. Bu tərəfdən Qıratın, xob, getməgi, sürətini, məhlum idi. Yeli olardı, bir tərəfdən yel dəyib Xan Eyvəzin məşamına. Gözlərin açdı, gördü ey dadı-bidad, qəssab əmi əllərini, əyəxlərini gətirib Qıratın qarnı altınnan bağlayıb,

[1] Darmadağındır
[2] Tədarük
[3] Burnuna

götürüb gedib. Əvvəl bir az ağladu. Bəd[1] ağlayandan sonra cəlallı qoş Koroğlunun mütəccəvih oldu ki, Xan Eyvəz ağlur. Dolandı baxdu:

– Ay sənə qurban olum, bəs sən necə ağların?

Dedi:

– Koroğlu, mən əvvəl sən varid olanda bildim sən Koroğlusan. Amma bilmirəm ki, məni mərtdiyə aparın, namərtdiyə aparıran?

Amma cəlallı qoş Koroğlu gəldi, donya başına tirə vo tar[2] oldu.

– Bu söz nəmədi, balacan?

Alıb görək cəlallı qoç Koroğlu nə cür danışır, biz əlimizdən gələni ərz eliyək, tamam eşidənlərimizin salamətdiginə.

Qoş quzuydu ayrı saldım sürüynən,
Səri siyah telli Eyvəzim, ağlama!
Balacan, ayrı saldım sürüynən,

Səri siyah telli Eyvəzım hanı?
Ataynan, dayın gəlir dalınca,
Sərı siyah telli qardaş, ağlama!

Amma Xan Eyvəz ağlamağını betər elədi.

Gedək Çənlibeldə baham qalaq,[3]
Gedəndən, gələnnən baclar alayın.
Namərd kimsələrin boynunu burayım,
Səri siyah telli bəz ay[4] ağlama,

---

[1] Sonra
[2] Qaranlıq
[3] Birlikdə qalaq
[4] Ağ ay

Səri[1] durna telli qardaşım, ağlama!

Amma Xan Eyvəz baxdı Koroğlu həm gediri, həm beləsinə nəsihət eliri:

– Balacan, ağlama.

Dedi:

–Xob, mən bir imtahan edim.

Be qool ustad, ərz elədim ki, əliynən ayağını gətirmişdi. Qıratın qarnasına bağlamışdı. Hala, ya əli yetişdi Qıratın əyağinə, ya əyəğı yetişdi Qıratın əyəğinə. Mohkəm əlini, ya əyəğini dayadı Qıratın qabaq qiçinə. Qırat dayandı, daha təkən verə bilmədi. Koroğlu baxdı gördü Eyvəz əlini, əyağini be qoolu ustad, keçirdib Qıratın qabaq qiçinnən soxluyub. Qıratı hər nəmə zor var vurusun, yeriyə bilmir. Xob, Xan Eyvəz yaxçı cavanidu. Muntəha[2] fikr elirdi görəsən, xudavənda, Koroğlu məni nə xuyə[3] aparır?

Əmma Koroğlu baxdı gördü Xan Eyvəz ağlıru. Biləsinə deyir:

– Oğlum, ağlama. Yaxçı iş görmürən ağlıyan.

Aşıq Cünün, balacan, gəzdi tapdı eliyi[4],
Çəmlibelə dolandırdım yoluyu.
Nigar xanum gözdür sənin yoluyu,
Sərı durna telli Eyvəz, ağlama!

Baxdı, gördü ağlamağı bətər oldu. Əndi aşağı, əl-ayağını aşdı. Dedi:

– Xoş gəldin! Balacan, bəs necə bir belə ağlıran? Neçə gündü narahatçılıqdı.

---

[1] Durna baş
[2] Nəhayət (burada amma mənasında)
[3] Xəyal ilə
[4] Sənin elini

Dedi:

– Koroğlu, bilmirəm hədəfin[1] nədi. Sən get, vəli mən hədəfimi sənə diyərəm. Mənim arzum nəmənəydi.

Dedi:

– Buyur görüm. Arzuyun nədi?

Hala, Xan Eyvəz Qıratdan ənir aşşağı ki kinarda durub. Cəlallı qoş Koroğlu Qıratın üssündə belə deyiri:

Gün məşriqdən çıxər, məğribdə batar,
Oğlum, igid olan qəniminə ox atar.
Sən oğul olginan, Koroğlu ata,
Səri durna telli, balacanım, ağlama!

– Sən məni özüyə oğlan elirən? Mən sənin tək kişiyə nookərm[2].

Mucəddədən atılıb minib atın tərkinə. Şuru[3] elədi getməgə. Amma şuru elədi getməgə, miqdari gəlmişdilə. Bir zamanı baxdı gördü, xob, Ərəb Reyhanının da bir atı vardı dəryadan çıxmaydı. Ərəb Reyhan gəldi yuxarı yannan, kəsə yol bələt idi. Sudan geşdi, Koroğlunun qabağını kəsdi. Koroğlu göz sataşanda Ərəb Reyhana, atı dolanırdı suynan baş yuxarı, suyun kinarıynan. Özünü suya vurmadı. Özünü suya vurmadı, Xan Eyvaz səsdəndi:

– Ağa, bəs nəmə işdi? Bəs hara gedirəyn? Bəs necə belə gedirən? Necə əl-əyaği dağıdayn?

Dedi:

– Balacan, əgə qulaq assan, biləyiçin[4] danışaram.

---

[1] Məqsədin
[2] Nökərəm
[3] Başlamaq
[4] Sənin üçün

Görək cəlallı qoş Koroğlu Xan Eyvəz çin nə cür danışır, biz də əlimizdən gələni ərz eliyək tamam eşidənlərimizin səla-mətdiginə:

Xan Eyvəzim sənnən ötürü, balacan,
Nə çöldən çöllərə düşdüm.
Tərk elədim vətənimi,
Oğlum, nə qürbət ellərə düşdüm.

Qəm badəsin içə bilməm,
Qənəd yoxum, uça bilməm.
Çay çox gəlir, oğlum, geçə bilməm,
Nə coşğun çaylara düşdüm.

Xob, ərz elədim cəlallı qoş Koroğlu Xan Eyvəz çün belə dedi, balacan.

Qəm badəsini içə bilməm,
Qənət yoxum, uça bilməm.
Mən bu çaydan geçə bilməm, oğlum,
Nə çoşğun çaylara düşdüm.

Amma Xan Eyvəz səsdəndi:

–Ağa, məgər sənin atın dəryadan çıxma dəgil? Bəs necə iştibah elirən sən? Sudan qorxuray sən?

Dedi:

– Əy dadi-bidad, balam, düşmanı görmüşəm, yadımdan çıxır.

Belə deyiri:

Koroğluyam, oğlum, vurmam lafi,
Sumrux[1] təki gözlərəm Qafi[2].

[1]Əfsanəvi Simurq quşu
[2] Qaf dağı

Öldürər, yoxdur insafı,
Biymürvət[1] əllərə düşdüm.

Amma söz tamam ola, Xan Eyvəz yadına saldı, əy dadı-biydad, mənim atım balacan dəryadan çıxmədi, mən bilmirdim, yadımdan çıxmışdı. Atı vurub suyun içinə o taya geçəndə gördü, bəli, sağlıyına, eşidənlərimizin sağlığına. Bunlardan qabaq Ərəb Reyhan geçib o tayda kəsib cədənin (caddənin)[2] kinarını. Koroğlu fikir elədi. Baxdı, gördü bu əndazə qoşun gedib yuxarıda körpü varmış demə, bu əndazə qoşun, tökülüb gəlir, bu körpüdən geçib, rubəru[3] gəlir, Koroğlu hesabı gəlmir. Dedi, xob, bular ki məni öldürəcək.

Deyir, cəlallı qoş Koroğlu, öldü nə? Elə mərdanalığnan ölginən. Mərd gərək mərd ola. Mərd oğlanların səlamətdiginə ki, bizim üçün gecə-gününüz zəhmət çəkirlə, təmam rəzməndəqan[4]. Şeşpəri çəhdi, düzəldi Ərəb Reyhanın üstünə. Ərəb Reyhan baxdı gördü Koroğlu əlsan[5] bir ayrı aləmə getdi. Xob, Xan Eyvəz də tərkində, alıp görək nə cur danışır o. Ərəb Reyhana deyir:

– Get kinara, niyə mənim yolum üstünə gəlirəyn?

Dedi:

– Mən ki öləcəyəm. Qoy axır-axırında da mərdi-mərdanalığnan danışım.

Bəs görək cəlallı qoş Koroğlu nə cür danışır? Biz əlimizdən gələni ərz eliyək tamam eşidənnərin səlamətdiginə.

Gəlməginən mənim yolum üsdünə,

---

[1] Mürüvvətsiz
[2] Yolun
[3] Üzbəüz
[4] Cəbhə döyüşçüləri
[5] Əslində mənasında

Ərəb Reyhan, məgə cannan doymuşan?
Durmaginan şirin canın qəsdinə,
Ərəb Reyhan məgər canıynan doydu?

Get kinara, gəlmə yolun üsdünə,
(*Bəla nisbəti eşidənnərimiz).*
Hərramzada məgər canıynan doymu?
Girməginən şirin canıyn qəsdinə,
Gedə, Reyhan, məgər caniynan doymu?

Gedi Reyhan, gördü əslən Koroğlu burda tək bir adam. Tərkində, xob, Xan Eyvəz – Ərəb Reyhanın bacısı oğludu. Əli qəssab gəlir. Qoşun, ağa, gedib başdan tolanıb tükülüb gəlir, əslən çörə-çöpə san var, qoşuna san yox. Koroğlu nə curətnən danışır? Ərəb Reyhan qalıb tək, pərvərdigar.

Çox oğlan istərəm, eyyy, qoluma dəgə,
Poladdan şeşpəri döşümə dögə.
Çeylərəm puladı, püykürrəm gögə.
Ərəb Reyhan, məgər cannan doymuşay?[1]

Çox igid isdirəm mənim qoluma dəgə,
Şeşbərdən pulatın mənim döşümə dögə.

Bilirəm ki, mən kiməm. Pulatı çeylərəm, pünkürrəm gögə[2]. Ərəb Reyhan, biçərəm, məgər caniynan tox olmuşan[3]? Mənim qanşarıma gələrəyn? Məgər bilmirəy mən kiməm? Deyir:

– Bala, qurd oğlu elə qurd olur.

Alır bu kəlməni belə deyir:

[1] Doymusan?
[2] Göyə
[3] Olmaya canından doymusan?

Qoş Koroğlu zülmün sənə bildirər,
Dosti ağlar, düşmanları güldürər.
Dəli Həsən çətsə[1] səni öldürər,
Ərəb Reyhan məgər caniynan doydu?
Ayyy! Qurbanın ollam....

Qoç Koroğlu zülmün sənə bildirər,
Dosti ağlar, düşmannarın güldürər.
Dəli Həsəni ki, bilirən çatsa öldürər,
Ərəb Reyhan, məgər caniynan doymu?

Amma ərz eliyim, Ərəb Reyhannan beləyə baxdı gördü, bəli, qoşun tökülüb, bir tozha toznan gəlir hessaba gəlmiyən. Dedi, aha, canımı qurtar da. Canımı qurtar, bu Dəli Həsəndi, bu duman-dağnan gəlir qoşun içində bir belə tozhatoznan. Bəs bu qoşun bununküymüş gəlimiş. Deyirəm Koroğluda bir belə curət yoxudu mənim bərabərimdə. Bir belə qoşun mənimki olaydı, mənim bacım oğlu da tərkində olaydı, bir belə curət olaydı mənə belə söz danışaydı?

Atdan gəlib aşağa:

– Ağa, qul xətasız olmaz, ağanın gərək kərəmi ola. Görün, mən nəmə eləsəm, Dəli Həsən məni öldürməz çatanda.

Dedi:

–Öldürrər.

Dəli Həsən ki, özün bilirsən daha mənim səniyn sözünə baxmaz. Addan düşüb aşağa, üzü qoylu düşüb Koroğlunun bərabərində zanu vurub yerə[2].

[1] Çatmaq, gəlib çatmaq
[2] Diz çökmək

– Ağa, sən bir cür eləginən, məni Dəli Həsən öldürməsin. Sən hər dəstur verirəyn, mən icra eliyim.

Dedi:

– Məgər sən yatayn, mən sənin qiçiyi, qoluyu bağliyayam, səni dəstgir eliyəm[1]. Dəli Həsən çata səni dəstgir[2] görə, işi olmaya vəy illa[3] öldürər. Əslən özün billən ki, Dəli Həsəni bu sözlər qulağınnan getməz.

Bəs Ərəb Reyhan burda yatub, cəlallı qoş Koroğlu qiçini, qolunu mohkəm bağladu, saldı biləsin topraq üsdə. Topraq üsdə salıb bu tərəfdən Əli qəssab yetişməli oldu.

– Ay qoş Koroğlu, qulaq asginan, qulaq as, mənim Eyvəzim apara bilməzsən.

Səsləndi:

– Atiyi[4] saxla. Mənim bir neçə xatırıma gəlir istirəm beləyinən sobət eliyəm. Vəli bilginən, mənim oğlumu sən apara bilməyn.

Alıb görək Əli qəssab nə cür danışır o, bən də ərz eliyim, tamam eşidənnərimizin səlamətgininə:

Əcəm oğlu dəli çodar,
Vermərəm Eyvəzi sənə!
Eyvəzsiz qəlbim qan olar,
Vermərəm Eyvəzi sənə!

Əcəm oğlu dəli çodar, bilginən vermərəm Eyvəzi sənə. Əgər Eyvəz olmasa, mənim qəlbim od tutar, aparma, vermərəm Eyvəzi sənə.

---

[1] Əllərini bağlayam, saxlayam
[2] Əli bağlı
[3] Yoxsa
[4] Atını

Eyvəzdır igidlər gözü,
Əllisi, altmışı, yüzü.
Biraxginan, eşit sözü,
Vermərəm Eyvəzi sənə!

Əgər Eyvəzi istiyən aparan, gərək mən öləm tay.

Sinəmə geydirmə dağu,
Yolu al get, qanlı yağu.
Bu gözümün ağlar çağu,
Vermərəm Eyvəzi sənə!

Gəl sinəmə çəkmə dağu,
Yolu al get, qanlı yağı.
Bu gözümün ağlar çağı,
Bilginən, vermərəm Eyvəzi sənə!

Tamam, eyy, dünya yığıla,
Çətindir soodam dağıla.
Qiyməm[1] Eyvəz tək oğula,
Vermərəm Eyvəzi sənə!

Tamam o, donya yığılə,
Çətindir mənim soodam dağıla.
Qiymərəm ki[2] Eyvəz tək oğula.
Vermənəm Eyvəzi sənə.

Amma indi Əli qəssab dad be dad eliyir. Qoymam ki, sən aparay Eyvəzi. Vəli ərz eliyim Ərəb Reyhannan. Ərəb Reyhanın qiç-qol bağlı düşüb toprağ üsdünə. Hərdən işarə eliri beləsinə, deyir işşin olmasın. İşşiy olmasın, qoy götürsün getsin.

---

[1] Qıymaram
[2] Qıymaram

Əgər bu dudumanı dağılan Dəli Həsən çata, biçara həm məni öldürə, həmi səni. Da ondan sonra Eyvəz bizim nə dərdimizə dəyər? Hərdən əli ilə belə-belə eliri, qıçini tərpədir: “Ay Əli qəssab, dudumanı dağılsın, əgər danışay daha. Qoy götüsün gessin, bu dudumanı dağılan Dəli Həsən çatmasın”.

Əli qəssab qılış çalar,
Düşmannan qısasın alar.
Başı gedər, ləşi qalar,
Verməərəm Eyvəzi sənə!

Amma gidi Reyhan işarə eliyir:

– Əli qəssab, bir şey olmaz, qoy aparsın biləsini.

Hərdən işarə eliri qoş Koroğluya:

– Sən Allah, qoş Koroğlu, hərəkət ver atıya, qulaq asmaginan Əli qəssabın sözünə. Qoyma əlan o övi yıxılan Dəli Həsən çata.

– Cəlallı qoş Koroğlu, üz oldu gidiriy[1], amma sən narahat olmaginan.

– Əgər Həsən çata səni dəstgir görə, əslan sənnən işi olmaya. Əslan iş olmaz. Qulaq as, mən gərək Əli qəssabın cavabın diyəm.

Özü icazə verə ta. Bəs görək, Əli qəssab qulaq asa, cəlallı qoş Koroğlu beləsiçün cavab diyə. Biz də əlimizdən gələni ərz eliyək, tamam eşidənlərin səlamətdiginə:

Eyyy! Canım qəssab, gözüm qəssab,
Qoy aparım mən Eyvəzi!
Yerə salma sözüm, eyy qəssab,
Qoy aparım mən Eyvəzi!

---

[1] Gedirik

Canım qəssab, gözüm ayy qəssab,
Qoy aparım mən Eyvəzi!
Yerə salma sözüm, qəssab,
Qoy aparum mən Eyvəzi!

Əstağfurulla, əgər hər kəs səni partı olan ola, bilginən qoymam səni Eyvəzi aparan.

Eyyy! Eyvəzin qaradur ay qaşı,
Dəlilərin olar ayyy başı.
Tutma mənnən tərs savaşı,
Qoy aparım mən Eyvəzi!
Lay-layyy, qoy aparım mən Eyvazi!

Eyvəzin qaradur qaşu,
Dəlilərin olar başu.
Ay qəssab, tutma mənnən tərs savaşu,
Qoy aparum mən Eyvəzi!

Eyyy! Eyvəz deyib Nigar ağlar,
Sinəsini çəpraz dağlar.
Aparmasam, ey qara, vaay bağlar,
Qoy aparım mən Eyvəzi!
Lay-layy qoy aparım mən qardaşı!

Eyvəz deyib Nigar ağlar,
Sinəsini çəpraz dağlar.
Aparmasam, qara bağlar,
Qoy aparım mən Eyvəzi!

Qoş Koroğluyam, çaparam,
Gəlsə, eyy, qiyamat qoparam.

Ələc budu zornan aparam,
Qoy aparım mən Eyvəzi!
Lay-layyy, qoy aparım mən qardaşı!

Koroğluyam, mən çaparam,
Əgər qanşara gələr, bilginən daha qiyamat qoparram.
Bəs məcburam zornan aparam,
Qoy aparım mən Eyvəzi!

Ərz elədim Ərəb Reyhan işarə eliir Əli qəssaba:

–Əli Qəssab, qoy aparsın oğlanı, qorxmagınan. Oğlanı gedib gətirrik gənə sora.

Bəlkə bir cür eləyib, bu Dəli Həsən dudmanı dağılmış, çatıb məni burda görmüyə. Məni çatıb öldürər, balayı qeyrətiyə işiy olmasın, qoy aparsın biləsin.

Amma cəlallı qoş Koroğlu hərəkət verib getməgə, ta özünə hərəkət verə, qoşun töküldü Koroğlunun qanşarın kəsdi. Koroğlu Qıratınan dolanıbdu qoşunun içinnən, qoşun küçə açıb, cəlallı qoş Koroğlu geşdi. Ərz eliyim, geçənnən sora Xan Eyvəz deyiri:

– Ay cəlallı qoş Koroğlu, gərək daimi atını aparaydın, ancağ azad eliyydin.

Elə də bəlanisbət eşidənnərimiz (eşidənlərimizdən iraq) namərddik olar. Hələ o, durdu əyağa, atını minsin getsin. Biz bir kələk vurduk daycana. Ərz eliyim Nigar xanumnan. Nigar xanuma muştuluxçu gəldi:

– Nigar xanum, nə durmuşay? Cəlallı qoş Koroğlu Xan Eyvəzi gətiriri.

Nigar xanum çıxıp taların[1] üsdünnən baxdu gördü Xan Eyvəzi gətiriri, amma nə Xan Eyvəz gətirir! Nigar xanumun imanu qırğı imanuna döndü. Pərvərdigara, görəy Xan Eyvəz mənim balamdı gətirillə. Əmma alıb, dəlilərə dəsdur verir:

– Dəlilər, mənim Eyvəzimi pişvaz eləyin.

Görək nə cür Nigar xanum dəsdur verə dəlilərə, biz də əlimizdən gələni ərz eliyək təmam eşidənnərimizin sələmətdiginə:

At belinə qoş dəlilər,
Eyvəzi pişvaz eyləyin!
Bir-birinnən xoş dəlilər,
Balamı pişvaz eyləyin!

Eyvəzım bənzər larçına,
Tavuslar heyran saçına.
Verməræm Çinə, Maçına,
Eyvəzimi pişvaz eyləyin!

Amma dəlilər amadədilər, inşallah, Xan Eyvəzi pişvaz eləsinlər. Ərz eliyək təmam eşidənnərmizin salamatdiginə:

Yolun gözdər Çəmlibelim,
Xan Eyvəzə qurban olum.
Eyvəzdı ağzımda dilim,
Eyvəzi pişvaz eyləyin!

Amma dəlilər şuru oluplar. Quruh-quru[2], foç-foç[3] gedillə Xan Eyvəzi pişvaz eliyələr.

Qoç Koroğlu oxun qurup,
Sövüp, seçip tərlan vurup.

---

[1] Sarayın
[2] Qrup-qrup
[3] Dəstə-dəstə

Gör Qıratın üsdə nə cür durup,
Eyvəzi pişvaz eyləyin!
Balamu pişvaz eyləyin!

Amma ərz elədim dəlilərdən gedillər səf-səf Xan Eyvəzin pişvazına.

Dolag, eyyy, polat yarağa,
Atlanan getsin sorağa.
Quymaram gözdən irağa,
*(Balamı qoymam gözümnən irağa).*
Eyvəzimi pişvaz eyləyin!

Küllü-məxluqat yığılı[1],
Balacan, paylayın qəndi, noğulu.
Koroğlunun Qoç oğlunu,
Oğlunu pişvaz eyləyin!
Mənim balamı pişvaz eyləyin!

Ərz elədim, dəlilərdən gedillər, heyy Nigar xanum dəsdur verir yüz dənə, iki yüz dənə, beş yüz dənə, min dənə hey gedillə Xan Eyvəzin istiqbalına[2].

Qoç dəlilər qurun barat,
Barlayın məclis, toy-büsat.
Götürün libas, qilic, at,
Mənim balamı pişvaz eyləyin!

Eyvəz kimin olmaz sona,
Beli inçə, boyu mina.

---

[1] Yığılsın
[2] Qarşılamasına

Nigardur Eyvəza ana,
Balamı pişvaz eyləyin!

Baxdı gördü dəlilər gedillər, vəli bir neçə dənəsi getmir. Balacan, məgər bilmiriz sizinçün sərdar gəliri, gediyn hətmən peşvazına. Bədən[1] bu kəlməni diyə:

Xoş danışıb, şirin gülən,
Məclis aparmağın bilən.
Dəlilərimizə sərdar gələn,
Ay balalar, mənim oğlumu pişvaz eyləyin!

Sözdəri təmamə yetişip, təmam eşidənnərimizin, qulaq asannarımızın salamatdiginə. Bəs Xan Eyvəzi cəlallı qoş Koroğlu varid elədi Çartaxlı Çənlibelə. Amma gətiriplər toy-tamaşa düzəldillər. Dəstur verdilər təmam çirağannığ oldu. Rəvayət əz ustad[2], ya qırx gecə-gündüz, ya yeddi gecə-gündüz Koroğlu burda cəşn tutmuşdu.[3]

Amma ərz eliyim Aşıq Cünunnan.

– Aşıq Cünun, xob bala, bizim cəşnimiz zamanı əgər ossaol[4] bizimçün soobət eləginən.

Aşıq Cünun gəlip məclisə baxdu, mellətə baxdu lezzət apardu. Alıp cəlallı qoş Koroğlunu oosafınnan[5] görəh nə cür danışuru? Biz ərz eliyək təmam eşidənnərimizin sələmətdiginə:

Cəvannar ovlağı o Çənlibeldə,
Daşdan qala quran qoç Koroğludur!
Təmam paşalara meydan oxuyan,
Çox bağırlar yaran qoç Koroğludur!

[1] Sonra
[2] Ustaddan rəvayət
[3] Şənlik tutmuşdu
[4] Olsa
[5] Vəsfindən

Amma cəlallı qoş Koroğlunu yeddi min yeddi yüz yetmiş yeddi dənə dəlinin bərabərində Aşıq Cünun təşviq[1] ediri, belə desin ərz eliyim səlamətdigizə:

Qayada tor atıp, tərlanlar tutan,
Təmam yağuları bir-birə çatan,
*(Ya, düşmannaru qol-qola çatan).*
Ərəb at töşünə min pəhlivan qatan,
Qulaç qollar buran qoç Koroğludur!

Biz ərz eliyək, qoç Koroğlunun osafınnan qoç igiddərimizçin gecə-gündüz zəhmət çəkillər, bizim asayiştimizə xatır be ommidi pənc təni Ali-əba[2] olar inşallah, piruz olalar, təmam rəzməndəgan.

Dağı-daşı təmam duman bürüsə,
Qiliçlər pas tutup, qində çürüsə.
Misri, İstanbul, Şam təmam yerisə,
Tək qabaxda duran qoç Koroğludur!

Amma bu birisi kəlməni görək nə cür diyir, ərz eliyək qulaq asannarımızın səlamətdiginə:

Düşmanin üsdünü qoş tək aldıran,
Aslannar ağzınnan ovlar saldıran.
Hər həmlədə min pəhlivan öldürən,
Çox kühənnər[3] yoran qoç Koroğludur!

Amma bu birisi kəlməsini belə desin ərz eliyim səlamətdigizə:

Yanında əyləşip qaragözlü yar,
(*Yanında əyləşib xanımlar, hər nə var, hər nə qədər ki var).*
Xanımlar, dəlilər, mehtərlər də var.

---

[1] Alqış
[2] Əhli-beytin beş üzvü
[3] Köhlən at, yaxud dəvə

Aşıq Cünun da şoğə[1] gəlib oxuyar,
Şəhrilər[2] talıyan qoç Koroğludur!

Amma sözü təmama yetişdi, təmam eşidənnərimizin sə-lamətdiginə. Alıp görək cəlallı qoş Koroğlu Eyvəza baxdu, millətə baxdu, xanımlara baxdu, yeddi min yeddi yüz yetmiş yeddi dənə dəliyə baxdu. Alıp görək cəlallı qoş Koroğlunun xoşlux yeridi, nə cür danışir? Ərz eliyək, səlamətdigizə.

Motərəm eşidənnərimiz, əlbət də navarın o üzündə ərz elədim cəlallı qoş Koroğlunun söhbətini. Çün cəlallı qoş Koroğlu Aşıq Cününun söhbətinnən xoşu gəldi. Xanımlara baxuru, mehtərlərə baxuru, yeddi min yeddi yüz yetmiş yedi dənə dəli dorində[3]. Koroğlu baxdı gördü, vağiən Xan Eyvəzi də ki, gətiripdi bu gün xoşlux günüdür Koroğlunun. Səsdəndi:

– Aşıq Cünun, bala, mənim sazımı gətiri, mən də sizin kimi neçə dənə sobət eliyim.

Məni bəladan bəslədi,
Dağlar qoynunna, qoynunna.
Tülək-tərlannar səslədi,
Dağlar qoynunna, qoynunna.

Çün Xan Eyvəzi gətirəndə əz qəral[4] bu dağların içində dağlarnan çox sobət eliyip gəliplər, cəlallı qoş Koroğlunun yadına düşüp buları deyiri:

Dolanma igid yaşıma,
Yağılar çixi qarşıma.
*(Düşman çıxdı savaşıma).*

---
[1] Şövqə, həvəsə
[2] Şəhərlər
[3] Dövrəsində
[4] Guya

Dəlilər gəldi başıma[1],
Dağlar qoynunna, qoynunna.

Amma bu birisi kəliməsini ərz eliyim. Cəlallı qoş Koroğlu bilə deyiri, yeddi min yeddi yüz yetmiş yeddi dənə sərkərdə başında qulaq asırlar:

Kəsdim yollar, vurdum kərvan,
Çəkdim, soydum çox bazurgan.
Düşmannara utdurdum qan,
*(Paşalara utdurdum qan).*
Dağlar qoynunna, qoynunna.

Səfər eylədim hər yana,
Şahları gətirdim cana.
Qıratım gəldi cövlana,
Dağlar qoynunna, qoynunna.

Qoç Koroğlu gəldi dilə,
Əsir çekdim Çənlibelə.
Xan Eyvəz mənimlən belə,
Dağlar qoynunna, qoynunna.

[1] Yığıldı başıma

# KOROĞLUNUN MEHTƏR, YAXUD BOLU QOLU

*Əziz ellərimizə salam ərz edirəm. Ümidvaram ellərimiz hər yerdə, hər nöqtədə olsa, bu navarları gördükcə, eşitdikcə, şad olsunlar.*

*Bu dastanı ki, ərz eyləyəcəyəm, ustadıdır. Sinəbəsinə*[1] *gəlib, biz də bunu bir yerdən, yəni mütaliə eyləyib, oxuyub, əzbərləməmişik. Ustadın sinəsindən nə cür gəlib, onu eşitmişik, sizin üçün söyləyəcəyik. Koroğlunun doqquz qolunu bu Urumiyədə bilərik. Bakıda, o üzdə bu üzdə, çox artırıblar, eyləyiblər 17-18 qol. Onlar cəmavəri eyləyiblər yığıblar o üzdən bu üzdən, bir dastanlar düzəldiblər, amma əsli dastan odur ki, kitaba getməyib, biri də ki, budur. Ustadı bir söhbətdir, ərz eyləyəcəyəm, buna deyərik Koroğlunun Mehtər qolu. Bəzən Bolu qolu da deyərlər. Aşıq Əli Qərəağacıyam mən. Aşıq Əli Kərimi Qərəağacı ki, Urumiyədə sakinəm. Öz qəhvəxanam var burada, ellər yığışar buraya, aşıqdan istifadə eyləyərlər. Aşıq da el üçün çalar, oxuyar, dastan, hekayət, ədəbiyyatdan danışar. Mən də bu dastanı ki, Koroğludan ərz eyləyirəm, Koroğlunun Bolu qoludur və Mehtər qolu da deyərik. Amma dastanımız ilə bu cür gedək.*

O cür ki, qədim qələçeyi[2] Çənlibeldə Koroğlu var idi. Bəzən ustadlar deyərlər, yeddi min yeddi yüz yetmiş yeddi oğlan, bəzən deyərlər yeddi yüz yetmiş yeddi. Biz indi hansını qəbul

---

[1] Sinədən sinəyə

[2] Kiçik qala

eyləsək, onu eyləyək. Amma o oğlanlar Koroğlunun dövrəsində idi. Qırx günə dörd gün, dörd günə bir gün bunlar cəşni[1] tutardılar: yeyərdilər, içərdilər, gülərdilər, danışardılar, oxuyardılar, şadlıq eyləyərdilər. O yerdə ki, paşalardan bac alırdılar, piruz[2] olurdular, orada şadlıq eyləyəcək idilər. Bunların bir Aşıq Cünunları var idi. Çənlibel aşığı idi, aşıq Cünun. Aşıq Cünun duracaq idi bir azca çala-oxuya məclisə, elləri şad eyləyə, irşad eyləyə[3] və xoşhal[4] eyləyə. Bu bərnamədə ki, qonaqlıq idi, tamam əyləşiblər. Burada Koroğlu gördü bu cəşnimiz bir böyük cəşndir, mən nə yaxşıdır öz oğlum Eyvazı burada saqi təyin eyləyim. İndi gülabdan, şərbətdən hər nə gətirdi, müntaha Eyvaz gətirdi.

Dəli Mehtər qapının astanasında oturmuşdu. Silsiləyi-məratib[5] əyləşmişdilər Koroğlunun yanında oğlanlar. Bir camda, ya məcməyidə, öz dilimiz deyək ki, gilasları, livanları[6] qoymuşdu gətirirdi, əlin atırdı, Dəli Mehtər bir dənə içirdi. Üç seri[7] bu əməli əncam verəndə Ağayi Eyvaz Xan dedi:

– Ay Dəli Mehtər!

Dedi:

– Bəli.

Dedi:

–Ağa Mehtər, axı səndən sonra orada da vardır. İcazə ver, mən aparım üstdən qəndabı, şərbəti dağıda-dağıda gətirim, sənə yetişəndə sən də götür!

Deyərlər, Dəli Mehtər halı xoş idi, çox içmişdi şərbətdən

---

[1] Şənlik
[2] Uğur qazanırdılar, düşmənləri məğlub edərdilər
[3] Bir formul olaraq aşıqların istifadə elədiyi sözlər
[4] Şad, şən
[5] Böyükdən kiçiyə, yəni, hər kəs özünə layiq yerdə əyləşmişdi.
[6] Stəkan, bardaq
[7] Dönəm, dəfə

zaddan, bu saymadı. O da məhək daşıdır. Kişinin ağır-sənginliyin bəlləndirər[1]. Gördü bu Mehtər qatıb. Dedi:

– Ağa, mənə bax görüm! Sənə nə var? Sənə nə mərbutdur? Öz ağamın xərci ilə, öz ağamın yeməyi ilə, içməyi ilə, pulu ilə, bu təşkilat[2] cürlənib. Cəşndir, mən içəcəyəm.

Birini o dedi, birini bu dedi. Eyvaza əl dalı bir sillə atdı[3]. Əl dalı sillə atanda bu cəşndə Koroğlu gördü. Belə baxanda gördü orada bir qatışıq oldu. Gördü elə bil Dəli Mehtər Eyvaza bir sillə atdı. Böyük adamın güzəşti[4] olar, böyük adam məclisdə bir söz deməz. Amma Eyvaz ki, orada xarab oldu, Koroğlu bunu saxladı ürəyində. Dedi:

– Bəs mənim məclisimdə Dəli Mehtər əl o yerə yetirib ki, mənim oğlum Eyvazı vursun? Bir dənə Mehtər!

Bu cəşn qurtuldu şadlıq ilə. İki gün, üç gün bunun üstündən keçəndən sonra Koroğlu bəhanə axtarırdı. Çün məclisdə bir söz deyə bilmədi.

Dustani-əziz[5]! İndi bir məclisdir... Toy məclisidir, cəşndir, orada bir narahatlıq düşsə da[6] orada dilxoşluq olmaz, təzəşdən[7] olmaz.

Koroğlu bunu saxladı, iki-üç gündən sonra varid oldu[8] istəblə[9]. İstəblə ki, varid oldu, belə dolanırdı, bəhanə axtarırdı. Dəli Mehtər də bunun dalısınca. Atlara baxırdı Koroğlu, belə cibindən bir ağ dəsmal çıxartdı, belə çəkdi atın üstünə, Qıratın

---

[1] Bəlli edər
[2] Burada qonaqlıq nəzərdə tutulur
[3] Əlinin arxası (tərs üzü) ilə bir şillə vurdu.
[4] Bağışlamaq
[5] Əziz yoldaşlar
[6] Daha
[7] Təzədən.
[8] Daxil oldu
[9] Tövlə

üstünə bir zərrə ləkə düşdü bu ağ dəsmala. Nə cür olsa ağ dəsmala bir zərrə ləkə düşər da!

Dedi:

– Mehtər!

Mehtər dedi:

– Bəli!

Dedi:

– Mehtər sənin hüququnu[1] vermirəm? Sənə zor deyirəm? Sənə çörək-paltar vermirəm? Səni evləndirməmişəm? İlləti[2] nədir ki, mənim atımı belə çirkli saxlayıbsan? Kifir[3] saxlayıbsan? Nəyə belə edibsən? Nəyə yetişmirsən?

– Ağa, vallah, mən yetişmişəm.

Dedi:

–Budur bax, dəsmal nədən belə çirkli oldu?

Elə bunu deyəndə Dəli Mehtərin qulağının dibindən Koroğlu bir sillə. Amma iki sillə də vurdu. Dəli Mehtər üç-dörd metr getdi dalı. Əlini qoydu buənginə. Gördü sən ölməyəsən, birini də vursa əngi yerindən oynayacaq.

– Ağa Koroğlu, bağışla, bilməmişəm, yadımdan çıxıb.

Dedi:

– Yox, bir də huşun başında olsun, atlara qəşəng[4] yetiş! Bu cür at saxlamazlar.

Burada idi biyol[5] Dəli Mehtər küdurət[6] saxladı.

---

[1] Maaş, aylıq pul

[2] Nədən

[3] Çirkli

[4] Yaxşı

[5] Bu yol (Aşığın danışığında dəfələrlə təkrar olan bu deyim danışıq dilində çox yayğın olaraq fərqli mənalar daşıya bilir. Ancaq burada sözü gedən hadisəni indiki zamanda canlandırmaq və dinləyicinin baş verənlərə diqqətini cəmləmək məqsədi daşıyır)

[6] Kin, ədavət, nifrət

Dedi:

– Mənə bax görüm!

Öz-özünə fikir eyləyirdi. Gecənin bir zamanı idi. Koroğlu getdi yerinə. Dəli Mehtər yata bilmirdi. Mehtər öz-özünə dedi: "Mən qanım, ömrüm, bədənim, hər bir şeyim Koroğlunun yolunda qurtulub. Bu qapıda qocalmışam. Deməli, mənim bir dənə atca ərzişim[1] yox idi?! Məni bir dənə atdan ötür Koroğlu belə vurdu. Bu dərdi mən qiyamətə saxlaya bilməm! Neyləyim? Neyləməyim?!". Şeytan bunu aldatdı, dedi, bunun götür Qıratın apar! Qıratın Koroğlu aparsan, Koroğlu Koroğluluqdan düşər. Koroğlunun Koroğluluğu Qıratilədir. Hara aparım? Öz-özünə dedi: "Aparım Ərəb Eyvazgilə. Eyvazın dayıları olur və Nigarın qardaşları". Dedi, onlar təəssüb çəkərlər, gətirib verərlər qapısına, aparım paşalara: olmaz! Özümü də öldürərlər. Biləxərə[2] Koroğlunun Mehtəriyəm. Neylim? Neyləməyim? Dedi, aparım Tərcanda[3] Mustafa bəyin yanına.

Mustafa bəy ilə də Koroğlu torpaq düşməni idilər, nə namus düşməni. Koroğlu deyirdi ağa, buradan məsələn bir mərz[4] çəkmişdilər deyirdi, buradan belə mənim, o, da deyirdi yox, buradan belə mənim. Bunlar torpaq düşməni idilər.

İndi biyol Koroğlu yatıbdır. Dəli Mehtər gecənin bir zamanı idi, varid oldu istəblə. Qıratın qıçlarının altına keçə[5] bağladı ki, çıxanda bilinməsin, səs eyləməsin və bir də belə yol getsin, Qıratın izi ilə bunlar gəlib tapa bilməsin, çıxan görsün. Ağa, bilmirik hara gedib! Bu bir dənə əcnəbi bir şeydir, bu bir

---

[1] Dəyər

[2] Nəhayət (Nə qədər deyəndən sonra)

[3] Türkiyədə şəhər adı

[4] Sərhəd

[5] Yunu döyüb basmaqla hazırlanan sıx qalın material

dənə, bizdən yeylər[1] bu yolu gedib, bu nəmənədir ki, tapanmayalar. Səssiz-sədasız, qıçları səs eyləməyə deyə, keçəni bağladı qıçlarının altına. Koroğlunun silahlarını, vəsayilini[2], par-paltarını götürüb, Dəli Mehtər gecənin bir zamanı Çənlibeldən çıxdı, istəbldən. Yol gedir. Dedi, sən ölməyəsən aparacağam Tərcanda Mustafa Bəyə. Bu getməkdə olsun, bir zaman idi Koroğlu yuxu gördü. Koroğlunun üç dənə xisləti[3] var idi. O zaman o paşalardan, o pəhləvanlardan, o bilicilərdən çox idi. Biri bunun Qıratı idi. Bu Qırata heç at yetişməzdi. Çün cins deyildi, dəryadan tutmuş bir at idi, sərbalada[4] nə cür idi, sərazíridə[5] də o cür idi; eniş-yoxuşda nə cür idi, o cür idi, quruluqda nə cür idi, o cür idi, şoxumluqda[6] nə cür getsəydi tıkanlıqda o cür gedərdi. Bunun qüdrətinə fərq eyləməzdi. Biri də yuxusu idi. Gecə yuxuda nə cür görsəydi sabah düz olardı. Üç, bir də bunun hər kəsə gücü çatmasaydı, bunun səsinin mövcü var idi. Nərə çəksəydi, on beş metrliyində hər kəs olsaydı yıxılardı. Bu üç dənə xislət Koroğluda var idi. Allah vergisi idi. Koroğlu bir zaman idi yuxu gördü. Gördü sən ölməyəsən, istəbldən elə bil Qırat gedib. Yuxudan durdu, yavaş-yavaş özünü verdi istəblə sari, varid oldu istəblə. Həmişə, istəblə varid olanda Qırat kişnəyərdi. Bu seri gördü Qıratdan xəbər yoxdur, kişnəmədi. Yeridi qabağa, gördü Qırat yoxdur. İndi biyol Dürat tək qalıb. Ay dadi-bidad[7]! Kim aparıb, kim aparmayıb?

---

[1] Cin və pəri kimi adi insan gözünə görünməyən varlıqlar
[2] Vəsait
[3] Xasiyyət, xarakter
[4] Üzü yuxarı yol
[5] Üzü aşağı yol
[6] Şumlanmış yerdə yerimək çətindir. Məsəl var deyir, düz yerdə yeriyə bilmir, şoxumda şıllaq atır!
[7] Ay aman

Belə baxanda gördü Dəli Mehtərin libasları[1] orada istəbldə, amma Ağa Koroğlunun libasları orada deyil. İndi Koroğlunun əslihəsindən[2], aşırmasından[3], bağlayıb bədəninə, götürüb buradan çıxıb. Bildi bərnamə nəmənədir[4]: mən Mehtərə bir sillə vurdum, bu küdurəti mən ilə bağladı. Koroğlu fikirdə idi ki, gecəni yatanmayıb. Az qalırdı sübh olsun. Belə, Koroğlu orada qalsın, amma kim ilə gedək? Dəli Mehtər ilə.

Gecənin bir zamanı idi. Mustafa Bəyin canına bir qorxu düşdü ki, gəl görəsən! Bu titrəyəndə, yuxudan diskindi, ayındı. Səsləndi:

– Balalar, kim var?!

Dövrəsini aldılar, dedilər:

– Bəli, Ağa Mustafa bəy, nə olub?

Dedi:

– Bala! Koroğlunun Qıratı dırnağın qoyub mənim torpağıma. Çıxın gəzin görün, mənim bədənim gizildədi.

Çıxdılar eşiyə, bir dolandılar, gəldilər, dedilər:

– Ağa, biz bir şey görmədik. Lap arxayın yat!

Mustafa bəy burada istəyir yatsın. Düz də elə yuxu görmüşdü Mustafa bəy. Demə, Qırat gəlib qıçın qoyub bunun torpağına, Mustafa bəyin də yuxusu düz imiş. Dəli Mehtər vaxtında yetişər qapıya. Böyük adamın qapısı açıq olar. Dustan[5]! Nəinki yel aça, yel örtə haa! Qapı açıq olar: bunun qapısına dilənçi gələr, bunun qapısına yoxsul gələr, bunun qapısına böyük adam

---

[1] Paltar
[2] Əsləhə, silah, yaraq
[3] Fişəng qatarı
[4] Danışıq dilində köhnəlmiş söz. “Nə?”, “necə?” mənalarında sual əvəzliyi.
[5] Dostlar, yoldaşlar

gələr, bunun qapısına dövlət adamı gələr, bu gəldi ki, hamısından pəziralıq[1] eləyirlər. Belə qapının rəzəsi[2] var idi. At üstdən Mehtər qapını belə *(Aşıq əlindəki sazı silkələmək ilə qapının rəzəsinin səsini çıxardır)* çaldı. Çalanda çıxdılar qapıya:

– Salam!

– Əleykəs salam.

– Ağa, kimsən?

Dedi:

– Açın qapını.

Dedi:

– Qapı açıqdır!

Dedi:

– Mənzur icazə verin, gəlim içəri.

Dedi:

– Buyurun!

Bir az ki, bu Dəli Mehtər getdi qabağa, at da yanında, mehtərlər bir belə baxdılar, gördülər bunun atı, libası, təşkilatı... Dedilər, görəsən bu kimdir?!

Qaçdılar Mustafa bəyə xəbər verdilər:

– Ağa Mustafa bəy!

– Bəli!

– Bir dənə qonağımız gəlib.

Dedi:

– Qonağımız gəlib? Balalar, açın yer verin atına və özünə. İndi gecədir, mən sübh duraram danışarıq.

Dəli Mehtərin özünü apardılar, atını, Qıratı da apardılar bağladılar Alapaçanın yanına. Alapaça da Mustafa bəyin atı idi. Bunlar adlı-sanlı bir at idilər. Bunu bağladılar onun yanına.

---

[1] Qonağa qulluq etmək

[2] Taxta qapılar üstündə kiçik dəmir, çəftə. Zəng yerinə işlədilirdi. Dəmiri çalınca, evin içindən eşidib gələrdilər.

İndi bu qonağı gətirdilər. Dəli Mehtəri yedirdib-içirdirlər.

– Ağa, adın nəmənədir?

Dedi:

– Mən mehtərəm.

– Kimin mehtərisən?

Dedi:

–Mən Dəli Mehtərəm daa. Adıma deyərlər Dəli Mehtər.

Mehtərlərin ikisi saldı-çıxdı[1] (öz-özlərinə) dedilər: "biz də mehtərik, bu da mehtərdir! Bunun atına bax, libaslarına bax, geyiminə bax, bizə bax!" Dedi:

– Hara mehtərisən?!

Dedi:

– Koroğlunun mehtəriyəm.

Dedi:

– Nə yaxşı belə?[2]

Dedi:

– Deyərəm sonra cərəyan nəmənədir.

Dəli Mehtər burada cərəyanı demədi. Mehtər burada sakin olub, istirahət eyləyirdi. Az qaldı sübhə, gördülər istəbldən bir səs gəlir *(Aşıq ayaqlarını şiddətlə yerə çalır*) xırıltı səsi, kişnəmək səsi, şaqqaşaq səsi. Mehtərlər özünü yetirdi istəblə. Belə baxdılar, gördülər nə cür Qırat qalxır qabaq qıçları ilə elə vurur, atların bir-ikisi ölüb, amma Alapaçanı yaralayıb, dəmbədəmədir[3] Alapaçanı öldürsün. Qaçdılar xəbər verdilər:

– Ağa Mustafa bəy! Ağa Mustafa bəy!

–Bəli

Dedilər:

– Ağa Mustafa bəy, o qonağın atı bizim atları öldürür.

---

[1] Düşünmək, hesablamaq

[2] Niyə buradasan? Burada nə iş görürsən?

[3] Az qalır

Mustafa bəy bir saldı-çıxdı, dedi:

– Qonağı götürüb gətirin bura.

Öz-özünə: “Elə bir at yoxdur mənim atıma çata, hətmən bir iş var burada”. Dəli Mehtəri çağırdı. Əl döşündə Mehtər ehtiram edib:

– Salam!

– Əleykəs salam!

Mustafa bəy dedi:

– Qaç o atını qoyma Alapaçanı vursun!

Gedib gətirib Alapaçanın yanından ayırıb, gətirib bu üzdə Qıratı bağladı. Qayıtdı Mustafa bəyin yanına. Mustafa bəy dedi:

– Bura bax görüm!

Dedi:

– Bəli.

Dedi:

– Sən kimsən?

Dedi:

– Mən qurban, Dəli Mehtərəm.

Mustafa bəy dedi:

– Dəli Mehtər Koroğlunundur?

Dedi:

– Bəli. Mən Koroğlunun yanından gəlmişəm.

– At kimindir?

– Koroğlunun atıdır.

Öz-özünə: “Viy [1] ! Koroğlu ilə mən düşmənik axı. Mehtəri, atı burada nəmənə eyləyir?”

– Düzünü de görüm!

Mehtər dedi:

---

[1] Vay, aman

– Mən sənə pənah gətirdim[1]! Düzünü deyim?

Dedi:

– Hən, sözün düzünü degilən.

Mehtərlər də baxır, deyir kaş biz də Koroğlunun mehtəri olaydıq! Bax bunun geyiminə, libaslarına, təşkilatına, silahlarına bax! Demə Koroğlununkudur.

Dedi:

– Ağa, Koroğlu ilə mənim sözüm çəp gəldi[2]. O mənə bir sillə vurdu. Mən bunu yadımda saxladım. Varid olmuşdu bir gün istəblə, gedirdi, mən də bunun dalısınca gedirdim. Əlimi atdım kürəyə *(Sazı kürək yerinə qovzayır)*. Koroğlu gedəndə daldan təpəsindən bir dənə qoydum, Koroğlu yıxıldı yerə. Yıxılandan sonra gördüm öldü. Dedim neyləyim, neyləməyim? Bunu gətirim, bu atın ləyaqəti var ağa Mustafa bəy, sizə!

Mustafa Bəy bir saldı-çıxdı, dedi:

– Düz deyirsən Mehtər?

Dedi:

– Bəli, düz deyirəm.

– Oğul! Kürək gətir. Kürəkləri gətirin bura!

Kürəkləri gətirdilər. Dedi:

– Koroğluya bir dənə vurubsan ölüb, mənə qırx dənə vuracaqsan! Əgər mən ölsəm, elə Koroğlu da bir dənədə ölər.

– Ağa Mustafa bəy, cəsarətdir, bu nə fərmayişdir[3]?

– Danışma! Neçə ildir sənin iliyin, sümüyün, qanın Koroğlu ilə pərvəriş tapıb[4], Koroğlu yetişib sənə, indi sən Koroğlunu vurubsan. Onu vurdun, amma mən düşmənə cəsarətdir, bu ola bilməz ki…. Tapdayın mehtərlər!

---

[1] Sənə sığındım

[2] Suyumuz bir arxa getmədi, savaşdıq

[3] Bu nə sözdür? Buyuruq, söz

[4] Bəslənib

Mehtərlər bir-ikisi buna gəldi[1]. Gördü Koroğlu öldürmədi, bunlar öldürəcək məni. Dedi:

– Ağa Mustafa bəy, öldürməyin, mən düzünü deyim.

Dedi:

– De!

Dedi:

– Ağa Mustafa bəy, düzü budur, belə oldu cərəyan. Məni vurdu. Mən kinə saxladım. Atını, dedim, götürüb aparım verim Mustafa bəyə. Mustafa bəy ilə Koroğlu düşməndir. Koroğlunu Koroğluluqdan salım, daha bir də koroğluluq eyləməsin bu məntəqədə[2], bu dövrədə. Qurban, gətirmişəm atı sənə.

– Keç əyləş, bilirdim yalan danışırsan. Əyləş, da qıçların ağrıyar. Keç əyləş!

İndi biyol sübh olub, sübhanə gətirdilər. Dəli Mehtər ilə Mustafa bəy yeyib. Dedi:

– Mehtər.

Dedi:

– Bəli?

Dedi:

– Mehtər, səni aparacağam Koroğluya təhvil verəm.

Dedi:

– Qurban, məni?

Dedi:

– Bəli.

Dedi:

– Mən sənə pənah gətirmişəm!

Dedi:

– Olmaz!

---

[1] Bir-iki zərbə vurdular

[2] Bölgə

Qədimdən deyərlər, Allah adamın düşmənin də anlayan eyləsin! Dedi:

– Oğul, düzdür onunla mən düşmənik, amma o kişidir. Sən atı gətiribsən bura, o, Koroğluluqdan düşər. Paşalar, xotkarlar[1] hamısı gələrlər ondan bac alarlar. O qurtuldu, gələrlər mənim başıma, məndən bac alarlar. Mən də hökumət eyləyə bilməm. Düzdür, onunla mən düşmənik, amma düşmənçiliyin də bir həqqü hesabı[2] vardır.

Dedi:

– Bəs istəyirsən nə eyləyəsən Ağa Mustafa bəy?

Dedi:

– Səni aparacağam təhvil verəm Ağa Koroğluya.

Dedi:

– O onda məni öldürər!

Dedi:

– Öldürməz.

Dedi:

– Vallah, məni öldürər. Mənim günahımdan keçməz.

Dedi:

– Böyük adamın güzəşti çox olar, güzəşt eyləyər.

Dedi:

– Axı o güzəşt etdi, Həsən ötürməyəcək. Həsən məni öldürər.

Dedi:

– O bağışlasa, fərmandeh[3] bağışlasa, o birsi də bağışlayar, zirdəst[4].

Dedi:

[1] Hökmdar, başçı
[2] Hesab-kitab
[3] Başçı, komandan
[4] Birinin əlinin altında işləyən

– Ağa Mustafa bəy deyirsən daa, amma mənim ayaqlarım getmir.

Dedi:

– O sözlərə gəlməz.

Dəstur verdi Alapaça ilə Qıratı çıxartsınlar eşiyə. Dedi:

– Mənə bax, Mehtər!

Dedi:

– Bəli, qurban!

Dedi:

– Birdən mənim əlimdən, yolda qurtulub qaçarsan, Koroğlunun ölümü nisyə[1] olsaydı, məninki nəqddir[2], haa! Daldan, nə cür oxu qoymuşam çilləyi kamana[3], çəksəm vurmuşam daldan kürəyinə, ürəyinin başına. Huşunu yığ başına. Qaça bilməzsən.

Buna da kifayət eyləmədi Mustafa bəy. Öz-özünə dedi: "Alapaça Qırata yetişməz, birdən qaçdı qaçdı daa[4]". Özünü (Mehtəri) bağladı (özünün) bədəninə. Atını da bağladı atına. İkisini də bağladı, dedi:

– Bu sistem aparacağam[5].

Dəli Mehtər gördü əlacı yoxdur, aparacaq. İndi bunlar yol gəlməkdən olsun, sizə xəbər verim, haradan? *(Sazı qovzayır)* İstanbuldan! İstanbulda cələsə[6] qurmuşdular, xanlar, paşalar, bəylər, xotkarlar. Bu cələsə bu cür idi ki, paşam sağ olsun, bir dənə Koroğlu törüyüb[7], Koroğlu çıxıb Çənlibeldə. Keçən

---

[1] Bir şeyin nağd pul olmadan alınması və ya satılması. Məcazi mənada boş, əsassız, həyata keçə bilməyən, qeyri-real.

[2] Nağd, hazır

[3] Yayın çilləsinə

[4] Qaçması imkansız deyil

[5] Bu şəkildə aparacağam

[6] Oturum, yığıncaq

[7] Törənib, baş qaldırıb

taciri, keçən bəzirganı, keçən paşanı orada vurur, əziyyət eyləyir, öldürür, talayır, aparır.

Koroğlu da, dustan, quldur deyildi. Koroğlu bir zülmsitiz[1] bir şəxsiyyət idi. Zülm ilə mübarizə eyləyirdi. Tərəfdari zəif idi[2]. Qəvinin qüdrətinin qabağında dayanırdı. Həqqü hüququn istəyirdi alsın.

Bu məclisdə, bu danışıqda, bu oldu ki, bir nəfər gedə, qoşun çəkib gedə Koroğlunun başını gətirə, ya qolu bağlı gətirə. Heç kəsdən səs çıxmadı. Burada Bolu qalxdı ayaq üstünə. Dedi:

– Mən gedib gətirərəm. Ya başın, ya qolu bağlı gətirərəm.

Camaat biri-birinə baxdı. Bolu dedi:

– Paşam sağ olsun, gedib gətirənin, onun ənamı, müjdəsi nəmənədir?

Dedi:

– Qızım Dona Xatın var. Qızım Dona Xatını verərəm ona. Bir dənə də bir vəzirlik verərəm.

–Paşam sağ olsun, bunu dərbara[3] məktub eylə. Yazın kağıza. Dərbar möhür vursun, imzalasın, mən qoyum cibimə, gedim Koroğlunu gətirim.

Dərbarda götürdülər yazdılar ki, Bolu gedib Koroğlunun başın kəsib gətirsə, ya qolubağlı gətirsə, Paşa qızı Dona Xatını verə buna, bir də bir vəzirlik verə buna. Yazıblar, imzalayıblar. Bolu bunu alıb qoydu cibinə. Gecəni yatıblar, sübh durublar, dəstur verib Bolu, altı min qoşun özü ilə amadə olsun. Bolu altı min qoşun ilə İstanbuldan çıxır. Bunlar gəlsinlər. Bunlar gələrlər. Az qalan Çənlibelə, dəstur verər Bolu çadırlar qurulsun:

– Bir neçə gün burada istirahət eyləyək, sazmandehi

[1] Zülmə qarşı
[2] Zəiflərin yanında idi
[3] Saray

eyləyək[1], danışaq ki, nə cür, haradan, hansı nöqtədən biz varid olacağıq Çənlibelə.

Bunlar nəqşə çəkirlər[2]. Çadırlar quruldu. İndi onlar orada olsunlar, istirahətdə.

Kim ilə gedək? Dəli Mehtər ilə Mustafa Bəy. Mustafa bəy... İndi müddət çəkər, yol çəkər Mustafa Bəy ilə gəlirlər. Xəbər verim sizə kimdən? Koroğludan. Koroğlu yatmışdı. Gecənin bir zamanı idi, bir nərə çəkdi. Nərə çəkəndə oğlanlar bunun dövrəsini aldılar. Dedilər:

– Vaveyla[3], yenə bu sübh tezdən, bu kişi əzan verir, görəsən nə olub?

Neçəsi oğlanların dövrəsini aldı. Alanda Koroğlu baxdı gördü, oğlanlar gəldi. Dedi:

–Balalar! Qulaq verin, görün Koroğluya nələr olubdur, nə işlər olubdur Çənlibeldə. Hamız yatıbsız, heç bilmirsiz nələr olubdur. Üzünü tutub oğlanlara, Nigar da başının üstündə:

– Ay Koroğlu, nə olub?

Dedi:

– Nigar, qulaq ver. Daha bundan artıq olmaz!

Koroğlu bu sözləri oxuyur ki, mən ərz eyləyirəm, tamam görənlər, eşidənlər sağlığına! “Möhtərəm” havası oxuyuram. “Möhtərəmi” ilə...

Oyan, dur yuxudan Eyvazı Ballı!
Görün mən dəliyə nələr olubdur?
Başımız olacaqdır qovğalı, qallı,
Axı saralıban gül rəngim solubdur!

– Ağa Koroğlu, bu nə sözdür? Nəyə sənin rəngin saralır-solur?

---

[1] Düzənləyək, hazırlaşaq
[2] Plan qurmaq
[3] Aman-aman

Koroğlu belə baxdı, gördü oğlanlardan var, amma Halaypozan yoxdur. Halaypozan da bir az çətin yuxudan durardı. Bala, Halaypozan da fərmandehlərindən biri idi. Koroğlunun yeddi dənə fərmandehi ləşkəri[1] var idi. Onlardan biri də Halaypozan idi.

– Bala, Halaypozanı da çağırın!

Dübarə:

Sübh tezdən durub verərəm əzan,
Bu cövrü cəfaya dayanan dözən.
Oyan, dur yuxudan, ey Halaypozan!
Görsün mən dəliyə nələr olubdur.

– Ağa Koroğlu! Biz varıq xidmətində.

Dedi:

– Halaypozanı oyadın gəlsin!

Koroğlunun yenə tutub inadı,
Gədazadənin[2] heç olmaz əslü, zatı.
Dəli Mehtər aparıbdır Qıratı,
Qırat gedib, mənə Dürat qalıbdır, balalar!

– Haqqım var səhəri havar[3] elyləyəm, ya yox?

– Ağa Koroğlu, bu nə fərmayişdir?

Dedi:

– Buyurun baxın!

Oğlanlardan bir iddəsi[4] getdilər istəblə, belə baxanda gördülər düz deyir, Dürat buradadır, amma Qırat gedibdir.

– Ağa, dəstur ver! Dəstur ver yerdə olsa tapaq gətirək.

– Balalar, görün neyləyəsiz daa.

---

[1] Dəstə başçısı

[2] Farscada "gəda" dilənçi anlamında olub, aşıq ədəbiyyatında isə əskik, alçaq adama deyilir.

[3] Qışqır-bağır

[4] Bir qrup

İndi oğlanların bir neçəsi atların miniblər. Atlandılar, dövrə-bəri axtarırlar. Hər yerə güman edirlər, oranı gəzirlər. Amma Mustafa bəyi bilmirlər ki… Aparacaq Mustafa bəyə. Burada idi Nigar, başının üstünü aldı:

– Ay Koroğlu, narahat olma! Oğlanlar silahlandılar, atlandılar, gedəcəklər tapıb gətirəcəklər. Narahat olma!

Koroğluya dildarlıq verirdi öz xanımı Nigar. İndi bunlar bu vəzdə qalsınlar. Üç gün çəkdi. Mustafa bəy ilə Dəli Mehtər yetişələr Çənlibelə. Bu üç gündə Koroğlu nə yeyir, nə içir, nə danışır, nə gülür. Kişinin dilxoşluğu xanımdır. Evdə xanımıdır. Belə Koroğlunun başının üstünü aldı, əlində məcməyidə xurdü xürək[1] gətirmişdi:

– Ağa Koroğlu, sən bu xurdü xürəkdən yegilən. Nəyə danışmırsan? Nəyə dinmirsən?

Dedi:

– Nigar, axı da mən Koroğluluq eyləyə bilməm bundan bu yana.

–Nəyə?

Dedi:

– Qırat əlimdən getdi.

Dedi:

– Baba! Oğlanlar tapıb gətirər. Sənin atını bir nəfər saxlaya bilməz.

Koroğlu bir saldı-çıxdı. Nigar istədi Koroğlunu güldürsün, danışdırsın:

– Ağa Koroğlu, sübhanə gətirmişəm. Kişi, bir dənə atdan ötür belə sən edirsən? Mən sənin igidliyinə, mən sənin pəhləvanlığına, mən sənin şücaətinə, mən sənin qeyrətinə, bir paşa qızı idim, oradan gəldim, sən ilə qaçdım, gəldim sənə xanım

[1] Yemək

oldum. Adın-sanın hər mahalda deyilir, sənin atını heç kəs saxlaya bilməz. İndi sən bir dənə atdan ötür üç gündür nə yeyirsən, nə içirsən, nə danışırsan, nə gülürsən, nə dinirsən. Hayıf olaydı, ağa Koroğlu. Hayıf olaydı.

Hayıf olanda bu məcburdur dinə[1]. Dedi:

– Hayıf nəmənədir?

Nigar belə döndü, belə yanqıcı baxdı Koroğluya, dedi:

– Hayıf olaydı, yaxşı pəhləvansan, yaxşı igidsən, yaxşı şücaətli insansan, hayıf.

Dedi:

– Baba, hayıf nəmənədir?

Dedi:

– Ay Koroğlu, hayıf. Belə vallah utanıram Koroğlu deyim, haa! Müqqəyyəd oluram.

Dedi:

– Nigar, de!

Nigar bunu danışdırır.

–Nigar de!

Dedi:

– Ağa Koroğlu, acıqlanmazsan ki?

Dedi:

– Yox, Nigar, de. Sən öləsən, dinmərəm!

Dedi:

– Nigar, sən öləsən, sənin canın üçün dinmərəm.

Nigarı da Koroğlu çox istəyir. Dedi:

– Ağa Koroğlu, yaxşı igidsən, yaxşı cavansan, ancaq bir xırda[2] qarasan!

Qara deyəndə Koroğlu bir az pörtdü, narahat oldu. Dedi:

---

[1] Danışmağa məcburdur

[2] Bir az, balaca

– Səhərdən deməli məni belə sarıyıbsan! Belə şilədir-şorbadır, belədir-elədir, məni çıxardısan yeddinci ərşə. İndi mən qarayam bəs? Qara oldum?

– Ağa Koroğlu, özün dedin narahat olmayacaqsan daa.

Dedi:

– Nigar, sazı ver mənə!

Bir cürə sazı varı idi. Beş tel sazı aldı əlinə. Dedi:

Mənə qara deyən gözəl,
Qaşların qara deyilmi?
Lap tökübsən dal gərdənə,
Saçların qara deyilmi?

– Nigar, bəs qara pis olsaydı, bəs qaş-gözün sənin nəyə qaradır? Elə bil on dörd gecəlik aydır. Zülfləri də tökübsən o üz-bu üzdən, gəlib belə kəmərin burasınaca[1] yetişib. O uzunluqda saçlar, məgər qarə[2] deyil? Bəs bunlar hamısı qaradır daa:

Koroğlunun şəstində[3],
Gözləri yarın qəsdində, Nigar.
O Kəlamullahın üstündə,
Yazılan qarə deyilmi?

– Nigar! O ayeyi-Quranı məgər qara ilə yazmayıblar?

– Ağa Koroğlu, sən nəyə getdin çıxartdın, qardaş oraya? Mən bir kəlmə sənə söz dedim!

Dedi:

– Yox, Nigar, onun da bir yeri var. Beləsən, eləsən, amma hayıf bir xırda qarasan. Olmadı ki!

Əlini saldı Koroğlunun boynuna:

– Ay Koroğlu, məni güzəşt elə! Dilimdən bir sözdür çıxdı daa.

---

[1] Burasınadək
[2] Qara
[3] Vüqarla dayanmış

Dedi:

– Nigar, güzəşt eylədim, amma bir daha bu cür şuxluqlardan mən ilə eyləmə!

Bunlar bu vəzdə idilər[1]. Nigar getdi öz yerinə. Koroğlu bir az uzandı. Əlini qoydu belə başının dalına. Dedi:

– Görən Xudaya, Qırat hara gedib, hara getməyib?

Bildi. Dedi, ora gedibdir ki, gəlib çıxmaz. Koroğlu orada fikirdə idi o vəzdə, amma Dəli Mehtər ilə Mustafa bəy yetişdilər Çənlibelin qırağına. Dedi:

– Mehtər.

Dedi:

– Bəli.

Mustafa bəy dedi, haa. Dedi:

– Buranın yol-molunu sən bilirsən?

Dəli Mehtər dedi:

– Qurban, mən gedə bilməm. Mən yerlərin bilirəm, amma mən gələ bilməm.

Dedi:

– Sən gəlməsən də mənə görsət haradan girim içəri, nə cür gedim, hara Koroğlunun məsələn yeri, ya fərzən[2] deyərlər, saxtmanı ya çadırı. Mən varid olum içəri.

Dedi:

– Bu yolları getsən, nigəhbanlar görməz. Bunlar məxfi bir yoldur.

Dedi:

– Yaxşı.

– Ağa Mustafa, gedirsən elə?

Dedi:

---

[1] Bu şəkildə idilər

[2] Misal üçün

– Bəs gedəcəyəm daa. Səni gətirmişəm təhvil verəm.

Dedi:

– Yaxşı daa, get dəə, mən də durmuşam burada.

Dedi:

– Yox, o cür olmaz.

Qıratı çəkdi bağladı daşa, öz atını da bir kənara. Mehtərin qıç-qolunu bağladı, salladı bir dəlikli daşa. Salladı Dəli Mehtəri dəlikli daşa. Gördü bunu üç nəfər çıxarda bilər, tək çıxartmaq olmaz. At üstündə tənaf zad, ip aparmışdı. Salladı araya. İndi Dəli Mehtər qalıb dəlikli daşda. Yavaşcana Mustafa bəy baxır Çənlibelə. Belə baxdı gördü, hən, Koroğlunun yeri oradadır. Dayandı orada qulaq verdi. Gördü bir səs yoxdur.

Yavaşcana indi ya kilid yeri var idi, ya cibindən bir qəddara[1] çıxartdı, bıçaqdan zaddan çıxartdı oranı bir zərrə çadırı kəsdi. Belə gözü ilə belə baxdı Mustafa bəy. Gördü, ey dadi-bidad, Koroğlu uzanıb, əlini qoyubdur başının dalına. Baş qatışıb qaşa, qaş qatışıb kirpiyə, kirpik saqqala. Zəbanə çəkir[2], elə bil Əzrailin özüdür. Dedi, ədə[3], məndən adam barışdıran çıxmaz, qayıt qaç! Gördü göbəkdən aşağı ləmsdir[4], belə titrəyir. Qaça bilmədi. Dedi, oğlan, bu nə işdir mənim başıma gəldi? Haraya qaçım? Bir az dayandı.

Nigar yenə Koroğlunun başının üstünü aldı:

– Ağa Koroğlu, axı gətirmişdim bu xurdü xürək yeyəsən, nəyə yeməyibsən? Nəyə yemirsən? Nəyə dinmirsən?

Dedi:

– Nigar, at tapılmayınca mən heç zad yeməyəcəyəm,

[1] Bir növ pıçaq

[2] Od kimi alovlanır

[3] Danışıq dilində, haylama, çağırma, çağırış nidası (adətən oğlanlara deyilir).

[4] Cansızdır, keydir

içməyəcəm. Bu dıq[1] ilə mən ölərəm.

– Baba, Ağa Koroğlu, sənin atını bir nəfər saxlaya bilməz. Heç kəs cürət eyləyə bilməz saxlaya. Mehtəri şayəd öldürələr, amma sənin atını gətirib təhvil verərlər.

Dedi:

– Nigar, yox, o adamın əlinə gedib çatıb, bir də mənim əlimə çatmaz.

Dedi:

– Axı o kimdir?

Dedi:

– Yaxşı tanıyırsan!

Dedi:

– Ağa Koroğlu, vallah, mən səndən böyük kişi tanımıram.

Düz də deyirdi, arvad ərindən yekəsin bilməz, uşaq dədəsindən. Dedi:

– Nigar, var. Məndən də qüdrətli kişilər var. Məndən də zorlu oğlanlar var. Heç mən onların yanından yel olub keçə bilmərəm.

Bu sözlərdə söz var haa. Görürsən indi məsələn Urumiyyədə, bizim mərkəzdə biləsini[2] bir xub[3] kötək vurublar, tapdayıblar. Gedib evdə arvada belə eyləyir haa, qoymadılar haa, köpək oğlunu öldürürdüm! Dər sürəti ki[4], bu kötək yeyib haa! Amma bu deyir, xanım, məndən də igid kişilər var! Məndən də zorlu pəhləvanlar, oğlanlar var. Mən onların yanından yel olub keçə bilmərəm. Dedi:

– Ay Koroğlu, mən səndən zorlu bilmirəm. Axı sən bu

---

[1] Böyük qəm

[2] Onu

[3] Yaxşı bir kötək

[4] Halbuki

adamı deyirsən, mən tanımıram.

Dedi:

– Vallah, tanıyırsan sən onu. Sən onu gözünlə görübsən.

Dedi:

– Axı mən bilmirəm kimdir!

Dedi:

– O sazı ver mənə deyim.

Koroğlu sazı götürüb orada bu sözləri deyir, amma Mustafa bəy oradan da baxır. Deyir:

– Qoy görüm bu kimi deyir?

Koroğlu bilmirdi Mustafa bəy gəlib ki. Burada istəyir Nigarın dənə-dənə yadına sala. Mən "Paşa köçdü" havasında oxuyuram, ümidvaram ellər daha artıqraq[1] şad olsunlar.

Nigar, yadında var gəldi keçdi,
Qoç oğlandır Mustafa bəy.
Hökmü dağı dəldi keçdi,
Çox rəşiddir Mustafa bəy!

Dedi:

– Mən Mustafa bəy tanımıram, ağa Koroğlu! O kimdir?

Dedi:

– Nigar, qulaq ver.

Mustafa bəy belə qulaq asanda gördü Mustafa bəy. Dedi: "Mustafa bəy kimi deyir? Məgər olar adam öz arvadının yanında düşmənini təriflǝyə? Mən deyiləm hətmən. Görəsən kimi deyir?" Amma ikinci sözünü belə deyir:

Nigar, biz anadan beş olaydıq,
Kaş beş dənə o cür qardaş olaydıq.
Beş olub, on beş olaydıq,
Kaş onla qardaş olaydıq,
Çox rəşiddir Mustafa bəy.

[1] Bundan daha çox

Gözləri var badamı,
Yoldan edir adamı.
Yaşar[1], əccəl[2] özüm qurbanı,
Sonra bu kəndin adamı.

Dedi:

– Ağa Koroğlu, vallah, mən səndən igidini bilmirəm. Axı mənə bax görüm, onun dəliləri sənin o adam ki, tərifləyirsən, dəliləri-oğlanları sənin oğlanların kimi var?

Dedi:

– Nigar, qulaq as.

Dəliləri var dəmir donlu,
Dəmir donlu, gözü qanlı.
Ağır məclis, ağır xonlu[3],
Çox rəşiddir Mustafa bəy!

Mustafa bəy belə bir diqqət eylədi, qulaq verdi gördü, "dəmir donlu mənimkilərdir, bu iş olmaz. Məni demir, yox! Əlbət, ağzına bir söz gəlir deyir".

Dedi:

– Bəs.

Nigar dedi:

– Ağa Koroğlu, o cür?

Dedi:

– Bəli!

Dedi:

– Atı da sənin atına tay var?

–Nigar, ərz ağamın xidmətinə[4]. Bir atı var Alapaça!

Koroğlu özünü sındırır xanımının yanında, amma çün

---

[1] Çəkilişi aparan şəxsə xitabdır
[2] Əvvəl, başda
[3] Xonçalı, süfrəli
[4] İndi sənə deyəcəyəm

Qırat o cür deyildi, Qırata şəxsiyyət verirdi Koroğlu, ərziş[1] verirdi, Qıratı sındırmadı. Bəzən oxuyanlarımız deyirlər: "macal verməz Qırat qaça!" Bu qələtdir[2]. Koroğlu özünü sındırırdı xanımının yanında, amma atını yox. Çün atı orada deyildi, at danışa, qəzavət eyləyə. At buna sabit olmuşdu[3] nəmənədir. Qırat macal verməz qaça, bundan ötür ki, Mustafa bəy özü orada dedi. Dedi, mənim atım buna yetişməz haa, ona xatir[4] atı bağladı özünə, öz atına.

..............................
Qırat macal verməz qaça,
Şeşpərinin ucu haça,
Çox rəşiddir Mustafa Bəy.

Mustafa bəy baxdı gördü, "Alapaça mənimkidir, şeşpərinin ucu haça mənimkidir", başını tovladı. Dedi, mən də kişiyəm? Öz-özünə dedi: "Mən də adımı qoymuşam kişi? Bu kişi öz arvadının yanında məni tərifləyir, məni deyir". Nigar dedi:

– Ağa Koroğlu, vallah, əgər o cür olsa, mən bilmirəm, görməmişəm.

– Nigar, vallah görmüşsən. Belə özünü görübsən baa! Axırında ad deyirəm, biləsən nəmənədir.

– Ağa Koroğlu, buyur görək!

Hay deyəndə haya basan,
Huy deyəndə huya basan.
Koroğlunu çaya basan,
Giziroğlu Mustafa bəy!

Mustafa bəy özünü saxlayanmadı. Başının tükləri qov-

---

[1] Dəyər
[2] Yanlış
[3] İsbat olunmuşdu
[4] Ona görə

zandı, bədəni titrədi. Gözlərindən bahar buludu kimi yaş ələnirdi. Ey dadi-bidad! Məni deyirmiş. Mən ölənə kimi Koroğluya nökərəm, qapısından getmərəm. Qıçından çəkmələri çıxartdı. Çadırın qabağında, saxtmanın qabağında torpaq var idi, qum ilə torpaq. Doldurdu çəkmələrə. Çəkmələrin başını bağladı. Belə bu sistem asdı boynuna, dedi, mən bu cür gedecəyəm Koroğlunun xidmətinə. Görürsən daa! Öz xanımının yanında məni tərifləyir. Ta dedi[1] Giziroğlu. Əvvəldə neçəsini dedi, çox rəşiddir, qoç oğlandır Mustafa bəy. Mustafa bəy şəkk eyləmişdi ki, məni deyir, ya qeyrisini deyir. Amma burada gördü deyir Giziroğlu. Gizir be mənayi[2] qoruqçu, nigəhban. Gördü, məni deyir, Giziroğlu mənəm. Burada idi çəkmələri ki, asdı boynuna, üzüquyulu (*aşıq əlini saza vurmaq ilə qapının döyülmə səsini çıxardır*) çaldı qapını. Nigar oradan səsləndi:

– Kimsən?

Dedi:

– Aç mənəm, bacı, mənəm.

Bəh! Gördü qurd dedi, qulaqları çıxdı, Koroğlu gördü səs onunkudur. Nigara dedi:

– Tanıdın?

– Xeyir, tanımadım.

Dedi:

– Haman kişini tərifləyirəm haa. İndi gəlib canımı ala! Körpüdən keçirdik, Tona çayının üstündən, mən dedim, Giziroğlu, dayan mən keçim, sən də mənim tərkimdə idin, Nigar. O dedi, Koroğlu, dayan mən keçim. Bizim sözümüz çəp gəldi. At ata, cida[3] cidaya. O məni sillə ilə vurdu, atdı çayın vəsətinə. Qırat da onu götürdü atdı. Orada əl getdi qəbzeyi şəmşirə. Biz

---

[1] Həmin an

[2] Mənasında, anlamında

[3] Süngü, nizə

biri-birimizi vururduq, məni tutdu, naqafil[1] tutdu, istəyirdi öldürə, oradan səsləndin, qardaş, onu mənə bağışla! Nigar, bu sağlıq səninkidir haa! O da dedi: "Bacı, sənə bağışladım, işim yoxdur". Haman kişinin əlinə gedib yetişib haa bu at. İndi odur gəlib bura!

Dedi:

– O, olsa elə kişidir.

Burada idi, dedi:

– Aç, mənəm.

Koroğlu dedi:

– Nigar, de evdə deyil.

Dedi:

– Ağa evdə deyil.

Dedi:

– Aç, bayaqdan eşitdim nələr deyirdi. Evdədir.

Nigar qapını açdı. Koroğlu istədi dura, belə baxdı gördü Dəli Mehtərin, Mustafa bəyin boynunda çəkmələr asılıdır. Üzüquyulu, sinəxiz[2] bu cür gəldi Koroğluya sarı, keçdi əlin verdi Koroğlunun əlinə, qolunu da saldı Koroğlunun boynuna, Koroğlunun ağzının içindən öpdü:

– Ay Koroğlu, bayaqdan eşidirdim nələr deyirdin! Nigar da belə dolandırdı başına.

– Bacı, kefin nə cürdür?

Nigar gördü haman ki, o zaman demişdi bacı, yenə də bacı deyir.

–Nigar bala, pəziralıq[3] eylə, yetis.

Bunlar oradadırlar. Amma sübh, sübh olanda Koroğlu bir nərə çəkdi, oğlanlar dövrəsini aldılar.

---

[1] Birdən-birə

[2] Üzü üstə

[3] Qonağa qulluq

– Ağa Koroğlu!

Koroğlu götürüb burada oğlanlara bir dəsturu verir:

– Bala, özüz bilirsiz daa.

Bir miqdar oğlanlardan gedib, bu qalanı da istəyirdi orada imtahan eyləsin. İstəyirdi imtahan eyləsin, görsün Mustafa bəy nə əksüləməl[1] nişan verir[2]. Bu sözləri deyir, mən oxuyuram "Cəmşidi" havası ilə. Ümidvaram ellər şad olsunlar. Bu dəlilərə Koroğlunun sözləridir, amma Mustafa bəy də yanında. Mustafa Bəy dedi:

– Axı mən nə sistem deyim atı gətirmişəm? Nə sistem deyim mehtəri gətirmişəm? Qoy hələ bir bunun ağzının duzuna baxım sonra.

Koroğlu gördü Mustafa bəy etiraf eyləmir, bir söz demir. Amma Koroğlu bu sözlər ilə belə deyir ki, əksüləməl nişan versin Mustafa bəy!

Bir qulum gedibdir Ərəbistana,
Arayın, axtarın, tapın, gətirin!
Balalar, qolların bağlayın təngi məstana,
(*Yəni, pəsi dəstdən*[3])
Ərəb at döşünə qatın gətirin!

Oğlanlar qulaq verirlər hamısı. Dübarə:

Axtarın Fəğfuru, dolanın Çini,
Bir cüzvü gəzin İran mülkünü.
Qılıncı, qalxanı, qarğu-laçını,
Ərəb at tərkinə çatın gətirin!

Oğlanlar hər yandan şəklənirlər:

– Ağa Koroğlu, nə sistim gedəcəyik atların? Neçə cür at

[1] Reaksiya
[2] Göstərmək
[3] Bir qolu çiyinin üstündən burub, bir qolu isə arxa tərəfdən gətirib, əlləri biri-birinə bağlamaq.

var idi, atların hankılarını minəcəyik?

– Qulaq verin! Qulaq verin!

Mustafa bəy də diqqət eyləyir bu sözlərə.

Elə minin, ey, atların yeyinlərini,
Bala vurun, ey, sinəsinə düyünlərini.
Çıraqban eyləyin çiyinlərini,

*(Yəni, çiyinlərinin üstündə çıraq yandırın, uzaqdan müşəxxəs olsun mən laəqəl sevinim).*

Ətini parça-parça çapın gətirin!

Ey dadi-bidad! Mustafa bəy belə baxdı gördü, əcəb gətirmişəm mən mehtəri təhvil verəm. Oradan Həsən səsləndi:

– Ağa Koroğlu.

Dedi:

– Bəli.

Dedi:

– Ağa Koroğlu, Mehtəri gətirəni tutduq gətirdik buraya, ona ənamın, xələtin nəmənədir?

Dedi:

– Balalar, qulaq verin.

Koroğlu deyər, haşadır, haşa,
Mehtəri gətirəni eylərəm paşa.
Əgər girmiş olsa dəlikli daşa,
Fərhad külüngü ilə çapın gətirin,
Fərhad olun onu çapın gətirin.

– Ağa Koroğlu, çəşm[1], mən getdim.

Belə Həsənə baxdı gördü Həsən getsə, burada işi seçdi. Belə Mustafa bəyin üzünə baxdı Koroğlu, gördü at da bunda, Koroğlu da bunda, Mehtər də bunda gətirib. İşi seçdi. Həsən dedi:

---

[1] Baş üstə

– Ağa Koroğlu, mən gedərəm.

Dedi:

– Həsən, sən yox.

Gördü Həsən getsə öldürəcək, dedi:

– Sən yox, sən bir az şuluqsan[1].

Həsən dedi:

– Ağa Koroğlu, sən öləsən elə gətirərəm Mehtəri bura, başından bir tük əskik olmaz.

Koroğlu gördü düz deyir daa, başını kəsəcək, tükünə dəyməyəcək.

– Həsən bala, sən getmə! İsa Vəlli.

– Bəli, ağa!

– Eyvaz!

– Bəli, ağa!

– Eyvaz, çıxın eşiyə!

İstəyirdilər gedələr, Mustafa bəy yavaşcana Koroğluya dedi:

– Ağa Koroğlu.

Dedi:

– Bəli.

Dedi:

– Gətirmişəm?

– Harada?

– Sallamışam dəlikli daşa.

– Bildim. Sənin sözündən, danışığından bildim gətirmişsən.

– Amma Həsəni yollama, haa.

Dedi:

– Yox, bildim, Həsəni yollamadım, Eyvaz ilə İsa Vəllini yolladım.

[1] Dəcəl

İndi İsa Vəlli ilə Eyvaz gedirlər. Çənlibeldən çıxdılar eşiyə, getdilər dəlikli daşın üstünə:

– Mehtər! Mehtər! Mehtər!

Mehtəri Çağırırlar. Mehtər cavab vermir. Ondan ötür cavab vermədi dedi, birdən Allah eyləməsin Həsən olmaya. Həsən olsa, mən cavab verməyəcəm. Gördü yox, İsa Vəlli ilə Eyvazın səsidir.

– Bəli, mən buradayam!

Belə baxdılar, gördülər Dəli Mehtərdir. İsa Vəlli dedi:

– Haramzadə, adam bu işlərdən görər? Adam ağanın atını aparar?

Dedi:

– O sözlərə gəlməz!

Tənəfi salladılar. Dedi:

– Bağla bədəninə.

Dəli Mehtər bağladı bədəninə. Çəkdilər Dəli Mehtəri quyudan çıxartdılar. İndi aparırlar Koroğlunun yanına. Koroğlu belə baxdı, gördü Dəli Mehtəri gətirirlər.

Mustafa Bəy dedi:

– Ağa!

Dedi:

– Bəli.

Dedi:

– Bunun günahından keçəcəksən.

Dedi:

– Keçməzdim, amma sən gətiribsən. Sən kişisən, özüm ölüm, günahından keçərəm.

Arxayın oldu Mustafa bəy. Oradan işarə eylədi, dedi üzüquyulu əyil ağanın qıçlarından öp. Mustafa bəy işarə eylədi Dəli Mehtərə. Mehtər gəlib bunun ayaqlarından öpdü. Koroğlu qovzadı. Dedi:

– Dəli bala, bir də bu işlərdən görmə!

Dedi:

– Qara, sən o işlərdən görmə, mən də bu işlərdən görməyim!

Yanı, sən məni vurmayaydın. Koroğluya qara dedi, şuxluqları var idi. Dedi:

– Ara, sən o işlərdən görmə, mən də bu işlərdən görməyim!

Mustafa bəy güldü. Dedi:

– Ay Koroğlu, dəli-doludur daa, bu cür dəli-dolunu saxlamağa nə var? Narahat olma!

Dedi:

– Günahından keçdim bu seri, amma da bir daha bu işlərdən görmə!

Dedi:

– Ərz eylədim da sən o işlərdən görmə, mən də bu işlərdən görməyim.

Oğlanlar getdi hərəsi öz yerinə. O ki qalandır, qaldı. Amma bunlar Mustafa Bəyə orada böyük bir qonaqlıq verdilər. Dərəcə yek[1] qəzalar[2] o zaman nəmənə var idi, düzəldiblər, aşpaza dəstur veriblər. Bunlar yeyirlər, içirlər. İndi bilmirəm bir gün, iki gün, üç gün, Mustafa Bəy qalar Koroğluya qonaq olar. Qonağa demək olmaz get. Neçə gün qalsa, qalıb, Mustafa bəy burada üzünü tutdu Koroğluya:

– Ağa Koroğlu, bir iddə[3] sənin oğlanların çıxıb gediblər at axtarmağa, bir iddə mənim oğlanlarım görərlər mən gəlmədim, çıxarlar axtarmağa. Sənlə mən təzə qardaş olduq, onlar orada toqquşarlar biri-birlərinə, yenə düşmənlikləri çoxalar.

---

[1] Bir nömrəli, əla
[2] Yemək
[3] Neçə nəfər

İcazə versən, mən gedim.

Dedi:

– Qalsan mənim gözüm üstə, getsən də yolun açıq.

İndi o zamanın sələ-sövqatı nəmənə idi, Mustafa bəyə tutub. Mustafa bəyi yüz dənə təmənna ilə, xahiş ilə oradan yola saldılar. Bir miqdar oğlanlar getdi. Qayıtdı onlara dedi:

– Qayıdın biz ikimiz gedək.

– Mən ölüm qayıt, ağayi Koroğlu[1].

Dedi:

– Yox, gəlirəm hələ.

–Sən Allah, qayıt.

Dedi:

– Baba, danışırıq daa!

Bir adam bir adamın görürsən evinə qonaq gəlib, çıxar qapıdan yola salar. Çox istəsə onu, məsələn, gətirib öz maşını ilə ya gətirib qoyur məsələn terminala. Lap çox istəsə, bununla bahəm gedir. Daha Koroğlu Mustafa bəyi çox-çox istəyərdi. Bunla elə danışdılar, o qədər qalmırdılar. Amma Çənlibeldən yavaş-yavaş uzaqlaşdılar. Bunlar təqribən 3 saat, 4 saat yol gedirlər, danışırlar. Bir yerə yetişirlər, daha Mustafa bəy çox "mən ölüm", "sən Allah" saldı[2], Koroğlunu qaytardı.

Koroğlu qayıtdı. Mustafa bəy də getdi öz yerinə. Mustafa bəy gələr öz yerində sakin olar. Onla işimiz yox. İndi Koroğlunun yanında. Koroğlu dedi:

– Mənə bax görüm, hara gedirsən?

Bir az da acdır. Dedi:

– Bir dəfə Çənlibelə gedincə, üç saat, dörd saat çəkər, gəl bu dağlarda bir şikar eylə[3].

---

[1] Cənab Koroğlu

[2] Çox yalvar-yaxar elədi, rica elədi

[3] Ovlamaq

Bu təpə mənim, o təpə mənim, bu dərə mənim, o dağ mənim. Elə Koroğlu dağı aşanda dağın belə qırnasında idi, belə baxdı gördü, pəhov[1], dəryayi-qoşun[2] yatıb burada. Dedi: "Yaxçı oldu, indi bir həmlə eylərəm bunlara, bir nərə çəkərəm, bunların nəmənəsi var əlindən alaram!" Amma Koroğlu əlində sazı götürdü. Yavaşcana atı bağladı, Qıratı dərənin təkinə. Yavaş-yavaş yeridi, əvvəlinci çadıra yetişdi. Dedi:

– Görüm bunlar nəmənədirlər, kimdirlər, haradan gəliblər, nəyə xatır gəliblər?

Elə göz dolandırdı gördü, yox, matahlar barxanada yoxdur. Matah zad yoxdur. Bunların ayrı işləri var. Amma bunlar da məni gördü, qayıdıb getsəm də olmaz. Düşdüm elə bil burada tora. Saz əlində yetişdi əvvəlinci çadıra. Çadırın qabağından gedirdi:

– Salam.

– Əleykəs salam!

Üzünü tutdular:

– Aşıq, ay gəlibsən, ay gəlibsən vaxtında. Ay gəlibsən, buyur, qonaq gəlibsən, yerində gəlibsən. Ondan ötür ki, indi biz on beş gündür burada paslanmışıq. Aşıq, bizə oxuyasan burada. Öz qədəmin ilə, öz ayağın ilə gəlibsən.

– Nə üçün?

Dedi:

– Vallah, bizim böyüyümüz o dur baa, Çarfəsl ala təpə[3], ipək quppa[4] çadır onunkudur.

– Böyüyüzün adı nəmənədir?

Dedi:

[1] "Aman-aman!", "ay aman" mənasında

[2] Qoşun dənizi, qoşun yığını

[3] Aşığın açıqladığına görə, çadırın təpəsi dörd fəsil rəngində idi.

[4] Qübbə

–Ağa Bolu!

– Yanındaki kimdir?

Dedi:

– Əhməd Əli Mirzə.

– Nə üçün gəlibsiz?

Dedi:

– Elə bil Koroğlu ilə bir az işimiz vardır bizim.

Bunu deyəndə Koroğlunun rəngi atdı. Çadırlar qurulub haradan hara. Bunlar gəliblər məndən ötür. İndi mən qayıdım gedim, deyərlər aşıq hara gedirsən? Pul verəcəyik oxu. Pul alır daa. Biz pul verəcəyik, bizə oxu. Deyəm oxumuram, biləmi[1] taplayacaqlar, vuracaqlar. Dedi:

– Olsun.

Bunu götürürlər, aparırlar Bolunun çadırına. Çadıra varid oldu Koroğlu. Əhməd Əli Mirzə ilə Bolu əyləşiblər. Əlində saz:

– Salam.

– Əleykəs salam!

Baxdılar atdan üstdən, gördülər aşığın qədd-qiyafəsinin bir əndazəsi var, bu yekəlikdə aşıq olmaz. Sibillər[2] çəkilib gəlib qulağın dalına, gözlər bu cür çanağından pırtlayıb eşiyə, qaşlar qapqara, elə bil at quyruğudur.

– Əhməd Əli Mirzə!

– Bəli.

Dedi:

– Mən bu sistem aşıq görməmişdim. Qoy soruşaq görək bu haralıdır?

[1] Məni
[2] Bığ

Bunların qabağında da bir az içməli zad var idi, yeyirdilər, içirdilər. Amma nə zamandır? Nahar. Elə bu zamandır baa, söz vaxtına çəkər, ağa Yaşar. Bunlar yeyirdilər içirdilər:

– Aşıq, hara aşığısan?

Dedi:

– Çənlibel aşığıyam.

– Qılıncı kəşan[1] Koroğlunu tanıyırsanmi?

Dedi:

– Bəli, tanıyıram.

– Ay gəlibsən, onun məclislərində oxuyubsan daa?

Dedi:

– Bəli, oxumuşam, tanıyıram da!

Dedi:

– Yaxşı, xoş gəlibsən.

Onlar ki, gilası getdilər yuxarı, livanı, Koroğlu da bunlarla belə eyləyirdi. Gözünün altından Əhməd Əli Mirzə baxdı gördü, biz içirik, bu da elə biz ilə bərabər əlini belə eyləyir. Dedi:

– Aşıq!

Dedi:

– Bəli.

Dedi:

– Bizə bir qatar söylə.

Dedi:

– Siz aşığı içdirməmiş, yedirtməmiş oxudarsız? Çənlibeldə yedirdərlər, içirdərlər, aşığı oxudarlar.

– Aşıq, içərsənmi?

Dedi:

– Nəyə içmirəm?

---

[1] Aşığın dediyinə görə, Kaşan şəhərində hazırlanan qılınclar məşhur idi.

– Gətirin. Qəza gətirin.

Bu qonaq idi, buna iki nəfərin qəzasını çəkdilər. Koroğlu bığlarının altından ötürdü içəri.

– Aşıq, içərsən də?

Dedi:

– Hən, olsa nəyə içmirəm?

Bir az içdi. Belə baxdı gördü, vay, qəza qalmadı, iki nəfərin qəzası. Nə cür belə əlini belə (Aşıq əli ilə göstərir) fırıldandırdı kasanın içində, sibillərinin altından ötürdü aşağıya. Səsi də gəldi, elə bil quyuya bir dənə daş atdın, baamm! Tikə o cür getdi içəri. Diqqət eylədilər, gördülər.

– Aşıq, doydun?

Dedi:

– Doymadım, mənim qarnım boş olsa, oxuyanmam.

Dər surəti ki, aşığın qarnı boş olsa, yaxşı oxuyar.

Dedi:

– Mənim qarnım.

Dedi:

– Qəza gətirin.

Dörd nəfərin də qəzasını çəkdilər. Koroğluya içməli verdi.

Dedi:

– Cənab.

Aldı əlinə, belə saxsı qab idi. Belə içəndən sonra, saldı ənginə, çeynədi. Dedi:

– Aşıq, axı bu sistem nəyə? Livan stəkan... Tök ora!

Dedi:

– Yox, o cür yedim ki, qarında bir şeyə bənzəyə, bir şey ola. Qarnımın təkində.

Dedi:

– Bəs doymursan?

Dedi:

– Xeyr.

Dedi:

– Bəs orada deyirsən Koroğlunun məclislərinə gedərəm, nə cür yeyərlər-içərlər?

Dedi:

– Qurban, onun məclisi Koroğlu məclisidir daa. Tuluğu doldurarlar, elə yetişən ağzını dayayar şirə, bir şiri var nə qədər boş bağırsağı dolmayıb içəcək.

Dedi:

– Onda gətirin. Bizim də tuluq var daa biləxərə[1].

Gətirdilər, ağzını dayadı tuluğa, tuluq boşaldı. Elə bil malın qarnının içini boşaltdın. Pəh! Əhməd Əli Mirzə dedi:

– Evin yıxılsın aşıq sahibi, bu sistem də aşıq olar?

– Əhməd Əli Mirzə.

Dedi:

– Bəli.

Dedi:

– Bunu ötürək getsin! Buraya talan salacaq, bahalıq salacaq buraya.

– Nə cür idi, içdin?

Dedi:

– Bəli.

– Doydun?

Dedi:

– Vallah, elə doymadım.

On beş nəfərin qəzasını çəkdi gətirdi. Aşpaza dedilər çəkdi gətirdi. Aşpaz öz-özünə dedi, mənə bax görüm, bir nəfər aşıq kimdir? On beş dənə qəza yeyir, gedim görüm. Mən buna

---

[1] Nəhayət, sonunda

qəza verməkdən əsir oldum.

Belə getdi, yeridi qabağa. Belə camaatın arasından belə baxanda gördü, eyyy, Koroğludur bu! Dedi:

– Hələ görək nə cür olur?

Bolu dedi:

– Aşıq, yedin-içdin, on beş nəfərin də qəzasını yedin.

Dedi:

– Bəli.

Dedi:

– Bizim üçün söylə. Qafamız dumanlansın[1]. Nə qədər para desən, biz sənə verəcəyik. On beş gündür burada biz paslanmışıq, aşıq səsi eşitməmişik. Yedin-içdin bizə oxu, qoy qafamız dumanlansın.

Burada Koroğlunun da halı xoş idi. Sazı çəkib sinəsinə, amma burada Koroğluya nahar gəlib. Koroğlu naharını yesin, dübarə sonra ərz eyləyim xidmətizə.

Bəli dostlar, aşpaz ki, Koroğlunu tanıdı, səsini çıxartmadı. Dedi:

– Görüm hələ hara yetirəcək?

Burada idi, Əhməd Əli Mirzə ilə Bolu dəstur verdi:

– Aşıq, yedin-içdin, biləmizə bir qatar oxugilən, qafamız dumanlansın, kefimiz sazalsın. Müddətdir burada ordudayıq, aşıq səsi eşitməmişik, musiqi eşitməmişik.

Koroğlu durdu ayaq üstə.

– Aşıq, o sözləri oxu! Koroğlunu ki, sən görübsən, ona laf söyləyəcəksən. Onun zəlalətli sözlərini deyəcəksən, biz kef eyləyək! Nə qədər də para istəsən, pul istəsən biz verəcəyik!

---

[1] Kefli

Koroğlunun gözləri arxa-urxa çalır[1]. Az qalır da yumulsun bunların üstünə, amma deyir hələ qoy görək nə cür olar. Koroğlu götürüb burada halı xoşdur, bu sözləri deyir. Mən oxuyuram "Hələbi" havasıynan, ümidvaram ellər, görənlər eşitdikcə şad olsunlar.

Sənə deyim, Ağa Bolu,
Görmürsən durmuş bəbirəm.
Nə cürsən vuram öldürəm?
Dinimdən dönmüş gəbirəm[2].

Burada idi Bolu, dedi:

– Əhməd Əli Mirzə.

Dedi:

– Bəli.

Dedi:

– Nə oxuyur bu?

Dedi:

– Hələ qoy oxusun görək nə olur. Bir az halı xoş deyil daa!

Dedi:

– Bu ağzına nə gəlsə deyəcək hən.

Dedi:

– Vallah!

Dedi:

– Aşıq, pul verməyəcəyik sənə, haa! Bu cür oxusan puldan xəbər yoxdur, paradan. Qəşəng oxu! O ki biz dərxast[3] eylədik, istədik, o cür oxuyacaqsan.

– Qurban, oxuyuram da. Deyə-deyə gəlirəm.

---

[1] Gözü qaralır

[2] Kafir, müsəlman olmayan

[3] İstək, tələb (Toylarda əyləşənlər tərəfindən aşıqdan istənilən mahnı bu sözlə ifadə olunur)

İkincisi:

Ceyran tək çöldə gəzərəm,
Durna tək göldə üzərəm.
Döyüş görəndə qızaram,
Kürədən çıxmış dəmirəm.

– Aşıq! Burada döyüş yoxdur ki, sən döyüşdən söhbət eyləyirsən.

Dedi:

– Belə aşıqlar cəng də eyləyərlər. Əgər köməklik lazımız olsa, mən varam!

– Han.

Dedilər:

– Bəli.

Bolu dedi:

– Əhməd Əli Mirzə, bu cür olsa xoşdur. Bu aşıq da kömək gəlib biləmizə. Amma xain çıxmaya.

Dedi:

– Yox, canım, aşıqdır daa!

Meydan başında duranda
Qurban, əl atıb buğu buranda.
Dişlərimi qıcışdıranda,

*(Nə cür dişi sürtərlər biri-birinə hirsindən adam)*

Az qalaram polad gəmirəm.

Dedi:

– Axı aşıq, bu cür olmaz. Sən poladı nə cür gəmirəcəksən? Mənə bax görüm, oxuyanda da dişlərinə baxırdım. Bir ağzına baxım görüm! *(Aşıq bir nəfərin işlərinə baxır kimi qabağa gedir)*

Dedi:

– Dişlərin də ki qalmayıb. Beş-altı dənə elə əkdə[1] qalıb. Sənin dişin yoxdur ki, polad gəmirəsən.

Dedi:

– İndi gəmirərəm, qurban, sizi görmüşəm. Böyük adamın yanında böyük söz danışarlar. Düzdür, bildim, sözlərim böyük oldu. Amma siz də böyüksüz daa.

Koroğlunun yüz dənə fənd-feli[2] var idi. Axırı:

Koroğluyam, ey acalmışam,
Xotkarlardan bac almışam ey!
Amma, yüz də desən qocalmışam,
Qurban, yenə Babayı-əmirəm!

Dedi:

– Koroğlu dedin? Koroğlusan?

Dedi:

– Babam, mən o qədər Koroğlunun məclislərində oxumuşam, yanıldım. Gərək deyərdim Bolu, mən yanıldım. Bağışlayın daa. Böyüklüyüzə bağışlayın.

Əhməd Əli Mirzə dedi:

– Ağa Bolu, qatıbdı. Bətər qatıbdı. İşin olmasın, qoy oxuyur oxusun.

Sözü tamam eyləyəndə dedi:

– Aşıq.

Dedi:

– Bəli.

Dedi:

– O sözlərini eşitdik. Mənə bax görüm, biz deyən sözləri

---

[1] Əngin dibində
[2] Hiylə

oxuyacaqsan? Koroğluya laf söylə, Koroğlunu pislə. Koroğlunun zəlalətli sözlərindən denə bilənə[1] o qədər pul-para verəcəyik, nə qədər ömrün var yeddi əqəbədən[2] dönənin xərcləsə, qurtulmaya. Fəqət bizim kefimizi saz eylə, Koroğluya laf söylə.

Dedi:

– Qurban, söyləyim! Söyləyim!

"Ovçu gəraylısı". Ovçu...

Əcəb yerdə məskən buldum,
Bolu, mən səni, mən səni, dərdin alaram.
Canını odlara salaram,
Bolu, mən səni, mən səni!

– Əhməd Əli Mirzə, bu nəmənə deyir bəs? Bu söz, bu şer nəmənədir? Bu sözü nəmənədir?

Dedi:

– Qurban, əvvələn ki budur, bu küllən qatıb, ikinci budur, bu deyir yəni, ağa Bolu, birdən mən səni öldürsəm, sənin günahın nə qədər var zindəganlığında[3] nə qədər günah eyləyibsən, hamısı mənim boynuma bəs bu cür deyir.

Dedi:

– Bəli, "aşığın sözünü yeddidə eşidən yetmişdə qanar" nəmənədir.

Amma Koroğlu üçüncü sözünü deyir. Aşpaz də belə baxdı dedi, hə, haramzadə, Koroğlusan, özün də dedin, istəyirsən sözü azdırasan? Sən ölməyəsən, indi lov verəcəyəm[4] deyəcəyəm. Koroğlu belə baxdı, gördü aşpaz oradan baxır buna. Bu Koroğlunu tanıdı, Koroğlu da bunu tanıdı. Amma biləsinə bir Əhməd Əli Mirzə ilə Bolu o yana baxanda, əli ilə belə eylədi

[1] Sənə
[2] Yeddi arxa
[3] Həyat, yaşayış
[4] Birisini satmaq, gizli olanını aşkara çıxarmaq

*(Aşıq baş kəsmə əlamətini göstərir).* Ağzından söz çıxsa, boynun gedibdir, haa. Amma bilir aşpaz özünü saxlaya bilməyəcək ki!

Misiri qılınc sildirərəm,
Dizim üstə mindirərəm.
Yəqinimdir öldürərəm,
Bolu, mən səni, mən səni!

Əhməd Əli Mirzə dedi:

– Hey, aşıq, uzun danışırsan elə bil haa…

Dedi:

– Nəyə? Nəmənə dedim mən, qurban?

Dedi:

– O nəmənənin sözü idi danışdın? Yəqinimdir öldürərəm Bolu, mən səni, mən səni!

Dedi:

– Baba, mən o cür demirəm ki, siz axı bilmirsiz mən nəmənə deyirəm. Mən deyirəm, yanı ağa Boludur, sizsiz, bir də mənəm. Bizi öldürərlər, məni, səni, Bolunu. Üçümüzü öldürərlər, mən, səni...

– Hə, bəs bu cür?

Dedi:

– Bəli!

Amma Koroğlu axır sözü deyir:

Koroğluyam, laf edərəm,
Düşmən bağrını didərəm.
Gözünün yaşını silərəm,
Bolu mən səni, mən səni!

Bu sözü deyəndə atlandı qabağa:

– Aşıq.

– Bəli.

Əhməd Əli Mirzə ilə Bolu dedi:

– Aşıq, oxuma, görərsən bəzi bir sözləri danışırsan. Aşıq

vurmaq xoş deyil, biz sənə əl açmadıq. Biz elə aşıq istəyirdik kefimizi saz eyləyə, bizim kefimizi sən qolay eylədin. Bu sözlər nəmənə idi? Oxuma!

Dedi:

– Qurban, mən oxuyacağam.

– Oxuma! Biz deyirik oxuma daa. Nəmənə istəyirsən verək, get. Əvvələn, dedilər, bahalıq salacaqsan buraya. O xörəyi ki, sən yeyirsən, bu da danışmağın idi? Bir təfriqə salacaqsan, bizim də ruhiyyəmizi öldürmüşsən. Səndən aşıq çıxmaz. Qardaş, gəl bu pul-para. Xoş gəldin!

Burada idi adamların arasından aşpaz girdi içəri:

– Ağa Bolu, salamməleyküm!

– Əleykəs salam!

–Ağa Bolu, nəmənə eyləyirsiz?

Dedilər:

– Budur, görürsən aşıq oxuyur!

Dedi:

– Nə aşığıdır?

Dolandı belə baxdı gördü mağul[1] yenə Koroğlu işarə eylədi ki, Bolunun yanında demə haa! Dedi:

– Mən bunu tanıyıram.

– Nə cür tanıyırsan?

Dedi:

– Baba, bu Koroğludur.

–Piyy[2]?

Dedi:

– Bəli, qurban. Dedilər, Koroğludur!

–Haradan bilirsən?

---

[1] Danışıq dilində "əcəb" deməkdir.

[2] Doğrudan?

Dedi:

– Baba, mən tanıyıram, ömrən[1] mən buna aşpazlıq eyləmişəm. Mən tanıyıram, bu Koroğlunun özüdür.

Əhməd Əli Mirzə ilə Bolu bir bunun qiyafəsinə baxdılar dedilər:

– Deyirik axı aşığa bənzəmir, elə bil Əzrailindir qiyafəsi. Bəs bu Koroğludur?

Dedi:

– Başız üçün, qurban, Koroğludur.

Çadırların payalarını[2] yendirdilər.

– Verin bunu payaların qabağına!

Koroğlunu vururlar, Koroğlunun da bədəni istidir. Vururlar, salırlar. Çadırların qabağında bir bulaq var idi – yekə, gen göl idi. Basırlar suya, çıxardırlar. Yenə döyürlər, hey deyir:

– Ağa, mən Koroğlu deyiləm.

Bunlar qəbul eyləmirlər. Əlini bu cür qovzadı *(Aşıq sazı əlində qovzayır),* dedi:

– Qurban, baba, mən Koroğlu deyiləm!

Dedi:

– Bəs sözünü de görək, bəs kimsən?

Üzünü tutub burada, Koroğlu o vəzdə qoşuna, Əhməd Əli Mirzə Boluya nələr deyir, mən ərz eyləyirəm, yenə ağaların sağlığına, eşidənlər sağlığına, görənlər sağlığına. “Gözəlləmə”...

Bir ərzim var, Bolu, sənə söyləyim,
Aman Bolu, mən Koroğlu deyiləm.
Axı xəncər ilə bağrım başın teyləmə nə!
Ağa Bolu, mən Koroğlu deyiləm.

---

[1] Bir ömür

[2] Bir şeyi saxlamaq üçün tir, dayaq, sütun, dirək

– Koroğlu bu qılıq gələr? Bu sistem gələr? Axı Koroğlunun nişanələrindən deyim, Koroğlu kimdir.

Götürüb belə deyir:

Koroğlunun at işləməz yolları vardır.
Əyrəmçədən keçən belləri vardır[1].
Koroğlunun 7777 dəlisi vardır,
*(Mən görürsən təkəm, aşığam daa).*
Aman Bolu, mən Koroğlu deyiləm.

–Axı sən bəs Koroğlu deyilsən, bəs kimsən?

Dedi:

– Onu de daa. Onu məndən soruş sən kimsən!

Dedi:

– Qurban, ərz eyləyim.

Dedi:

– Düz de haa…

Dedi:

– Başım üçün düz deyəcəyəm!

Axır sözünü belə deyir:

Koroğlunun bir sazı var danə nişandır[2],
Belində qılıncı misli kəşandır[3].
Adımı xəbər alsan Aşıq Rövşəndir,
Ağa Bolu, mən Koroğlu deyiləm.

– And ola Allaha, dədəm qoyandan Rövşəndir mənim adım.

Düz də deyir daa… Rövşən idi daa… Dedi:

– Bəs bu aşpaz deyir Koroğlu?

Dedi:

---

[1] Yəni, belləri o qədər incədir ki, dar bir halqadan keçər.
[2] Sədəfli saza deyilir.
[3] İranda şəhər adıdır. Kaşan qılıncı kəsərli və iti qılınca deyilir.

– Hən, elə onu xəbər alaydın daa əvvəldən. Məni basmayasız, döyməyəsiz, süfrə başıdır. İlləti budur. Mən Koroğlunun məclisində oxuyurdum. Gecə səsim tutuldu. Koroğlu məni istədi.

Dedi:

– Aşıq, mənə bax görüm. Bu pulun, bu paran, bu xidmət ki, eylədik sənə illəti nəmənədir? Sənə bir nəfər burada söz dedi? Tövhin eylədi, bizə de, illəti nəmənədir, sənin səsin nəyə tutuldu?

– Mən də qurban, dedim, aşpaz qəzanı şor eyləmişdi, ondan ötür. Bu aşpazı görürsən, indi şeytanlıq eyləyir. Bunu ağa Koroğlu vurdu məclisdən atdı eşiyə. O zamandan məndən küdurət aldı. Odur ki, indi deyir bu Koroğludur. İstəyir, siz məni, qurban, öldürdürəsiz!

– Bəs belədir?

– Bəli, qurban, başım üçün.

Dedi:

– Əhməd Əli Mirzə.

Dedi:

– Bəli.

Dedi:

– Bu aşığı biz vurduq, tapdadıq, bu hər yerdə bizim abrımızı aparacaq. Gəl buna bir yaxşılıq eyləyək, bir dənə də at verək, rədd eyləyək getsin. Amma gedəcək deyə.

Dedi:

– Aşıq.

Dedi:

– Bəli.

Dedi:

– Mənə bax görüm, adam öldürə bilərsən?

Dedi:

– Adam yox, amma aşpaz öldürə bilərəm.

– Nə cür?

Dedi:

– Atam da aşıq idi mənim, qurban. Biz elə ata-babalı aşıq idik. Atam altı aşpaz öldürmüşdü deyirdi, oğul, yeddi dənə gərək öldürəsən. Bir dənəsi qalır. Birini də mən öldürsəm, atamın vəsiyyəti yerinə yetişər.

– Aşıq, adam öldürə bilərsən?

Dedi:

– Qurban, siz əmr eyləsəz, aşıq adam öldürməz, heç aşıq razı deyil bir dənə hacıleyləyin balası yuvadan düşə yerə ölə. Aşıq buna razı deyil, amma dədəmin vəsiyyətini istəyəm yerinə gətirəm, qurban, sizin dəsturuz ilə olsun daa.

Dedi:

– Çün aşpaz bizim abrımızı apardı, bir dənə aşpazın sözü ilə səni bayaqdan vururuq, tapdayırıq, söyürük, döyürük.

Yavaşcana dedi:

– Aşıq, daha bunun ixtiyarı səndədir. Biz bunu dadqahi[1] eyləmirik.

Belə kəmərəsindən zadı açdı, qılınc ilə bahəm verdi Koroğluya. Dedi:

– Aşıq, sən özün nəmənə eyləyirsən eylə. Özün bilirsən, öldürsən öldür, nə bilirsən eylə.

Ancaq indi kəmərini bağladı Koroğlu, əl getdi qəbzeyişəmşirə. Bolu ilə Əhməd Əli Mirzə bu cür danışırdılar, birdən şaqqıldadı. *(Aşıq sazı qılınc kimi başı üstə şaqqıldadır).* Şaqqıldayanda, belə baxdılar gördülər, bir baş dedi: "Vay dədə".

Belə döndülər, baxdılar gördülər bir dənə başdır. Belə çönəndə baxdılar gördülər bunun başı bədənində yoxdur:

[1] Məhkəməyə çəkmək

– Aşıq, sən bunu? Bəs bunun başı?

Dedi:

– Bunun elə, qurban, başı əvvəldən yox idi bədənində.

Gördülər baba boynu vurub gedib o üzə. Şıppıltı ilə aşpaz düşdü yerə. Dedi:

– Əhməd Əli Mirzə.

Bolu dedi:

– Bəli.

Dedi:

– Bala-bala çəkilin bu üzə, ötürün qoyun çıxsın getsin. Biz sahibi-qılıncıq, bu sistem adam vura bilmərik.

Bunu elə bil gətirdi bıçağı, bu cür xiyarın vəsətindən vurdu, ancaq baş getdi düşdü bir tərəfə, bədən bir tərəfə.

– Aşıq, gəl bu pulun-paran.

Bir dənə də dəstur verdi, at gətirdilər. Atı gətirdilər, verdilər buna. Bu bunu aldı. Dedi:

– Aşıq, amma dəvə gördün, izini görmədin haa. Amandır haa, gedib bizi pisləməyəsən. Deyəsən, məni belə döydülər, vurdular. Bizim abrımız gedər. Deyərlər bunlar aşığı vurdular. Aşığı məhəbbət ilə vurarlar, aşığı pul ilə vurarlar. Aşığı çadırın payası ilə vurmazlar, tövhin eyləməzlər.

Bu atı götürdü, belə saldı boynuna.

– Aşıq, bəs belə nəyə?

Dedi:

– At mənimki deyil? Mən atı minmirəm, at məni minir. Qurban, mənimkidir daa.

Bunlar gördülər gedə bilməz aşıq buradan:

– Aşıq qardaş, xoş gəldin.

Yavaşcana apardı atı o üzə. Atdı Qıratın yanına. Qırat gəldi yumula üstünə:

– Sus! *(Aşıq əl ilə işarə edir)*. Ey nanəcib, səsini çıxartma.

Gördü Koroğlu bir parça suyun içindədir. Ağa Koroğlu, bəs bu vəzdə nəyə? Əlini çəkdi Qıratın üz-gözünə, qulaqlarının dibinə tumar verdi. Dedi: "Ey nanəcib, məni buradan çıxart".

Vurulan adam xırdalar. Məxsusən bir yerdə suya bata, lap xırdalar! Həmişə Koroğlu atın üstündə duranda, at quyruğu ilə *(Aşıq sazı başına çətir edir)* bir çətir salardı Koroğlunun başına, sayə salardı. Özü də bir yarım metr atın boynundan, başından yanı uca durardı Koroğlunun boynu. Belə Çənlibelə sarı gedir, Koroğlu xırdadır. Az qaldı Çənlibelə yetişə ki, səs yetişərdi Çənlibelə, bir fışqıraq tünüzlədi[1] Koroğlu. Fışqıraq tünüzləyəndə, nigəhbanlar gördü. Gördülər Koroğlu gəlib, amma həmişə Koroğlu atdan yarım metr ucada olardı, bu seri xırdalıb qalıb. Oğlanlar səsləndilər biri-birinə, töküldülər:

– Ağa Koroğlu, bəs belə nəyə? Bəs bu sistem nəyə? Bir parça palçığın içindəsən. Sən çömürün[2] içindəsən, suyun içindəsən. Özün də xırdalıbsan.

Üzünü tutub burada dəlilərə Koroğlu bu sözləri deyir:

– Balalar, qulaq verin.

*(– Oxuyursan?*

*Aşıq Behnam:*

*– Bəli, icazə versəz.*

*Aşıq Əli:*

*– Amma burada mənim əziz həmkarım[3] əlbəttə mən deyə bilməm şagirddir, özünə ustaddır. Özü özünü məərrifi eyləyəcək[4] burada. Bu qatarı ağa Aşıq Behnam Rizayi ki, bahəm bu sənətdə işləmişik, bir miqdar da mənim yanımda qalıb. İstəyirəm bu da filimdə olsun. Yadigarı bir filim olsun*

---

[1] Atdı, tulladı

[2] Palçıq

[3] Əməkdaş

[4] Özünü tanıdacaq

*qalsın, ellər gördükcə şad olsunlar. Aşıq Behnam, buyur həm bir salam ərz eylə, həm də bir qatar oxu.*

*Aşıq Behnam sazı ustadından alıb başlayır. Mehriban Allahın adı ilə. Mən də salam ərz eyləyirəm, Allahdan istəyirəm həmişə şad, həmişə dilxoş olasız. Təşəkkür eyləyirəm ustad Əlidən ki, mənə də növbə verdilər, xidmətizdə olam. Bəli, Koroğlunun söhbətində usta Əli buyurdular həmin yerə kimin, orada bir qatar oxumağı var ki, onları mən ərz eyləyim xidmətizə).*

Koroğlu o cür ki, oldu uzaqdan gəldi. Amma oğlanlar müntəzir idilər. 777 dəli, Nigar xanım, İsa Vəlli, Halaypozan, Cecimcıran. Koroğlunun oğlanları hamısı müntəzir idilər. Gördülər Koroğlu gəlib, amma, baba, həmişəki kimi deyil. Bu belə pis vəzdə gəlib Qıratın üstündə. Orada gəlib, oğlanlar bundan soruşurlar:

– Ağa Koroğlu, hara getdin? Nəyə yubandın? Nəmənə olub? Bəs bu vəzdə nəyə? Axı sən heç yerdə bir belə yubanmazsan!

Koroğlu götürüb orada oğlanlarına nə cür oxuyur, nə cür deyir, mən oxuyum "Həmədan gəraylısı" ilə tamam ellərimizin sağlığına:

Sizə deyim, oğlanlarım,
Üstümüzə paşa gəlir.

*(Yanı, burada Koroğlu işarə eyləyir ki, amadə olun).*

Əhməd Əli Mirzə ilə Bolu bəylər,
Hər ikisi qoşa gəlir.

– Ağa Koroğlu, elə iki nəfər? İki nəfər səni bu vəzə salıb?

– Oğul, iki nəfər deyirlər.

– Bəs neçə nəfərdilər?

– Ərz eyləyim:

Olar gəlir atlı-matlı,
Sözlər noğuldan dadlı.
Hər tərəfdə üç min atlı
Yalqız bu bir başa gəlir[1].

Oğul, iki nəfər deyirlər çoxdurlar.

– Axı ağa Koroğlu, sən nə yaxşı getmişdin oraya? Nəmənəyə getmişdin? Nəyə onlar ilə davan düşmüşdü[2]?

– Ərz eyləyim:

Bostançı baxar qovuna,
Getmişdim qarın lovuna[3].
*(Acıxmışdım, ona görə bu cür oldu).*
Düşdüm Bolunun toruna,
Yazılanlar başa gəlir!
Qoç Koroğlu neyləyirəm?!
Düşmən bağrın teyləyərəm, dərdin alaram!
Qabaqda qılınc tovlayaram,
Elə bilərəm meşə gəlir.
Qabaqda qılınc tovlayaram,
Elə bilərəm meşə gəlir.

Soruşdular:

– Bəs ağa Koroğlu, indi təsmimin[4] nəmənədir? Nə eyləyəcəksən?

Deyir:

Qoç Koroğlu neyləyirəm?
Düşmən bağrın teyləyərəm.
Qabaqda qılınc tovlayaram,
Elə bilərəm meşə gəlir!

---

[1] Təkcə mənim başımı aparmağa gəlirlər.
[2] Vuruşmaq, savaşmaq
[3] Danışıq dilində bəla, afət
[4] Niyyət, qərar

Qorxmayın haa! Deyərsiz bəlkə mən özüm oturacağam sizi yollayam oraya, onlar ilə cəng eyləyəsiz, dava eyləyəsiz, yox. Qabaqda qılınc tovlayaram, elə bilərəm meşə gəlir. Özüm hamıdan qabaqda gedəcəyəm.

Amma indi Koroğlu burada nə təsmim tutacaq, nə eyləyəcək, dəstanımızın idaməsini[1] usta Əli idamə versin, tamam eşidənlərin sağlığına.

*(Aşıq Behnam sazı aşıq Əliyə verir)*

*Aşıq Əli:*

*– Sağ ol, ağzın var olsun! Var olasan!*

*– Elə bilərəm meşə gəlib, bəli, qabağıma meşə gəlir ağayi aşıq[2]. Behnam, çox sağ olasan, köməkliyin də oldu. Var olasan!*

Dedi:

– Balalar, o cür ki, dedim, iki nəfər deyil, altı min nəfərdir. Gəlirlər fəqət Koroğlunun başını aparalar, məni öldürələr. Silahlanın!

Getdilər, uşaqlar hamısı sılahlandı. Bunlar gəliblər:

– Ağa Koroğlu, əmr eylə!

Dedi:

– Balalar, həmlə eyləyəcəyik gedək. Qoşun yatıb dərədə.

Bunlar gedirlər, müntaha o zaman gedirlər, yetişirlər gecə qaranquluqda. Bunları sazmandehi eyləyir[3] Koroğlu orada, fərmandehlər hansıdır. Müntaha deyirlər, bir zaman gedəcəyik ki, gecə ilə gündüzün ayrımında ki, nigəhbanlar da yuxuda ola, şəbxun[4] vuracağıq bunlara.

Bunlar gəldilər səngər tuturlar, o zaman ki gecə ilə gündüzün ayrımı idi, Koroğlu yavaş-yavaş bir-bir fərmandehlərə dedi:

---

[1] Qalanı, ardı
[2] Aşıq cənabları
[3] Yoluna salmaq
[4] Gecə vaxtı düşmən üzərinə gözlənilməz basqın

– Həmlə!

Üç tərəfdən həmlə eylədilər, varid eylədilər, doldular çadırlara. Əvvəlin çadıra yetişdilər, nigəhbanın boynunu vurdular, nigəhban mayallaq aşdı. Keçdilər hər çadırda bir nəfərə bir xəncər vurdular, o vurulan yuxudan diskindi, ayıldı gördü mən xəncər yedim, deyirdi bəs yoldaşı vurdu, düşdü yoldaşının canına. Çadırlar da iki nəfər, üç nəfəri idi[1], dörd nəfəri idi. De birbirini bu cür vurandan sonra bunlar bir-birinin canına düşür. Oğlanlar bir tərəfdən, bunlar da özləri düşüb bir-birinin canına bir tərəfdən. Vuranı vurdular, öləni öldürülər, yaralananı yaraladılar amma çıxdılar bunlar hara? Dövr vurdular gəldilər Bolunu mühasirəyə saldılar. Bolunu çıxardıblar eşiyə. Əhməd Əli Mirzə ilə çıxartdılar eşiyə. Əsir tutublar bunlar. Hər dörd nəfərbeş nəfərin dövrəsində iki-üç nəfər Koroğlunun oğlanlarından durub saxlayıblar. Amma belə baxdı Əhməd Əli Mirzə gördü, haman aşıqdır ki, aşıq idi burada– Koroğludur. Biz nə cür aşpazın sözünə baxmadıq? Aşpaz düz deyirmiş, orada da onu öldürdürdük. İndi Koroğlu bunları əsir tutub, çadırın qabağında, bunları dəstur verdi bassınlar suya. Basdılar bunları suya, çıxartdılar eşiyə, basdılar suya çıxartdılar eşiyə. İndi bunlar islanıblar, çıxıblar durublar tirim-tirim titrəyirlər Bolu ilə Əhməd Əli Mirzə. Koroğlu özünü tutub:

– Hən, bəs belə. Qulaq verin, qoyun deyim mən kiməm. Kim idim? Nəyə indi gəlmişəm buraya? Sən nəyə xatir gəlibsən buraya? Bunları deyim.

Koroğlu indi götürüb bu sözləri deyir baa… “Qars havası” ilə…

– İndi biyol canını hara qoyursan? Haraya qaça bilərsən?

Ey bir ərzim var, sənə söyləyim,
Mən dəlini tutan günlər, nə cür oldu?

---

[1] İki-üç nəfərlik çadır

*(O saatlar, o dəqiqələri bir yadına sal. Nə eyləyirdin mənim başıma? Basırdın çaya çıxardırdız məni, tapdayırdız).*

Xəncər ilə bağrım başın peyləyirdin,

*(Az qalırdı məni öldürəsən. Əgər bir-iki kəlmə söz tapıb deməsəydim, aşpaz cərəyanını məni öldürdürürdüz).*

Mən dəli tutan günlər nə cür oldu?

Əhməd Əli Mirzə dedi:

– Bolu.

Dedi:

– Bəli.

Dedi:

– Dan haa, de biz deyildik, görən kim idi?

Dedi:

– Baba, bu böyüklükdə işi danmaq olar? Özün fikirləş.

Koroğlu dabürə oxuyur:

Ulduz olan şövqün salar aylara,
Nökər olan qulluq eyləyər bəylərə.
Yadında var basdırırdın çaylara?
Mən dəlini tutan günlər necə oldu?

Əhməd Əli dedi:

– Bolu, bundan qurtulacağımız yoxdur. Məğzinə sal, fikirləş gör nəmənə tapacağıq deyək, nəmənə eyləyəcəyik?

Koroğluyam, qılınc aldım dəstimə,
Billəndirərəm,[1] eyy düşmənimə, dostuma.
Az qalmışdı saman basan[2] pustuma[3],
Mən dəlini tutan günlər necə oldu?

Söz təmamə yetişəndə[4] dedi:

---

[1] Bildirmək
[2] Basasan
[3] Dəri
[4] Söz sona yetişdikdə

– İndi sözün nəmənədir? Bax, indi burada mühasirədəsən. Oğlanlarının bir azı yaralıdır, bir azını da əsir tutmuşuq. Ölən də ölüb. Sənin indi qoşunundan qalıb, yığsaq bir yerə hamısını olar bir nəfər. Beş min nəfəri aradan gedib. İşin nəmənədir? İndi də sən bizi, gəlmişdin başımı aparasan, biz səni öldürəcəyik. Amma bizdə o yoxdur, bizim qanunumuzda. Biz mərdik, kişiyik. Sən məgər gəlməmişdin mənim başımı aparasan?

Dedi:

– Qurban, bəli.

Dedi:

– Sənin ixtiyarın bizdədir. İndi biz eyləyə bilərik səni öldürək. Sən ilə burada küşti tutacağıq, bu meydanda, bu çadırın qabağında. Sən məni yıxsan, mənim başımı kəs, qurtar. Mən də səni yıxsam, sənin başın kəsəcəyəm.

Dedi:

– Qurban, qəbuldur. Olsun daa.

Meydanı açdılar. Koroğlu ilə Bolu keçdi vəsətə. Bir az fırıldandılar. Dolandılar. Əl atdılar bir-birinə, bu onu çəkdi, o bunu çəkdi. Əl atdılar bir-birinin belə *(Aşıq əlini öz çiyininə qoyur)* çiyninə, o bunu fişar verdi[1], aparırdı o yana, bu onu çəkir bu üzə. Kələ-kəlləyə, döş-döşə, sibil-sibilə, bunlar küşti tuturlar.

Bir rübdən sonra Koroğlu bir bunu fırıldatdı. Fırıldadanda bunun qıçı keçdi Koroğlunun əlinə. Belə buradan *(Aşıq öz baldırlarını göstərir)* baldırlardan nə cür yapışıb, bir əli də qolunda. "Ya Mövla!" deyib, Bolunu qovzadı göyə, dalı üstə vurdu yerə. Pəhləvanların zanubəndləri[2] olardı onda, belə basdı si-

[1] Basdı, itələdi

[2] Güləşdə dizləri qorumaq üçün dizə sarınan gön

nəsinə. Sinəsinə basanda, Bolu altdan bir səs çıxartdı, fişar gəldi biləsinə. Yıxmışdı biləsini, əl getdi qəbzeyi şəmşirə, çıxardıb başını kəsə. Belə baxdı, gördü Bolu zırıldadı. İstəyirdi başını kəsə haa. Dedi:

– Bəs nəyə ağlısan? Məgər bura karzari cəng[1], meydan deyil? Məgər gəlməmişdin mənim başımı aparasan? İndi qərarımız da budur, mən səni yıxsam, başını kəsəm. Sən məni yıxsa idin, başımı kəsməyəcək idin?

Dedi:

– Qurban, kəsəcək idim. Axı qurban, sən bilmirsən.

Dedi:

– Sözünü de, ağlama! Arvad ağlar. Sözünü de, kişi deyilsən məgər?

Dedi:

– Ağa Koroğlu, indi sən məni yıxdın, mən arzuma yetişmədim.

Dedi:

– Arzun nəmənədir?

Dedi:

– Arzum budur. Qərarımız budur. Budur, kağız da cibimdə, qurban. Mən gərək səni ya qolubağlı aparam Paşaya təhvil verəm, ya başını kəsəm aparam. İndi bunların heç birini edə bilmədim. Aparsaydım, qızı Dona Xatını mənə verəcək idi. Qız da məndən ötür müntəzirdir. Bir də mənə bir vəzirlik məqamı verəcək idi. Sən də məni öldürürsən, qurban. Mənim arzum qaldı gözümdə daa.

*(Aşıq Bolunun ağlamasını təqlid edir).* Başladı zırıldamağa, ağlamağa. Dedi:

– Ağlama, ağlama!

---

[1] Savaş meydanı

Qılınc əlində idi, istəyirdi başını kəsə, yavaşcana qılıncı ötürdü yerinə Koroğlu. İsa Vəlli bu səhnəni gördü, dedi:

– Koroğlu, nəmənə eyləyirsən? Yıxmışsan, nəyə öldürmürsən?

Dedi:

– Yox, öldürmürəm.

– Nəyə öldürmüsən? O səni yıxsa idi, məgər başını kəsməyəcək idi?

Dedi:

– Oğlan, o namərddir, biz mərdik. Mən kəsməm bunun başını. Bunun başını kəsməyəcəm, bunun arzusu var. Qızın orada gözü yoldadır, müntəzirdir bu gedə.

–Ağa Koroğlu, bunun başını kəs!

Dedi:

– Yox.

Dedi:

– Bəs istəyirsən neyləyəsən?

Dedi:

– Deyərəm.

Koroğlu üzünü tutdu Boluya. Dedi:

– Mən indi səni burada yıxmışam?

Dedi:

– Bəli, qurban!

Dedi:

– Başını da kəsmirəm, gördün?!

Dedi:

– Bəli.

Dedi:

– Burada mən özüm düşəcəyəm sənin yanınca gələm İstanbula. Orada ki, sən məni aparırdın, oraya təhvil ver. Bir

cür eylə, məni qoyma öldürsünlər. Yollarda da məni ac saxlama, ac qalmağım yoxdur. Bir cür də elə indi sən fərmandehsən daa, indi də olursan paşanın damadı. Bir cürlük elə sən toyun eyləyəndən, qurtarandan sonra məni də gəl azad eylə, çıxım gəlim, sən də arzuna yetiş.

– Ağa Koroğlu, sən bu işi mənə görsən, mən sənə ölənə kimi həlqə be quş[1]qulam olaram, nökər olaram, qapında qalaram. Ağa Koroğlu, heç kim bu işi görməzdi haa. Ağa Koroğlu, mən yıxsa idim, sənin başını kəsəcək idim.

Dedi:

– Hən, biz o cür deyilik, oğul! Qalx ayağa! Qalx ayağa!

Oğlanlara dedi:

– Siz gedin, bala, mən Bolu ilə gedirəm. Yollarda bir məni ac qoymayacaqsan. Bir də piyada aparmayacaqsan! Piyada da gedə bilmərəm. Bir də işi bir cür sal məni orada öldürməsinlər. Sən toyunu eylə, məni də gəl zindandan ötür, qoy çıxım gəlim öz məmləkətimə.

Dedi:

– Ağa Koroğlu, çəşm.

– Qovl[2] verirsən?

Bolu dedi:

– Bəli, qovl verirəm kişi kimi.

İsa Vəlli dedi:

– Ağa Koroğlu, deməli özün öz əlin ilə düşürsən bunun qabağına gedəsən? Dedi:

– Bəli, oğul, gedirəm.

– Ağa, getməgilən!

Dedi:

---

[1] Qulağında həlqəsi olan qulam, nökər, kölə

[2] Söz

– Əslən olmaz! İmkanı yoxdur.

İsa Vəlli üz döndərdi oğlanlara, dedi:

– Ağa, Koroğlu bizim sözümüzə baxmadı. Koroğlu indi təkinə düşür gedə. Bu namərdin qabağına düşür gedir, hər kim bunun dalına düşsə, dədəsi bu, nənəsi bu, şərəfi bu.

Yaman qoydu İsa Vəlli heç kim bunun dalısınca getməyə. İndi İsa Vəlli, fərmandehlər hamısı ləşkəri götürüb gedirlər öz yerlərinə. Koroğlu düşüb Bolunun yanına. Bunlar gedirlər, dağı aşanda Koroğlunu mindirdilər bir dənə arabanın üstünə. Koroğlu ilə Bolu danışırlar. Bolu bir gördü sən ölməyəsən, Çənlibeldən çox ara açmışıq, üç ağac, altı ağac zad yol aşmışıq. İndi burada Koroğlu daha havar eyləsə, səsi çıxmaz. Belə danışa-danışa gedirdi, dedi:

– Ağa Koroğlu?

Dedi:

– Bəli.

Dedi:

– Ağa Koroğlu, baba, o kişilik səndə var, bizdə yoxdur.

– Xahiş eyləyirəm[1].

– Ağa Koroğlu, belə şeytan ölməyib, istəyirəm bir söz deyəm, ancaq müqəyyəd oluram, utanıram.

Dedi:

– Yox, sözünü de.

Dedi:

– Vallah, indi oğlanlar gedər, şeytan ölməyib, gedərlər deyərlər Koroğlu ilə Bolu dostluq qurdular, araya gəldilər, dava eyləmədilər, cəng eyləmədilər. Onda qızı mənə verməzlər, deyərlər sən dava eyləməyibsən, nə cür bunu gətiribsən? Qoy bir icazə versən qollarını bağlayım, qıç-qolunu bağlayım,

[1] Yox, o nə sözdür!

desinlər Koroğlu özü gəlməyib, Koroğlunu əsir tutub gətirib, inansınlar.

Dedi:

– Onu Çənlibeli çıxandan deyəcək idim bağla, müntaha danışa-danışa gəldik, yadımdan çıxdı. İşkalı yoxdur,[1] gətir mənim qıç-qolumu bağla!

Ancaq bu çarpaz dəmirlər Koroğlunun qollarından bağlandı, gəldi qıçlarından bağlandı, arabaya bağlandı. İndi biyol fələk[2] Koroğlunu aça bilməz. Koroğlunu qıç-qolu bağlandı, bunlar yenə yola idamə verdilər. Bolu öz atı ilə gedib qabaqda, fırıldanır. Oğlanlar da həmin cövlan verirlər, Koroğluya baxıb şadlıq eyləyirlər. Bir zaman idi Koroğlu gördü, sübh oldu naştovluq[3]. Xəbər olmadı, heç Bolu da mənim yanıma gəlmir. Naştovluq oldu nahar, nahar-mahardan xəbər yoxdur. Hər yerdə saxlayırlar, bunlar özləri gedib orada yeyib-içirlər, heç mənə sarı gəlmirlər. Oldu ikindi, xəbər yoxdur. Mən günün qabağında pişdim, burada öldüm. Gördü, ey dadi-bidad, demə Bolu da namərd çıxdı. Burada Koroğlu qəhərlənib, öz-özünə götürüb orada, dustani əziz, şeir ilə deyir, qolları bağlıdır şeir ilə deyir, amma biz aşıqlar o şeiri saz ilə, söz ilə deyirik. Koroğlu burada üzünü tutub, ay dağlar, ay elim, ay oğlum, ay vətənim, görəsən mənim səsimi eşidərsiz? Bilirəm, səsimi eşitsəz yenə gələrsiz, amma səsim getməz. Bu sözləri deyir:

Başı uca qarlı dağlar,
Dağlar, sizdə nəyim qaldı?
Əlim çatmaz, ünüm[4] yetməz,

[1] Eybi yoxdur
[2] Burada fələk, güc, qüdrət anlamında işlədilmişdir (Yəni, heç bir qüdrət Koroğlunu qurtara bilməz)
[3] Səhər yeməyi
[4] Səs

*(Yəni, səsim yetməz).*
Dal budaqda narım qaldı.

Koroğlu burada qəhərlənir, ey dadi-bidad, özüm yıxılmışam, özü yıxılan ağlamaz. Qəhərlənib, götürüb bu sözləri deyir “Taciri” havası ilə oxuyuram.

Gördü, səsim yetirə bilməz Çənlibelə, amma billah, bildi oğlanlar eşitsə, yenə gələr.

Namərd olur Bolu bəylər,
Ağır zəncir boynum əyər.
Tamam bir-birindən yeylər,
Gözəl məhbublarım qaldı.

Qıratın qaldı əllərdə,
Vəsfim söylənər dillərdə.
Çardaqlı Çənlibellərdə,
Nigar kimi yarım qaldı!

Ya rəbb, Koroğlu ac ölür,
Öldürər verməz macalı.
Hayıf qıymadım qəcəri,[1]
Sinəmdə dağları qaldı.

Söz təmamə yetişdi. Bunları deyəndən sonra yenə bir yerə yetişdilər. Oğlanlar şikar eyləmişdi, dəstur verdi ordunu saxlasınlar. Saxladılar. İndi bunlar od düzəldiblər, tonqal düzəldiblər, o ovlardan ki, vurublar bunlar, şikar ediblər, gətiriblər çəkirlər. Koroğlu da orada arabanın üstündədir. Arabanın üstündə ki, oturub günün qabağında, bunlar yeyirlər, içirlər, qaqqıldayırlar, gülürlər, ətlərini yeyirlər, sümüklərini atırlar Ko-

[1] Kiçik quş adı

roğlunun başına. Ay dadi-bidad! Koroğlu dedi, mən sənin namərdliyini bilirdim, amma bu əndazə bilmirdim. Oradan işarə eylədi. Hərəkət edəndən sonra işarə eylədi Boluya, deyin gəlsin bura. Bolu gəldi, dedi:

– Hən? Nə deyirsən? Xinzir kərətə.

Dedi:

– Bu cür qovl vermişdin? Bu cür eyləyəcək idin mənim başıma? Sən kişi deyilsən? Laəqəl o xurdü xürək mənə vermirsiz, mən yandım günün qabağında, bir zərrə o sudan mənim boğazıma.

Dedi:

– Su istəyirsən? Ahay sərbaz[1], su gətir!

Suyu gətirdilər.

–Ağzını aç!

Sərbaza dəstur verdi. Nə cür sərbaz göydən istəyirdi töksün Koroğlunun ağzına. Koroğlu gördü bir zərrə su getdi bunun ağzına. Nə cür belə təpik ilə vuranda qumuquma getdi o üzə. Dedi:

– Həən, deyirsən bəs mən səni yedirdə-yedirdə, içdirə-içdirə, kef ilə aparacağam? Sən öləsən, yollarda acından-susuzdan öldürəcəyəm. Bu sistem mən səni apartmayacağam.

Dedi:

– Qəlbimə bir qatar şeir gəldi, qoy bunu deyim. Eşitmişdim sənin namərdliyini, amma bu dərəcədə eşitməmişdim.

Dedi:

– Bura şer-mer yeri deyil.

Koroğlu dedi:

– Saxla, ürəyim coşa gəlib.

Bir-iki dənə də çəkdi Koroğlunun bədənindən qamçı ilə,

---

[1] Əsgər

şallaq ilə. Koroğlunun bədəni od tutdu yandı. Dedi:

– Mən deyirəm saxla, namərd.

Dedi:

– Saxlamam.

Dedi:

– Mən deyirəm saxla.

Dedi:

– Olmaz, hərəkət eylə.

Koroğlu nə cür qıçın dirədi daşa. Daşa dirəyəndə atlara nə qədər qamçı, şallaq vurdular, atlar hərəkət eyləyə bilmədi. Dedi:

– Deyirəm namərd oğlu namərd, sözüm var.

Gördü atlar yerimədi daha. Durdu atlar burada, götürdü Koroğlu bu sözləri deyir. Bolu dedi:

– Sözünü de.

*Bu sözləri deyir, Aşiq Behnam bir dənə oxusun, sonra yenə mən sizin xidmətizdəyəm. Burada bu havaları tək olmaz, cüt oxumaq lazımdır.*

*Aşıq Behnam:*

*– Yaşayasız!*

*Mən dübarə salam ərz eyləyirəm Koroğlunun bu sözləri. Əvvəl təşəkkür eyləyirəm usta Əlidən. Koroğlunun bu sözlərini "Narıncı" havası ilə. "Narıncı" havası ilə oxuyum, ellərimiz şad olsun.*

Çarxın dönsün zaman sənin,
Nə saldın dərbədər məni?
Qocaldır andan[1] öldürür,
Namus, qeyrət, bu ar məni.

Koroğlu belə baxdı gördü Bolu namərdliyi başladı. Üç

---

[1] Ondan sonra

dənə mən şərt qoymuşdum, heç birinə əməl eyləmədi. Amma nə əndazə narahatdır, öz əhvalatına şeir deyir, bayatı deyir. Bu cür oxuyur:

Nəçidir, bəylər nəçidir?
Bu gələn dostun səsidir.
O fələyin silləsidir ha,
Salıbdır dərbədər məni.

Qoç Koroğlu həzar etdi[1],
Qəm yükün çiyninə götdü.
Gör kimlərə möhtac etdi,
Çarxı dönmüş zaman məni.

*Sözümüz təmamə yetişib, havamız "Narıncı" havası idi, toy havası idi. Oxudum ellərin sağlığına ustadım dastanımıza idamə verəcək. Aşıq Əli:*

*– Ağzın var olsun!*

*"Narıncı" havası ilə oxudu. "Narıncı" bunların havasıdır, toy deyil, Aşıq Behnam. Toyda çox oxuyarlar, odur ki, deyir bəs toy havasıdır.*

Koroğlu sözünü deyib qurtarandan sonra yola idamə verirlər. Az qalırdılar yetişsinlər İstanbula, Bolu dəstur verdi bir dənə atlıya, sərbaza:

– Qaçgilən, xəbər vergilən İstanbula dərbara ki, denən Koroğlunu gətiririk. Əsir tutub gətiririk.

Bu atlı gedib xəbər verir:

– Paşam sağ olsun, Koroğlunu gətiririk. Az qalır yetişə şəhərə. Qabağa çıxsaz çıxıbsız, çıxmasaz da özüz bilərsiz, biz Koroğlunu gətiririk.

Paşa dəstur verdi saz, döhül, toy, tiringə çıxdı qabağa.

---

[1] Uzaq gəzdi, ehtiyat etdi, özünü saxlaşdırıb müdara etdi

Toy çalındı qabaqda. Bəli, vaxtında Koroğlunu yetirdilər İstanbula. Dərbarın qapıları açıldı, Koroğlunu varid eylədilər içəri. Varid eyləyəndə içəri belə yapışdı Koroğlunun çiynindən Bolu, belə bu sistem itələdi. Dedi:

– Paşam sağ olsun, bu da sənin Koroğlun.

Koroğlu yıxılmadı, amma yarım yıxılan oldu, belə dizi dəydi, batdı tez durdu. Paşa dedi:

– Vəzir?

Dedi:

– Bəli.

Dedi:

– Cərəyan nəmənədir?

Axı Bolu Koroğlu tayı deyildi, bu Koroğlunu nəyə tutdu gətirdi? Nə cür tutub gətirib? Bunu bir sual-cavab eyləyək, görək bir bərnamə nəmənədir. Dedi:

– Bolu.

Dedi:

– Bəli.

– Qurban.

Dedi:

– Bir müxtəsər şərh ver görək nə cür oldu, sən bu Koroğlunu gətirdin?

Dedi:

– Nə cür olacaq? Ağa, qoşunum qoşunu ilə cəng eylədi, özüm də özü ilə. Qoşunum vurdu dağıtdı, aradan apardı bunun qoşunun, bu da Koroğludur. Mən biləsini yıxdım yerə, istəmədim daha başını kəsəm, qurban. Dedim, qoy qolu bağlı gətirim buraya. Burada işgəncə verək biləsinə. Sən özün işgəncə ver, çox ürəyin dağlıdır bu Koroğludan. Bu da Koroğlu da...

Dedi:

– Koroğlu, düz deyir?

Dedi:

– Xeyr, qurban. Elə yalan deyir, elə bil özüm danışıram.

Dedi:

– Nə cür məgər?

Dedi:

– Qurban, yalan deyir. Bu düz deyir? Buna qılınc, qalxan, əmud, şeşpər, nəmənə silah verəcəksiz, verin! Elə sizin gözüzün qabağında, mənim də əlim bağlı. Ağa, bu ilə küşti tutacağıq, bu ilə güləşəcəyik, bu ilə dava eyləyəcəyik. Bu məni, ağa, yıxsa, düz deyir elə məni orada o cür eyləyib gətirib.

Paşa dedi:

– Düz deyir də. Qoyun burada bir dəsti pəncə nərm[1] eləsinlər, görək düz deyir bu Bolu.

Dedi:

– Bolu, sənə silah veririk. Burada bir gözümüzün qabağında əlləşin.

Dedi:

– Paşam sağ olsun, olmaz!

Dedi:

– Nədən olmaz?

Dedi:

– İndi bu hirslənib.

Paşa güldü dedi:

– Bəs hirslənib? Bəs sən bunu cəng eyləməyibsən gətiribsən? Yalan danışırsan. Düz deyirsən keç bu ilə güləş, dava eylə.

Dedi:

– Qurban, olmaz.

Çox deyəndən sonra dedi:

---

[1] Güləşmək

– Mənə bax, mən yuxuda tutmuşam, aldatmışam, dostluq qoymuşam araya, hər nə eyləmişəm, ağa, Koroğludur ya, yox? Koroğlu, məgər sən Koroğlu deyilsən?

Dedi:

– Bəli.

Dedi:

– Ağa, gətirmişəm də, sən məndən Koroğlunu ya başın, ya da qolu bağlı istəyirdin. Budur, qolu bağlı gətirmişəm də. İndi əhdimiz yerindədir?

Vəzir dedi:

– Paşa, daha buna söz yoxdur daa, gətirib daa. Koroğludur daa.

– Cəllad!

Cəlladlar qırmızı börk, qılınclı, amadə oldular. Paşa dəstur verdi:

– Vurun bunun boynunu!

Vəzir keçdi qabağa, dedi:

– Nəmənə eyləyirsən?

Dedi:

– İstəyirəm öldürtdürəm.

Dedi:

– Buna bax, öldürtdürəm, bu yalan deyir, onun oğlanlarını görməyib. Mənə bax görüm, Bolu! Çıxacağam bir hazır-qayıb eyləyəm[1], san tutam, görəm sərbazların neçəsi var, neçəsi yox!

Orada gördü:

– Mən min nəfər tələfat[2] vermişəm, əgər cəng eyləməmişəm, nə cür o tələfatı vermişəm? Onun da oğlanlarının biri

---

[1] Yoxlamaq

[2] "Tələf" sözünün cəmi. Hərbi əməliyyat, təbii fəlakət, qəza və sairə nəticəsində sıradan çıxan adam, əşya, maşın və sairə.

ölməyib, Koroğlunun.

Vezir dedi:

– Qurban, hara öldürürsən?

Dedi:

– Nəyə öldürməyim? Məgər Koroğlu deyil?

Dedi:

– Bunun oğlanları yeddi min yeddi yüz yetmiş yeddidir. Hərəsi bir Koroğludur. Qurban, bunlar təəssüblüdür. Biləcəklər Koroğlu gəlib İstanbula, orada dayanmazlar, təəssüb çəkib gələcəklər Koroğlunun dalınca. Bunlar gələndə bir dənə-bir dənə, iki dənə-iki dənə, beş dənə-beş dənə tutacağıq hamısını bir yerdə öldürək. Bunu indi biz burada öldürsək, həmlə eyləyərlər, bir dəfə bizim varı-yoxumuzu doldurarlar bir dənə at torbasına, tökərlər dəryaya, qoymazlar bizdən bir avadanlıq qala.

–Vəzir, düz deyirsən?

Dedi:

– Bəli, qurban.

– Bəs neyləyək?

Dedi:

– Dəstur ver salsınlar zindana, çürüsün daa. Eşidəcəklər Koroğlu burada zindandadır, gələcəklər, tutaq hamısını salaq zindana bir-bir yerdə öldürək!

Dedi:

– Vəzir, bu qəşəng sözdür.

Koroğlunu verdilər zindana. Zindan nə zindan! Bir dənə daşdır. Bu daşı beş nəfər, altı nəfər, on nəfər götürüb-qoya bilərlər. Amma daşın vəsəti belə girdə bir dənə aşpaz yeri ki, sətil sallayalar bunun aşğalını[1] çəkələr, ya qəza aparalar. İp ilə

---

[1] Zibil

sallayırdılar. Koroğlunu saldılar o yerə. Üstdən də daşı qoydular üstündə.

İndi Koroğlu qalsın orada. Bu üzdən Dona Xatına xəbər yetişdi:

– Xanım, Bolu Koroğlunu gətirdi təhvil verdi.

– Hən, öldürmədilər?

Dedi:

– Yox, istəyirdi ağan öldürə, vəzir dəstur verdi, saldılar zindana.

Dedi:

– Öldürmədilər ki?

–Yox.

Bu kim idi bu Dona Xatın? Nigarın əmiqızısı idi. Dedi:

– Mənə nişan verin gedək görək.

İndi gedirlər Koroğluya bir baş vura. Amma bu üzdən də Bolu dəstur verdi toy başlansın. Bunlar toy eyləyəcəklər, ya eyləməyəcəklər işim yox. Hələ istəyirlər tədarük[1] görələr, toyun tədarükünü. Hey Bolu israr eyləyir:

– Ağa, bəs nə zaman? Bəs nə zaman toyumuz olacaq?

Hələ qız saxlaşdırır, Dona Xatın. Dona Xatın gedər özünü yetirər Koroğlunu haman quyuda ki, salıblar, zindanı ediblər oraya:

– Salam, ağa Koroğlu!

Koroğlu gördü birdən üstdən səs gəldi. Belə başını qovzadı dedi:

– Əleykəs salam, qızım.

–Ağa Koroğlu, bəs nəyə bu vəzdə?

Dedi:

---

[1] Bir şeyi qabaqcadan hazırlama, bir işi görmək üçün əvvəlcədən hazırlıq görmə, hazırlıq, ehtiyat

– Olub daha. Kişinin başına qəzavü qədər gələr.

Dedi:

– Ağa Koroğlu, məni tanıyırsan?

Dedi:

– Xeyr.

Dedi:

– Mən Nigarın əmiqızısıyam. Familləindənəm[1] daha. Gəlmişəm sənə burada xidmət eyləyəm.

–Qızım, nə cür xidmət eyləyəsən?

–Yemək-içməyini vaxtında gətirib verəm.

Dedi:

– Qızım, axı gətirə bilərsən?

Dedi:

– Qovl verirəm.

Dedi:

– Sənin də qovlun Bolunun qovlu kimi olmaya, qızım?

Güldü dedi:

– Ağa Koroğlu, Bolu kişi deyil ki, mən sənə qovl verirəm vaxtı vaxtında sübhanəni, naharını, şamını gətirəm.

– Qızım, Allaha təvəkkül. Məni yuxarıdan aşağıya gətirən Allah, demirəm saxlayasan daa, ölməyəm. Qalmaq yeri deyil. Burada nə altımda bir cicim var, nə gilim var, nə balış var, nə yastıq var, nə yorğan var, salıblar buraya.

Burada idi qız qovl verdi. Dedi:

– Qızım, hən, vaxtlı vaxtında mənim şam-naharımı gətirərsən.

Qız vaxtlı vaxtında, Dona Xatın, bunun xürdu xörəyin aparır. Aşğal-maşğalını da sərbazlar çəkərlər eşiyə. İşimiz yox. İndi bu burada zindandadır. Dona Xatın buna gündə yetişir.

[1] Qohum

Amma bir aydan, on gün çoxdur Nigar gördü Koroğlu gəlmədi, xəbər olmadı, nə öldüyündən, nə diriliyindən. Oğlanlar da bu üzdən, İsa Vəlli fərmandehi ləşkərdi[1] söyüş qoyub, yaman qoyub heç kəs Koroğlunun dalısıca getməsin. Nigar özünü saxlaya bilmədi. Başı açıq, üryan-türyan[2] varid oldu məclisə. Çün nəyə? Nigar bunlara ana sayılırdı. Gözləri dolub bahar buludu kimi ələnir. Ala gözlərdən yaş gəlir. Üzünü tutdu oğlanlara ağlaya-ağlaya:

– Heç siz utanmırsız? Xəcalət çəkmirsiz, ölmürsüz-ərimirsiz? Adamın bir dənə toyuq evdən gedəndə təəccüb eyləyər, deyər, bu toyuq görüm hardadır, gedər onu tapar gətirər. Sizin indi ağanız bir aydan, on gün çoxdur buradan çıxıb gedib, bir nəfər durub getmir onun dalısınca, onun ya sağlığının, ya ölümünün xəbərin gətirə mənə.

Heç kəsdən səs çıxmadı. İki dəfə dedi. Yenə səs çıxmadı. Üçüncü dəfə. Heç kəsdən xəbər çıxmadı. Üçüncü dəfə İsa Vəlli belə baxdı gördü, anam Nigar ağlayır. Mən bu Nigarın ağlamağını çəkə bilmərəm. Mən düzdür özüm yaman qoymuşam Koroğlunun dalısınca getməyə, amma durum görüm nə cür olar! Dedi:

– Balalar, yamanı mən qoymuşam. Mən demişəm hər kəs Koroğlunun dalısınca getsə dədəsi bu, nənəsi bu, namusu bu, şərəfi bu. Amma o söyüşlərin, yamanların hamısı gəlsin mənə. Mən anam Nigarın ağlamağın çəkə bilmərəm. Mən dözə bilmərəm.

Üzünü tutub oğlanlara İsa Vəlli bu sözləri deyir ki, aya[3] mən ilə bir nəfər oğlan var gələ? Bu sözləri deyir. Belə deyir baa… “Misri” havası ilə…

---

[1] Qoşun başçısı

[2] Çılpaq, lüt

[3] Əcəba

Gedirəm ey qürbət ellərə,
Bir oğlan gəlsin mən ilə.
Düşmənləri at belindən salıram,
Salsın mən ilə.

– Mənə həmrah[1] olsun.

Bir nəfər ayağa durmadı. Hamısı başını saldı aşağı. Dedi:

– Özün yaman qoyubsan dalısınca getməyək, getməyəcəyik.

Amma ikinci sözü belə deyir:

Yaxşı olar həya-pərdə,
Heç əlim olmadı sərdə[2].
Ölürəm ki, ölən yerdə
Qalıram qalsın mən ilə.

İsa Vəlli oğlanlara baxır, Nigar oğlanlara baxır. Görür bir nəfər başını qovzamadı.

İsa Vəlli deyər, mərd oğlan hanı,
Nökərsən ağanı tanı.
Amma qoç Koroğlu kimin ağanı,
Axtarıb bulsun mən ilə.

Oğlanların heç birindən xəbər çıxmadı. İsa Vəlli dedi:

– Nigar xanım, qurbanın kəsim mən. Oğlanların birindən səs çıxmadı, mən özüm təkəlikdə gedəcəyəm. Sən narahat olma, ya mən də gedərəm qalaram Koroğlunun yanında, ya da Koroğlunu gətirərəm. Sən nigaran qalma!

İsa Vəlli keçdi atı çıxardıb eşiyə. Hansı atı? Koroğlunun atını. O at bir mehtərə, öz mehtərinə ki, Dəli Mehtər idi, bir də Həmzə gəldi biləsinə. Keçəl Həmzə, mehtərlik eylədi, bir İsa Vəlli, bir də Koroğlu, bunlardan sonra heç kimə minik verməz-

[1] Yoldaş
[2] Başda

di. İndi biyol İsa Vəlli keçib Qıratı çəkib eşiyə, zirtəngin, balatəngın bağlayıb, yəhərin, əsləhə-əbabını Koroğlunun bir miqdar götürüb. Amma atdan bağlayıb silahlardan, üstdən aşıqlıq libasında. Nigardan xudahafizləşdi:

– Anacan, mən getdim.

İsa Vəlli Çənlibeldən çıxıb. Günə bir mənzil, teyi mənazil[1], qəddi-mənatil[2] yol gedir, o yerlərdə ki, istirahət eyləyir. O yerlərdə ki, gedir, gedir. O yerlərdə ki, atı çapdırdır, qovur. Vəxtində yetişdi bu İstanbula. Yetişdi bir karvansara tapdı. Varid oldu içəri. Atı karvansaranın kargərlərindən[3] çəkib, qıraqda bağladılar.

Oturdu, bir çay gətirdilər. Çay gətirdilər, çıxartdı pulunu verdi. Çay, məsələn olsaydı bir qıran, çıxartdı beş qıran verdi. Karvansaraçı bundan xoşu gəldi, dedi:

– Aşıq.

Saz götürmüşdü üstdən[4] İsa Vəlli. Bunların hamısının adəti idi, gedəndə sazı götürərdilər.

Bu sazda çox şeylər yatıb, bunun içində. O yerdə ki, sözünü yetirəcək, xoşluq ilə yetirə bilmirdi, dava ilə, cəng ilə yetirə bilmirdi, bu saz ilə sözünü yetirərdi. İndi deyirlər tənz halətində, kinayə halətində[5]. Bu sazı hər kəs görsə, lap xoşu gəlməyən adam da görsə, bu sazı elə biri görsə dodaqları qaçar, bir gülümsünər. Çün aşığın niyyəti odur. Bu musiqinin niyyəti odur. Xasiyyəti odur.

Karvansaraçı gördü bu bir qıran çayı içdi, bir qıran eylədi, bu beş qıran verdi. Dedi:

---

[1] Mənzil sözünün cəmi, mənzillər

[2] Ərəbcə “tul” kəlməsinin cəmidir, uzunu

[3] İşçi

[4] Yəni, altdan silah salıb, üstdən saz götürmüşdü

[5] Yəni, müstəqil, açıq deyə bilmədikləri sözü saz ilə anlatmaq

– Aşıq, çox şanslı aşıqsan.
– Nə cür məgər?
Dedi:
– Paşanın qızı Dona Xatının toyudur ay, gəlibsən.
– Mən ölüm?
Dedi:
– Başım üçün.
– Haradadır?
Dedi:
– Burada dərbarda.
Dedi:
– Axı məni ora çağırmayıblar.
Dedi:
– Haradan bilsinlər səni? Sən elə bir iş görəcəksən.
Dedi:
– Nə iş?
Dedi:
– Gedəcəksən dərbarın qabağında saz əlində var-gəl eyləyəsən, gedəsən o başa, bu başa. Nigəhbanlar görəcəklər səni, çağıracaqlar içəriyə.
– Bu iş olar?
Dedi:
– Bəli.
Çıxartdı bir para da verdi yenə bu karvansaraçıya. Yeyib-içəndən sonra dedi:
– Mənə bax.
Dedi:
– Bəli.
Dedi:
– Mənim atım o atlardan deyil haa. Bu ata yetişəcəksiz. Atın, məsələn bir tümən xərci olsa, mən on tümən verərəm. Bu

ata yoncanın gülündən, arpasından zadından yetişəcəksiz. Birdən bivaxta[1] qaldım, mən getdim gələ bilmədim, fəqət bu ata yetişin. Nə qədər pul-para istəsən, mən verəcəyəm.

Karvansaraçı qəbul eylədi. Dəstur verdi, mehtərlər bunun atına yetişsinlər. Mehtərlərə də bir ənam verdi. İsa Vəlli sazı götürər, aşıq cildində oradan çıxar. Getmişdi belə, saz belə burasında dolanırdı. Nigəhbanlar belə baxdılar, gördü bir aşıq orada dolanır. Xəbər verdilər içəriyə. Bolugil də, paşalar məclisi qurublar, oturublar, danışıb eyləyirdilər[2]. İstəyir məsələn yavaş-yavaş toy başlana. Aşığa dəstur verdilər ki, dedilər ki, aşıq gəlib. Dedilər, keçsin gəlsin içəri. Aşığı gətiriblər içəri. İsa Vəlli varid oldu içəri. Varid olanda içəri, belə baxdı gördü Bolu şəmşir belində, dizi üstə oturub Paşanın yanında. Əl-ayağı əsdi belə. Dedi:

– Bir qoç vurum biləsinə? Nə cür eyləyim? Axı mən tək adam nə iş görə bilərəm?

Aşığı çəkdilər içəri:

– Aşıq, xoş gəlibsən!

Gözünü dolandırdı Boluya baxdı. O da baxdı. Paşa dedi:

– Aşıq, biləmizə söylə toydur. Bizim qızın toyudur, Dona Xatının. Burada yaxşı oxuyarsan? Haraları dolanıbsan?

Dedi:

– Aşıqlar gəşti-cahandır[3]. Hər yerləri dolanar. Aşığa fərq eyləməz. Aşıq bir dənə dilənçinin də toyuna gedər, şahın oğlunun da toyuna gedər. Fərq eyləməz, aşıq hər yeri dolanar.

– Haralara gedibsən?

Dedi:

[1] Gec, gecə
[2] Danışmaq və ona bənzər işlər
[3] Dünyanı gəzən

– Hər yeri dolanmışam, elə Çənlibeldən.

– Çənlibeldən?

Dedi:

– Bəli.

– Çənlibeldə o qılıncı kələngə Koroğlunu aşınalığın var? Tanıyıbsan?

– Hən, Paşa sağ olsun, onun məclislərinə çox düşmüşəm.

– Nə cür düşübsən?

Dedi:

– Əvvəldə yetişdi aşığı, əvvəl qəşəng yedirdərlər, içdirərlər.

İsa Vəlli dedi, qoy hələ burada bir əngim qızsın. Nə cür olur olsun, yeyib-içəndən sonra, canımı alırlar alsınlar.

Üz tutdu onlara:

– Baba, tökərlər onun məclisində yeyərlər, dağıdarlar, çal-çağır eyləyərlər.

Dedi:

– Aşıq, acsan olmaya?

Dedi:

– Bəli.

Gətirdilər buna bir az xurdü xürək verdilər, yedilər. Qəşəng bu səsi, bədən düzəldi.

– Aşıq, indi oxu. Söylə bizim üçün.

İsa Vəlli qalxıb ayağa!

– Aşıq, qəşəng oxu. Laf söylə Koroğludan. Koroğlunun ki, məclislərini görübsən. Özün görübsən. Biz burada kef eyləyək. İndi xınzır kərətə[1] biz tutmuşuq, haman Koroğlu ki, deyirsən, onu tərifləyirsən, o bizim əlimiz altda zində[2] əsirdir.

---

[1] Yaşlı donuz

[2] Diri

İsa Vəlli dedi:

– Qurban, kaş öldürəydiz.

Dedi:

– Yox, öldürmədik. Onu hələ çəkər bir az öldürək.

İsa Vəlli gördü, hən, hələ Koroğlunu öldürməyiblər. Sağ-salamatdır. Bunun da qafası dumanlandı. Götürüb burada bu sözləri deyir baa, oxuyum, oxuyum, oxuyum, namərd Bolu! Nə oturmuşsan Paşanın yanında? Əlin məgər əlimə keçməyə?

Ey ağalar, müsəlmanlar,
Namərd mərd oldu, mərd oldu.
Namərdin tənə sözləri,
Canda dərd oldu, dərd oldu.

Sözləri Boluya yetirir. Bunlar dedilər:

– Babam, bu aşıqda bir səsə bax! Bax səsin ucalığına, qüdrətinə. Mən bu qüdrətdə aşıq heç görməmişəm indiyə kimi. Bilmirlər, baba, Koroğlunun tayı bir oğlandır.

Atı yoxdur minə qaça,
Qılıncı yox qanlar tökə.
Bolu kimi alçaq ləkə,
Burada mərd oldu, mərd oldu!

Bolu bir qalxdı ayağın üstünə. Ayaq üstə qalxdı, istədi vurula bunun üstünə. Vəzir dedi:

– Otur yerə! Otur yerə!

Vəzir dedi:

– Paşa.

Dedi:

– Bəli.

Dedi:

– Bu Bolu öldürənlərdəndir haa.

– Nə cür məgər?

– Bolu öldürürdü, Koroğlunun adamlarındandır.

– Yox, baba!

Dedi:

– Mən ölüm, görmürsən Bolu da düşürdü üstünə? Koroğlunun adamlarındandır. Deyirdim, bu cür eşidəcək gələrlər birbəbir dalısınca, biz tutacağıq.

Dəstur verdi, fövrən kamandarlar[1] amadə olsun. Kamandarlar dövrələdilər.

– Kəmənd ataq, kəmənd ilə tutaq. Bu cür hamısını tutacağıq haa, paşam sağ olsun. Bir-bir gələcəklər.

İsa Vəlliyəm, mən həzaram,
Dərdlərə dərman yazaram.
Ağam Koroğlu ilə gəzərəm,
Adımız qurd oldu, qurd oldu.

Bu cür deyəndə, mən İsa Vəlliyəm, həzaram, Ağam Koroğlu ilə gəzərəm, kamandarlar kəməndi atdılar. Çəkdilər İsa Vəllini tutdular. Bunu da tutdular. Onu da apardılar ayrı yerdə yenə zindan var idi, saldılar onu da quyuya. Xəbər yetişdi Dona Xatına. Dedilər:

– Xanım, bir nəfər aşıq gəlmişdi Koroğludan. Bunlar dedilər, laf söylə Koroğluya, o tərifini eylədi. Koroğludan dedi. Bəzən bir sözlər də danışdı. Sözlərini yetirirdi Boluya. Atangil bildilər Koroğlunun adamlarındandır dəstur verdilər, saldılar zindana.

Dona Xatın dedi:

– Gedim görüm hansına saldılar?

Dona Xatın düşüb bu adam ilə apardı zindanın başına. Bir pul verdi zindanbana Dona Xatın, İsa Vəllini çıxartdı.

---

[1] Ox atan

Amma o zaman idi ki, təqribən saat səhəri doqquz zad mizanı[1] sübh idi. Qız da xurdü xürək götürmüşdü apara Koroğluya, Dona Xatın. İsa Vəllini zindandan çıxardıb, İsa Vəlliyə belə altdan-üstdən bir baxdı Dona Xatın. Bəh-bəh, Allah mənim dədəmin tifağını dağıdaydı. Bəs mənim atam məni bu cür oğlana vermir, verir Boluya. Gedə yanına, versin buna daa. Qız bir göylüdən min göylə aşiqi giriftar[2] oldu İsa Vəlliyə. Bundan çox xoşu gəldi. Bunlar sözləri danışırlar. Danışa-danışa bunlar yavaşcana keçdilər o yerdə ki, Koroğlu zindanda idi o bağa.

Koroğlu gördü, sən ölməyəsən, denə bir rüb, yarım saat, qız gündə buna vaxtında aparardı buna sübhanəsini, bivaxta qaldı. Dedi, bu da namərd çıxdı. Bu da gətirmədi sübhanəni. Koroğlu orada qəhərlənib götürüb orada, quyuda bu sözləri deyir. Gördü, mən öləcəyəm burada, çarəsi yoxdur. Hansı sözləri deyir, mən bu sözləri ərz eyləyim xidmətizə, cənab aqayi Yaşar Xan.

O hava ki, oxudum o "Ağaxanı" idi bundan qabaq. Onun adı yadımdan çıxmışdı.

Uca dağların başından
Yolum, ay mədəd, ay mədəd.
Əzəl məni dolandırır
Ölüm, ay mədəd, ay mədəd.

Gördün Koroğlunu? Nə cür uca dağlar olsa idi, oradan yol çalardın. İndi qalıbsan burada bir qarış yerdə.

İsa Vəlli gördü Koroğlunun səsi gəldi.

– Ağa Koroğlu. Koroğlunun səsidir.

Qıza dedi. Dedi:

---

[1] Səhər saat 9 radələri
[2] Məftun, vurğun

– Sənlə danışırdım. Məşğul oldum, ay İsa. Aşıqdır. Bir az bivaxt aparmışam sübhanəsini, odur ki, oxuyur. O cür dadi-bidad eyləyir.

Xülasə, bunlar qulaq verirdi. Koroğlu dübarə:

Belimdə yoxdur qılıncım,
Kimsəyə çatmırı gücüm.
Nə yorğan var, nə də cicim,
Nigar, ay mədəd, ay mədəd!

Gördü, Nigar elə qalın döşəklər salardı altıma, yumşaqlıqdan yata bilməzdim, pambıq kimi. İndi biyol üzü bərk yerdə özüm ölüm, canımı alar, ölərəm. Amma dübarə deyir:

Altımda yoxdur Qıratım,
Kimsəyə çatmır qüvvətim.
Gözdən itib məmləkətim,
Elim, ay mədəd! Ay mədəd!

Elə bil Koroğlu namını[1] itiri[22],
Cismini qəbirə yetiri[3].
Kimi yuyar, kimlər götürü,
Balam, ay mədəd, ay mədəd!
Eyvaz, ay mədəd, ay mədəd!

Söz qurtuldu, bunlar yetişdilər quyunun başına.

– Salam, Ağa Koroğlu.

Bu dedi:

– Əleykəs salam, qızım. Qızım, sənin də qovlun düz olmadı?

İsa Vəlli dedi:

– Degilən qonağım var idi.

[1] Şöhrət
[2] İtirər
[3] Yetirər

Dedi:

– Ağa Koroğlu, qonağım var idi.

Dedi:

– Qızım, məndən də şirin qonaq idi?

İsa Vəlli dedi:

– Degilən, hən.

Dedi:

– Bəli, səndən də şirin qonaq idi.

– Eyvazdır?

Dedi:

– Aşıq, adın Eyvazdır?

Dedi:

– Xeyr.

– Həsəndir?

Dedi:

– Aşıq, adın Həsəndir?

– Xeyr.

– Qəcırqaynaqdı? Cicimcırandır? Palazqulaqdır, Tanrıtanımazdır?

Qız öz-özünə dedi, bunların nə də əcib-qərib adları vardır. Dedi:

– Xeyr.

Koroğlu nəyə demir İsa Vəllidir? Çün İsa Vəlli özü söyüş qoymuşdu, yaman Koroğlunun dalısınca getməyələr. Gördü oğlanlarının hamısını saydı, tapa bilmədi. Dedi:

– Qızım, İsa Vəllidir?

– Aşıq, adın İsa Vəllidir?

Dedi:

– Bəli.

Dedi:

– Bəli, İsa Vəllidir.

–Oğul, İsa Vəlli, mənə bax görüm Nigarın kefi nə cürdür?

Tez orada Nigar yadına düşdü. Oradan səsləndi:

– Ağa Koroğlu yaxşıdır?

– Oğul, İsa Vəlli, indi qırx gündən çoxdur bu quyudayam. Dədəm yanıb, məni buradan çıxarda bilərsən?

– Ağa Koroğlu, çəşm.

Quyunun başında, həmən ki, ipi salırdılar qəza-məzasını yetirirdilər, onun sətilini[1] açdılar. İstəyirdi sallaya quyuya İsa Vəlli, qız əlini belə eylədi.

– Nemənə eyləyirsən?

– Qoymuram çıxardasan!

– İstəyirəm çıxardam daa!

Dedi:

– Olmaz!

Koroğlu:

– Qızım, bəs nəyə qoymursan məni buradan çıxarda?

Dedi:

– Ağa Koroğlu, bir aydan çoxdur indi burada sənin zəhmətini çəkirəm. Mənim ənamımı ver, icazə verim səni çıxartsın.

Koroğlu bir saldı-çıxdı:

– Qızım, haqqın var daa! Haqqın var. Ənam istəyirsən?

– Bəli, ağa Koroğlu.

– Qızım, ənamını verim.

Koroğlu orada quyuda bu sözləri deyir, mən Aşıq Əli Qərəağacı bu sözləri oxuyuram Koroğlunun əvəzindən ki,

[1] Dolça

istəyir ənam versin qıza. Belə deyir baa:

Mən pirimi çox istərəm,
Həm Əli, Vəli ilə.
Eyvazım burada olaydı,
Yeddi min,yeddi yüz yetmiş yeddi dəli ilə.

– Qızım, bu da sənin ənamın. İcazə ver məni çıxartsın, tənabi sallasın.

Dedi:

– Mən neyləyim Eyvazın sənin burada olaydı yeddi min, yeddi yüz yetmiş yeddi dəli ilə? Mənə düz-əməlli ənam vergilən.

Dedi:

–Deyə-deyə gəlirəm.

Eyvazım burada olaydı,
Düşmənin boynun vuraydı.
Nigar bir badə verəydi,
O nazik əlləri ilə.

Qız dedi:

– O mənə mərbut deyil, Nigar sənə badə verəydi. Bəs mən nə cür olacağam?

Koroğlu gördü, həən, çoxdandır qızın suyu axıb oğlana. Üz tutur qıza:

– İndi mən onu deyim.

Koroğluyam, cürləşdirərərm[1]
Qızıl gül ilə iyləşdirərəm[2].
Buradan çıxsam, boylaşdıraram,
Xanım, səni də bizim bu İsa Vəlli ilə.

---

[1] Düzəltmək, qurmaq
[2] Aşığın dediyinə görə, "ikinizə qızıl gül ətri vuraram" mənasında

Yanı səni verərəm İsa Vəlliyə.

– Qızım icazə verirsən?

Dedi:

– Hən indi.

Atdılar tənabı aşağıya. Koroğlu qollarının altından keçirtdi. İsa Vəlli ilə qız köməklik eylədi, çəkdilər qoydular eşiyə.

Qoydular eşiyə, əl keçdi biri-birinin əlinin içinə, bir-birinin üzündən öpdü, İsa Vəlli ilə Koroğlu. İsa Vəlli gördü, Koroğlunun sözü birdir, elə bu qızı aldı mənə, qurtuldu. Dedi:

– Bir baxım görüm bir batırmamışam ki[1]?

Bir altdan-üstdən belə qıza baxdı gördü, yox, pis deyil, batırmamışam. Allah mübarək eyləsin! Qızı verdi buna. İndi həmən bu qızı da istəyirlər verələr kimə? Boluya. Burada idi Koroğlu, dedi:

– İsa Vəlli.

Dedi:

– Bəli.

Dedi:

– İstəyirəm bir nərə çəkəm. Qırx gündən çoxdur buradayam. Səsim bir yerə çıxmayıb.

Dedi:

– Ağa Koroğlu, xurdü xürək gətirmişəm, buyur ye sonra daa.

–Qıratı gətiribsən?

Dedi:

– Gətirmişəm.

Qız dedi:

[1] Yəni, qıza baxım görüm qız necədir camaldan, gözəllikdən?

– Ağa Koroğlu, sən sübhanəni yeyincə bu getsin Qıratı gətirsin, mən də gedim bir dənə at gətirim buraya, bu cür olmaz, sonra nərə çək.

İndi İsa Vəlli gedər Qıratı gətirə, qız da gedər istəbldən bir dənə at götürə gətirə. İndi bunlar gəlincə Koroğlu burada yedi xurdü xürəyi, qurtuldu. Dedi:

– Oğul, İsa Vəlli.

Dedi:

– Bəli.

Dedi:

– Oğul, Dona Xatını çək tərkinə!

Özü də əlini çəkdi Qıratın üz-gözünə, o üzündən-bu üzündən öpdü. Dedi, amandır, Qırat. Heyvani-nəcib[1], görüm neyləyərsən haa. Ayağını qoydu rikaba, atlandı atın belinə. İndi biyol dedi:

– Qulaqlarızı tutun.

Dona Xatın ilə İsa Vəlli qulaqlarını tutdular. Koroğlu əlini qoydu qulağına, bir nərə çəkdi. Bu nərə düşdü İstanbula, dağ, daş, dərələr, təpələr, cik-cik cingildədi. Xəbər verdilər:

– Qurban, paşam sağ olsun, Koroğlu zindandan azad olub. Azad olub, bu səs də Koroğlunun səsidir.

Dəstur verdi qoşuna dövrələdilər, yığışdılar. İndi biyol qoşun bunların üstünə həmlə eyləyəndə bunlar ikisi, İsa Vəlli ilə Koroğlu, bunlar şirin cəng eyləyirlər. Ox xışıltısından, yaralı sızıltısından, öldürərəm-öldürərəm səsindən... Beş-altısını ki, bunlar vurdular, hər tərəfə döndülər xiyaban açırlar.

Küştədən[2] püştə[3], püştədən küştə təşkil verirlər, dustani

---

[1] Nəcib, həyalı heyvan
[2] Ölü
[3] Qalaq

əziz. At bir tərəfdən, Qırat bir tərəfdən, bunlar bir tərəfdən. Amma demə İsa Vəlli gəlmək, həmin Nigar bir namə yazır haman qardaş ki, olmuşdular, Mustafa bəyə, Tərcana: "Koroğlu ilə qardaş olubsuz, indi bir aydır gedib, düşüb gedib İstanbula, xəbər yoxdur. Əgər qardaş olsan, gəl bunun köməyinə". Bunlar şirin cəng eyləyirlər. Gördü bir dənə ox gəldi vıjıltı[1] ilə başında məşəl, vıjıltı ilə keçdi meydana. İsa Vəlli dedi:

– Ağa Koroğlu, səhəri bir xeyir-şər eyləməmişdən[2] Allah tutdu biləmizi. Allahın bəlasıdır taxıldı meydana.

Dedi:

– Sən Dona Xatından, xanımdan müvazib ol. Oğul, uşaq olmagilən. Ağan bu cənglərdən, bu işlərdən çox görüb. Qoy deyim nəmənədir o. Allahın bəlası deyil.

Elə əlini belə eylədi, gördü Mustafa bəyin şeşpərini zadını tanıyırdı, silahlarını, onunkulardandır. Demə onlar da gəliblər, orada. Görürlər bunlar cəngin içindədir, oradan əlamət verir, nişan verir: "Mustafa bəyəm, gəlmişəm köməyinə!"

İki aslan meydana girəndə,
Meydan gümbür-gümbürlənir.
Meşədən çıxmış ac aslan,
Ovun alar, gümbürlənir.

Hay deyəndə haya baxar,
Gün çıxanda ay da batar.
O bala, uşaq olmagilən,
Mustafa bəydir şeşpər atar,
Meydan gümbür gümbürlənir.

---

[1] İti gedən bir şeyin və ya iti axan suyun yaratdığı səs

[2] Bir iş görmək, bir işi başa yetirmək (burada Dona Xatınla evlənmək məsələsi nəzərdə tutulur).

Mustafa bəy köməyimizə gəlib yanı.

Şeyda bülbül qəfəsindən,
Oxuyuram yar həvəsindən.
Qoç Koroğlunun səsindən,
Dağlar gümbür gümbürlənir.

Bunu deyəndə İsa Vəlli də bildi oradan Mustafa bəy həmlə verdi. Atlar-səvarələr varid oldular meydana, vuranı vurdular, öldürəni öldürdülər, dağıtdılar. Dustani əziz, indi burada paşaları tutdular. Burada fəqət Koroğlu dedi:

– Siz burada məşğul olun.

Bunları ki hamısını tutublar, öldürüblər, əsir eyləyiblər, Bolu buradan qırnanı[1] döndü, qırnanı dönəndə, yanı qaçdı. Vurdu arvadların içindən bir elə qaçdı. Koroğlu atı saldı bunun dalısınca, namərd oğlu, namərd deyir, deyirsən bəs ki, bu rahatlıqdadır. Yox! Elə bil ildırım idi yolu gedirdi, ilan buruğu toz salmışdı Koroğlu. Ancaq özünü yetirdi. İki metr qalanda əl getdi qəbzeyi şəmşirə. Daldan nə cür qoydu Bolunun təpəsindən, biləsini iki böldü. Bir azı düşdü sağ tərəfə, bir azı sol tərəfə. Bolunu cəhənnəmə vasil eylədi. Koroğlu qayıtdı.

Dustlar, bu söhbət mərd ilə namərdin söhbəti idi. Düz adamın işi hara gedər, əyri adamın işi hara gedər. Bu sözlər hamısı nəticədir, bu sözlər ki, adam bu günün səhəri də var. Adam bir sabahısını da yoxlaya, namərdlik eyləməyə birinə. Namərd adamın kəli qaçar. Nə cür olar kəli qaçar? Qədim kəl saxlayardıq. Cüt eyləyərdik. Dağdan küləş gətirərdik, xırman eyləyərdik, öküz ilə, kəl ilə. Bu kəlləri, kəl idi, qoç idi, camaatın dilxoşluğuna bunları savaşdırardılar biri-biri ilə, döyüşdürərdilər. Bir nəfər, iki nəfər, yanı biri mərd, biri namərd qərar

[1] Döngə

olanda bunlar kəllərin döyüşdürsünlər, savaşdırsınlar elə bil sabah qərar idi bunlar döyüşdürsünlər. Bu çün namərddir, gedəcək idi, kəlin buynuzlarını şüşə ilə, bıçaq ilə itildə, tiz eyləyə, nazik ki, belə atanda, sillə atanda o biri kələ onu yaralıya, onu qaçırda meydandan. Mərd oğlanın da kəli təbiidir daa, təbii buynuzdur daa. Sabah gətirərlər bunları döyüşdürələr, namərdin kəli istəyər elə belə sillə ata. Yavaş-yavaş nazikləşib axı ucları. Hey sınacaq, sınacaq bu sazın burası kimi. Kütələcək, yanı türküsü kəsərdən düşəcək. Orada idi biyol mərdin kəli basacaq biləsini, alacaq başına vura yerə. Ya da boğacaq biləsini. Namərdin kəli qaçar bu cür olar. Namərdlik eyləyər, axırda da özü nabud[1] olar.

Bəli, bu bir dastan idi. İndi Koroğlu qayıdır bunlar bahəmlikdə gedirlər Çənlibelə. Oğlanlar çıxır pişvaza[2], onlar ki gəlməmişdilər, hamısı başlarını saldı aşağı. Amma İsa Vəlli bunların günahından keçdi. Bağışladı biləl追rini. Dəstur verdi orada ceşni[3] tutulsun, toy tutulsun. İsa Vəllinin Dona Xatına bir toy tutulur. Bolu orada cəhənnəmə vasil oldu. Onların toylarını mən bir dastan ilə "Müxəmməs" ilə qurtarıram.

*Aşıq şagirdini yanına çağırır ki, gəl bura bir dəstan deyək. İkisi danışırlar.*

Mən səni görəndən bəri,
Halım pərişandır, maral.
Boynun üstə do püstanlar[4],
Bir xan, bir sultandır, maral.

---

[1] Məhv olmaq
[2] Gələn adamı qarşılama, qabağına çıxma
[3] Şənlik
[4] Püstan – sinə, qadın sinəsi (Do – iki, do püstan – iki sinə)

Bəndənin bu xəstə cismi,
Otuyuza yandı, maral.
Dərd bilməyən naqis dedi,
Dərd bilən inandı, maral.

Aşığam, gül camalına,
Olmuşam heyran sənə mən.

Nə olaydı məclisində,
Olaydım mehman sənə mən.

Mal deməyə layiq deyil,
Nə deyim qurban sənə mən?
İxtiyarım özümdədir,
Can sənə qurbandır, maral.

Sən gördün ki o kəşişi[1],
Aləmdə bir səs eylədi.
Qızı getdi, o, vermədi,
Övladilə bəhs eylədi.

Çəkdi dininin təəssübün,
Kərəmə qisas eylədi.
Zülüm ərşə dirək oldu,
Asmana dayandı, maral.

Sən bir urus qızı[2] idin,
Bir belə dövran eylədin.

---

[1] Keşiş
[2] Rus qızı

Açdın köksünün bəndini,
Ləblərin bal eylədin.

Yıxdın göylümün qalasın,
Dağırdıb viran eydlədin.
Biçarə Aşıq Ələsgəri,
Dərdindən abdal eylədin.

Bu gözəllik sənə qalmaz,
Bu çərxi-dövrandır, maral.
Bu gözəllik sənə qalmaz,
Bu çərxi-dövrandır, maral.

Allah ürəyizi şad eyləsin, ağa Yaşar. Bəli, bu dastan, bu qol, bu sistem idi ki, ərz eylədim….

# GİZİROĞLU MUSTAFA BƏY QOLU

Telli Xanım aşıq olur, Aşıq Cünundan namə yollayır: "Koroğlu gəlsin məni aparsın, apara bilməsə bu çarğəti[1], bu rusərini[2] bağlasın başına". Koroğlu, dəli deyirlər, amma biz yoldaş deyirik. Koroğlunun yoldaşları dünyada Türkiyədə nə qədər qəhrəman oğlan var idi, yığışmışdı başına. Məclisində elan eylədi:

– Kim gedir bu Telli Xanımı gətirə?

Heç kim dinmədi. Üçüncü dəfəsi Dəli Həsən dedi:

– Mən gedərəm gətirərəm.

Dəli Həsəni yola salıb, onun dalısınca da Bəlli Əhməd ilə Eyvazı yola salıb.

….Axırda eşidirlər, xəbər gəlir ki, Tovqat şəhərində Cəfər Paşa tutubdur Həsəni, dərisini soyur. Soyduqca deyirlər duz basır:

– Həsən necəsən?

Deyir:

– Koroğlu kimin[3] arxası olan heç zaddan qorxmaz.

*(İttifaqən[4] gecə toyda idim, danışdım elə bu məsələdən).* Xob, bir gün Koroğlu gəlir altdan geyim cəngi geyir, üstdən aşıq libasını. Xəbər verirlər:

– Cəfər Paşa, bura bir aşıq gəlib.

[1] Qadın baş örtüyü
[2] Qadın baş örtüyü
[3] Kimi
[4] Təsadüfən

–Haradadır? Gətirin görək kimdir, bu nə deyir?

Deyirlər:

– Bu da elə Türkiyədən gəlib.

Gətirirlər ona deyirlər:

– Koroğlunu tanıyırsan?

Deyir:

– Lap yaxşı.

Deyərlər:

– Elə bil şeylər oxuya bilərsən ki, bu Dəli Həsənin hesab gələ əlinə?

Dedi:

– Oxuyaram.

– Oxu görək, nə oxuyursan?

Koroğlu baxır Həsənə dar ağacında, deyir:

Nə baxırsan məlul-məlul?
Dəmirçi oğlu Dəli Həsən.
Canımı oda yaxırsan,
Dəmirçi oğlu Dəli Həsən.

Həsən bildi Koroğlu gəlib, o biri dəlilər də bildi. Amma yeddi yüz deyirlər dəlisi var, şəhərin qırağında gizlədib və deyib mən nərə çəksəm, gəlin. Amma bu sözlər burada qalsın. Bir nəfər Koroğludan balatər[1] pəhləvan Giziroğlu Mustafa bəy, o da Çənlibelin ətrafında bir yerdə pünhan olmuşdu[2], yaylaq salmışdı.

Qədim, ağalar, yoldaşçılıq[3] belə idi, indi duz-çörək yeyəyeyə deyir, görəsən mən buna necə xəyanət eyləyim?

---

[1] Yuxarı, yüksək məqamda, daha güclü və heybətli

[2] Gizlənmişdi

[3] Yoldaşlıq, dostluq

Deyirlər, Nigar Xanımı Giziroğlu Mustafa Bəy də istəyirdi. Koroğlu ilə xusumət[1] varları idi. Amma burada Koroğluna zülm olurdu. Durub Giziroğlu da bir qismət[2] pəhləvan yığıb gəlib, əgər Koroğluna zülm olsa, kömək eyləyə.

Həən, Həsənə deyir:

Dost dostdan aralı gərək,
Qovğaya varalı gərək.
İgid də yaralı gərək,
Dəmirçioğlu, Dəmirçioğlu.

–Koroğlu gəlsəydi, belə deyə bilməzdi, amma sən deyirsən.

Vəzir-vüzəra da səndəl qoyub oturub. Koroğlu dedi:

– Gəlsəydi, bundan da bətərini[3] deyərdi o, mən tanıyıram. Koroğlunu mən tanıyıram.

– Əyə, Koroğlu özü burada olsa, axırı nə deyər?

Dedi:

Koroğlu eyləyər savaş,
Kəsər, tökər çox qanlı baş.
Ay Dəli Həsən, Telli Xanım sənə peşkəş[4],
Dəmirçioğlu Dəli Həsən.

Dedilər:

– Əyə, Dəli Həsən məgər diriləcək?

Dədi:

– İmkanı var, ümid Allaha dirilə!

– Ay gedə[5], tutun bu Koroğludur?

---

[1] Düşmənçilik
[2] Bir qrup
[3] Bundan da pisini
[4] Hədiyyə, bəxşiş
[5] Gədə, oğlan

Koroğlu nərə çəkib. Sözləri xülasə eyləyirəm. Dəlilər tökülüb, o yandan da Giziroğlu Mustafa bəy, tərəfidilər[1] sakı[2]. Düşmənçilik varları. Bir tərəfdən Giziroğlu Mustafa bəy, bir tərəfdən Koroğlu, qırırlar. Qalib oldular. Giziroğlu Mustafa bəy dedi:

– Burada sənə dostluq eylədim, amma aramızda xusumət var, özün bilərsən, ləşkərin ilə, ya tək özün mənim mərtəmdən[3] gəlib gedərsən, mənə qonaqsan.

Koroğlu dedi:

– Doğruçuluq[4] qonağam?

Dedi:

– Yox, orada biz biri-birimizə zərbə görsədəcəyik! Axı Nigar Xanımı alıbsan sən.

Koroğlu da eyləyə bilməzdi getməyə.

*(Sözlər o yerdə qaldı. Vəli[5] Aşıqlarımızdan, hünərməndlərimizdən dedilər irad tutarlar. Bu Koroğludur (kitabı əlində görsədir). Hər yanda baxsalar Təbriz, Qaradağda, Əhərdə, Bakıda. Bu da Koroğludur. Orada kitab var. O ilə buna hamısı əvəz olub. Bilmirəm bunları kim əvəz eyləyib? Mən bundan demirəm, o qədim kitablar ilə deyirəm, həftad[6] il bundan qabaq. Hər cürə kitab var. Min dörd yüz dənə bizdə kitab var. Onlarda sözüm yox).*

Koroğlu dedi:

– Həsəni salim aparарsız, məni Mustafa bəy qonaq çağırıb.

---

[1] Rəqib, düşmən
[2] Elə bil, guya
[3] Çayır
[4] Doğurdan, gərçəkdən
[5] Amma, ancaq
[6] Farsca yetmiş

Gəlib görüb Mustafa bəy yolda durub: "Filan kəs, sənin üçün xərc görmüşəm[1]. Naharı yeyək, sənlə işim var". Koroğlu dedi:

– Mənim boğazım biçildi, heç yemirəm, nə sözün var, de.

Dedi:

– Küşti tutacağıq sənlə, gedib Çənlibeldə bir özündən deyəndə beş də məndən deyəsən!

Dedi:

– Tutaq daa.

Küşti tutublar. Mustafa bəy Koroğlunu alıb təpəsinə, basıb çayın suyuna. Koroğlu dedi:

– Fəqət bu deyir, mən daha qaçım[2].

Qondu Qıratın belinə, ata bir acı taziyanə[3] hərəkət eylədi qaçmağa. Bunun da (Mustafa bəyin) bir ala-bula kəhər atı var idi. Bu da qondu onun üstünə, aman vermədi Qırat qaça.

– Əyə, bəs necə eyləyim?

Koroğlunun yadına nərə düşdü, gəl nərə çək, qoy bu huşdan çıxsın. Koroğlu əlini qoyub qulağına, bir acı nərə çəkib. Elə bunun nərəsində Giziroğlu Mustafa bəy bir nərə çəkib Koroğlu yıxılmaqda oldu. Ölümünə bunu vurub, döyüb, basıb ötürdü. Koroğlu günbatan çağı yetirdi Çənlibelə. Bizim öz kəndimizdə də bu cur dağ var, dağın bu tərəfindən qayadır, o tərəfindən yırtıq var. *(Aşıq əlləri ilə göstərir)* Koroğlunun məkanı ora idi. Yetirdi bura. Dəlilər töküldü, gördü elə bir siçanı suya basıbsan:

– Ay Koroğlu, bu cur nəyə?

Dedi:

---

[1] Qonaqlıq tərtib etmişəm, düzənləmişəm

[2] Tək suya basmaq deyil, bu məni vurub döyəcək

[3] Qamçı

– Həsən qalır?

Dedilər:

– Hən.

Dedi:

– Başımın cərəyanın gəlin içəridə deyim.

Yığışıblar qalanın altına. Nigar Xanım xəbər alır:

– Bağrım çatlayır, nə oldu?

Deyir:

– Nigar Xanım, Giziroğlu Mustafa bəy.

Biyol saz ilə deyir. (*Onu da yoldaşımız köməklik eyləsə, səsimin bir az müşkülü*[1] *var. "Müxəmməs" ilə deyəcəyik. Qədimin yoldaşçılıqları bu cur idi).*

Analar oğlan doğanda,
*(Nigar Xanıma tərif eyləyir).*
Giziroğlu Mustafa bəy.
Bu dünyaya tək gəlibdir,
Giziroğlu Mustafa bəy!

Dedilər:

– Yurd-yuvan dağılmasın! Çənlibeldə də qorxacaqasan? O nə sözdür danışırsan?

Dedi:

– Axı mən Koroğluyam, gördüyümü yalan deyim? Yalan danışan Allahın düşmənidir. Burada mən sizə yalan deyim? Yoldaş arasında yalan olmaz.

Yoldaşçılıq bu cur idi, ağalar. Düz danışmaq bu cur idi.

Dağın da o tərəfindən Giziroğlu Mustafa bəy qulaq asır. Əgər Koroğlu bilə heç oxuya bilməz ki, qorxar.

–Əyə, Koroğlu, atı minəydin, Qıratı.

---

[1] Problem

Dedi:

– Qulaq as:

Hay deyəndə haya basdı,
Huy deyəndə huya basdı.
Koroğlunu çaya basdı,
Giziroğlu Mustafa Bəy.[1]

Dedi:

– Axı sən deyirsən atı minəydin.

Bir atı var Alapaça,
Aman vermədi ki, Qırat qaça.
Mən Koroğlunun üzü oldu haça,
Giziroğlu Mustafa bəy.

Haça bilsiz nədir, ağalar? Bir nəfər iki söz danışsa, haça olar. İki söz danışsa, yalan danışsa haça olar. Biri birini yıxa haça olar. Söz verə sözünə sahib olmaya, haça olar.

Hay deyəndə haya basdı,
Huy deyəndə huya basdı.
Mən Koroğlunu götürdü çaya basdı,
Giziroğlu Mustafa bəy.

Dedilər:

– Eşikdən səs gəlir.

Çıxdılar gördülər qəcəldə[2] Mustafa bəy gəlir. Dedilər:

– Koroğlu, Giziroğlu gəlir.

Dedi:

– Məni gizlədin. Elə o məni sizin içizdə də basar, Nigar Xanımın yanında yaxşı deyil.

Giziroğlu dedi:

---

[1] Təkrarlarda qavalçı aşığın səsinə səs verir

[2] Düzəngah, düz yer

– Yox, Koroğluna deyin gəlsin eşiyə.

Koroğlu bir neçə addım gedib qabağına. Giziroğlu Mustafa bəy dizlərini qoyub yerə, dizi-dizi gəldi:

– Koroğlu, elə doğurdan Koroğlusan. Sən ki xanımının yanında ənnənmədin [1], özünü böyütmədin, elə doğurdan Koroğlusan.

Öz sağlığıza bir dəst[2] çalın.

*Qədim yoldaşçılıqlar belə idi, qəhvəxanalar belə idi, cavanlar gələrdi belə qulaq asardı. Ağalar gələrdi belə qulaq asardı. Ədəb bundadır. Saz-qopuz, məsələn şəri[3] bundadır. İctima[4] bundadır, cavanları öz yerində saxlamaq bundadır. Yalan deyirəm? Bax, gör, budur hamı qulaq asır.*

Qavalçı oxuyur:

*Allah əgər özü nəzər eyləsə,*
*Əyri də düz gələ.*
*Düz də düz gələr.*[5]

[1] Öyünmək, fəxr etmək
[2] Əl
[3] Fiqh və şəri suallar
[4] Cəmiyyət, toplum
[5] Qavalçı havası. Bu havanı qavalçı məclisin havasını dəyişmək üçün oxuyur.

## KOROĞLUNUN QOCALIĞI

Mənim əzizlərim, bilirsiniz ki, bizim Qoş Koroğlu çox səfərrər eyliyib. Çox hekayətdər onun barəsində söylənip, çox sözlər danışılıp. Qoş Koroğlu cavannıx vəxtində yaxşı məzlumlara köməy olup, zalimlərin qənimi olup. Yağıların öz sözü demiş, boynun burup. Amma mən isdirəm siz əzizlərə Koroğlunun qocalığınnan danışam. Görəx Koroğlunun qocalığında da elə o Koroğluluğu var idi? Qoçaxlığı var idi, ya yox?

Usdatlardan belə eşitmişix, Koroğlu qocalmışdı, ömrünün son çağları idi. Dahi isdiyirdi azat yaşasın, Koroğluluğunu qoysun yerə. Buna görə nə qədər başında dəli var idi, hammısın dağıdıp, hərəni yolluyup öz yurduna, öz işinə ancax ki, Çənlibeldə bir Nigar qalıp, bir Koroğlu, bir də Qırat. Qıratın da nalların çəkip buraxıp Çənlibelin çöllərinə, otdamağa məşğuldu. Amma o vəfalı at gündüzlər gedir otlayır, gecələr gəlir öz köhnə yurdunda oturar. Günnərin bir günündə Koroğlu getmişdi atasının qəbrinin ziyarətinə. Ordan qayıdanda gördü Nigar təki-tənha ağ daşda əyləşip. Yavaş-yavaş əyaxların dərə-dərə gəlir Nigarın yanına. Gördü Nigar elə gedip aləmə ki, heş özünnən də xəbəri yoxdu. Nigar fikrin içində qaşlar çatılıp, gözlər bulut kimi dolup. Ancax ki bir hay-haraya bənddir ki, Nigar haray çəksin, neysan kimi gözlərinin yaşın töksün. Bu yannan Koroğlu yavaşcana dilə gəlir:

– Nigar, nə olup belə sən qəmə dolmusan? Qəmgin olmusan?

Nigar belə baxanda Koroğlunu gördü. Dedi:

– Ay Koroğlu, heeey, o geçən günnər yadıma düşüp.

– Axı hansı günnər?

Dedi:

– O günnər yadıma düşür ki, bu Çənnibeldə atların kişnəməsinnən, qılışların şakkıltısınnan, dəlilərin nərəsinnən qulaxlar tutulardı. Dağlara, daşlara lərzə düşərdi. Sənin qorxunnan bir kimsə bu Çənnibelə əyax salanmazdı. Amma indi isə bilmirəm nə olup ki, heş səs-sorax yoxdu o zamannan.

Koroğlu dedi:

– Ay Nigar, məyər uşaxsan? Elə dünya belədi də. Bir gün belə olar, bir gün elə olar. Onun bir narahatçılığı yoxdu ki.

Koroğlu başladı Nigarı dilə tutmağa. Yavaş-yavaş bunı qaldırıb əyağa, əlinnən yapışıb, başladılar yol getmağa. Bir qədir[1] Çənlibeldən fasilə aşmış, rast gəldilər bi kişiyə. Koroğlu baxdı gördü ki, bir kişidi çiynində bir şey: bir tərəfi dəmir, bir tərəfi ağac. Koroğlu öz-özünə dedi: "Xudaya, görəsən bu nəmənə ola bilər? Çomaxdı? Yox, çomax dəyil. Qəlxəndi? Heş qəlxan da dəyil. Bəs bu nəmənə ola bilər?" Maraxlandı, özün yanaşı verib kişidən sual elədi:

– Ay əmi, ayıb olmasın sənin bu çiynindəki nəmənədi?

Dedi:

– Bu?

Dedi:

– Bəli.

Dedi:

– Bu tüfəhdi da. Görməmisən?

Dedi:

– Tüfəh nəyə deyisən?

[1] Qədər

Kişi gördü ki, heş Koroğlu tüfəng addı bi şey eşitmiyib. Dedi:

– Hə, bax, görürsən bu tüfəngdi. Burda güllə olur, bu da gələn gedənidi, bunu çəkəllər, bu güllə lülədən çıxar. Hər nəyə dəysə, elə orda canı çıxar.

Koroğlu dedi:

– Əyə, məni allatma, mən uşax döyüləm, düz əməlli danış görüm bu nəmənədi? Bu hansı yaraxdı, hansı silahdı?

Dedi:

– İnanmırsanmı?

Dedi:

– Yox, əgər düz deyirsən onnan birin vır, mən ölüm.

Kişi gördü Koroğlu əl çəhmir, dedi:

– Ay əmi, büyün sən hardan rast gəldin? Qoy get işivə, qanıvı salma mənim başıma.

Ancax kişi hər nə qədər dedi, Koroğlu razı olmadı. Koroğlu dedi:

– Gərəy ya məni öldürəsən, ya sözlərin dalı alasan.

Ancax kişi gördü olmuyajax, dedi:

– Day indi ki belə oldu, elə o öküzlərimin birini sənə qurban eliyacağam.

Kişi öküzün birini nişanıya gedip, güllə tüfəhdən çıxmış öküzün yıxılması bir oldu. Koroğlu qaçarax özün yetirdi öküzə. Gördü öküz bayax ölüb haa. Qayıtdı, tez əlin saldı cibinə kişinin öküzünün pulun verdi. Ancax tüfəngi kişidən aldı. Bir orasına-burasına baxıb fikrə doldu. Nigar gördü Koroğlunun halı də-yişip, ayrı dünya gedib Koroğlu. Bir qədirdən sora Nigar dedi:

– Koroğlu, niyə fikr eliyisən?

Koroğlu dedi:

– Həəə, Nigar dahı mənim Koroğluluğum qutardı.

Tüfəngi verip kişiyə, qılıncı alıp, açıb belinnən atdı yerə. Başlanıb yavaş-yavaş yol getmağa. Ancax Nigar hər nə qədər Koroğlunu səslədi, Koroğlu dalı dönmədi ki dönmədi. Beləsi olanda Nigar qılıncı yerdən götürüp, libaslarının altınnan bağlıyıp özün yetirdi Koroğluya. Gördü Koroğlu yavaş-yavaş nə deyir, tərəfinnən "Heydəri" havasıynan mən də deyim, siz sağ olasız.

Titrəyir əllərim, tor görür gözüm,
Mənmi qocalmışam, ya zəmanəmi?
Dolaşmır cahanda söhbətim, sözüm,
Mənmi qocalmışam, ya zəmanəmi?

Nigar dedi:

– Ay Koroğlu, sən heş qocalmamısan da, elə Koroğlusan. Bu sözlər nədi danışırsan?

Dedi:

– Qulaq as, Nigar.

Tutulur məclisdə iyidin yası,
Kar görmür qılıncı, polat libası.
Yerə gəlir qoçaxların arxası,
Ay Nigar, mənmi qocalmışam, ya zəmanəmi?

Nigarın da ürəyi dərdə gəldi. Amma Koroğlu dübarəsini belə deyir:

Belə zaman hara, qoç iyit hara?
Mərtdəri çəkillər namətdər dara.
Baş əyir laçınnar, tərlannar sara
Mənmi qocalmışam, ya zəmanəmi?

Koroğlunun dedihcən dərdi tüğyan eliyir, amma alıp dübarəsini "Şərur"nan desin, mən deyim, siz sağ olasız:

Axır əcəl gəldi, yetdi hay, haray,
Çəhdiyim qovğalar bitdi hay, haray.

Tüfəh çıxdı, mərtdiy itdi hay, haray
Mənmi qocalmışam, ya zəmanəmi?

Nigar dedi:

– Ay Koroğlu, bəsdi da mənim bağrım çatdadı.

Dedi:

– Qulağ as, birin də deyim.

Koroğluyam, Qırat üsdə gəzərdim,
Müxənnətlər boynun vurup əzərdim.
Nərələr çəkərdim, səflər pozardım,
Mənmi qocalmışam, ya zəmanəmi?

Söz təmam olur, Nigar başdadı Koroğluya təskinniy verməyə, dilə tutmağa. Dedi:

– Ay Koroğlu, özün bəyax mənə deyirdin ki, elə zəmanə belə olar. Bir gün beləsi olar, bir gün də beləsi olar. İndi nə olub ki, sən dərdə doldun bir dənə silah görmağınnan.

Dedi:

– Ay Nigar, elə dəyil daha bizim Koroğluluğumuz qutardı. Mən isdirəm onu sənə diyəm.

Bular ikisi də danışa-danışa gəlillər. Bir qədir gələnnən sora hava qarannıxlaşır, qarannıx qovuşdu. Gecəni varid olurlar bir şəhrə. Şəhrdə bir az o yan, bu yan dolanmax, ha bir küçədən keçəndə Koroğlu gördü bunun qulağına bir hənirti gəlir. Koroğlu dayanıb dayanmaxda, Nigarda bunun yanında durdu. Sual elədi:

– Koroğlu, nə üçün dayandın? Nəyə durmusan?

Dedi:

– Nigar, bir qulaq as, bir hənirti səsi gəlir.

Dedi:

– Ay kişi, qoy gedax işimizə. Neyniyax, gəlir gəlir də.

Deyir:

– Yox, qoy görüm bu səs nə səsidi.

Diqqətlə baxanda Koroğlu gördü ki, üş nəfər adamdı. Bular isdillər bir uca qəlaçədi[1] onun duvarınnan aşsınlar. Koroğlu dedi:

– Nigar, yəqin olmuş ola bular oğrudular. Gedillər bura oğurruğa. Mən gərəh gözətdiyəm, görəm bular isdillər neynəsinnər.

Nigar dedi:

– Ay Koroğlu, gördün sənin əslən başın ağrıyır da qalmaqallı işə salmiyanda. Kişi, belənçilərnən nə işin var? Gəl gedax bizim nə karımıza[2].

Dedi:

– Yox, o cür dəyil, Nigar. Dayan, əgər bular oğru olsa, oğurrux eləsələr mən difa[3] eləməsəm, buları tutmasam, elə oğrruğu görən, ya oğurrux eliyən birdi. İkisi də var.

Bular dayanır, amma bu üş nəfər bu qələdən aşdılar, gedip öz işdərin görüp, götürməğni götürdülər. Yühlərin tutup qayıdanda Koroğlu buların aldı başının üsdünü. Bular belə baxanda gördülər bir şəqavətdi[4], uca boylu, ənni kürəhli, qocaman bir kişidi. Oğruların böyükbaşı dilə gəldi, dedi:

– Hətmən bu keşikçidi. Bir şey verib rədd olax[5].

Dedi:

– Hə, qardaş nə isdisən?

Dedi:

– Mən heş nə isdəmirəm. Siz burda neynirsiz?

---

[1] Qalaça
[2] İşimizə, vecimizə
[3] Müdafiə (qorumaq)
[4] Şıqqılı
[5] Çıxıb getmək, uzaqlaşmaq

Dedi:

– Bu qəlaçə buranın paşasının ki, ibarət ola İstanbuldan, onunkudu, onun xəzanəsidi. Biz də görürsən da işimizdi, gəlmişix balalarmıza bir şey aparax.

Dedi:

– Hə, bəs siz oğrusuz? Oğurrux eliyisiz? Mən sizi buraxan dəyiləm.

Oğruların böyüyü genə[1] dedi:

– Sən nə isdəsən biz sənə verməliyıx?

Koroğlu qəbul eləmədi. Hücum eylədi Koroğluya. Hücum eyləmax, Koroğlu macal vermədi, buların üçünü də tutup, başdarın bir-birinə vırıb, bihuş olmaxda, üçünü də qol-qola bağladı. Bir zamannan sora buların huş başdarına gəldi, gözlərin açıp gördülər həman kişi və o xanım da ki, var bunun yanında o da, buların başının üsdündə. Yenə oğruların böyüyü dilə gəldi, dedi:

– A kişi, bizdən nə isdisən isdə, bizim elə işimiz bıdı. Dayim elə qazandığımızı keşikçiynən yarı böllüx. Heş narahand olma sənin də bir səhmin vardı.

Dedi:

– Hə, yaxşı adamı tanımısan, axı mən keşikçi dəyiləm.

– Bə sən kimsən?

Dedi:

– Eşitməmisiz?

Dedi:

– Yox.

– Mən Koroğluyam.

Belə diyəndə oğrubaşı dedi:

---

[1] Yenə

– Lap da yaxşı sən ki bizim özümüzdənsən. Sənin elə işin dayim yol kəsmək, oğurrux eləməhdi də. Bə sən bizi niyə tutmusan?

Dedi:

– Yox, o cür dəyil. Elə sizin kimin adamlar bizim kimin kişilərin adın bədnam eliyir. Mənim işim aləm-aşkaradi, mən oğru dəyiləm. Mən zalimlərin qənimiyəm, mən paşaların, xannarın, sultannarın qənimiyəm. Mən zalimlərin qənimiyəm.

Söz belə olanda oğruların böyüyü dedi, yox, burası qurtarası dəyil, bular gərəy təslim olsunlar. Ancax Koroğlu gözətdiyir, səhər açıldı. Keşikçi gəlir, Koroğlu oğruları təvil[1] verdi keşikçiyə. Oğruları zindanı eləməx, bular getməxda olsun.

Güzgü sənə baxmıyaydım,
Qara saçım ağa bənzər.
Saqqalıma qırov düşüb,
Başım qarrı dağa bənzər.

*(Bu sözlər rəhmətlik Azaflı Mikayıldandır.)*

Dahı cannan dan söküldü,
Kiprih düşdi, qaş töküldü.
Fələh vurdu, bel büküldü,
Dibi qoppuş tağa bənzər.

Alıb dübarə:

Azaflıdır mənim adım,
Zəhər olup ağız dadım.
Əl-ayağım, şah qanadım,
Şaxda vurmuş dağa bənzər.

---

[1] Təhvil

Bəli, mənim əzizlərim, söhbətimiz o yerdə qaldı ki, ərz elədi keşikçi yetirip gördü, əyə, iki-üş nəfər adamdı. Bir qadın, bir də bir qocaman, uca heykəlli, ənni kürəhli bir kişi. Səsdənir:

– Siz kim olasız?

Koroğlu dedi:

– Bəri gəl!

Yaxınnaşıb dedi:

– Sən kimsən?

Dedi:

– Mən keşikçiyəm.

Dedi:

– Hə, elə səni görəsiydim, yaxşı gəlmisən. Bax, bular oğrudular, bu xəzanəni yarıblar, mən tutmuşam. Bu sən, bu da oğrular. İndi neynirsənsə, elə.

Keşikçi çox şad olup, istədi bir qədir Koroğluya ənam versin. Koroğlu ənam qəbul eliyən deyil. Dedi:

– Ay bala, mənə, ənam lazım dəyil. Çox sağ olasan.

Keşikçi bu oğruları alıp, aparıb salıp zindana. Fooru[1] xəbər yetirdi paşıya.

– Paşa sağ olsun, belə bir adamdı, amma deyirdi mən Koroğluyam. Bizə xidmət eliyib.

– Bəs o noldu, necə oldu, niyə onu gətirmədin?

– Vallah, elə buları mənə təfil[2] vermax, özü də qayıtdı getdi.

Dəsdur verip, paşa şəhərin harasındasa Koroğluynan Nigarı foru tapın gətirin. Şəhərə car çəhdilər. Söz tul[3] olmasın, Koroğluynan Nigarı tapıblar, gətdilər paşanın yanına. Paşa

[1] Fori – dərhal
[2] Təhvil
[3] Uzun

Koroğlunu göydə axdarır, yerdə əlinə düşüpdü. Koroğluya bir yer nişan verdi, hər ikisi əyləşib, Nigarnan Koroğlu. Yeməg işməhdən sora üzün tutdu Koroğluya, dedi:

– Hə, Koroğlu, çox xoş gəlmisən! Bilmirəm bilirsənmi, ya yox? Biz səni göydə axdarrıx, yerdə əlimizə düşmüsən. Amma sən bi yaxşılıx eləmisən ki, sənin bu yaxşılığın sayəsində nəğəd[1] aclıx vardı sənin üçün, hamısın mən unutdum. Bəs sən Koroğlu olasan belə xidmət eliyəsən. Sən olmaseydin mənim xəzanəmi yarıb aparmışdılar. İndisə belədi, daha sən də qocalmısan, elə qal burda mənim yanımda.

Koroğlu dedi:

– Yox, mən burda davam gətirə bilmərəm.

Dəsdur verdi:

– Koroğluya ənam verin!

Koroğlu dedi:

– Ə kişi, mən ənam sahibi adamam.

– Bə sən nə isdəyirsən? İsdisən nə diyəsən?

Dedi:

– Qulağ as deyim da.

Koroğlunun ürəyi dərdə gəlir, "İran" gəraylısıynan görəh nə deyir, tərəfimnən mən ərz eliyim, siz sağ olasız:

Çənlibeldə elim olan,
Düşgün Koroğlu mənəm mən.
Başında min dəlim olan,
Düşgün Koroğlu mənəm, mən.

Paşa dedi:

– A Koroğlu, mən demirəm ki sən Koroğlu dəyilsən? Ancax ki ürəyim isdir burda qalasan.

---

[1] Nə qədər

Dedi:

– Qulağ as:

Mərtlih[1] işlətdim bir zaman,
Namərdlər çəkərdi aman.
İndi əlif qəddi kaman,
Düşgün Koroğlu mənəm, mən.

Paşa yenə dedi:

– Ay Koroğlu, sənin Koroğluluğunu biz danmırıx. Ancax ürəyim isdir burda qalasan.

Dedi:

– Qulaq as:

Laçıntək bərədə yatan,
Əmud vurub, şeşpər atan.
Yağıları qol-qola çatan
Düşgün Koroğlu mənəm, mən.

Koroğlu deyir, Nigar da qulağ asır, paşa da. Amma dübarəsini nə cür deyir, "Paşa Köçdü" iylə ərz eliyim, sağ olasız:

Köylümün səməndin yoran,
Namərtdərin boynun vuran.
Mərtlər ilə dostlux quran,
Düşgün Koroğlu mənəm, mən.

Koroğlu dedi, hamı qulağ asır. Amma axır bəndin belə deyir:

Qoş Koroğlu görünmür şən,
Eyvəzinnən ayrı düşən.
Qərib yerdə bağrı bişən,
Düşgün Koroğlu mənəm, mən.

Söz tamam olur, paşa dübarə dedi:

---

[1] Mərdlik

– Ay Koroğlu, əvvəlcə dedim ki, nəmənə acılıx varsa sənin barəndə mənim ürəyimdən hammısı çıxdı. Sənin dədən Koroğluluğun keçipdi. İnnən belə Koroğlulux elliyənməzsən, qocalmısan. Deme, bu qocalıx hammız üçün var da, narahand olma. Ancax qal mənim yanımda, mənim bilicim ol.

Koroğlu qəbul eləmədi. Hər nə qədər iltimas eliyillər. Dedi:

– Mən burda qalan deyiləm. Çənlibelsiz mənim bağrım qana dönər.

Qalxıb əyağa. Paşa gördü yox, Koroğlu gedəcax. Dəsdur verdi, iki dənə at gətdilər. Atdarı yəhərriyiblər, birin Koroğlu minib, birin Nigar. Bular yola düşmaxda, paşanın qəlbi bulandı: “Dedi, ey dadi-bidad, buna bax! Neçə illərdi Koroğlunu göylərdə, havalarda axdarırsan, indi özü öz əyağı ilə gəlip sənin evivə. Bəs bunu hara buraxdın? Niyə sən bu işi gördün? Bir də bu fürsət ələ düşməz. Çoxları təlaş eliyirdi, Koroğlunu tutsun, tuta bilmirdi. Sən niyə bə bu iştibahı elədin?” Belə olanda qoşunun böyüyün çağırdı. Dedi:

– Burda olanı ki tanıdın, kim idi?

Dedi:

– Bəli, Koroğlu idi.

Dedi:

– O yanındakı da Nigar idi.

– Xanımısı?

Dedi:

– Bəli, onu da tanıdım.

Dedi:

– Beş-altı nəfər atlı götü[1]. Tüfəhlənin[2], Koroğlunun dalısıycan gedin. Koroğlunu tutun, özün öldürün, Nigarı da gətirin mənim yanıma.

Bular “baş üsdə” deyib, çıxdı eşiyə. Dəstur verdi, beş-altı nəfər atlanıp, tüfəhlənib, yola düşdülər. Kəsmə yolnan gəlip, Koroğlunun diyəllər Səbətkeşməzdə qabağını kəsdilər. Koroğlu gördü, daşın dalısınnan bir tüfəh sallandı:

– Ədə, dayan!

Koroğlu durup, Nigar da onun kürəyində. Koroğlu səsləndi:

– Ay bala, siz kim olasız, nə istiyisiz bizdən?

Dedi:

– Biz heş nə, sənin canıvı almax isdirix.

– Axı niyə? Mən kimə neynəmişəm?

Dedi:

– Hə, paşanın əmridir. Sənin gərəh canını alax, səni öldürmağa gəlmişıx.

– Axı nə üçün? Kim bu dəsduru verip?

Dedi:

– Sora biləsən kim. Soyun! Nəyin var tök yerə, atdan düşün!

İşarə eliyir Koroğlu ki, Nigara da, özü də atdan düşür. Dedi:

– Ay bala, mənim bir sazımnan suvay heş nəyim yoxdu. Galeyın bu sazı da verim sizə, paltarrarımı isdirsiz lap yaxşı.

Qoşun böyüyü dəstur verip, atlılar yeridi qabağa. Koroğlunun qolların bağlıyıp kəndirinən möhkəm. Nigar da həsrətilə

---

[1] Götür sözünün qısaldılmış forması

[2] Tüfəngli olun, yəni silahlanın

baxır. Öz-özünə dedi: “Görəsən, bu iş necə olmalıdır? Koroğlu bu səbrin sahibi deyil. Axı nə olacağıx bizə?”. Bi işarə elədi Koroğluya: “Koroğlu, danış, dillən. Axı mənim bağrım çatdadı. Bə[1], hanı sənin o nərən?”

Koroğlu yavaşcana işarə ilə dedi, Nigar özümə qovul vermişəm[2]. İnnən belə mən Koroğlulux eləmiyəm. Nigar çox narahand olup pərişan halda, qaşlar çatılıp, piyalə gözlər dolup, bulut kimi hay-haraydadı ki, elə ağlamağa məşğul olsun. Ancax Koroğlunun qolları bağlı. Qoşun böyüyü dəstur verdi:

– Dayanmıyın, Koroğlunu aparın öldürün! Nigarı da götürək gedəy.

Ancax Nigar özünü atdı Koroğlunun əyağına. Dedi:

– Mən bu işi qəbul eliyən dəyiləm. Koroğlunu öldürürsüzsə, məni də öldürün. Ya ki, aparırsız hara, məni də onnan aparın.

Ancax qoşun əhli dedi:

– Yox, bu dəsdurdu bizə. Paşanın dəsdurudur. Gərəh Koroğlu ölsün, səni də aparax.

Belə olanda Koroğlu dedi:

– Bəs indi ki, o cürdü, qulağ asın mənim bir kəlmə deməlim var, deyim, onnan sonra nə eliyəcəksiz, eliyin:

Ay ağalar, bir od düşüp canıma,
Əridip döndərir a yağə məni.
Mən aşığam ay ağa,
Yetişdi dadə, ay ağə[3].
İllər xəsdəsi canım,
Yar gəldi, qalx ayağə!

---

[1] Bəs
[2] Söz vermişəm
[3] Ay ağa

Ağa olan qulun salmaz nəzərdən,
Salma nəzərinnən, ay ağə məni!

Aldı dübarə:

Mənim yarım al geyinip, incidir,
Gümüş kəmər incə beli incidir.
Mən aşiqəm, incidir,
İnci mərcan, inci-dür.
Yaman övlat pis olar,
Qohum-qardaş incidir.
Xəsdə düşdüm, bu dərt məni incidir,
Tut dəsdimnən, qaldır ayağa məni!

Dübarə:

Ələsgərəm, dada gəldi, budu yar,
Bayquların məskənidi bu diyar.
Mən aşığam, budu yar,
Gül bitirər bu diyar.
Qəbul etsə canımı,
Sadağa verrəm, budi[1], yar!
Xəncəl alıb bağrım başın budu, yar[2],
El içində salma ayağa məni!

Bir adam ki, sənlə dosdux eylədi,
Bil ki, onun nəsli-zatı yaxşıdı.
Namərt sənə quzu pilov yedirsə,
Mərdin quru məhəbbəti yaxşıdı.

Aşığ olan sözün söliyər başdan,

---

[1] Budu
[2] Buduyar (budamaq)

Sallabaş adamdan, ürəyi daşdan,
Bədnəzər qonşudan, yaman yoldaşdan,
Qədirbilənnərin iti yaxşıdır.

Alıp dübarə:

Aşıx Hüseyn sözün söyliyər "tey"dən,
Dərsini alıpdı "əlif"dən, "bey"dən[1].
Çörəhsiz otaxdan, miyvəsiz evdən,
Çölün, biyabanın otu yaxşıdır.

Sağ olsun əziz eşidənnər, sözümüz o yerdə davam edir ki, ərz elədim Koroğlu üzün tutdu Nigara:

– Ay Nigar, mən axı qoul[2] vermişəm özümə ki, daha Koroğlulux eləmiyəm.

Amma bu yannan da qoşunun böyüyü hökm elədi yox, Koroğlunun qolları bağlı öldürün bunu, Nigarı aparax. Beləsi olanda Koroğlu dedi:

– Bəs indi ki, elədi qulaq asın mənim bir kəlmə sizə deməlim var. Deyim, onnan sora eybi də yoxdu.

Alıb nə cür desin, mən tərəfinnən ərz eliyim "Ağaxanı" iylə, siz sağ olasız.

Uca dağın ucasıyam,
Əsgik olmaz qarım mənim.
Nər pələngin qocasıyam,
Karvan görməz karım mənim.

– Ay qoşun, mən qoul vermişəm day Koroğluluğu qoyam yerə. Elə bilmiyin haa, qorxuram.

Amma qoşun qulaq asır ha... Koroğlu o birisin deyir:

Qoç yarandım əzəl başdan,

[1] Əlifbadan
[2] Söz vermək

Vursam cidam geçər daşdan.
Hələ qoğadan, savaşdan,
Qalmıyıp qollarım mənim.

– Elə fikir eləmiyin ha, çün mən özümə qoul vermişəm. Odu ki, istəmirəm sözüm yalan çıxsın.

Amma Nigarın yavaş-yavaş ürəyi açılır bu sözü dedixcan. Koroğlu o biri bəndi deyir:

Hanı Eyvəz burda əsə?
Bir qılınca qırx baş kəsə.
O dövranım dönüp tərsə,
Qan tökür baharım mənim.

Koroğlu deyir, qoşun da qulağ asır, Nigar da. O birsin də orta "Şur" mahnısıynan desin, mən deyim, çox sağ olasız.

Hanı Əhməd, şeşpər ata,
Dəmirçioğlu küşdü[1] tuta.
Bu günümdə gələ çata,
Tərlan dəlilərim mənim.

Nigar gördü yox, Koroğlu elə bil sözünnən dönühlüy eliyəcəy. Amma alır axır bəndi:

Qoş Koroğlu badə içəndə,
Başaları pəncərtək biçəndə.
Qeyzə gələr, ələ geçəndə,
Alagöz Nigarım mənim.
O, qeyzə gələr, ələ geçəndə
Alagöz Nigarım mənim.

Söz təmam olmuş, Koroğlu elə bir nərə çəhdi dağlara, daşlara lərzə düşdü. Qolundakı kəndir tikə-tikə oldu, töküldü yerə. Qoşun belə görəndə kirıxdılar, beyinnərində Koroğlunun

[1] Güləşmək

səsi pis vırır öz-özünə. Bular bilmədi ki, gülləni Koroğluya tərəf tutsunnar, ya neynəsinnər? Hərəsi istədi qaşsın bir tərəfə, Koroğlu aman vermədi. Nigar belə görəndə paltarların altınnan Misri qılıncı atıp, ikəlli təqdim elədi Koroğluya. Koroğlu Misri qılıncı alıp, basıp bağrına, bir öpənnən sora qoşunu verdi qılıncın ağzına. Şülüküt eliyip, buları tökdü. Bular qırılmaxda, Koroğlu Nigarı alıp tərkinə üz qoydu Çənlibelə. Koroğlu dedi:

– Nigar, nə qədər bu paşalar, xannar, bəylər, zülmkarrar var, Koroğlu da gərəy ola. Dünya Koroğlusuz ola bilməz. Mən isdiyirdim Koroğluluğu yerə qoyam, amma gördüm, yox, olmiyacax.

Üz qoyub Çənlibelə tərəf bular getməkdə olsun, bu yannan sözü eşit kimnən? Xəbər getdi paşıya. Paşıya dedilər, ay evin xərab ola, nə oturmusan? Nəyün varıdı Koroğlu qırdı töhdü yerə. Özgə də dübarə təsmim tutdu Koroğluluğu, getdi Çənlibelə sarı. Paşa bu sözü eşidən qəzəblənib, dəsdur verdi, qoşun yığıldı. Qoşun yığılmaxda, hammı cəm olmaxda bir yerdə, bu yannan kim bu sözü eşitdi? Aşıx Cünun. Aşıx Cünun eşitdi ki, Koroğlunun üsdünə dübarə İstanbulun paşası isdir həmlə eləsin. Aşıx Cünun sazı götürüp, qalxıb atın belinə təpələrdən yel kimi, dərələrdən sel kimi gecə-gündüz gəlhagəl özün yetirdi Çənlibelə. Yetirip o zaman ki, Koroğluynan Nigar hər ikisi əyləşip söhbət eliyirdilər. Belə baxanda gördülər, Aşıx Cünun atın belində, saz çiynində budu gəlir. Hər ikisi qalxıb əyağa Aşıx Cünunla görüş, xoş-beş, yemək içməkdən sora dedi:

– Cünun, indi de görax nə var, nə yox?

Dedi:

– Ay Koroğlu, bilmirsən ki, nə var?

– Axı nə var? Nə olupdu?

Dedi:

– Sən Koroğluluğu eşitmişəm tərgidibsən, amma bu yannan da paşalar sənin üsdünə yeriş eliyir. Belə də söz olar?

Aşıx Cünun sazı alıp sinəsinə ta görəx nə deyir? Tərəfimnən "Göyçə" gəraylısıynan mən ərz eliyim, siz sağ olasız:

Sənə deyim, Qoç Koroğlu,
Düşmənnər gələcəy oldu.
Sonun olar puç, Koroğlu,
Düşmənnər gələcəy oldu.

–Ay Cünun, nə danışırsan, nə deyirsən? Düz-əməlli danış görüm.

Dedi:

– Qulaq as:

Daldalanma sən səsini,
Düşmanla kəsmə bəhsini[1].
Keçmiş, köhnə qisasını,
Düşmannər alacax oldu.

– Ay Cünun, belə sən dediyinnən mən baş tappıram. Açıx danış görüm.

– Bəs qulaq as:

Cünunam, dildən düşmüşəm,
Bülbüləm, güldən düşmüşəm.
Qocalıb, əldən düşmüşəm
Düşmənlər güləcəy oldu.

Hər kəsin qəsdinnən geçir aşıxlıx,
Qarşı gəlsin edəh cəngi qıjhaqıj[2].
Dəli könül dərya təkin çalxanır,

[1] Mübahisəni
[2] Xışıltıynan, xışhahış, nəhayət qıjhaqıj

Qeyzə gəlir xoş ahəngi qıjhaqıj.

Sözlər dodaqdəyməzdi, bu sözlərdə gərəh dodax dodağa dəyməsin. Kiminkidir? Mərhum Göyçəli Aşıx Ələsgərinki. Havamızın da adı “Qaradağ təcnisi”.

Hər kəs isdər qana aşıx sirrini,
Axtarsın dayazı, gəzsin dərini.
Qilü-qala salan olsa sərini,
Siyah çalar qızıl rəngi qıjhaqıj.

Aldı dübarə:

Ələsgərin qəddi Sinayə[1] yetər,
Dərs alanlar gedər sinayə yetər.
Əzrayıl cəhd eylər, sinayə yetər,
Can alar dəsdində çəngi qıjhaqıj.

Bəli, əzizdərim, söhbətimiz o yerdə davam edir ki, Aşıx Cünun eləydi ki, Koroğluya xəbər verdi:

– Ay Koroğlu, niyə oturmusan? Düşmən yeriş eliyir sənin üsdünə.

Amma Koroğlu söz eşidir, dedi:

– Ay Cünun, ürəyimi dərdə gətdin, qulağ as.

“Koroğlu qaytarması”ynan görəx nə deyir, tərəfinnən mən ərz eliyim, siz sağ olasız:

Ay ağalar, ay qardaşlar,
Ürək zərd oldu, zərd oldu.
Yenə namərdin sözləri,
Cana dərd oldu, dərd oldu.

Aşıx Cünun gördü sözlər Koroğluya çox əsər[2] eliyip. Alıp dübarəsini:

---

[1] Tövr sina (Musa peyğəmbərin tanrı ilə danışdığı məqam)

[2] Təsir etmək

Dosdumu atdım dumana,
Rəqibi gəlsin yamana[1].
Nə deyim belə zamana,
Namərddər döndü mərd oldu.

Koroğlu isdir sözün dübarəsin belə desin, mən deyim, siz sağ olasız:

Koroğluyam, dad hazaram,
Adım dəftərə yazaram.
Nə qədir səfil gəzərəm,
Adım qurd oldu, qurd oldu.

Söz təmam olmaz Cünun dedi:

– Ay Koroğlu, indi olardan keçip, de görüm neynəməlisən?

Belə olanda Koroğlu dübarə sazı basıp bağrına ta görax "Baş gəraylı"ynan nə deyir Aşıx Cünuna, mən deyim, siz sağ olasız:

Sənə deyim, Aşıx Cünun,
Çağır gəlsin xan Eyvəzı.
Tar eyləyim düşman günün,
Çağır gəlsin xan Eyvəzı!

Cünun əlin qoyup gözünün üsdünə, amma Koroğlu dübarə deyir:

Namərddiyi bildirəllər,
Yadı bizə güldürəllər.
Təh-təh salıb öldürəllər,
Çağır gəlsin xan Eyvəzı!

– Aşıx Cünun, durma!

Koroğlu dübarəsin deyir:

[1] Rəqib pis günə düşsün

Koroğlu çəkməz haşalar,
Çətindi qollar boşalar.
Yeriyər oğraş paşalar,
Çağır gəlsin xan Eyvəzı!

– Cünun, dayanma!

Cünun sözü təvil alıb, izn isdiyib, qalxıb atın belinə, sazı götürüb rəvani-irah olub[1]. Hara gəlməhdə, gəlir dəliləri yığsın. Az gəlir, çox gəlir, ancax keçdi bir yerə. Gördü, əyə, uzaxdan bir nəfər yaba çiynində bunun gözünə çox tanış gəlir. Yaxına yeriməx, gözü dəyir Dəmirçioğluna. Dəmirçioğlunu görüp, Cünunnan Dəmirçioğlu qol-boyun oldu.

– Əyə, Cünun, hardan gəlirsən? Nəysə bizi yada salmısan?

Cünun dedi:

– Ay qardaş, gəlməkdə sözüm var. Qulaq as.

Alıb görax Dəmirçioğluna nə deyir, "Sulduzu" havasıynan mən deyim, siz sağ olasız:

Dəmirçioğlu, sənə deyim,
Çənlibelə düşman gəlir.
Polad-qalxan dəmir geyin,
Çənlibelə düşman gəlir.

Dəmirçioğlu dedi:

– Cünun, nə danışırsan, nə deyirsən? Məyər belə də bir iş olarmı?

Dedi:

– Qulaq as:

Bu sinəmi qəm alıpdı,
Şad qəlbimə dərd salıpdı.

[1] Yola düşüb

Koroğlu yalqız qalıpdı,
Çənlibelə düşman gəlir.

Dəmirçioğlu qulaq asır, amma Cünun dübarəsin belə deyir:

Sananmaz yüzlər, əllilər,
Düşmana demə bəlilər,
Görünmür iyit dəlilər,
Çənlibelə düşman gəlir.

Aşıx Cünun sözü deyir, Dəmirçioğlu da qulaq asır. Amma o biri bəndi, axırı nə cür desin, tərəfimnən mən deyim, siz qulaq asın:

Yoldadı Koroğlu gözi,
Qəlbində qocalıq sözi.
Cünunun budur bir sözi,
Çənlibelə düşman gəlir.

Dəmirçioğlu sözü eşidir, dedi:

– Lap da yaxşı, çox xoşhalam[1]. Sən Çənlibeldən Koroğlunun əhvalatınnan məni halı elədin. Ancax görüsən üz-gözümü tüh[2] basıb, çoxdandı çöllərdiyəm. Gedax bəs bir dəlləh tapax, orda mən üzümü vurdurum. Heş də eybi yoxdu.

Düşmannar gəlir qəsdinə,
Gəlir Koroğlu üsdünə.
Dəyərəm sənin şəsdinə,
Qazı dibinnən, dibinnən!

– Usta, mətəl eləmə, dur əyağa mənim üzümü islah elə.

Usda gördü bala-bala da hirslənir, qəzəbə gəlir, amma Dəmirçioğlu alıp o biri bəndi deyir:

---

[1] Sevinirəm
[2] Tük

Sənnən hesabı çəkərəm,
Gözünnən qan-yaş tökərəm.
Əlif qəddini bükərəm,
Qazı dibinnən, dibinnən!

Söz belə olanda usda gördü yox, da bala-bala bunun kasası daşır. Ancax göylə gəlir, amma Dəmirçioğlu sözün dübarəsin belə deyir:

Dəmiçioğlu gileylidi,
Olarsan ellər gülücü,
Sənə yazığım gəliri,
Qazı dibinnən, dibinnən!

Bəli, elə ki, Dəmirçioğlunun üzü islah oldu, qalxıb əyağa usdanın haqqın verip, Aşıx Cünunu da götürüp dükannan çıxdılar. Rəvanı-irah oluplar. Az gəlip, çox gəldilər, ancax gəlillər Eyvazın dalısıyca, Eyvazı tapdılar. Eyvaz Dəmirçioğlunu, Aşıx Cünunu görüp ürəyi çox şad oldu. Qaçıp buların qabağına hər üçü qol-boyun olup, öpüş-görüş, hal-əhvaldan sora, haradan gəlmağını Eyvaz nə cür soruşur, nə dilnən tərəfimnən "Yüngül Şəşəngi"ynən ərz eliyim, siz sağ olasız:

Dağlar başı Çənlibeldən,
Deyin görüm, nə xəbər var?
Başı qarrı bizim eldən,
Deyin görüm nə xəbər var?

Aşıx Cününla Dəmirçioğlu qulaq asır. Eyvaz dübarə:

Qırat, Ərəb at dururmu?
Koroğlu dövran qururmu?
Paşalar boynu vururmu?
Deyin görüm, nə xəbər var?

Eyvaz sözün qutulanını belə deyir:

Eyvaz, qolun gərməg isdər,
Hər savaşa girməg isdər,
Koroğlunu görməg isdər,
Deyin görüm, nə xəbər var?

Aşıx Cünunla Dəli Həsən sözü təhvil alır. Dəmirçioğlu sözü eşidib, amma deyir:

– Eyvaz, mən sənin cavabını verməliyəm. Qulaq as.

Alıb "El" havasıyla görəx nə deyir, tərəfimnən mən deyim, siz şad olun:

Çənlidən xəbər gətdim,
Qardaş, dur gedəh, dur gedəh!
Müşgül mətləbin bitirdim,
Qardaş, dur gedəh, dur gedəh!

Eyvəz sözləri eşidip bir az nigaran halda:

– Ay Cünun, bi aşgar danış görüm.

Alıb o biri bəndi:

Koroğlu oxuyup, yazır,
Yalqız qalır, cannan bezir.
Haray salır, səni gəzir,
Qardaş, dur gedəy, dur gedəh!

Eyvaz bunu eşidəndə, dağlar fırrandı Eyvazın başına.

– Ay Cünun, elə sözlərdən danışma, Koroğlunu yenə mənim yadıma saldın.

Cünun alıp o biri bəndi deyir:

Aşıx Cünun qədir bilir,
Səni görüp üzü gülür.
Çənlibelə düşman gəlir,
Qardaş, dur gedəh, dur gedəh!

Eyvəz bu sözləri eşidib, dağlar fırrandı bunun başına. Dedi:

– Aşıx Cünun, daha bu sözdəri dedin, mən burda qalası dəyiləm.

Atı minib, dedi:

– Mən Çənlibelə sarı gedirəm. Sən də Dəmirçioğlunu götür Dəli Həsənin dalısınca gedin.

Eyvaz üz qoydu Çənlibelə sarı. Aşıx Cünunla Dəmirçi-oğlu da gəlillər Dəli Həsənin dalısıca. Az gəlip, çox gəldilər, xülasə harda gəlip Dəli Həsəni tapdılar. Aşıx Cünun belə baxıp gördü Dəli Həsən çox qocalıp. O gördüğü Dəli Həsən dəyil. Günnər keçip, ömürrər keçip, Dəli Həsənin o əhvalatı əvəz olup. Aşıx Cünuna çox pis əsər elədi. Dəli Həsən olasan o hala düşəsən. Uzaxdan səslədi:

– Ay Dəli Həsən, ay Dəli Həsən!

Dəli Həsən Aşıx Cünunun səsin eşitdi, lap dünyası təzə-ləndi. Belə baxanda gördü Dəmirçioğlu da bunun yanındadır. Qaçıp buları qarşılıyıp, hər üçü də kef-əhval, xoş-beşdən, sora hə, Dəli Həsən dedi:

– Ay Cünun, hardan gəlirsiz?

Belə demax Cünunun ürəyi dərdə gəlir, sazı alıp sinəsinə ta görax "Setarı kələmey"nən Dəmirçioğluna necə deyir, Dəli Həsənə necə deyir, tərəfimnən mən deyim, siz sağ olasız:

Xudkarlar üstünə atlı gedəndə
Düşmən görən açıq gözün necoldu?
Oğraş paşalarla dava edəndə,
Nərə çəkən uca səsin necoldu?

Dəli Həsən gördü ki, Cünun bunu görmaxda buna əsər eliyipdi. Başın tovluyup, amma Cünun o biri sözün belə deyir, mən deyim, siz sağ olasız:

Çənlibeldə ağır məclislər quran,
Ərəb at üsdündə mərdanə duran.

Misri qılınc çəkip, boyunnar vuran,
Soruşmursan xan Eyvazın necoldu?

Aşıx Cünun sözün dübarəsın belə deyir, mən də deyim, təmam qulaq asannar sağlığına:

Aşıx Cünün bu yerrəri biləndə,
Düşmanları yağlı daban[1] görəndə.
Hərdən qeyzə gəlib, nərə çəkəndə,
Qabaqda boz duran üzün necoldu?

Dəli Həsən Aşıq Cününa belə cavab verir:

Yağı düşmannara qoğa açmağa,
Hələ var qolumda qüdrətim mənim.
Qoşun gəlip Çənlibelə geçməyə,
Qəbul etməz namus, qeyrətim mənim.

Aşıx Cünun bu sözdəri Dəli Həsənnən eşidib ürəyi açıldı. Dedi:

– Hə, nənən qurban, o sözlərdən demax.

Alıp dübarəsin, amma deməliyəm ki, havamızın da adı "Ceyran Kərəmi"di:

Gözüm işdiyəndə dağları yarar,
Qorxusunnan tappaz düşmənnər qərar.
Paşanın, xutkarın bağrını yarar,
Ac aslan yerişim, heybətim mənim.

Qulaq asıllar Aşıx Cünunla Dəmirçioğlu, amma dəli Həsən sözün dübarəsin belə deyir:

Mən Dəli Həsənəm, ər[2] havadarı,
Heç yaddan çıxarmı dosluq-ilqarı.

---

[1] Qaçan
[2] İgid

Vuruşma zamanı, dava bazarı,
Olmaz heç insafım, mürvətim mənim.

Söz tamam oldu, Aşıx Cünuna "əhsən", "afərin" deyip. Dəmirçioğlu da buna qarışıb, amma hər üçü atlanıb bular gedillər o birisi dəlilləri cəm eləmağa[1]. Sözü eşidəx kimnən? Koroğludan. Koroğlu ki, Aşıx Cününu yola salır Eyvazın, Dəmirçioğlu, Dəli Həsənin dalısıca. Bir-iki gün üsdünnən keçib, bir darıxma tapıldı bunnan. Bir gün, iki gün dözüp gözətdədi, gördü gəlmədilər. Bir gün Nigarı da götürüp Çənlibeldə isdir dolana, elə belə baxanda gördü uzaxdan bir toz qopub. Dedi:

– Nigar, elə bil dəlilərdi ha gəlillər.

Ta olar gəlincə görəx Koroğlu nə demək isdiyir? Tərəfimnən ərz eliyim "Dubeyti" havasıynan siz sağ olasız:

Qarı düşmən güc gətirdi,
Qocaldım, Nigar, qocaldım.
Mənzilim başa yetirdim,
Qocaldım, Nigar, qocaldım.

Nigar dedi:

– Ay Koroğlu, o sözlərdən məni dərdə salma.

Koroğlu dedi:

– Qulaq as:

Müxənnətin olmaz zatı[2],
Mərdin polad olar qatı.
İtirdim Qırat, Düratı,
Qocaldım, Nigar, qocaldım.

Koroğlu sözün dübarəsin belə deyir:

---

[1] Toplamağa
[2] Kökü

Koroğlu qorxmaz yağıdan,
Badə içipdi saqidən.
Hanı Eyvaz, Tüpdağıdan?
Qocaldım, Nigar, qocaldım.

Söz təmam olmaq, Eyvəz də bu yannan özünü yetirdi. Koroğluyla Nigar Eyvazı görmax elə bil dünyaları dübarədən verdin bulara. Buların cavannığı qayıtdı yerinə. Hər ikisi qalxıb əyağa, Eyvaz atdan düşüp qol-boyun oldular. Deyip, gülmax, danışmaxdan sora Koroğlu təmam əhvəlatı əvvəldən axıracan mən sizə ərz elədiğim kimi Eyvaza danışdı. Dedi:

– Eyvaz, dur əyağa Qıratı tapmalısan.

Eyvaz durub əyağa, Qıratın dalısınnan getmaxda, bu yannan qalan dəlilər özlərini yetirdi. Nigarla Koroğlu hər ikisi sevincək, tamaşa eliyillər dəlilərin gəlmağına. Dəlilər gəlir, hammısı atdan düşür, Koroğluyla Nigarı aldılar arıya. Danışıxdan, keyif-əhvaldan sora indi bi o Koroğlu dəlilərə xoş gəldin eləməlidir. "Nar ağacı"yla görəx dəlilərə nə deyir, tərəfimnən mən deyim, siz sağ olasız:

Yenə ömür təzələndi,
Xoş gəldiniz, dəlilərim!
Qurtardıx hicrannan, qəmnən,
Xoş gəldiniz, dəlilərim!

Dəlilər yığılıblar Koroğlunun dövrəsinə. Dübarəsi:

Düşün burda mehman qalın,
Paşalara qırqın salın.
Paşalardan qisas alın,
Xoş gəldiniz, dəlilərim!

Aldı dübarə:

Bir şur salax cahana,
Meydan boyansın al qana.

Səfər eyliyax hər yana,
Xoş gəldiniz, dəlilərim!

Koroğlunun səsi dağları alıb altına. Dübarəsin belə deyir:

Aslan tək bərədə yatan,
Düşmannara şeşpər atan.
Paşaları diri tutan,
Xoş gəldiniz, dəlilərim!

Koroğlu dedixca şovqa[1] gəlir, amma sözün xatəməsin belə desin, mən ərz eliyim siz sağ olasız:

Zimistanım döndü yaza,
Qulaq verin sözə, saza.
Koroğlu yetdi muraza,
Xoş gəldiniz, dəlilərim!

Koroğlu sözlərin deyib tamam elədi. Tamam dəlilər başladı şaddığa, bu yannan gördülər ki, Eyvaz Qıratın belində budu gəlir. Qırat Çənlibelə yetişmax, Çənlibeli bir dövür vurup, gəlip Koroğlunun qabağında cüt əyaxlarını qovzuyup elə vurub yerə bir cihnə çəhdi ki, təmam dağlar lərziyə düşdü. Koroğlu bi yannan dəliləri görüp söyündü, bi yannan Eyvazı. Qıratın da belə eləmağı bunu lap şovqə gətirip, alıp "Dağlar çiçəyi" ilə görəx nə deyir, tərəfimnən mən ərz eliyim, siz sağ olasız:

Budu, gəldi havadarım,
Dur, başına dolan, könül!
Zimistanda dövr eylədin,
Yaz-bahara boyan, könül!

Koroğlu alıp dübarəsin tərəfimnən mən deyim, şad yaşıyasız:

Qıratıma nal düzdürrəm,

---

[1] Şövq, həvəs

Paşalar bağrın üzdürrəm.
Meylər, sağılar[1] gəzdirrəm,
Başda təzə dövran, könül!

Sazımı götürrəm mərdi-mərdanə,
Girərəm meydana gəl eyləyəh bəhs[2].
Sən mənə toxundun, toxunnam sənə,
Şəriyətdə halaldı qisasa qisas.

Havamızın adı "Qaradağ Ağabəyisi"di, isdir dübarəsin belə desin tərəfinnən deyim, siz sağ olasız:

Bir xoş günə əvəz min aya billəm,
Nəqqaş qəddin çəkib minayə, billəm.
Primmdən dərs aldım, min aya billəm,
Bir sözünə min söz deyim dəsbədəs[3],
Sən eylə həvəs.

Deməliyəm ki sözlər də müstəza təcnisdi. Dübarəsin nə cür deyir? Göyçəli Aşıx Ələsgərinkidi. Tərəfimnən mən deyim, siz şad yaşıyın:

Aşıx gərəh bu meydanda bir qala,
Eşq odunu bir ətəklə, bir qala.
Ələsgərdi Xeybər kimi bir qala,
Bacara bilməzsən, danışma əbəs,
Dur yerində pəs.

Söz təmam olup, amma dübarə dastanı eşidax Koroğludan. Koroğlu Qıratın belə ki, kişnəməsinə tərif eliyir, dəlilər şad olub. Bular burda qalmaxda olsun, sözü eşidax paşadan. İstanbulun paşası dəsdur verir, qoşun tədarük gördü. İki nəfərin

---

[1] İçki bardağı
[2] Mübahisə
[3] Dərhal

qoşununa böyük qəral verdi. Bulara dedi, siz ikiz hər nə desəz qoşun ona baxmalıdır. Qoşun hərəkət eliyib Çənlibelə tərəf gəlir. Çənlibelə bir az qalanda oturax elədilər. Bu yannan Koroğlunun güdühcisi qoşunu görür. Gəlip Koroğluya xəbər verir. Koroğlu İstanbul paşasının qoşun çəhməyini eşidib, ta görəx dəliləri nə cür səsdiyir, "Türkü Koroğlusu"ynan mən deyim, siz sağ olasız:

Yaraxlanın, dəlilərim,
Yağılar meydana gəlir.
Müxənnətlər qoşun çəkir,
Üz tutup bu yana gəlir.

Koroğlunun səsini eşidən Koroğluya tərəf gəlir. Alıb dübarəsin:

Sözlərimdə yoxdu yalan,
Düşmənlərə talan salan.
Misri qılınc qılsın coolan,
Boyanmağa qana gəlir.

Alıb dübarəsin:

Olun səf-səf, dəstə-dəstə!
Yeriş edax düşman üsdə.
Yağıları edək xəsdə,
Tülkülər əslana gəlir.

Dəlilər başladılar Koroğlunun dövrəsini almağa, amma alıb o biri bəndi "Atalar ahəngi"lə desin, mən deyim, siz sağ olasız:

İyid olan etməz xəta,
Qoç gərək busquda yata.
Xan Eyvaz, min Ərəb ata,
Bəlli Əhməd fərmanə gəlir.

Koroğlu sözünün xatəməsini belə deyir, mən ərz eliyim, siz sağ olun.

Pələngtək ovdan küsməyə,
Düşmənnər üsdə əsməyə.
Yağilər başın kəsməyə,
Koroğlu mərdanə gəlir.

Koroğlu gördü təmam dəlilər yığılıb Koroğlunun dövrəsinə, ürəyi açıldı saz ilə dediyi kimi söz ilə də andırdı ki, bilirsiniz ki, bu paşalar biziylə düz demiyəcəkdi. Bəs dəlilər atlansın. Dəlilər atlanır. Bu yannan Dəli Mehdər o saat Qıratı gətirib Koroğlunun qabağına. Koroğlu minip Qıratına bir o yana, bu yana baxıb, bir paşanın qoşunna, bir öz qoşununa, alıp dübarəsin belə deyir.

Dəlilərim, bu gün dava günüdür,
Atlanın, Yaradan bizə yar olsun.
Mərd igiddər yarasınnan bəllidir,
Namərtdəri tər bassın, xar olsun.

Alıp dübarəsin:

Rüsdəmi-Zal kimi nərələr çəkin,
Meydanda mərd igid bağrını sökün.
Misri qılınc vurup, qızıl qan tökün,
Əsirgəmə, vur əllərin var olsun!

Koroğlu hay verir dəlilər də onun səsinə hay. Ta sözü xətəməsini belə deyir:

Koroğlu mərdligi qala dünyada,
İyid gərəh başda.... sevda qaynada
Davada meydanda nərə vuranda,
Meydandan qaçmağa namus ar gəlir.

Koroğlu sözlərin deyip, tamam eylədi. Tamam dəlilər Koroğlunun səsinə səs verdi:

– Ay Koroğlu, bir qətrə qanımız qalınca sənin yolunda varıq, heş narahand olma.

Amma bu yannan paşanın qoşunu, bu yananan Koroğlunun dəliləri hər ikisi bir-birinə həmlə. Koroğlu qabaxcan hay vurub özünü saldı qoşunun içinə. Misri qılıncı çəkip sağdan-soldan vurup, hamısını biçib, tökür yerə. Amma qoşunun böyühləri çox bilmişdığından qoşunu yarı bölüblər. Yarısını pusquda saxlıyıblar ki, bir zaman görsələr əgər Koroğlu bulara zor gəlsə, qoşunu qaytarsınlar. O sahat yetirdi, qoşunun böyründən gördü qoşun handadı davam gətirməsin, qabaxdan geri qayıtsın hay vurup bu birisi tərəfdən qoşun çıxdı. Amma Koroğlu da az bilmiş deyil. Koroğlu da bu işin fikrin eləmişdi. Odur ki, üzün tutdu Dəli Həsənə dedi:

– Dəli Həsən, sənnən nə danışmışıx?

Buna demişdi ki, özün öz dəlilərivi götürüp kənarda saxlıyacaxsan. Hay vurub day necə meydana gəlsin tərəfimnən mən deyim, sağ olasız:

Çağır Dəli Həsən gəlsin,
Ağır zərbə bu gün çalsın.
Ölən ölsün, qalan qalsın,
Mərd iyiddər məlum olsun,
Bu günkü bu meydanda.

Dəli Həsən harayladı öz yoldaşların, amma Koroğlu dübarəsində deyir:

Qabağa salma naşını,
Vurar öz yoldaşını.
Gəzdirrəm düşman başını,
Hana mənim qanım olsun,

Bu günkü bu meydanda.

Dəli Həsən yavaş-yavaş öz yarrarın yığır başına, amma Koroğlu o birisi bəndində belə deyir:

Siz inanın gövhərkana,
Hərəniz dönün əslana.
Basılmayın bəd düşmana,
Qoyun ölən mənim olsun,
Bugünkü bu meydanda.

Heydərbaba, kəndin günü batanda,
Uşaqların şamın yeyib yatanda,
Ay buluddan çıxıb qaş-göz atanda,
Bizdən də bir sən onlara qissə de,
Qissəmizdə çoxlu qəmü qüssə de.

Heydərbaba, dünya yalan dünyadı,
Süleymandan, Nuhdan qalan dünyadı,
Oğul doğan, dərdə salan dünyadı,
Hər kimsəyə hər nə verib, alıbdı,
Əflatundan bir quru ad qalıbdı.

Heydərbaba, mərd oğullar doğginan,
Namərdlərin burunların ovginan,
Gədiklərdə qurdları tut boğginan,
Qoy quzular ayın-şayın otlasın,
Qoyunların quyruqların qatlasın.

Heydərbaba, yolum sənnən kəc oldu,
Ömrüm keçdi, gələmmədim, gec oldu.

Heç bilmədim gözəllərin nec oldu?
Bilməz idim döngələr var, dönüm var,
İtginlik var, ayrılıq var, ölüm var.

İndisə deməliyəm ki, mərhum ustad Şəhriyardan "Heydərbaba" payamasınnan[1] sizin üçün bir neçə kəlmə oxudum. Yenə dastanımız davam edir, ta görax Koroğlu dübarəsin nə cür deyir, tərəfimnən mən ərz eliyim, siz sağ olasız:

Siz inanın gövhərkana,
Hərəniz dönün əslana.
Basılmayın bəd düşmana,
Qoyun ölən mənim olsun,
Bugünkü bu meydanda.

Alıp dübarəsin:

Koroğluyam, mən əmir ay,
Vardı çıxsın meydana tay.
Davada bilmərəm mən ray,
Əzrayıl bir yanım olsun.
Bu günkü bu meydanda.

Söz təmam olur. Bu yannan Nigar xanım bir dəlilərə baxdı, bir düşmənə baxdı elə bu dəmdə də Koroğlu gəlib özün onlara yetirdi. Gördü Nigarın şadlıxdan gözləri elə dolur ki, elə bil haya bəndidir. Ta Nigar Koroğlunu görmax elə bil bunu deyə bildi ki, "Koroğlu, vur əllərin var olsun, hələ də qocalmamısan. Heş da narahand olma." Nigar xanımın bu sözünnən Koroğlu çox xoşhal olub. Qılıncı saz əvəznə basıp döşünə. Görəx "Qalxozu" havasıynan necə deyir, tərəfimnən mən deyim, siz sağ olasız:

[1] Poemasından

Mərt dayanıp, namərt qaçır,
Meydan gum-gum gumbuldanır.
Dəlilərim meydan açır,
Düşman gum-gum gumbuldanır.

Koroğlunun belə deməyini dəlilər eşidip, daha da zor gəldi düşmana. Alıp dübarə:

Qoç igid bığın buranda,
Çəkip yay-oxun quranda.
Şeşpər qalxana vuranda,
Qalxan gum-gum gumbuldanır.

Koroğlu alıp sözün xətməsin belə deyir. Görəh necə diyəcəh, tərəfimnən mən deyim, sağ olun:

Top açılar qalasından,
Hax saxlasın bəlasından.
Koroğlunun nalasından[1],
Hər yan gum-gum gumbuldanar.

Söz təmam oldu. Koroğlu dəlilərlə birlikdə həmlə elədilər qoşuna. Qoşunu elə həlak elədilər ki, bir təki də sağ qutarmadı. Koroğlu paşanın qoşununa şikəst verip, qoşun dağılmaxda, dəlilər cəm oldu Koroğlunun başına. Amma Koroğlu Qıratın üsdündə istədi dönsün Çənlibelə tərəf Aşıx Cünun dedi:

– Dayan! De görüm, Koroğlu, yenə istiyirsən dəliləri başınnan dağıdasan? İsdisən yenə Koroğluluğu yerə qoyasan, ya isdisən dəlilər qalsın?

Koroğlu bir dayanıp fikrə getmaxda dedi:

---

[1] Naləsindən

– Yox, Cünun, düz deyirsən nə qədir bu yağılar var, paşalar var, xanlar var, mən Koroğluluğu yerə qoyan döyüləm. Koroğluluğ gərəy eliyəm.

– Bəs belə olsa dəlilər sənnən bahəm olmalıdır.

Dəlilər cəm olup Koroğlunun başına, hammısı Aşıx Cünunun bu dəlil-nəsiyyətinə "əhsən, afərin" deyib, amma Aşıx Cünun sazı götürüp "Müxəmməs" havasıyla görəx dastanımıza necə xatəmə verib, mən deyim, sizin hamınızın sağlığınıza:

Qoçaxların, mərd iyidin
El içində söhbəti var.
El içində hürməti var.

Adı bəlli yağıların,
Ürəyində dəvəti olar.
Qoçaxlığ asan dəyilmi?
Candan geçən zəhməti var.

Döyüşdə dağıtmağa,
Hünəri var, qeyrəti var.
Mərd iyid qocalsa da,
Dava günü qeyrəti var.

Başına dərliyim, ana,
Kamallığ oğlan istəyir.
Nərəsi dağlar titrədən,
İstəyli dövran istəyir.

Düşman bağrını yarmağa,
Əsrəmiş əslan istəyir.

Dəlilərin qabağında,
Koroğlu təh can istəyir.

Qılıncının, şeşbərinin,
Hər nə üstə söhbəti var.
Qılıncının, şeşbərinin,
Hər nə üstə söhbəti var.
Eşidən afərin deyir.
Qaradağlı Səttarxandı,
Zalimlərin bağrın yarıb.
Güllləsi işdəyib qana,
Zalımların bağrın yarıb.

Canımı qurban demişəm,
Qaçax Nəbi tək aslana.
Şəhnaz ilə qoşun gəlir,
Bəhramdan gəlir cana.

Qəhrəmanlar gəldi sana,
İgidlər nəslin yarmağa,
Təbiətdən cürəti var.

## CƏNGİ KOROĞLU

Aşiq Məhbub Əbdi və qavalçı Abbas Məhəmmədi.

Ax, yar ey aaay,
Hanı mənim qoç Koroğlum?
Hanı mənim qoç Koroğlum?
Gələ girə bu meydana,
Çəkəndə Misri qılıncı,
Qəbzəsi qana boyana.

Ağrın ayy, ağrın alım,
Paşam, gəl-gəl hey.
Gülüm, gəl-gəl hey.
Ölməmişəm, sağam gəl-gəl,
Aman, aman, ağrın alıııım.

Qavalçı oxuyur:

Qıratı burdan[1] atıla,
Qıratı burdan atıla,
Qıratı burdan atıla,
Müxənnət, ölkən çapıla.
Koroğlu burda tapıla,
Hərə qaça di bir yana! Di bir yana.

---

[1] Buradan

Paşam, gəl-gəl hey,
Gülüm gəl-gəl hey,
Ölməmişəm, varam gəl-gəl.

Bu meydanda təkəm, gəl-gəl heeey,
Koroğlu çəkər haşanı,
Bəylər eylər tamaşanı.
Mən özüm Əslan paşanı,
Hərəmiz bir xan üstünə.
Xan üstünə, xan üstünə, balam, xan üstünə.

## LÜGƏT

**A**

Acur (f) – kərpic
Ahı-fəqan (f) – ah-nalə, fəryad
Amadə (f) – hazır
Amuzeş (f) – öyrədilmə, təlim, dərs
Aşğal (f) – zibil
Aşırma (d) – fişəng qatarı
Atəşnişan (f) – yanğınsöndürən
Ayəndə (f) – gələcək

**B**

Bab (ə) – qapı
Bacü-xərac (f) – qol pulu, zor pulu
Bad (f) – yel, külək
Badı-sərsər (f) – sürətli yel
Bahəm (f) – birlikdə, bərabər
Bal (f) – qanad
Balatər (f) – yuxarılıq, daha yüksək, üstün səviyyədə olan
Barxana (d) – anbar
Basəfa (ə) – səfalı
Baysım (d) – bais, səbəbkar
Baz (f) – açıq
Bazubənd (f) – qolbaq
Be mənayi (f) – mənası, anlamı
Be murur zəman (f) – zamanın keçməsi ilə, vaxt ötdükcə, dövr dəyişdikcə
Bəddixlax (d) – pis niyyətli
Bədəzə (ə+t) – pis iş görən, yaramaz, fəsad gətirən şəxs
Bədrəğ (f) – pis, ikrah doğuran
Bəfərman (f) – fərman vermək
Bəlləndirmək (d) – aydın göstərmək, məlum etmək, tanıtdırmaq

Bəmbəçə (d) – qapaz
Bənd (f) – tutulmaq
Bəndə salmaq (ə) – tora salmaq
Bəndərgah (f) – liman, dəniz və ya çay sahilində gəmilərin dayandığı yer
Bəndivan (f) – tutulmaq
Bepa (f) – dikəltmək
Bəqiyyə (ə) – artıq qalan şey, qalıq
Bərnamə (f) – plan
Beyar (d) – laqeyid
Bəzm ( f) – eyş-işrət məclisi, kef məclisi
Bica (f) – mənasız, yersiz
Bidar (f) – oyaq, xəbərdar
Biləxərə (f) – nəhayət, sonunda
Bir seri (t-i) – bir dəfəlik
Bitab (f) – qüvvətsiz, yorğun
Bolənd (f) – yüksək, uca, hündür səviyyədə olan
Börk (d) – papaq
Bürc (ə) – qalanın çıxıntısı və qülləsi
Bürhan (ə) – dəlil, sübut
Burz (f) – açıq-aydın
Busat (ə) – məclis, şənlik, bayram
Busə (f) – öpüş

**C**

Cəbə (f) – zireh, dəmir
Cədid (ə) – yeni, təzə, əvvəlkindən fərqli olan
Cəhr (ə) – səsini ucaltma, səsini qaldırma
Cələsə (ə) – görüş, iclas, toplantı
Cəngcü (f) – savaşçı
Cəşn (f) – şənlik, bayram
Cida (ə) – uzun nizə
Curləşdirmək (d) – düzəltmək, qurmaq

**Ç**
Çarğət (f) – qadın baş örtüyü
Çəmənzar (f) – yaşıllıq
Çəraviz (f) – hündür və uzun dirək, dayaq
Çəşm (f) – gözüm üstə,başa düşdüm, razıyam

**D**
Dadqahi (f) – məhkəməlik olmaq
Damən (f) – ətək
Daymən (d) – daima, həmişə, hər zaman
Dərayət (ə) – qabiliyyət, özəl bacarıq
Dərbar (f) – padşahın və ya hökmdarın sarayı, məclisi, hökmranlıq yeri
Dərəcə yek (f) – birinci dərəcəli
Dərgir (f) – dalaşan, çəkişən, mübahisəyə qarışan
Dərxanə (f) – evdə (padişahın xüsusi otağı)
Dərxast (f) – xahiş, ərizə, müraciət
Dəryayi qoşun (f+t) – qoşun dənizi, qoşun yığını
Dəsbe sine (f) – əlləri döşündə
Dəsgir etmək (f) – saxlamaq, tutmaq
Dəst (f) – əl
Dəst-i pəncə (f) – əl-barmaq
Dəstur (f) – buyuruq, fərman
Deyn (ə) – borc, öhdəlik
Didə (f) – göz
Difa (ə) – müdafiə,
Dildarlıq (f) – ürək-dirək vermək, mənəvi dayaq
Dirəxşan (f) – parıldayan, işıq saçan
Do püstan (f) – iki sinə
Dübarə (f) – yenidən, ikinci dəfə
Dustani əziz (f+ə) əziz dostlar

**Ə**

Əccal (ə) – əvvəl, başlanğıcda, ilk vaxtlarda
Əcrü padaş (f) – ödül, mükafat
Əğəllən (ə) – ən azı, heç olmasa
Əksüləməl (ə) – əks təsir, əmələ qarşı olan, tərs hərəkət edən,
Əlan (ə) – indi, hazırda, bu anda, hal-hazırda
Əlbəəl (d) – dərhal, yubandırmadan
Ələlgəlləngə (d) – tükü tökülmüş, arıq
Əmud (ə) – polad toppuz
Əndazə (f) – ölçü
Ənnənmək (f) – şikayət etmək, mızmızlanmaq
Ərbab (ə) – yiyə, sahib
Ərşi-əsman (ə) – uca göy, səmanın ən yüksək qatları
Ərziş (ə) – dəyər, qiymət, əhəmiyyət
Əsləhə (ə) silah-sursat, silah
Əta (ə) – pay, verilən şey, hədiyyə, bağışlama

**E**

Ehsan (ə) – yaxşılıq etmək, xeyirxahlıq

**F**

Faş (ə) – üstü açılmaq, ortaya çıxmaq
Fəhm (ə) – anlayış, idrak
Fənd-fel (f+ə) – hiylə, üsul
Fəqan (ə) – fəryad, nalə
Fəraq (ə) – ayrılıq, hicran
Fərmandeh (f) – əmr verən, rəhbər, komandan
Fərmayiş (f) – buyruq, əmr, göstəriş,
Fərraş (ə) – xidmətçi
Fərzən (ə) – varsayım, fərz, təxmin
Firiş (f) – mələk
Fişar (f) – basqı, təzyiq
Fori (d) – dərhal

**G**

Gərdun (f) – gəzən, dolanan
Gərdən (f) – boyun
Gəşt (f) – gəzişmə, gəzinti
Gəşti-cahan (f) – dünyanı gəzən.
Girdə qalmaq (d) – məcazi mənada çətin, çıxılmaz vəziyyətə düşmək, ilişmək, tora düşmüş
Giriftar (f) – məftun, vurğun
Göyül (d) – könül, qəlb

**H**

Haşa (ə) –iraq olsun
Havar (d) – qışqırıq, səs-küy, hay-küylü səslər
Havar etmək (d) – qışqırmaq
Hədd-əqəl (ə) – ən azı, ağıla, məntiqə uyğun hədd, ağlın sərhədi
Həftad (f) – yetmiş
Həmrah (f) – yoldaş, yolbir
Hətmən (ə) sözsüz-şübhəsiz,
Həzar etmək (f) – səy göstərmək, çalışmaq
Hicab (ə) – utanmaq
Hücumavər (ə+f) – hücum edən, hücuma başlayan
Hünərmənd (f) – bacarıqlı, peşəkar, sənət sahibi olan

**X**

Xab (f) – yuxu
Xaki (f) – torpaq
Xaliq (ə) – Xəlq edən, Yaradan
Xanəvadə (f) – ailə, ev xalqı, bir evdə yaşayan ailə üzvləri
Xaneyi-üzəngi (f) – üzənginin halqası
Xaneyi-zində (f) – yəhərin oturacağı
Xislət (ə) – təbiyyət, xüsusiyyət, xarakter

Xiyaban (f) – küçə, yol
Xob (f) – yaxşı
Xoşhal (f) – şad, şən
Xotkar (f) – hökmdar, başçı
Xub (f) – yaxşı
Xurdü xürək (f) – yemək

**İ**
İdamə (ə) – davam
İllət (ə) – səbəb, əsas, amil
İltimas (ə) – xahiş
İntixab (ə) – seçmə, seçilmə
İstəbl (ə) – tövlə
İştibah (ə) – səhv, yanlış
İşvə (ə) – naz, qəmzə
İxtilaf (ə) – fərqli, anlaşılmazlıq
İzafə (ə) – əlavə

**K**
Kamandar (f) – ox atan
Kar (f) – iş
Kargər (f) – işçi, fəhlə
Kəbir (ə) – böyük
Kəc (f) – əyri
Keşavərz (f) – əkinçi, torpaqla məşğul olan adam
Küdurət (ə) – kin, nifrət
Küllən (f) – tamamilə, bütövlükdə, hamısı; dəci, hərtərəfli
Küşdü tutumaq (f+t) – güləşmək
Küştə (f) – öldürülmüş, qətlə yetirilmiş, məhv edilmiş
Küştigir (f) – güləşən, güləşçi
Kütah (f) – qısa, gödək

**Q**

Qarqu (d) – qamışdan düzəlmiş bir növ silah
Qəbləzin (ə+f) – öncədən, bundan öncə
Qəbzeyi şəmşir (f) – qılınc qulpu, tutacağı
Qəcəl (d) – yamac, üzü yuxarı ərazi
Qəcir (d) – çoxbilmiş
Qədd açmaq (ə+t) – boy atmaq
Qəmə (ə) – kiçik xəncər
Qəmnak (f) – qəmli
Qət oldu (ə) – kəsildi, sona çatdı, bitdi
Qəvi (ə) – güclü, qüvvətli, möhkəm
Qeyz (ə) – öfkə, qəzəb
Qəza (d) – yemək, qida
Qırna (t) – krant
Qovul (d) – söz vermək, vəd vermək
Qubar (ə) – toz
Qulan (d) – at balası

**L**

Laəqəl (ə) – ən azı
Ləbeyi-tiğ (f) – ülgücün kənarı, iti hissəsi
Ləşgər (f) – ordu, qoşun
Libas (f) – paltar, geyim
Livan (ə) – stəkan, bardaq
Lov (ə) – danışıq dilində bəla, afət
Lov vermək (ə+t) – birisini satmaq, gizlisini aşkara çıxarmaq, kimsənin sirrini açmaq

**M**

Mayıf (ə) – zəif, halsız, qüvvəsiz, kövrək
Məğrib (ə) – Qərb, gün batan

Məhmil-kecavə (ə) – dəvə və ya fil belinə qoyulan, üstünə minmək və ya yük daşımaq üçün hazırlanmış taxta və ya parça örtüklü oturacaq
Məlul-müşkül (ə) – dərdli-qəmli, narahat
Məntəqə (ə) – bölgə, hüdud, ərazi, sahə
Mənzur (ə) – Amac, nəzərdə tutulan, məqsəd qoyulan, planlanmış
Mərbut (ə) – əlaqədar
Mərdum (f) – adam
Məriz (ə) – xəstə, naxoş
Mərkəb (ə) – minik
Mərtə (ə) – otlaq, əkilməyən sahə
Mərz (ə) – sərhəd, limit, hüdud, sınır
Məşriq (ə) – Şərq, gün doğan, günəşin doğduğu tərəf
Məzərət (ə) – bağışlama, üzr, rəhmət
Mislü manənd (ə+f) – bənzər, oxşar
Mövc (ə) – dalğa
Muamiləgərlik (f) – alış-veriş
Müntaha (ə) – son, axır, hədd, çatılacaq son nöqtə
Muntəha (ə) – son, ən yüksək nöqtə, hüdud, zirvə
Müntəzir (ə) – gözləyən
Müqəssir (ə) – təqsirkar, suçlu
Müqqəyyəd olmaq (ə) – qaydalar, sərhədlər və müəyyən şərtlərlə məhdudlaşdırılmaq
Musadif (ə) – təsadüfən olan, rast gələn, uyğun gələn, üst-üstə düşən
Müşəxxəs (ə) – Aydın, bəlli, seçilmiş
Mustəqimən (ə) – düz
Müxənnəs (ə) – alçaq, namərd, qorxaq

**N**

Namə (f) – məktub
Nan (d) – çörək

Naqafil (ə) – qafil olmayan
Nar (ə) – od, atəş
Nəmənə (d) – nə, necə mənasında işlədilir
Nəqqaş (ə) – naxış vuran
Nərm etmək (f+t) – yumşaltmaq, incəltmək
Nəvazən (f) – 1) oxşayan, mehriban, 2) çalğıçı
Nəxşə (ə) – yerkib, xəritə
Nimtənə (f) – köynək
Nisar (ə) – səpmə, tökmə
Nivişte (f) – yazı, yazılmış şey
Niyzəpərtabe (f) – niyzə atmaq, niyizə vuran

**O**

Osaf (ə) – vəsf

**Ö**

Ögəc (d) – 3-4 yaşında erkək toğlu

**P**

Pər (f) – qanad
Pərvaz (f) – uçmaq
Pərvəriş tapmaq (f) – becərtmək, böyümək, inkişaf etmək, himayə altında olmaq
Pəsəndidə (f) – bəyənilən, xoş görünən, uyğun, məqbul
Pəziralıq (f) – qəbul etmək, xidmət etmək, kimsənin qulluğunda durmaq
Piruz (f) – qələbə, uğur, şadlıq, müvəffəqiyyət
Pişvaz (f) – qarşılayan, qarşısına çıxan
Por (f) – tam, dolu, dolğun
Pünhan (f) – gizli, görünməz
Pünhan (f) 0 gizli, xəlvəti
Pust (t) – dəri, çöl qatı

Püstan (f) – sinə, döş
Püştə (f) – arxa

**R**
Rəhnəma (f) – yol göstərən, rəhbər
Rəvayət əz ustad (ə+f+t) –ustadın dediyinə görə
Rəxd (f) – paltar
Rəzə (d) – taxta qapıların üstündəki kiçik dəmir, çəftə
Rəzməndəqan (f) – vetiran, əsgərlər, hərbi qüvvələr, qoşun üzvləri
Rikab (ə) – üzəngi
Rizə-rizə (f) – xırda-xıda, tikə-tikə
Rubəru (f) – üzbəüz, qarşı-qarşıya, üz-üzə, qanşar
Rusəri (f) – qadın baş örtüyü, leçək
Rusumatı aşıxlıx (ə) – aşıqlığın adət-ənənəsi
Ruzhayi-comə (f) – cümə günləri

**S**
Sağır (ə+d) – bud ilə dizin arası
Saqi (ə) – şərab paylayan, qədəhlərə şərab tökən
Sar (f) – dəvə
Saxtuman (f) – yaşayış yeri, bina
Sayə (f) – kölgə
Sazmandehi eyləmək (f+t) – yoluna salmaq, nizama salmaq
Səfil (ə) – avara
Səlati-zohr (ə) – günorta namazı
Sərbala (f) – üzü yuxarı yol
Sərbaz (ə) – əsgər
Sərgərdan (f) – avara
Sərpayin (f) – üzü aşağı yol
Sərşinas (f) – baş bilən
Seri (i) – ardıcıl, bir-birinin ardınca gələn sıra
Sibil (f) – bığ

Silsileye mərateb (f) – böyükdən kiçiyə
Sinəxiz (f) – sürünmək
Sübhanə (ə) – səhər yeməyi, ertəlik

**Ş**
Şahbaz (f) – tərlan, şahin
Şəbi-zülmət (f+ə) – qaranlıq gecə
Şəmşirzən (f) – qılınc vuran
Şeşdong (f) – tam hissə, altı hissədən ibarət
Şeşpər (f) – altıdilli toppuz (qədim silah)
Şikar (f) – ov
Şinəvəndə (f) – dinləyici, eşidən, qulaq verən şəxs
Şureş (f) – qiyam, üsyan, baş qaldırma, ayaqlanmaq
Şuru (f) – başlamaq

**T**
Tar etmək (f) – günün qara etmək
Təğaza (ə) – ərizə, rica, xahiş
Təhiyyə (ə) tədarük
Təhiyyət (ə) – salam vermək, hörmətlə qarşılamaq
Tənaf (ə) – ip
Təsmim (ə) – niyyət, qərar
Təşnə (f) – susamış, susuz
Təvəssut (ə) – vasitəçilik, araya girmək
Teyləmək (ə+t) – yol yaxud məsafəni kəsmək
Təzim (ə) – baş əymək, ehtiram etmək
Tifaqar (ə) – ittifaq, birlik
Tirahən (f) – dəmir sütun
Tohin (ə) – qınama, tənbeh, təhqir, aşağılama
Tozih (ə) – açıqlama, izah, şərh
Tul vermək (ə+t) – uzatmaq
Tünüzləmək (d) – atmaq, tullamaq

**Ü**
Üqaba (ə) – axirət
Üryan-türyan (t) – çılpaq, lüt

**V**
Varid olmaq (ə) – daxil olmaq, girmək
Vəli (f) – ancaq, amma
Vəsayil (ə) – vasitələr, alətlər, vasitəçilik vasitələri
Vəsət (ə) – orta, ara
Vəz (ə) – əhval, durum

**Z**
Zəbanə çəkmək (f+t) – alovlanmaq
Zəbir (f) – sıxıntı
Zəcr (ə) – əzab-əziyyət
Zərd (f) – sarı
Zimistan (f) – qış fəsli
Zin (f) – yəhər
Zinəxdan (f) – çənə çuxuru
Zirdəst (f) – qulluq edən, birinin əli altında çalışan
Zülf (f) – saç

# MÜNDƏRİCAT

Ön söz ........................................................................... 3
Ali kişinin Təbriz səfəri ................................................... 23
Koroğlunun İstanbul səfəri
(Nigar xanımın Çənlibelə gətirilməsi) ................................ 70
Koroğlunun Dağıstan səfəri
(Möminə xanımın Çənlibelə gətirilməsi) ............................ 109
Koroğlunun Türkmən səfəri (1) ......................................... 168
Koroğlunun Türkmən səfəri (2) ......................................... 175
Koroğlunun Mehtər, yaxud Bolu qolu ................................ 245
Giziroğlu Mustafa bəy ...................................................... 338
Koroğlunun qocalığı ......................................................... 346
Cəngi Koroğlu ................................................................. 385
Lüğət ............................................................................. 387

***Güney Azərbaycan folkloru,***
***XVIII kitab.*** *Bakı, Elm və təhsil, 2025*

*Nəşriyyat direktoru:*
**Ülya Məmmədli**

*Nəşriyyat redaktoru:*
**Vüsal Abiyev**

*Kompüterdə yığan:*
**Səbuhi Bədəlov**

*Kompüter tərtibçisi və texniki redaktor:*
**Lalə İlyasova**

*Korrektor:*
**Gülmira Mehdiyeva**

*Dizayner:*
**Ləman Abdulxalıqova**

*Kağız formatı: 60/84 1/32*
*Mətbəə kağızı: №1*
*Tirajı: 150*

*Kitab Azərbaycan MEA Folklor İnstitutunun*
*Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,*
*"Elm və təhsil" NPM-də ofset üsulu ilə*
*hazır deapozitivlərdən çap olunmuşdur.*